# PİŞAVƏR GECƏLƏRİ

# I

SEYİD MƏHƏMMƏD MUSƏVİ ŞİRAZİ
SULTAN-VAİZİN

| | |
|---|---|
| Kitabın adı: | Pişavər gecələri |
| Müəllif: | Seyid Məhəmməd Musəvi Şirazi |
| Tərcümə edən: | Beytul-Hikmət TM |
| Naşir: | Şəhriyar |
| Çap tarixi: | 2006 |
| Çap növbəsi: | Birinci |
| Tiraj: | 3000 |
| İSBN | 964-5934-92-3 |

# BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

# ÖN SÖZ[1]

***Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur, Allahın salamı olsun peyğəmbərlərin sonuncusu, nəbi və əmin olan  həzrət Məhəmməd (s.), tahir olan Əhli-beytinə (s) və xüsusilə də əmisi oğlu və vəsisi Əminəl-möminin Həzrət Əliyə (ə).***

Burada Allahın verdiyi tovfiqi, Peyğəmbər (s) ailəsinin (ə) xüsusi diqqəti və elm və ədəb sahiblərinin istəyi sayəsində bu dəyərli kitabın IV nəşrinin də sona çatdığı üçün dəyərli oxuculara bu dörd önəmli xüsusi xatırlatmaq istəyirəm:

1. Batil əhlinin etdiyi pisliklərdən biri də alimlərin kİtablarına xəyanət əlini uzatmaları, söylədiklərini təhrif və bəzi bölümlərini məhv etmələridir.

Təəssüflər olsun ki, bu pis iş Misir və digər ölkələrdəki əhli-sünnət mətbəələrində açıq-aydın görülmədədir. Onlar bir çox təhriflər və bəzi mövzuları məhv etməklə, əslində, bilavasitə öz yazıçısı və alimlərinin ruhunu incidirlər. Bəzi ifratçı alimlərin fikir və nəzərlərinin əsiri olan mürtəcilərin bu cür çirkin üsullara əl atmaqla haqq və həqiqətin ortadan qaldırılmayacağından qəflət etmələri, doğurdan da, təəssüfdoğurucudur.

Halbuki, Allah-təala bilavasitə haqqı qorumağı Öz qüdrət və iradəsi altına almışdır. Ön sözdə bir o qədər izah verməyə yer olmadığı üçün və məsələni isbatedici bir misal olsun deyə, sadəcə bir məsələyə işarə etmək istəyirəm:

Hicri-qəməri tarixi ilə 1319-cu ildə Misirdə Şeyx Mustafa əl-Babi əl-Hələbi və qardaşlarının göstərişi ilə «Əl-Kubraye-Əmriyyə» mətbəəsində ikinci dəfə nəşr olunan «Təfsiri-Kəşşaf»ın 3-cü cildinin 301-ci səhifəsində Carullah Zəməxşərinin söylədiyi şer[2] və bəyan etdiyi əqilə açıq-aydın bir şəkildə qeyd edilmişdir. Lakin təəssüflər olsun ki, Hicri-qəməri tarixi ilə 1373-cü ildə Qahirədə – «Əl-İstiqamə» mətbəəsində çap edilən kitabın yeni nəşrində söylənilən şerlər çıxarılmışdır. Əlbəttə, bu, əhli-sünnət qardaşların etdiyi bu cür hərəkətlərindən sadəcə bir

---

[1] Bu ön sözü mərhum müəllif sağlığında ktabın dördüncü nəşri üçün yazmışdır. Biz burada dörüncü nəşr üçün yazılmış ön sözə ikinci və üçüncü nəşr üçün yazdığı ön sözləri xülasə edərək əlavə edirik.

[2] Şerlərin hamısı bu kitabda dəlil olaraq gətirilmişdir.

misaldır. Daha doğrusu, bizim kitabın mətnində işarə etdiyimiz bəzən qaynaqlar və məlumatlar əgər yeni kitabların yeni nəşrlərində görülməzsə, səbəbi, haqqında söhbət açdığımız təhriflərdir. Yerdə qalanını isə, özünüz müqayisə edin.

2. Kitabın nəşri və mətbəənin göstərdiyi bütün diqqət və səylərə baxmayaraq, təəssüflər olsun ki, kitab çap olunduqdan sonra yenə də bir qrup xətalar araşdırılıb-tapılmış, mümkün olduğu qədər bu xətaların aradan aparılması üçün cəhd göstərilmişdir.

3. Pakistan, Bağdad və Küveytdən bəzi dostlar bu kitabın öz dillərinə tərcümə edilməsi xüsusunda icazə istəmişdilər. Mən də burada, «Pişavər gecələri» və «Səd məqalə» («Yüz məqalə») kitablarının tərcümə edilə biləcəyinə əmin olduğum üçün izn verdiyimi qeyd etmək istərdim. Sadəcə, mütərcimlərin bu kitabları kəlmə-kəlmə tərcümə etmələrini, heç bir təhrifə yol verməmələrini və məna baxımından bütünlüklə tərcümə etmələrini istəyirəm.

4. Əvvəl də söylədiyim kimi, bu kitabın nəşrini ticarət, mənfəət məqsədilə etmirəm. Bu mövzuda heç bir umacağım yoxdur, heç kəsdən də maddi və mənəvi yardım almamışam. Dediklərimə bilavasitə kitab satışı ilə məşğul olan müəssisələr də şahiddir. Məqsədim, sadəcə vilayət maarifinin təbliğidir, nəinki maddi mənfəət. Lakin buna baxmayaraq, bəziləri bu kitaba böyük bir maraq olmasından sui-istifadə edərək, satış qiymətini artırırlar. Bu səbəbdən, dindar kitab evlərinə xəbərdarlıq edirəm: Bu iş vilayət məqamına xəyanət və pis bir işdir! Mən bundan razı deyiləm; müəllifin razılığı olmadığı üçün Allah, Peyğəmbər (s) və vilayət məqamının Sahibi (ə) də bu pis əməldən razı olmayacaqdır![1]

Bu kitabı sadəcə vilayətin həqiqətləri və imamət məqamının gözəlliklərini aşkara çıxarmaq və düşmənlərin illərcə əhli-sünnət qardaşların zehnində icad etdikləri batil şübhə və ilqaları ortadan qaldırmaq üçün yayılmasını istəyirəm. Zəhmətimin hədər getməyəcəyinə ümid bəsləyirəm. Çünki Allah-təala Qurani-Kərimin «Ali-İmran» surəsinin 195-ci ayəsində belə buyurur:

*«Şübhəsiz, Mən, istər kişi olsun istərsə də qadın, heç bir əməl sahibinin əməlini zay etmərəm».*

---

[1] IV nəşrin sonu.

Vilayət nurlarını zahir edən bu kitab dost, düşmən və bütün müsəlmanların marağına səbəb olmuşdur.

Əlbəttə, bu kitab (ilk dəfə) çap olduqda hər tərəfdən hücuma, təzyiqə məruz qala bilərik. Çünki bizdən əvvəlkilər də bu cür təzyiqlərə məruz qalmışlar. Hesab edirəm ki, dardüşüncəli və inadkar insanların bizi də qınayacağı, etiraz edəcəkləri əvvəlcədən məlumdur. Müəyyən təzyiqlərə məruz qalacağımız böyük ehtimaldır[1].

Bəzi alimlər (fars dilində olan) bu kitabın uca anlamına, zahiri ibarələrinə etirazlarını bildirərək, nə səbəbdən bu kitabın ədəbi incəliklər, uca fəlsəfi və elmi anlamlarla həmahəng olmadığını ifadə edə bilərlər.

Əvvəlcədən də bəyan etdiyim kimi, ömrüm boyu etdiyim işlər öz təşəbbüsümlə olmuşdur, əsla, göstərişlərə baxmamışam. Həqiqi mənada yaradılmış aləminin kiçik bir zərrəsi olduğum üçün öz düşüncəmlə hərəkət etmişəm. Bundan əlavə, fikrimcə, natiqlər və yazarlar, eləcə də rəsmi elmi məclislərə qatılan alimlər adi xalq üçün danışmalı və yazmalıdır. Şübhəsiz, bu cür mövzularda elm və fəlsəfə alimləri bir çox kitablar yazmışlar. Alimlər üçün bu cür yazıları qələmə almaq, əbəs və nöqsandır. Adi xalqa elmi və fəlsəfi mövzuları yazmaq və ya bəyan etmək, bütünlüklə, səhv, faydasız iş və ömrü hədər etmək deməkdir. Uca mövzular olduqca sadə bir bəyanla ifadə edilməlidir.

Bundan əlavə deməliyəm ki, mən bu kitabı elmi və zehni gücümlə gözəl bir kitab yazmaq məqsədilə də qələmə almamışam; hökmlərdə müsəlmanları aldadanların hiylələrinə, tələlərinə düşməmələri üçün sadə bir dildə ifadə edərək, mətbuatda da yer alan bu uca mövzuları ölkə müsəlmanlarına təqdim etmək istədim.

Bu kitab sürətlə yaza bilən Hindistanlı mətbuat müxbirlərinin hüzurunda bir neçə əhli-sünnət alimiylə etdiyim bəhslərdən ibarətdir. Burada bəhs olunan mövzular ilk öncə mətbuat işçiləri tərəfindən qələmə alınaraq, qəzet və jurnallarda dərc olunmuşdur (şəkil 1). Daha sonra mən bu məqalələri toplayaraq, kitab şəklinə salmışam.

---

[1] Bu kitab 1997-ci ilə qədər fars dilində (hələ başqa dillərdə demirəm) İranda 37 dəfə çap olunmuşdur.

Hər nə qədər mümkünsə, dəlil və məntiqlə söylənmiş, düşmənin fitnə salmasına yol aça biləcək cümlələr nəql edilməmiş, qaynaq və mənbələr, həmçinin ifadələr gözdən keçirilərək, sağlam şəkildə oxuyuculara təqdim edilmişdir.

Elm, fəzilət və ədəb əhli olan şəxslərin bu kitaba sadə və təmiz bir niyyətlə yanaşacağına ümid edirəm. Müşahidə etdikləri səhvlərə görə əfv etmələrini və bu iradları bizlərə bildirmələrini istəyirəm. Nəzərə alınmalıdır ki, insan unutqandır, məsum peyğəmbərlər və dəyərli vəsilərdən başqa heç kəs unutqanlıqdan uzaq deyildir.

Bəziləri bu kitabda yazılanların yeni bir şey olmadığını, 1300 il söylənilənlərin təkrarından ibarət olduğunu ifadə edə bilərlər. Buna cavab olaraq demək olar ki, dini mövzular kimi deyildir; zaman axınında itməz və yenidən kəşf edilməzlər. Qurani-kərim, mötəbər hədislər və tarixi həqiqətlər, əsla, dəyişməzlər! Əlbəttə, hər kəs sahib olduğu inancın mənbələrindən faydalanır. Mən də Qurani-kərim, mötəbər hədislər, tarixi həqiqətlər və elm əhlinin dəyərli araşdırmalarından istifadə edərək, faydalanmışam.

Bəzi sadə şəxslərin fikrincə bu cür kitablar fitnə və ayrılığa səbəb olur. Buna görə də, yazılmamasının lüzumlu olduğu iddiasını irəli sürürlər. Buna da cavab olaraq söyləmək olar ki, biz də dini təqvaya sahibik. Elm, əntiq və ədəbdən kənarlaşaraq qələm sahiblərinin iftiralar yazması qəbahətli, səhv bir iş və qəbulu da mümkünsüzdür.

Əlbəttə, biz bəziləri narahat olmasın deyə, elmi və məntiqi bəhsləri bir kənara qoyub, irəli sürülən ittiham və iftiralara qarşı susmağı da doğru bilmirik. Bunun şiə aləminə böyük bir zərər verəcəyi qənaətindəyik.

Çünki tarixdə müşahidə olunduğu kimi, biz nə qədər susmağa üstünlük verərək həqiqətləri dilə gətirməmişiksə, bəzi kəslər də bir o qədər cəsarətlənərək elm, ədəb, din və mədəniyyəti bir kənara qoymuş, xəyanətkar dil və qələmləri ilə şiə müsəlmanlarını təhqir etmişlər. Onlarla hər nə qədər dost olduqsa da, düşüncələrini, şəriətdən kənar davranışlarını bəzi yazarlarının müqəddəslərimizə qarşı etdikləri küfr, təkfir və iftiralarını görməməzliyə qoyduqsa belə, yenə də

onlar zərrə qədər də dəyişmədilər, hətta daha da arsızlaşdılar. Fürsət tapdıqca hücuma keçərək, xalqa bizləri kafir və müşrik kimi tanıtdırdılar.

Bütün bunlara baxmayaraq, dostluq və nəzakət kölgəsinə sığınıb cavab verməmək insanın vəzifəsini yerinə yetirməmək mənasındadır. Elə başa düşülməsin ki, ən müsəlmanlar arasında fitnə yaratmaq istəyirəm. Mən Quran ayələri, Peyğəmbərin (s) əmrləri və məsum Əhli-beytin (ə) tövsiyələri baxımından müsəlmanların birlik və bərabərliyini istəyirəm. Çünki İslam ümmətinin səadəti, əzəməti müsəlmanların birliyindədir. Əlbəttə, sözügedən birliyin reallaşması, müsəlmanlar arasında dostluq və qardaşlıq münasibətlərinin təmin olunması üçün hər iki tərəfin buna riayət etməsi lazımdır. Birlik və bərabərlik üçün həqiqətlərə göz yummaq və anlaşılmamazlıqlara qarşı səssiz dayanmaq, susmaz olmaz; bu cür görməməzlik bizim əleyhimizə tamamlanır.

Mən, heç şubhəsiz, əhli-sünnət qardaşlar ilə dostluq və səmimiyyət münasibətlərinin, eləcə də İslam firqələri arasında gözəl əlaqələrin qurulması və anlayışın hakim olmasını istəyirəm. İslam və müsəlmanların islahı bundadır. Lakin əhli-sünnət qardaş və alimləri də bu dostluğa inanmalı, birlik və bərabərlik üçün hərəkət etməlidirlər. Əks təqdirdə, birtərəfli dostluq davamlı və uzun müddətli olmayacaqdır, bu birtərəfli dostluq riya səbəbiylədir. Hər zaman, xüsusilə də günümüzdə bəzi həyasız yazarlar, sünni adı altında bir qrup kitab və məqalələr qələmə almış, inanclarımıza hücum etmiş və insanları bu mövzuda aldatmağa çalışmışlar. Maraqlısı da budur ki, bütün bu söyüş, xəyanət və iftiralara baxmayaraq, özlərini haqq sahibi görürlər. Onlara qarşı şiələrdən biri öz haqqlarını qorumaq məqsədilə cavab verməyə mübarizəyə qalxdıqda isə, ona hücum edərək, iftira və yalanlarla ləkələməyə çalışırlar. Halbuki söyüş acizlərin işidir! Onlar buna riayət edərkən, şübhəsiz, biz də susur və xətalarını görməməzliyə vururuq. Əhməd Əmin, Qasim, Məhəmməd Sabit, Kürd Əli və Musa Cərullah kimi şiə məzhəbinin müqəddəslərinə hücum edən kəslər Misirdəki «Əl-Əzhər» Universiteti, Dəməşq, Bağdad və digər yerlərdəki elmi mərkəzlər tərəfindən rədd edilir. Əslində, yandırılması zəruri olan kitab və məqalələr dərc olunmazsa, biz də böyük bir

dostluq şəraitində onlara qardaşlıq əlimizi uzadar, aradan gedən əzəmətimizi yenidən qazanmaq üçün böyük bir vəhdət əldə edə bilərik.

Lakin həyasız yazarlar və gizli əllər davalı şəkildə özlərini sünni olaraq tanıtdırır, bu birlik və səmimiyyətin bərpa olunmasına mane olur, öz zəhərli qələmləriylə müsəlmanların qəlbinə nifaq toxumları səpirlər. Bizə qarşı edilən bu qədər küfr, təkfir və xəyanətlər müqabilində susmağımız və cavab verməməyimiz necə tələb oluna bilər?!

İnsanlar arasında təxribat salanların pis bir əməl sahibi olduğunu söyləyənlər cılız yazarların məqalə və kitablarına baxmayıblarmı? Əgər bir anlıq belə bu məqalə və kitablara nəzər yetirsələr, bu satılmış qələm sahiblərinin, təxribatçıların, əslində, kim olduğunu açıq-aydın müşahidə edə bilərlər.

Son zamanlarda yazılan şiə kitablarına baxsanız, yazılanların yalnız özünümüdafiə xarakterli mövzular olduğunu aydın şəkildə görə bilərsiniz. Heç bir ağıl sahibi bu qədər iftira və küfrlər qarşısında səssiz qalmağı tövsiyə etməz. Mən də təbliğ məqamına gəldiyim andan etibarən İslam müqəddəslərini müdafiə etməyə və düşmənlərin hər növ hücumlarına qarşı mübarizə aparmağa çalışdım. Çünki xurafat və nəfsani arzularla mübarizənin çox çətin olduğunu bilirəm. Adətlər ilə aparılan mübarizə düşmənçilik yaradır. Bu səbəbdən böyük hidayətçilər azğın ümmətləri ifrat və təfritdən qorumağa çalışdıqda, davamlı olaraq cahillərin hücum və təzyiqlərinə məruz qalmış və müxalif qüvvələrlə qarşılaşmışlar.

Peyğəmbərlərin və dəyərli vəsilərinin həyatları, insanın ağlını heyrətə gətirəcək düşmənçiliklərlə doludur. Onların düşmənləri hər cür Çirkin davranışlara, iftiralara əl atmışlar. Biz də peyğəmbərlərin ardıcıllarıyıq. Bu səbəbdən şiddətli hücumlara məruz qalacağımız əvvəlcədən bəllidir. Hər cür çətinliklər qarşısında səbir etməliyik ki, tabe olduğumuz ilahi insanlar ilə məşhur ola bilib, böyük bir savaba nail olaq, inşallah.

Allaha şükrlər olsun ki, indiyə qədər bu yolda böyük fədakarlıqlar göstərdim. Daxili və xarici düşmənlər mənə qarşı çıxaraq, bir çox iftiralara əl atdılar, töhmət vurdular, müxtəlif yollarla məni təhdit etdilər. Mən isə, bu hücumlar qarşısında özümü müdafiə də etmədim. Bu mövzuda səbir etdim, məcbur qaldım, imanım

daha da artdı. Davamlı olaraq böyük dini şəxsiyyətlərin tarixini, həyatını göz önümdə canlandırdım və yeganə hökmün Allahın hökmü olduğunu söylədim.

***Ayrıla bilmərəm haqqın hökmlərindən,***
***Ensə də başıma qılıncı düşmənin!***

Bütün bu iftira və yalanlara qarşı məni qoruyan, insanlar arasındakı məhəbbət və hörmətimi artıran Allaha şükrlər olsun həqiqətən də, kim Allah üçün olarsa, Allah da onun üçün olar. İnsanlar heç bir zaman haqq və həqiqəti ortadan qaldıra bilməz!

***O zaman yəhudilər onlara yalan və iftira atdılar***
***O, pakizə İsa ibn Məryəmə.***
***Mən kiməm ki, bu dünyada mənə yalan qoşmasınlar?***
***Nə günəşəm, nə də ki, ayam.***

Həzrət İsanın (ə) əziz anası həzrət Məryəmi (ə.s) zina etməkdə, onlarla peyğəmbərləri sehrbazlıq və divanəlikdə (ruhi xəstəlik) ittiham etdilər. Onlar bütün bunlara baxmayaraq süsləşmədilər, ümidsizliyə qapılmadılar və nəticədə, həyatları bizlər üçün ibrət dərsi oldu. Beləliklə, bizim də iftira və küfr qarşısından qaçmamağımızı, inanclarımızda daha da sabit və güclü olmağımızı təmin etdilər.

Din düşmənlərinin bütün bu çirkin səylərinə baxmayaraq, böyük dini şəxsiyyətlərin adına ləkə gətirə və onların məhəbbətini xalqın qəlibindən çıxara bilmədilər. Müaviyə kimi bir insan bütün var gücüylə imam Əmirəl-möminin həzrət Əlinin (ə) adını pisə çıxarmaq məqsədilə hansı iftiralara əl atmazdı? Həzrət Əlinin (ə) namaz qılmadığını, məqam düşkünü olduğunu, Mədinədə fitnə saldığını, Osmanın qətlinə səbəbkar olduğunu iddia etdi. İnsanları imam Əliyə (ə) lənət etməyə təşviq etdi. 80 il ərzində ardıcıl olaraq minbərlərdə həzrət Əliyə (ə) lənət edildi. Xaricilər və nasibilər bu çirkin əməli günümüzə qədər də davam etdirirlər. Onlar hər nə qədər imam Əlinin (ə) adını pisləməyə çalışdılarsa da, bunun tam əksi

gerçəkləşdi. Öz adları tarixdən silindi və tarixdə sadəcə nifrət edilən adlar qaldı. Haqq və batilin göstəricisi də budur!

***Batil az bir müddət gəzər, durar,***
***Haqq isə sabit və qalıcıdır.***

Belə ki, hal-hazırda Şama gedənlər böyük bir təəccüb hissi keçirirlər. Çünki Şam əhli onları o qədər sevdikləri halda, Üməyyə oğullarından heç birinin qəbri belə qalmamış, bütün izləri silinib getmişdir. Lakin həzrət Əli (ə) və övladlarının (ə) qəbirləri hər yerdə günəş kimi parlayır. Onların mübarək məzarları dünyanın dörd tərəfindən gələn insanların ziyarətgahına çevrilmişdir. Hətta Şamda belə Müaviyədən əsər olmadığı bir halda, Haşim oğullarının qəbirləri, xüsusilə də Haşim, Səkinə, Fatimə, Əbdullah, Cəfəri-Təyyar və hətta Bilali-Həbəşinin (Allahın salamı olsun onlara) məzarı belə bütün əzəmətiylə qalır. Xüsusilə də, Şamın bir fərsəx uzaqlığındakı həzrət Zeynəbin (ə.s) məzarı hər kəsin axın etdiyi bir ziyarətgah halına çevrilmişdir. Əməvi məscidinin yanında isə, imam Hüseynin (ə) qızı Rüqəyyənin (ə.s) məzarı vardır. Deyilənlərə görə, Rüqəyyə (ə.s) əsirlik anında Şam xarabasında dünyadan köçdü və elə orada da dəfn olundu. Oradan keçən şiə və sünni hər bir müsəlman o həzrətə sevgi və ehtiram göstərir, Peyğəmbərin (s) nəvəsi olan Rüqəyyənin (ə.s) əzəmətli ruhuna təvəssül edirlər.

Hal-hazırda da o qövmün ardıcılları bütün bunlardan ibrət almaq əvəzinə, əcnəbilərin himayədarlığı ilə İslam düşmənlərinə alət olurlar.

Bəzən həzrət Əli (ə) və Əhli-beytə (ə) hücum edir, bəzən də Peyğəmbər (s) kimi Əhli-beyti (ə) müdafiə etdiyi üçün şiyə alimlərinə iftira yağdırırlar. Tənə vuraraq kimini əmanətsizlik, dinsizlik, kimini də əxlaqsızlıqda ittiham edirlər. Beləcə, cəmiyyətin onlara inanmasına, etibar etməsinə mane olmağa və sözlərinin qəlblərə təsir etməsinin qarşısını almağa çalışırlar. Xalqı cahilliyə sürükləyərək, düşmənlərin hakimiyyətini təmin etmək istəyirlər. Halbuki peyğəmbərlərə və vəsilərinə atdıqları iftiralar da təsirsiz olmuşdur. Şahidi olduğumuz kimi, o həzrətlərin cəmiyyətdəki sevgisi günbəgün artmaqdadır.

İslam düşmənləri bunu bilməlidirlər ki, bir insan Allah üçün oldusa, Allah da onun üçün olur. Bu səbəbdən, Allah-təala «Tövbə» surəsinin 32-ci ayəsində belə buyurur:

***«Allahın nurunu ağızlarıyla söndürmək istəyərlər. Kafirlər istəməsə də, Allah nurunu mütləq tamamlayacaqdır».***

***Allahın yandırdığı atəşi***
***Cahil üfürərsə, saqqalı yanar.***

Xülasə, küfr və iftira, inadkar və sərmayəsiz insanların adətidir. Əgər bu iftira və yalanlar şəxsi olarsa, səbir edilə və görülməməzliyə qoyula bilinər. Lakin burada susmaq, süstlük və acizlikdir.

Bu iş eynən döyüşən iki nəfərdən birinin əlinə qılıncı verib, digərinə də səbir etməyi tövsiyə etmək kimidir. Burada susmaq acizlik əlamətidir ki, başqalarının da haqdan azmasına səbəb olur. Daha doğrusu, haramdır. Bu səbəbdən bir hədisdə Peyğəmbər (s) belə buyurmuşdur:

***«Ümmətimin içərisində bidətlər meydana çıxdıqda, alim elmini ortaya qoymalıdır; kim bunu etməzsə, Allahın lənəti olsun ona»***[1]

Əlbəttə, şəxsi xüsuslarda səbir etmək lazımdır; lakin ümumi xüsuslarda susmaq caiz deyildir. Əhli-beyt (ə) də Yezid və Müaviyə kimi əsil-nəcabətsizlərə təslim olmamış, zülm və təzyiqləri qarşısında müqavimət göstərərək, belə buyurmuşlar:

***«İzzətli ölüm, zillətli yaşamaqdan daha üstündür».***

İnsanın özünümüdafiə gücünə sahib olduğu halda və bu mövzuda heç bir maneə yox ikən susması zalıma yardım etməsi deməkdir. Əlbəttə, burada belə sual edilə bilər: Bundan otuz il əvvəl əhli-sünnət ilə etdiyiniz bir mübahisəni bu gün dərc etdirməyə nə ehtiyac vardır?

Əvvəla deməliyəm ki, mən şöhrət düşkünü deyiləm; şöhrətin yıxıcı afətlərindən bütünlüklə xəbərdaram. İndiyə qədər fərqli mövzularda otuzdan artıq

---

[1] «Üsuli-kafi», cild: 1, səh.54.

kitab yazdım və əsla özümü nümayiş etdirməyə çalışmadım. Lakin hal-hazırda bir qrup səbəblər üzündən bu kitabı nəşr etmək istədim. Fasiq, Xain və satılmış qələmlər meydanı boş gördükdə, istədiyi hər şeyi yazdılar və söylədilər:

***Parlaq nurlu günəş gizlənincə,***
***Yarasalar çıxar oyun səhnəsinə.***

Xüsusən də, Misirdə gizli əllər bir qrup kitab və məqalələr ilə məlumatsız, elmsiz insanları çaşqınlığa salmış, şiələrin kafi və rafizi olduğunu ifadə etmişlər. Xain olduğunu söyləyə bilməyəcəyim bir qrup qələm əhli keçmişlərinə bağlanaraq, açıq-aydın iftira dolu kitablar yazmış («Əs-sünnə vəş-şiə»), əsərlər nəşr etdirmiş və şiə aləminə zərbə vurmuşlar.

Burada söylənələcək bir çox şeylər vardır. Əgər qələmi sərbəst buraxıb İslamın elmi, əməli və ictimai mövzularına baş vursam, bu ön söz də İbn Xəldunun ön sözü kimi uzanar və başdan-başa bir kitab olar.

Son olaraq hörmətli gənclərə bunları tövsiyə edirəm: özünüzü şəxslərə qul, kölə etməyin; hər sözə inanmayın, hər çağırışa yönəlməyin; haqq şiə məzhibi haqqında bir şübhə ortaya atıldıqda, həmin an elm əhli olan insanlarla yaxınlaşıb, zəlalətə düşməkdən qurtulmağa çalışın. Din satıcıları sizi aldatmasın. Onlar azadlığınızı qəsb etməklə sizdən faydalanmaq istəyirlər. Bu səbəbdən, batil sözləri haqq kimi göstərir, sizləri dindar insanlara qarşı pis rəftara yönəltməyə və aranıza fitnə-fəsad salmağa çalışırlar. Dində islahat və xurafatlara mane olmaq adı altında sizi dindən uzaqlaşdırmaq istəyirlər. Sizi bir-birinizə qarşı qoyaraq, düşmənlərinizin hakimiyyətini təmin edirlər. Çünki bizi birləşdirən yeganə güc dindir. İslam düşmənləri də bu yoldan daxil olaraq, müsəlmanları bir-birindən ayırmağa və onları imperialistlərə təslim etməyə alışırlar.

***İnsan üzlü bir sürü İblis vardır,***
***Bu halda, hər əli sıxmamaq lazımdır.***

Batil əhli davamlı surətdə haqq görünməyə çalışır və bu yolla xalqı aldatmaq üçün səy göstərirlər. Ayıq və məlumatlı insanlar ağıl, elm və məntiq silahıyla batil pərdələri yırtmalı, özlərini zəlalət çuxurundan xilas etməlidirlər.

***Mən sadəcə təbliğ edirəm,***
***İstər ibrət al, istər üz çevir.***

Peyğəmbərin (s) buyurduğu kimi, ***«Qullara təşəkkür etməyən, Yaradana şükr etməz»***. Mən də bu kitabın hasil olmasında əməyi olanlara təşəkkür etməyi özümə borc bilirəm. Bilavasitə özləri məndən adlarının yazılmamasını istədikləri üçün adlarını zikr etmirəm. Onlar həqiqətdə vilayət məqamıyla mübadilə etmiş və Allahdan savab diləmişlər. Uca Allahdan onlara əbədi səadət verməsini, dünyada bərəkətli həyat sürmələrini, axirətdə də Əhli-beyt (ə) ilə məşhur olmalarını diləyirəm. Allah onların bu əməlini qəbul və axirət sərmayələrindən etsin.

**Fani bəndə: Məhəmməd Musəvi (Sultanul-Vaizin Şirazi)**

# SƏFƏRİN BAŞLANĞICI

1345-ci hicri-qəməri ilinin rəbiül-əvvəl ayında, otuz yaşındaykən müqəddəs ziyarətgahlara müşərrəf olduqdan və məsum imamların (Allahın minlərcə Salavat və salamı olsun onlara) qəbirlərinin ziyarətlərindən ayrıldıqdan sonra Hindistan yoluyla səkkizinci imam mövla Əbülhəsənir-Riza həzrət Əli (ə) ibn Musanın (ə) türbəsini ziyarət etmək üçün Xorasana doğru hərəkət etdi. Yolumun üstündə olan Hindistanın iki əhəmiyyətli liman şəhəri olan Karaçi[1] və Bombeyə çatdıqda, bu səfərim məşhur qəzetlərdə yer aldı. Hindistanın uzaq şəhərlərindən köhnə, səmimi və mömin dostlar ölkələrinə gəldiyimdən xəbərdar olduqda, məni yaşadıqları bölgələrə dəvət etdilər və məcbur qalıb, dəvətlərini qəbul etdim. Dehli, Akire, Lahuri-pəncab, Siyalqut, Kəşmir, Heydərabadi-behar, Lapur, Küveyt və digər şəhərlərə getdim. Getdiyim hər yerdə xalq tərəfindən iztihamla və sevgiylə qarşılandım.

Bu önəmli şəhərlərin çoxunda müxtəlif din və məzhəb alimləri ilə münazirə (bəhs) məclisləri təşkil olunurdu. Əhəmiyyətli münazirə məclislərindən biri Dehli şəhərində – Hindistanın rəhbəri Qandinin də olduğu Hindu və Brahman din adamlarıyla edilən münazirəydi. Bu münazirə o günün qəzetlərində geniş şəkildə yer aldı. Allah-təalanın qüvvəsi və həzrət Xatəmul-ənbiyanın (s) xüsusi lütfüylə müvəffəqiyyət mənimlə olduğu üçün müqəddəs İslam dini və Haqq məzhəb olan Cəfəriliyin həqqaniyyətini isbat etdim.

Sonra «Dürrül-Nəcəf» adlı həftəlik jurnalın möhtərəm müdiri cənab Əbülbəşir Seyid İnayət Əli şah Nəqəvinin rəhbərliyi ilə Siyalkut şəhərinin «İsna Əşəriyə» dərnəyi tərəfindən dəvət edildim. Daha sonra o bölgəyə doğru hərəkət etdim. Risaldar Məhəmməd Əkrəm xanın oğlu və Kolenl Məhəmməd Əfzəl xanın qardaşı və köhnə səmimi dostum olan cənab Sərdar Məhəmməd Sərvərxan Risaldar[2] müxtəlif şəxslərdən ibarət böyük bir heyətlə məni qarşıladılar və hamılıqla birlikdə onların evinə getdik. Hindistanın Qızılbaş ailəsinin məşhur sərdarları Pəncabda

---

[1] Karaçi hal-hazırda Pakıstanın şəhəri, Bambey isə Hindistanın Lian şəharidir.
[2] Bu kitabın nəşr olunduğu tarixdə Allahın rəhmətinə qovuşdu. Rəhmətullahi əleyh.

oturmuşdu. Bunlar Hicri-qəməri tarixi ilə 1339-1340-cı illərdə (m. 1918-1919) Kərbəla, Kazimeyi və Bağdadda hakimiyyət qurmuşdular. Bunlar Siyalkut şəhərindəki Qızılbaş ailəsinin şərəfli, məşhur və mömin insanlarındandır. Bundan əlavə, o şəhərin Ədliyyə idarəsinin rəisi idilər və bütün xalqın onlara qarşı xüsusi ehtiramları var idi[1].

Mənim Pəncaba getməyimlə əlaqəli xəbər qəzetlər vasitəsilə dərc olar-olmaz, İrana getmə niyyətində olduğum halda və bu mövzudakı ciddiyyət və israrıma baxmayaraq, müxtəlif yerlərdən, xüsusilə də Pəncabda şiə alimlərinin iftixarlarından olub, Lahurda oturan, otuz cildlik «Ləvamiut-tənzil» təfsirinin müəllifi Höccətül-İslam Seyid Əli Rəzəvi Lahuri tərəfindən ardı-arası kəsilməyən dəvət məktubları gəlirdi. Eyni zamanda, Hindistanın Pəncab şəhərində şiənin böyük şəxsiyyətlərindən olan Qızılbaş qardaşlar və oradakı möminlər tərəfindən Pişavər şəhərinə ki, Əfqanıstanla Pəncab arasında axırıncı sərhəd şəhəridir, dəvət edildim. Məhəmməd Sərvər Xanın israrıyla bu dəvəti qəbul edib, rəcəb ayının 14-ü o şəhərə doğru hərəkət etdim. Oraya çatdıqda, onlar tərəfindən fövqəladə ehtiram və hörmətlə qarşılandıqdan sonra minbərə çıxıb, söhbət etməyimi istədilər. Hind dilini kamil bilmədiyim üçün Hindistan şəhərinin heç birində minbərə çıxıb söhbət etməmişdim. Lakin Pişavər xalqı fars dilini yaxşı bildiyi üçün ricalarını qəbul etdim. Zöhrlər «İmambarə» Hüseyniyyəsində mərhum Adil Biyk Risaldarın təşəbbüsü ilə təşkil olunan, müxtəlif məzhəb və dinlərə mənsub bir qrup camaatın da iştirak etdiyi məclisdə vəzifəmi yerinə yetirməyə çalışdım.

Pişavər xalqının əksəriyyəti müsəlman və əhli-sünnət qardaşları olduqları üçün 3 saat davam edən söhbətim daha çox onlara aid idi. Daha çox İmaməti isbatedici mövzulardan söhbət açırdım. Bu səbəbdən onların məclisdə olan alimləri məndən xüsusi bir məclis rica etdilər. Bundan sonra bir neçə gecə sakin olduğum evə gəlib, saatlarla bu mövzularda elmi mübahisələr edirdik.

---

[1] Qıxılbaş səfəvilərə mənsub bir qrup idi ki, Nadir şahla birlikdə Əfqanıstanı fəth etməyə getmişdilər. Nadir şah o bölgədən ayrıldıqda, onlardan bir qrupunu orada qoymuşdu. Onlar orada yerləşmiş və beləcə, irqləri də sonradan çox məşhur olmuşdu. Əmir Əbdürrəhman xan və Həbibullah xanın höküməti zamanında şiələrin çoxu gördükləri zülm və qətliamlar nəticəsində, möhtərəm Qızılbaş ailəsi Hindistana qaçmış, o bölgədə yerli xalq tərəfindən hörmətlə qarşılanmışdılar. Hal-hazırda Hindistan şəhərlərinin hər tərəfi ndə, xüsusilə də Pəncab şəhərində yaşamaqdadırlar. Çox imanlı, qeyrətli və istiqanlı şəxslərdirlər.

Bir gün minbərdən aşağı enmək istədikdə, böyük alimlərdən olan Hafiz Məhəmməd Rəşid və Şeyx Əbdüssalam adında iki nəfərin gəldiklərini və mənimlə görüşmək istədiklərini xəbər verdilər. Vaxt alıb, hər gün axşam namazından sonra ardıcıl olaraq 10 gecə yanıma gəldilər. Hər gecə vaxtımız 6-7 saat, bəzən də sübhə qədər davam edən elmi söhbət və mübahisələrlə keçirdi. Son gecədə əhli-sünnətin böyük şəxsiyyətlərindən altı nəfər haqq olan şiə məzhəbinin qəbul edərək şiə olduqlarını elan etdilər.

Tanınmış qəzet və jurnalların müxbirlərindən 4 nəfər hər iki məzhəbin möhtərəm şəxsiyyətlərindən təxminən iki yüyz nəfərin iştirak etdiyi bu toplantıda hər iki tərəfin söhbət və münazirələrini qeyd edib, səhəri gün onları qəzet və jurnallarda nəşr edirdilər. Mən də bu gecələrdə gerçəkləşən söhbət və bəhsləri həmin qəzet və jurnallardan toplayaraq, siz möhtərəm oxucuların huzuruna təqdim edirəm. Məhz bu səbəbdən də kitabı «**Pişavər gecələri**» adlandırdım.

Möhtərəm ədəbiyyatçılar kitabda gördükləri xətaları qüsur bilməməlidirlər. Çünki münazirə zamanı heç kəs söz və cümlələrin gözəlliyinə diqqət etmir; insanın bütün diqqəti məna və həqiqətlərdə cəmlənir. Qəzet və jurnallarda dərc olunan bəhs və sözlərin heç biri dəyişdirilmədən möhtərəm oxujuların huzuruna təqdi edilmişdir.

Bu mübahisə və münazirələrdə haqqında danışılan mövzular, Qurani-kərim, mötəbər hədislərdən istifadə edilənlər və mühəqqiq, ustad və din alimlərinin önəmli sözləri ilə qeybi lütflərdir.

***Unəqa mənzilinə özüm yetişdim***
***Bu mərhələni Süleymanın quşuyla aşdım.***

Pişavərin böyük şəxsiyyətlərindən və sakini olduğum Evin sahibi olan Mirzə Yaqub Əli xan Qızılbaşın evi kifayət qədər geniş və böyük bir camaata ziyafət vermək üçün hər cür imkana malik olduğundan, münazirə məclisləri orada təsis edildi. Tam 10 gecə mübahisə məclisi təşkil edildi; camaata olduqca səmimiyyətlə ziyafətlər verildi.

# BİRİNCİ GECƏ

23 rəcəb, cümə gecəsi, 1345-ci il (1924)

Hafiz[1] Məhəmməd Rəşid, Şeyx Əbdüssalam, Seyid Əbdülhəy və onların alim və böyüklərindən olan bir qrup insan gecənin ilk saatlarında gəlib, məclisdə hazır oldular. Onlara qarşı həddindən çox isti davrandıq və səmimi olan bu qardaşlara ziyafət verdik. Buna baxmayaraq, onlar əsəbi və narahat idilər. Amma mənim cahillərə məxsus bir təəssüb və xüsusi bir nəzərim olmadığına görə, öz əxlaqi vəzifəmə riayət edirdim.

Hər iki məzhəbdən (şiə və sünni) ibarət böyük bir camaatın hüzurunda məclis başladı. Qarşı tərəfdən rəsmi olaraq söhbət edən Hafiz Məhəmməd Rəşid idi. Bəzən digərləri də icazə istəyərək, söhbətə qatılırdı. Qəzetlərdə mənim üçün Hindistanda ruhanilərin önəmli ləqəblərindən olan «Qibleyi-Kəbə» təbiri istifadə olunurdu. Amma mən bu kəlmənin adıma hallandırılmasının qarşısını alaraq, özümə «Dəvətçi», Məhəmməd Rəşidə isə «Hafiz» adı ilə müraciət edilməsi təklifini irəli sürdüm.

**Hafiz:** «Qibləsahib, sizin Pişavərə gəlişinizdən, xüsusilə də minbərdə dediyiniz sözlərinizdən sonra bəhs məclisləri artmış və ixtilaflar olduqca çoxalmışdır. İxtilafları aradan aparmaq üzərimizə düşən vəzifə olduğu üçün şübhələri yox etmək məqsədilə Pişavərə gəldik. Bu gün də İmambarə Hüseyniyyəsində diqqətlə sözlərinizi dinləyirdik; sizin sehrli bəyanınızı eşitdiyimizdən daha gözəl gördük. Bu gedə də, sizinlə görüşmək səadətinə nail olduq. Əgər qəbul etsəniz, sizinlə bir az daha geniş və əsaslı söhbət edərdik».

**Dəvətçi:** «Məmnuniyyətlə sözlərinizi, təkliflərinizi dinləməyə hazıram. Amma bir şərtlə; o da budur ki, lütfən, təəssüb və ədavəti bir kənara qoyub, insaf, elm və məntiqlə iki qardaş kimi şübhələri aradan aparmaq üçün söhbət edək, inad və qövmü təəssüblərdən uzaq olaq».

---

[1] Əhli-hədis istilahında «Hafiz» kəlməsi üçün müxtəlif mənalar söylənilmişdir. Məsələn hafiz, mətin və sənət baxımından yük min hədis barəsində yaxşı elmi olan, eləcə də, Allahın kitabı və Peyğəmbərin (s) sünnətini qoruyana deyilir. Məhz bu səbəbdən də, şiə və sünni alimlərinin çoxuna hafiz deyilir.

**Hafiz:** «Təklifiniz olduqca yerində deyilən bir təklifdir. Mənim də bir şərtim vardır, çox güman ki, qəbul edərsiniz. O da budur ki, aramızda bəhs etdiyimiz zaman Qurana əsaslanmalı, Quranın dəlillərindən kənara çıxmamalıyıq».

**Dəvətçi:** «Sizin bu ricanız, ağıl sahibləri və üləmanın yanında elmən və əqlan doğru deyildir. Çünki Qurani-məcid mücəz[1], mücməl[2] və müxtəsər olan müqəddəs bir kitabdır. Onun uca mənalarını açıqlamaq üçün bəyana ehtiyac vardır, biz Quranı-məcidin külliyyatı əhatəsində, etibar edilən Hədis və rəvayətləri dəlil gətirmək məcburiyyətindəyik».

**Hafiz:** «Doğrudur, sağlam bir fikirdir. Lakin icmaya lazım olan yerdə «mücməun-əleyh»[3] rəvayət və hədislərdən şahid gətirək; xalqın arasında söylənilən rəvayətlərdən çəkinək. Başqalarına oyuncaq olmamaq üçün sərtlik və qəzəbdən uzaq olaq».

**Dəvətçi:** «İtaət edilməsi lazım olan, çox yerində bir söz buyurdunuz. Alim və ziyalı, xüsusi ilə seyidlik[4] iftixarına sahib olan mənim kimi bir şəxsin bütün gözəl əxlaqlara sahib olan uca cəddimiz Rəsulallahın[5] yol və sünnətinə zidd və Qurani-kərimin əmri[6] xilafına hərəkət etməsi, əlbəttə ki, doğru deyildir».

**Hafiz:** «Bu sözümə nöqsan tutmayın, söhbətinizin əsnasında özünüzü Rəsulallahın (s) soyuna istinad etdiyinizə görə soruşuram; bu onsuz da məlum və məşhurdur.

Mümkünsə, ricamızı qəbul edib, bəsirətimizin artması üçün nəsil şəhərinizin Peyğəmbərə (s) kimlərin yolu ilə yetişdiyini açıqlayardınız».

## NƏSLİN TƏYİNİ

**Dəvətçi:** «Bizim ailə ulu babamız İmam Hümmət sahibi olan Museyi-Kazımın (ə) yolu ilə həzrət Rəsulallah (s) yetişir; belə ki:

---

[1] Qanuni, qanuna uyğun.
[2] Xülasə, qısa, konkret.
[3] Doğruluğu haqqında ittifaq edilmiş
[4] Peyğəmbərin (s) nəslindən gələnlər.
[5] Allah-təala Peyğəmbər (s) haqqında belə buyurur: «***Şübhəsiz, sən böyük bir əxlaq üzərindəsən (sahibisən)».***
[6] Yenə də buyurur: ***«Rəbinin yoluna hikmət və gözəl öyüdlə dəvət et və onlarla ən gözəl bir şəkildə mübahisə et»*** («Nəhl» surəsi, ayə: 125).

Məhəmməd Əli Əkbər (Əşrəful-Vaizin) oğlu,

1. Əli Əkbər (Əşrəful-Vaiizin) Qasim (Ğəhrul-ulum) oğlu;
2. Qasim (Bəhrul-ulum) Həsən oğlu;
3. Həsən İsmail əl-Müctehidul-Vaiz oğlu;
4. İsmail əl-Müctehidul-Vaiz İbrahim oğlu;
5. İbrahim Saleh oğlu;
6. Saleh Əbu Əli Məhəmməd oğlu;
7. Əbu Əli Məhəmməd Əli[1] oğlu;
8. Əli Əbul Qasim Məhəmməd Təqi oğlu;
9. Əbul Qasim Məhəmməd Təqi (Məqbulüddin) Hüseyn oğlu;
10. Hüseyn Əbu Əli Həsən oğlu;
11. Əbu Əli Həsən Məhəmməd oğlu;
12. Məhəmməd Fəthullah oğlu;
13. Fəthullah İshat oğlu;
14. İshaq Haşim oğlu;
15. Haşim Əbu Məhəmməd oğlu;
16. Əbu Məhəmməd İbrahim oğlu;
17. İbrahim Əbul Fityan oğlu;
18. Əbul Fityan Abdullah oğlu;
19. Abdullah Həsən oğlu;
20. Həsən Əhməd (Əbüt-Təyyib) oğlu;
21. Əhməd (Əbut-Təyyib) Əbu Əli Həsən oğlu;
22. Əbu Əli Həsən Əbu Cəfər Məhəmməd əl-Hairi (Nəzil Kirman) oğlu;
23. Əbu Cəfər Məhəmməd əl-Hairi (Nəzil Kirman) İbrahim əz-Zərir[2] oğlu;
24. İbrahim əz-Zərir Əmir Məhəmməd əl-Abid oğlu;
25. Əmir Məhəmməd əl-Abid imam Mussa əl-Kazım oğlu;
26. İmam Mussa əl-Kazı imam Cəfər Sadiq oğlu;
27. İmam Cəfər Sadiq imam Məhəmməd əl-Baqir oğlu;

---

[1] «Mərdan» adı ilə məşhurdur.
[2] «Mücab» adı ilə məşhurdur.

28.İmam Məhəmməd əl-Baqir imam Əli-Zeynul-Abidin oğlu;
29.Əli Zeynul-Abidin imam Hüseyn (Seyidüş-şühəda) oğlu;
30.İmam Hüseyn (Seyidüş-şühəda) Əmirəl-möminin Əli ibn Əbu Talib oğlu (ələyhimus-salam)».

**Hafiz:** «Bəyan etdiyiniz bu şəcərə, Əmirəl-möminin Əliyə yetişir. Halbuki, siz özünüzü Rəsulallaha (s) istinad etdiniz. Bu nəsil silsiləsiylə özünüzün Peyğəmbərin (s) övladlarından deyil, qohum-əqrabası olduğunuzu söyləməyiniz lazımdır! Çünki övlad Rəsulallahın (s) soyundan və nəslindən olan kəslərdir».

**Dəvətçi:** «Nəslimizin Rəsulallaha (s) yetişməsi həzrət Əba Əbdüllahil-Hüseynin (ə) anası həzrət Zəhra Siddiqeyi-Kubra Fatimə (s.ə) vasitəsiylədir».

**Hafiz:** «Sizin kimi alim və ziyalının belə danışması çox təəccüblüdür. Çünki özünüz də bilirsiniz ki, insanın nəsil və soyu qız övladları vasitəsiylə deyil, oğul övladları vasitəsiylədir. Həzrət Rəsuli-əkrəmin (s) oğlu övladlarından nəsli yoxdur. Belə olduqda, siz Peyğəmbərin (s) oğul övladlarının nəvə-nəticəsi deyil, qız övladlarından olan nəvə-nəticələrindənsiniz».

**Dəvətçi:** «Möhtərəm cənabların söhbətdə inadkarlıq edəcəklərini heç bilməzdim. Əks təqdirdə, cavab verməyə də cəhd göstərməzdim».

**Hafiz:** «Deyəsən, bir anlaşılmamazlıq oldu. Çünki sözümdə heç bir inadkarlıq etmədim; həqiqətdə əqidəm belədir. Alimlərdən çoxu da nəsil və soyun qız övladlardan deyil, oğul övladlardan olduğu inancındadırlar. Bu yerdə şair də belə söyləmişdir:

***Oğullarımızın oğulları, onların da qızları övladlarımızdır.***
***Amma qızlarımızın uşaqları, kənar kişilərin uşaqlarıdır.***

Əgər Rəsuli-əkrəmin (s) qızlarının oğul övladları dərəcəsi olduğuna dair bir dəliliniz varsa, buyurun. Dəliliniz kamil olarsa, qəbul edər və xoşhal da olarıq».

**Dəvətçi:** «Qurani-kərimdən və hər iki məzhəbin səhih hədislərindən olan dəlillər olduqca güclüdür».

**Hafiz:** «İstifadə etməyimiz üçün o dəlilləri açıqlamağınızı rica edirik».

**Dəvətçi:** «Danışdığınız anda Abbasim xəlifələrindən olan Harun Rəşid və hümmət sahibi olan imam Musa (ə) ibn Cəfər (ə) arasında baş verən bir mübahisəni xatırladım. Həzrət Musa (ə) ibn Cəfər (ə) Haruna elə yetərli cavab verdi ki, onun özü də İmamın (ə) dediklərini təsdiq etdi».

**Hafiz:** «Zəhmət olmasa, o mübahisənin necə baş verdiyini bəyan edin».

## HARUN VƏ MUSA (Ə) İBN CƏFƏRİN (Ə) RƏSULALLAHIN (S) ZÜRRİYƏTİ MÖVZUSUNDA OLAN MÜBAHİSƏSİ

**Dəvətçi:** «Şeyx Səduq h. IV əsrdə yaşamış şiənin böyük ali və fəqihlərindəndir. Hədis elmində tədqiqatçı və rical elmində bəsirət sahibi idi. Qum və Xorasan alimləri arasında onun kimi elmli və hədis əzbərləyən kimsə yoxdur. Üç yüz kitab təlif etmişdir. Şiənin dörd qaynaq kitablarından olan «Mən la yəhzirul-fəqih» kitabı da onlardan biridir. Qəməri 381-ci ildə İranın paytaxtı Tahranın Rey məntəqəsində vəfat etmişdir. Məzarı Tehran və digər yerlərdən gələnlərin ziyarətgahıdır. O, səhih «Uyunu əxbarur – Riza (ə)» və Əbu Mənsur Əhməd ibn Əli ibn Əbu Talib Təbərsi «İhticac» kitabında mübahisənin izahını ətraflı bir şəkildə göstərmiş və imam Museyi-Kazımın (ə) belə buyurduğunu nəql etmişdir:

***«Bir gün Abbasi xəlifələrindən olan Harun Rəşidin məclisinə getdim. O, mənə bəzi suallar verərək, cavab istədi. Suallardan biri də,*** (sizin də sualınız) ***bu idi: «Necə «Biz Peyğəmbərin (s) nəslindənik» deyərsiniz? Halbuki, Peyğəmbərin (s) xələfi yoxdur; xələf ancaq oğlan övladı olar, qız övladından xələf olmaz! Siz isə qızından olan övladlarısınız, Peyğəmbərin (s) xələfi yoxdur!»***

İmam Museyi-Kazım (ə) ona cavab olaraq «Ən am» surəsinin bu ayələrini oxudu:

***«Onun (Nuh və ya İbrahimin) soyundan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu hidayətə çatdırdıq. Biz əməli salehləri bu cür***

***mükafatlandırırıq. (Yenə onun soyundan) Zəkəriyyanı, Yəhyanı, İsanı və İlyası da (hidayətə yetişdirdik). Onların hamısı əməli salehlərdəndir»***[1]

Daha sonra İmam (ə) Harunun diqqətini ayədəki dəlil olaraq göstərdiyi yerə cəlb etdi: ***«Ey möminlərin Əmiri! Həzrət İsanın (ə) atası kimdir?»*** **Harun cavabında belə dedi*:*** ***«İsanın (ə) atası yoxdur».*** **Bu əsnada İmam (ə) belə buyurdu*:*** ***«Bax, Allah-təala onu Məryəmin (ə.s) vasitəsiylə peyğəmbərlərin nəslinə ilhaq***[2]***etmişdir. Bizi də anamız Fatimə (ə.s.) tərəfindən Peyğəmbərin (s) nəslinə ilhaq etmişdir».***

İmam Fəxri Razi «Təfsiri-Kəbir»in IV cildinin 124-cü səhifəsində zikr olunan ayənin ardınca V məsələdə belə deyir: «Bu ayə, Həsən və Hüseynin Rəsulallahın (s) soyundan olmalarına dəlalət edir. Çünki Allah-təala bu ayədə Həzrət İsanı, həzrət İbrahimin nəslindən saymışdır (həzrət İsanın isə atası yoxdur). Bu bağlılıq ana tərəfindəndir. Beləcə, Həsən və Hüseyn də ana tərəfindən həzrət Rəsulallahın (s) zürrüyəti idilər. Həzrət Məhəmməd Baqir (ə) Həccacın yanında eyni ayə ilə istidlal[3] etmişdir».

Daha sonra imam Museyi-Kazım (ə) Haruna, ***«Yenə də dəlil gətirimmi?»*** deyə buyurdu. Harun, ***«Bəli, gətir»*** dedikdə, o həzrət (ə) «Ali-İmran» surəsinin 61-ci ayəsindəki bu «Mübahilə[4] ayəsi»ni qiraət etdi:

***«Artıq sənə yetişən bu elmdən sonra onun haqqında səninlə çəkişib-mübahisə edərlərsə, de ki: «Gəlin, oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, nəfslərmizi və nəfslərnizi bir yerə toplayaraq; sonra qarşılıqlı lənətləşək. Allahın lənəti olsun yalan söyləyənlərə!».***

İmam (ə) sonra belə buyurdu: ***«Heç bir kəs Allahın əmri olan bu mübahilə zamanı həzrət Peyğəmbərin (s) xristianlar qarşısında Əli ibn Əbu Talib(ə), Fatimə (ə.s), Həsən (ə) və Hüseyndən (ə) başqa müsəlmanlardan bir kəsin belə bu hadisəyə qatılmış olduğunu iddia etməmişdir. «Ənfüsəna»dan (nəfislərimiz) məqsəd, Əli ibn Əbu Talib (ə), «nisaina»dan (qadınlarımız) məqsəd, Fatimətüz-***

---

[1] «Ən am» surəsi, ayə: 84, 85.
[2] «Qoşmaq», «qatmaq», «birləşdirmək» deməkdir.
[3] İki mənası vardır: 1. Bir dəlilə əsaslanaraq nəticə çıxarmaq; 2.Ümumi mülahizələrdən xüsusi nəticə çıxarma üsulu, deduksiya.
[4] Qarşılıqlı lənətləşmək.

***Zəhra (ə.s), «əbnaəna»dan (oğullarımız) məqsəd isə Allahın onlara «Rəsulallahın oğulları» deyə buyurduğu Həsən (ə) və Hüseyndir(ə)».***

Harun imam Museyi-Kazımdan (ə) bu aydın dəlili gördükdə, özündən asılı olmadan, «**Əhsəntə ya Əbəl Həsən**»[1] (yəni afərin, necə də gözəl söylədin, ya Əbəl Həsən) dedi.

İmam Museyi-Kazımın (ə) Həsən (ə) və Hüseynin (ə) Rəsulallahın (s) oğulları olduğuna dair Harun üçün gətirdiyi dəlilindən bütün Fatimi seyidlərin Peyğəmbərin (s) övladları olduğu iddiası isbat edilmiş olur.

## HƏZRƏT FATİMƏNİN (Ə.S) ÖVLADLARININ PEYĞƏMBƏRİN (S) ÖVLADLARI OLMASINA TUTARLI DƏLİLLƏR

Böyük alimlərimizdən olan İbn Əbil Hədid Mötəzili «Şərhi Nəhcül-bəlağə» və Əbu Bəkr Razi «təfsir» kitabında zikr olunan ayə və «əbnaəna» (oğullarımız) cümləsində Həsən (ə) və Hüseynin (ə) ana tərəfindən Rəsulallahın (s) oğulları olduğuna dair istidlal etmişlər. Çünki Allah-təala Quran-kərimdə həzrət İsanı (ə) anası Məryəm (ə.s) tərəfindən İbrahimin (ə) nəslindən saymışdır.

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-talib», İbn Həzər Məkki «Əs-səvaiqul-muhriqə»Nin 74 və 93-cü səhifələrində Təbəranidən, o da Cabir ibn Əbdullah Ənsari və Xətib Xərazmidən o da «Mənaqib» kitabında İbn Abbasdan Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edirlər:

***«Allah-təala hər peyğəmbərin zürriyətini (nəslini) öz sülbündən, mənim zürriyətimi də Əli ibn Əbu Talibin nəslindən etmişdir».***

Yenə Xətib Xərəzmi «Mənaqib»də, Mirseyid Əli Həmədani Şafei «Məvədətul-qürba»da, sizin böyük alimlərinizdən olan imam Əhməd ibn Hənbəl «Müsnəd» və Süleyman-Hənəfi Bəlxi «Yənabiul-məvəddət» kitabında (az bir fərqlə) Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edirlər:

[1] Əbül-Həsən, İmam Museyi-Kazımın (ə) künyəsidir.

***«Bu iki oğlum (Həsən və Hüseyn) dünyada iki reyhandırlar. Bu iki oğlum istər (imamət işi üçün) qiyam etsinlər, istərsə otursunlar (sussunlar), yenə imamdırlar».***

Şeyx Süleyman Hənəfi «Yənabiul-məvəddət»in 57-ci babını bu mövzuya ayırmışdır. Tabərani, Hafiz Əbdüləziz, İbn Əbu Heybə, Xətib Bağdadi, Hakim Beyhəqi, Bəqəvi və Təbəri kimi böyük alimlərinizdən müxtəlif ifadə və təbirlərlə Həsən (ə) və Hüseynin (ə) Rəsulallahın (s) oğulları olduğuna dair bir çox hədislər nəql etmişlər.

Həmin zikr olunan babın sonunda Əbu Saleh, Hafiz Əbdüləziz ibn Əhzar, Əbu Nəim, İbn Həcər Məkki «Səvaiq»in 112-ci səhifəsində və Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-talib»in 100 babdan sonra 1 fəslin axırında və Təbəri Həzrət imam Həsənin (ə) əhvalatının tərcüməsində II xəlifə Ömər ibn Xəttabın belə dediyini nəql etmişlər: **«Rəsulallahın (s) belə buyurduğunu eşitdim:**

***«Hər qövm və nəsil Qiyamət günü, mənim qövm və nəslimdən başqa kəsiləcəkdir. Hər qızın övladlarının əsəbəsi[1] Fatimənin övladları istisna olmaqla, ata tərəfindəndir. Çünki mən onların (Fatimənin övladlarının) babası və əcdadıyam».***

Yenə şeyx Əbdullah ibn Məhəmməd ibn Amir Şəbravi Şafei «Əl-əthaf bi hubbil-əşraf» kitabında bu hədisi Beyhəqidən və Daru Qutni də Əbdullah ibn Ömərdən, o da Ümmü-Gülüsümün (ə.s) evlənmə vaxtı babasından nəql etmişdir. Cəlaləddin Syuti də «İhyaul-meyyit bi fəzaili-Əhli-beyt» kitabında Təbəridən, o da II xəlifə Ömərdən nəql edir.

Yenə Seyid Əbu Bəkr ibn Şəhabuddin Ələvi «Rəşfətus-sadi min bəhri fəzaili minən-Nəbiyyil Hadi» kitabının 3-cü babının 39-42-ci səhifələrində zikr olunan hədisi Fatimənin (ə.s) övladlarının Rəsulallahın (s) övladları olduğu xüsusunda nəql edib, bunu da dəlil göstərmək olar.

Amma şahid gətirdiyiniz şairin şerinə gəlincə, o, bu aşkar dəlillər qarşısında məğlubdur, yəni rədd olunmuşdur. Çünki Məhəmməd ibn Yusif Gənci Şafei, «Kifayətut-talib» kitabının 100-cü babından sonra gələn I bölümün şairin bu şerinə

[1] Əsəbə, ata tərəfindən olan qohum-əqrəba və yaxınlara deyilir.

cavab olaraq ayırmışdır. Bu mənada ki, Həzrət Peyğəmbərin (s) qızının övladları o həzrətin öz övladlarıdır. Üstəlik, şairin bu şeri İslamdan öncə deyilmişdir, bu da küfrdür. Çünki «Camiuş-şəvahid» kitabının müəllifi onun İslamdan öncə Şer söylədiyini nəql etmişdir.

Fatimeyi-Siddiqənin (ə) övladlarının Peyğəmbərin (s) övladları olmasını isbat edən bu müxtəlif dəlillər çoxdur. Bizim nəsil silsiləmizin Həzrət Hüseynə (ə) yetişməsi isbat edildikdə, bəyan etdiyimiz səhih dəlillərə görə, Rəsulallahın (s) övladları olmağımız da sabit olur. Bu bizim üçün ən böyük iftixardır. Peyğəmbəri-əkrəmin (s) soyundan başqa heç bir kəsin belə bir iftixarı yoxdur! Şair Fərəzdəq necə də gözəl söyləyir:

***Onlar mənim babalarımdır ey Cərir!***
***İnsanlar bizi bir araya gətirdiyi zaman,***
***Onların mislini mənə gətirin.***

Xülasə, nəsilləri Xatəmul-ənbiya və Əliyyul-Mürtəzaya (Allahın Salavat və salamı olsun onlara) yetişənlərdən başqa heç bir kəs şərəflə babalarının böyüklüyü və ucalığı ilə öyünə bilməz!».

**Hafiz:** «Dəliliniz, həqiqətən, yetərli və kamildir; bunu inadkar və təəssübkeş şəxslərdən başqa qətiyyən inkar edən olmaz. Pərdələri gözümüzün önündən qaldırdınız. Biz də nəticədə yararlandıq, belə ki, artıq böyük bir şübhə aradan qalxdı».

Bu əsnada, işa namazının vaxtını elan edən müəzzinin azan səsi eşidildi[1]. Sünni qardaşlar məscidə getmək və vacibi əda etmək üçün hazırlaşırdılar. Qardaşlardan bəziləri, «Əgər təkrar dönüb müzakirəyə davam etmək istəyirsinizsə, məscidə gedib-gəlmək çox vaxt aldığına görə, məclis davam etdiyi müddətdə işa namazının burada qılınması yaxşı olardı. Təkcə Seyid Əbdülhəy ağa (məscidin İmamı) məscidə gedib, camaatla namaz qıldıqdan sonra geri dönər» dedilər.

---

[1] Sünni qardaşlar şiələrin əksinə, vacib olaraq zöhrlə əsr və məğriblə işa namazlarını ayrı qılırlar. Lakin şiə, Rəsulallah (s) və onun pak Əhli-beytinə (ə) tabe olaraq cəm və ayrı qılmaqda muxtardır.

İrəli sürülən təklif hər kəs tərəfindən qəbul olundu. Qardaşlar namaz qılmaq üçün digər böyük bir otağa keçib, namazı əda etdikdən sonra təkrar bəhs yerinə döndülər[1].

**Nəvvab Əbdülqəyyum xan:** «Möhtərəm qardaşımız, icazənizlə ağalar çay içənə qədər mövzudan kənar bir söz soruşum».

**Dəvətçi:** «Buyurun, sizi dinləyirəm».

**Nəvvab:** «Sualım çox qısadır. Çoxdan bəridir ki, şiələrdən soruşmaq istəyirdim, lakin fürsət olmurdu; amma indi fürsət olduğundan qəlbimdəki bu sualı ərz etmək istəyirəm. Nə üçün şiələr Rəsulallahın (s) sünnətinə zidd olaraq, zöhrlə əsr və məğriblə işa namazlarını birlikdə qılırlar?».

## HƏZRƏT PEYĞƏMBƏR ZÖHRLƏ ƏSR VƏ MƏĞRİBLƏ İŞA NAMAZLARINI HƏM CƏM, HƏM DƏ AYRI-AYRILIQDA QILIRDI

**Dəvətçi:** «Əvvəla bunu söyləyim ki, ağalar da (məclisdəki alimlərə işarə) bilirlər ki, fiqhi məsələlərdə alimlər arasında ixtilaf çoxdur. Hər halda, sizin dörd məzhəb imamlarınız arasında da çox ixtilaflar vardır.

Sonra «şiələrin əməli Rəsulallahın (s) sünnətinə ziddir» şəklində buyurduğunuz sözə gəlincə, məsələni sizə yalnız bildirmişlər. Çünki O Həzrət (s) namazı bəzən cəm və bəzən də ayıraraq qılardı».

**Nəvvab:** (Öz alimlərinə tərəf dönüb) «Görəsən, Rəsulallah (s) həm təfriq (ayrı) və həm də cəm şəklindəmi namaz qılırdı?».

**Hafiz:** «Ümmətin zəhmətə və çətinliyə düşməməsi üçün sadəcə səfər, yağış və sair üzrlü vaxtlarda belə edirdi. Amma səfərdə olmadıqda, namazlarını daima təfriq şəklində əda edirdi. Deyəsən, cənabımız səfəri vətən sanıb, səhvə yol vermişdir».

[1] Əhz bu səbəbdən, işa namazını on gecə sürən münazirə müddəti ərzində məclisdə qılırdılar.

**Dəvətçi:** «Xeyir, yanılmamışam, buna yəqinim var; hətta öz rəvayətlərinizdə belə nəql olmuşdur ki, Həzrət Rəsulallah (s) bəzən vətəndə, heç bir üzrü olmadan, namazlarını cəm şəklində əda etmişdir».

**Hafiz:** «Deyəsən, şiə rəvayətlərini bizim rəvayətlərlə qarışdırırsınız».

**Dəvətçi:** «Şiə bu mövzuda (namazın cəm şəklində qılınması) ittifaq edib; söhbət sizin rəvayətlərdən gedir. Bir çox səhih rəvayətlər sizin səhih və mötəbər kitablarınızda bu babda varid olmuşdur».

**Hafiz:** «Mümkünsə, onların yerlərini bildirərdiniz».

**Dəvətçi:** «Müslim ibn Həccac «Səhih» kitabının «Əl-cəmu beynəs-səlatəyni fil Həzər» babında ravilərin silsiləsini nəql edərək İbn Abbasdan belə deyir:

***«Rəsulallah (s) zöhrlə əsr və məğriblə işa namazını, heç bir təhlükə və səfərdə olmadan, cəm halda qıldı».***

Yenə İbn Abbas belə nəql etmişdir:

***«Rəsulallahla (s) səkkiz rükət zöhrlə əsr və yeddi rükət də məğriblə işa namazlarını cəm halda qıldım».***

Eyni hədisi imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabının I cüzünün 221-ci səhifəsində nəql etmişdir. Digər bir hədis də İbn Abbasın belə nəql etdiyini deyir:

***«Rəsulallah (s) Mədinədə olduqda, səfərə çıxmadığı halda, bir dəfə səkkiz, bir dəfə də yeddi rükət namaz qıldı (yəni zöhrlə əsr və məğriblə işa namazını cəm halda əda etdi)».***

Müslim bu baxımdan bir neçə hədis nəql edir; o yerə qədər belə yazır: «Əbdullah ibn Şəqiq belə dedi: **«Bir gün əsr vaxtından sonra İbn Abbas bizə xütbə oxuyub, söhbət edirdi. Söhbəti o qədər uzun çəkdi ki, günəş batdı, ulduzlar çıxdı və camaatın; «Əs-səlat! Əs-səlat» (Namaz! Namaz!) səsləri ucaldı, amma İbn Abbas etina etmədi. Bu əsnada bəni-Təmim tayfasından olan bir şəxs yüksək bir səslə; «Əs-səlat! Əs-səlat!» - deyə qışqırdı. İbn Abbas cavabında belə dedi: «Anasız! Sünnəti mənəmi öyrətmək istəyirsən?! Mən ki, Rəsulallahın (s) zöhrlə əsr və məğriblə də işa namazlarını cəm halda əda etdiyini görmüşəm».**

Əbdullah deyir ki, onun bu sözündən qəlbidə bir vəsvəsə peyda oldu. Əbu Hureyrənin yanına gedib, bu məsələni ona söylədim, o da bunu təsdiq etdi və «**Bu məsələ İbn Abbasın söylədiyi kimidir**» dedi.

Yenə başqa bir mənbədə Əbdullah ibn Şəqiq Əqilidən belə nəql edir: «**Əbdullah İbn Abbasın söhbəti o qədər uzun çəkdi ki, artıq hava qaraldı; Bir nəfər üç dəfə ardıcıl olaraq «Əs-səlat»-deyə qışqırdı. İbn Abbas əsəbiləşərdi: «Anasız! Sən namazı mənə öyrədirsən?! Biz Rəsulallahın (s) zamanında iki namazı cəm edirdik».**

Yenə sizin böyük alimlərinizdən olan Zərqani, Malikin «Movta» kitabının şərhinin I cüzünün 263-cü səhifəsində, «Əl-cəmu bəynəs-səlatəyn» babında Əmr ibn Hirəmdən, o da Əbi Şəsa vasitəsiylə Nisaidən belə nəql edir: «**İbn Abbas Bəsrədə zöhrlə əsr və məğriblə işa namazını onların arasında bir fasilə vermədən, cəm edərək qılırdı və «Rəsulallah (s) namazı bu şəkildə əda edirdi» deyirdi**».

Yenə Müslim «Səhih» kitabında Malik Movtanın «əl-Cəmu bəynəs-səlatəyn» babında, imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında ravilərin silsiləsini Səid ibn Cübeyr, o da İbn Abbasdan belə dediyini nəql edir: «**Rəsulallah (s) zöhrlə əsr namazını Mədinədə, heç bir təhlükə və səfər olmadan, cəm edərək qıldı**».

Əbu Zübeyr belə deyir: «Səidə «**Nə səbəbdən Peyğəmbər (s) namazı cəm edib qılırdı?**» deyə soruşanda, belə cavab verdi: «**Mən də bu sualı İbn Abbasdan soruşdum, o da cavabında, «Çünki Peyğəmbər (s) ümmətinin əziyyətə, çətinliyə düşməsini istəmirdi**» dedi».

Yenə bir neçə Hədisdə İbn Abbasın belə dediyini nəql edirlər: «**Rəsulallah (s) zöhrlə əsr və məğriblə işa namazını heç bir qorxu və yağış olmadan, ara vermədən cəm etdi».**

Bu babda çox hədislər nəql olunmuşdur. Amma namazı cəm etməyin caiz olmasına dair daha aydın dəlil «Əl-Cəmu beynəs-səlatəyn» adıyla məlum olan bablardır. Cəm hədislərinin zikr edilən babda nəql edilməsi namazı cəm halda, ara vermədən qılmağın mütləq caiz olmasına bir dəlildir. Belə olmasaydı, o zaman hər biri (yəni vətəndə və səfərdə cəm etmək) üçün xüsusi bir bab ayırmaları lazım

gəlirdi. Sizin səhih və mötəbər kitablarınızda nəql olunan hədislərdə, namazın həm səfər və həmdə vətəndə cəm halda qılmağın caiz olması mövcuddur».

**Hafiz:** «Səhihi-Buxari» kitabında belə bir bab və bu cür rəvayət yoxdur!».

**Dəvətçi:** «Birincisi, Müslim, Nəsai və Əhməd ibn Hənbəl kimi səhih bildiyiniz kitab sahiblərinin «Səhihi-Müslim» və «Səhihi-Buxari»yə şərh verənlər və digər böyük alimlərinizin nəql etdikləri hədəf və məqsədimiz üçün yetərlidir. İkincisi, Buxari də digərlərinin nəql etdiyi rəvayətlərin eynisini öz «Səhih»ində zikr etmişdir. Lakin tam bir mənada öz yeri olan «Əl-Cəmu beynəs-səlatəyn» babını başqa bir yerdə nəql etmişdir. Əgər «Təxiruz-zöhr iləl-əsr min kitabi məvaqitis-səlat» və «Zikrul-işa vəl-ətəmə» və «Vəqtul-əğrib» bablarını oxuyub diqqət etsəniz, bu cəm hədislərinin hamısını görərsiniz.

Həmdə «Əl-Cəmu bəynəs-səlatəyn» babında izn və icazə ünvanıyla nəql edilən hədislər əhli-sünnət alimlərinin aqidəsidir, öz «Səhih» kitablarında bu hədislərin səhih olduğunu iqrar etmişlər. Bu səbəbdən Əllamə Nəvəvi «Səhihi-Müslim»ün şərhində, Əsqəlani, Qəstəlani və Zəkəriyyə Ənsari «Səhihi-Buxari» və Zərqani Malikin «Movta» kitabına yazdığı şərhdə, eləcə də sizin digər böyük alimləriniz hədisləri, xüsusən İbn Abbasın hədisini nəql etdikdən sonra onun səhihliyinə və ümmətin əziyyət və çətinliyə düşməməsi üçün bu hədislərin namazın vətəndə cəm halda qılınmasına aydın bir dəlil olduğunu etiraf etmişlər».

**Nəvvab:** «Rəsulallahdan (s) namazın cəm halda qılınmasına dair bəzi hədislərin yetişməsinə baxmayaraq, alimlərin onun hökmünə zidd əməl etmələri necə mümkün ola bilər?».

**Dəvətçi:** «Rəsulallahdan (s) yetişən hədislərə zidd əməl etmək, sadəcə bu mövzuya məxsus deyildir; daha sonra buna bənzər çox şeylərin mövcud olduğunu anlayacaqsınız. Xüsusi ilə bu mövzuda əhli-sünnətin fəqihləri ya dar düşüncələrindən, ya da bilmədiyim başqa bir səbəbdən o səhih hədisləri zahirən zidd sayaraq, əsassız təvillərlə dəyərdən salmışlar. Məsələn belə deyirlər: «**Bu hədislər ancaq təhlükə hiss olunduqda, yağış, sel və möhkəm külək kimi üzrlü vaxtlara aiddir».**

Bax, sizin imam Malik, imam Şafei və Mədinə alimlərindən bir qrup şəxslər də, o təvilə əsasən fitva vermişlər. Halbuki, belə bir əqidəni və fitvanı İbn Abbasın «**Heç bir qorxu və yağış olmadan**» hədisini aydın şəkildə rədd edir.

Bəziləri də belə demişlər: «**Yəqin hava buludlu imiş, vaxtı düzgün müəyyən edə bilməmişlər. Zöhr namazını qıldıqdan sonra buludlar çəkilib göy üzü açıldıqda, əsr vaxtının daxil olduğunu görmüş, ardınca əsr namazını qılmışlar. Bu səbəbdən zöhr və əsr namazı cəm halda, ara verilmədən qılınmışdır».**

Bu ibarədən daha zəif bir ibarə olduğunu güman etmirəm. Guya bu cür ibarə edənlər, namaz qılan şəxsin Rəsulallah (s) olduğunu düşünməmişlər. Buludun olub-olmaması Rəsulallah (s) üçün bir maneə ola bilməz. Çünki o Həzrətin (s) elmi, səbəblərə bağlı deyildir; O Həzrət bütün səbəb və nəticələri əhatə etmişdi. Belə dar düşüncəli insanların əllərində heç bir dəlil yoxdur! Belə bir ibarənin batilliyi, məğrib və işa namazının cəm olmasında sabitdir. Çünki məğrib və işa namazında buludun olub-olmamasının heç bir əsəri yoxdur; üstəlik belə bir ibarə hədislərin hazirinə də ziddir.

Ərz etdiyimiz kimi, İbn Abbasın xütbəsi o qədər uzun çəkdi ki, dinləyicilər uca bir səslə; «Əs-səlat» deyərək, ulduzların çıxdığını və namaz vaxtının yetişdiyini xatırlatdılar. Amma bununla belə, İbn Abbas qəsdən məğrib namazını işa namazının vaxtına saxlayıb, hər iki namazı bərabər qıldı. Əbu Hureyrə də Rəsulallahın (s) bu cür namaz qıldığını etiraf etmişdir. Əlbəttə, bu növ ibarələr bizim qarşımızda qəbulolunmazdır. Hətta böyük alimləriniz də bu ibarələri rədd etmiş və bunların, hədislərin zahirinə zidd olduğunu bildirmişlər. Bu səbəbdən böyük alimlərinizdən Şeyxul-İslam Ənsari «Töhfətul-bari fi şərhi Səhihil-Buxari» kitabının «Səlatuz-zöhr məəl-əsri vəl-məğribu məəl-işa» babında və 2-ci cildin 292-ci səhifəsində, eyni şəkildə Əllamə Qəstalani «İrşadüssari fi şərhi Səhihi-Buxari» kitabının II cüzünün 293-cü səhifəsində «Səhihi-Buxari»ni şərh edən digər şəxslər və sizin tədqiqatçı alimlərinizdən bir çoxları bu növ ibarələrin hədislərin

zahirinə zidd olduğunu bildirmişlər. Namazın təfriq olaraq qılınmasının vacibliyinə bağlılıq «Tərcihun bila murəccih və təxsisun bila müxəssis»dir[1].

**Nəvvab:** «Bəs, iki qrup müsəlman qardaşın bir-birinin canına düşməsinə, ədavət gözüylə bir-birlərinə baxmasına və bir-birlərinin əməllərini pisləməsinə səbəb olan bu ixtilaflar necə meydana gəlmişdir?».

**Dəvətçi:** «Birincisi, «Bu iki qrup müsəlman bir-birlərinə ədavət gözüylə baxır» dediyiniz sözə gəlincə, Əhli-beyt (ə) və risalət ailəsini, şiə camaatını müdafiə etmək məcburiyyətindəyəm. Çünki şiə camaatı qətiyyən əhli-təsənnün qardaşların alim və avamına ədavət və həqarət gözüylə baxmır; hətta onları öz qardaşlarımız bilirik. Amma əhli-təsənnün qardaşlar əcnəbi, xəvaric, nasibi və Əməvilərin əleyhimizə apardığı təbliğatın təsiri altına düşərək qiblə, kitab, nübuvvət, bütün vacib və müstəhəb əhkama əməl etmək, böyük günah və məsiyyətləri tərk etmək yönündə onlara ortaq olan şiə qardaşlarını rafizi, müşrük və kafir bilmiş, onları özlərindən ayırmış və ədavə gözüylə baxmışlar.

İkincisi, «Bu ixtilaflar nə cür meydana gəlmişdir?» – deyə buyurdunuz. Yanıqlı bir qəlblə ərz edim ki, bu ixtilafın təməlini qoyanın Allah canını alsın. İndi bu növ ixtilafların haradan qaynaqlandığını ərz edəcək bir vaxtımız yoxdur. İnşallah, sonrakı gecələrdə bəzi münasibətlər, daha doğrusu pərdələr qalxacaq, o zaman özünüz həqiqətin nə olduğunu anlayacaqsınız.

Üçüncüsü, namazın cəm və təfriq şəklində qılınmasına gəlincə, əhli-sünnət fəqihləri mütləqə və caizliyə dəlalət edən məzkur hədislərin ümmətin rahatlığı və əziyyətə düşməməsi üçün üzrlü vaxtlara aid olduğunu söyləmişlər. Amma bilmirəm onlar nə üçün belə əsassız fikirlər irəli sürür və üzr olmadan namazların cəm qılınmasını caiz bilmirlər. Hətta Əbu Hənifə və ona tabe olanlar namazı cəm halda qılmağı istər üzrlü, istər üzrsüz, istər vətəndə, istərsə də səfərdə olsun, qadağan etmişdir.

---

[1] «Tərcihun bila murəccih», iki tərəfi bərabər olan bir şeyin bir tərəfinə dəlil olaraq, digərinə üstünlük verməsinə deyilir. «Təxsisun bila müxəssis»də, dəlilsiz olaraq külli və xüsusi olan bir hökmü məlum vəziyyətə və ya bir fərdə məxsus etəyə deyilir.

Lakin Şafei, Maliki və Həmbəlilər bütün üsul və füruda ixtilafları olmalarıyla bərabər, Həcc və Ümrə kimi mübah olan səfər və döyüşlərdə namazın cəm olaraq qılınmasına izn vermişlər.

Lakin şiə alimləri Rəsulallahın (s) göstərişiylə, haqq və batili bir-birindən ayıran və Qiyamət gününə qədər Qurandan ayrılmayan Həzrət Peyğəmbərin (s) bütün günahlardan uzaq olan Əhli-beytinə (ə) tabe olaraq, namazın istər səfərdə, istər vətəndə, istər üzrlü, istərsə də üzrsüz olsun, cəm halda qılınmasının caiz olduğu hökmünü vermişlər.

Cəm halda namaz qılmaq, namaz qılanın ixtiyarındadır; yəni namaz qılan bir şəxs zöhrlə əsr və məğriblə işa namazını, rahatlıq üçün cəm halda, bir vaxtda və ya təfriq halda, fəzilət vaxtlarında qılmaqda ixtiyar sahibidir. Əlbəttə, təfriq halda, ayrı olaraq və fəzilət vaxtlarında qılınması cəm halından daha fəzilətlidir. Bu məsələ şiə alimlərinin fiqh kitablarında kamil bir şəkildə zikr edilmişdir. Lakin ümumilikdə xalqın işinin çoxluğu və sıxıntıları nəzərə alınaraq, müqəddəs İslam şəriətinin Hədəfi də xalqı əziyyət və məşəqqətə salmamaq olduğundan, şiələr namazlarını cəm qılırlar.

Bizə qəzəb və kinlə baxan digər əhli-sünnət qardaşların ağıllarına gələn şübhəli sualların aydınlıq tapması üçün dediyim bu cavabların yetərli olacağını hesab edirəm. Qarşıda daha əhəmiyyətli mövzular haqqında bəhs ediləcəyinə görə, əvvəldəki müzakirəmizə qayıtmaq yaxşı olardı. Çünki əsl əhəmiyyətli məsələlər həll olduqda, cüzi məsələlər də öz həllini tapacaqdır».

**Hafiz:** «Birinci gecədən qardaşımızın nə dərəcədə yüksək məlumatlı olduğunu, aramızda onunla müqayisə edəcək bir kəsin olmadığını və kitablarımızdan kamil şəkildə xəbərdar olduğunu anladıq. Bu səbəbdən, çox şad olduq. Buyurduğunuz kimi, bəhs edilən mövzunu davam etdirməniz yaxşı olardı.

İcazənizlə bunu demək istərdim ki, siz fəsih və bəlağətli bir bəyanla Hicazi və Haşimilərin belə pak bir nəslə sahib olduqlarını sabit etdiniz. Necə oldu ki, Məcusi (*atəşpərəst*) mərkəzi olan İrana gedərək orada məskunlaşdınız? Bu hicrətin səbəb və tarixindən bəyan etsəydiniz, çox şad olardıq».

# SEYİD ƏMİR MƏHƏMMƏD ABİD

**Dəvətçi:** «Babalarımızdan İrana Hicrət edən ilk şəxs yeddinci imam Həzrət Museyi-Kazımın (ə) oğlu Həzrət Seyid Əmir Məhəmməd Abid olmuşdur. O, fəzilətli, təqvalı və çox ibadət etdiyinə görə, «Abid» ləqəbiylə məşhur olmuşdur. Bütün ömrünü gecələri namaz qılmaq və gündüzləri oruc tutmaqla keçirmiş, Kəlamullahı (Allahın kəlamı olan Qurani-kərimi) yazmağı çox sevərmiş. O, yazdığı müqabilində aldığı zəhmət haqqıyla çox sayda kölələr alıb, azad etmişdir. Mübarək məzarı indiyə qədər Şirazda bütün xalqın ziyarətgahıdır. Məqbərəsi çox gözəl bir şəkildə tikilmişdir. Mübarək qəbrinin ətrafında qəbrin ziyarətçilərinin izdihamı qarşısında qorunması və ayaq altında qalmaması üçün Nəsrəddin Şah Qacarın əmisi oğlu mərhum Hacı Fərhad Mirzə Mötəmədud-dövlənin oğlu Şahzadə Uveys Mirzə Mötəmədud-dövlətis-sani gümüşdən çox gözəl bir zireh[1]düzəltdirmiş və ziyarətçilərin ibadət və camaat namazı qılınan yeri və mütəhhhər hərəmini də kiçik aynalarla bəzətmişdir. Xüsusən, fars xalqı o mübarək məkana daha çox maraq göstərir. Rəsulallahın (s) pak Əhli-beyti (ə) və tövsiyə etdiyi kəslərdən olan o məqbərə sahibinin əzəmətli ruhu vasitəsiylə Allahın lütf və ehsanına yetişirlər».

**Hafiz:** «Onun Hicazdan Şiraza hicrət etməsinə nə səbəb olmuşdur?».

# HAŞİMİ SEYİDLƏRİNİN MƏDİNƏDƏN HƏRƏKƏTİ VƏ QƏTLƏĞ XANLA DÖYÜŞÜ

**Dəvətçi:** «Hicazdan Şiraza getmək fikrində deyildilər. Hicri-qəməri tarixiylə II əsrin sonunda Abbasi xəlifəsi olan Məmun Rəşid imam Əli (ə) ibn Musa (ə) ər-Rizanı məcburən öz vəliəhdi elan edib, xilafət mərkəzi olan Tusa apardı. Beləliklə, bir müddət o Həzrətlə qardaşı bir-birlərindən uzaq düşdülər. İmamı (ə) ziyarət etmək şövqi qardaşlarını hərəkətə gətirdi. Məktub vasitəsiylə imam Riza (ə) və

---

[1] Məzarın ətrafında qoyulan şəbəkəli böyük sandıq.

xəlifə Məmun Rəşiddən Tusa gəlmək üçün izn istədilər. Hiyləgər xəlifə onların hamısının gəlməsinə icazə verdi.

Möhtərəm seyid Əmir Əhməd[1], bizim böyük cəddimiz olan dəyərli insan seyid Əmir Məhəmməd Abid, əziz qardaşı seyid Əlauddin Hüseyn, əmisi oğlanları qohum və dostlarıyla birlikdə imam Rizanı (ə) ziyarət etmək məqsədi ilə Hicazdan Tusa doğru yola düşdülər[2]. Yol boyunca şiə və risalət ailəsinə məhəbbətləri olan kəslərdən bir çox dəstə də müəzzəm seyidlərin karvanına qoşuldu.

Qeyd olunduğuna görə, Şirazın yaxınlığına yetişdikdə karvanda təqribən kişi və qadınla birlikdə 15000 nəfər olublar. Şəhərlərin məmur və hakimləri belə böyük bir karvanın yetişdiyi xəbərini Məmuna bildirirlər. Məmun, bəni-Haşim və dostlarından ibarət belə bir insan cəmiyyətinin Tusa yetişməsinin xilafət məqamının sarsılmasına səbəb olacağından qorxur. Buna görə də, bütün şəhərlərin valilərinə belə bir əmr verir: «Bəni-Haşim karvanı hara yetişərsə, hərəkət etmələrinə mane olun və onları Mədinəyə doğru geri qaytarın».

Amma karvan Şiraz şəhərinə çatmamışdan əvvəl hökm o şəhərin valisinə yetişdi. Şiraz şəhərinin çox ciddi və müqtədir[3] hakimi olan Qətləğ xan, qırx min nəfərlik bir orduyla Şirazın səkkiz fərsəxliyində (hər fərsəx 5500 metrdir) – Xanzəniyanda yerləşdilər. Bəni-Haşim karvanı oraya yetişər-yetişməz, Qətləğ xan imam (ə) övladlarına belə bir xəbər göndərdi: «Ağalar, xəlifənin əmrini gördükdə, buranı tərk edib geri dönməlisiniz».

Seyid Əmir Əhməd cavabında belə buyurdu: «Əvvəla, bizim bu səfərdə hədəfimiz qardaşımız imam Rizanı (ə) görməkdir. İkincisi, biz iznsiz gəlməmişik, xəlifənin özündən izn aldıq və onun əmriylə yola düşdük».

Qətləğ xan cavabında belə dedi: «Bizə hərəkətinizə mane olmaq əmri verilib. Xəlifə bəzi səbəblərə görə ikinci bir əmr vermişdir ki, bu əmrin icra olunması lazımdır. Buradan geri dönmək məcburiyyətindəsiniz».

Möhtərəm seyid Əmir Əhməd qardaşları, bəni-Haşim və dostlarıyla məsləhətləşdilər. Amma onlardan heç biri geri dönməyə razı olmadı. Sübh çağı

---

[1] «Şahçırağ» adı ilə məşhur olmuşdur.
[2] O zaman Tus şəhərinə gedib-gəlmək üçün edilən səfər, xüsusilə Küveyt, Bəsrə, Əhvaz, Buşehr və Şiraz yoluyla idi.
[3] «Qüdrətli», «güclü», «bacarıqlı» mənalarını ifadə edir.

karvan hərəkət etmək istədikdə, ehtiyat edərək qadınları karvanın arxasına keçirtdilər. Köç təbili çalınmamış, Qətləğ xan ordusuyla onların yolunun qarşısını kəsdi. Artıq məsələ əməl mərhələsinə keçdi. Çox şiddətli, qanlı bir döyüş başladı, Qətləğ xanın ordusu bəni-Haşimin həmləsi və şücaəti qarşısında məğlub olub, dağıldılar.

Sonra bu səbəbdən seyid Əmir Əhməd gecə ikən qardaş və qohumları ilə birlikdə başqa bir yolla Şiraza doğru hərəkət etdilər. Əhməd ətrafdakıları «Düşmən bizi təqib edir. Ələ keçməmək üçün müxtəlif geyimlərdə sağa-sola dağılmağınız daha yaşı olar» dedi.

İmamın (ə) övladları bu tövsiyəyə əməl edərək, elə o gecə şəhərin ətrafına dağıldılar[1]. Əmir Əhməd, seyid Əmir Məhəmməd Abid və seyid Əlauddin Hüseyn Şiraza gedib, tanınmayacaq geyimdə bir-birlərindən ayrıldılar. Hər biri bir guşəyə çəkilib, ibadətlə məşğul oldu.

## SEYİD ƏMİR ƏHMƏD (ŞAHÇIRAQ)

Seyid Əmir Əhməd imam Rizanın (ə) şəhadətindən sonra elm, zöhd[2], vərə[3] və təqvada imam Museyi-Kazımın (ə) otuz səkkiz nəfər oğlan və qızdan ibarət övladının ən fəallarından idi. İmam Kazım (ə) min dinara satın aldığı Sərriyə adlı bir bağı ona hədiyyə etmişdi. Böyük ehtirama sahib olan bu imamzadə həyatında min kölə alıb, Allah yolunda azad etmişdi.

Şiraza yetişdikdə, Sərəzdək məhəlləsində[4] Əhli-beyti (ə) sevən dostlarından birinin evində məskunlaşıb, gecə-gündüz ibadətlə məşğul oldu. Fars valisi Qətləğ xan tərəfindən imamzadələrin axtarılması üçün şər tərəfdə casuslar müəyyən edildi. Nəhayət, bir ildən sonra cənab seyid Əmir Əhmədin yerini bilərək, hökümətə xəbər verdilər. Hökümət də, o həzrəti tutmaq üçün çoxlu sayda əsgər göndərdi.

---

[1] Deyirlər ki, irandakı imamzadələrin əksəriyyəti, o hərəkatda sağa-sola dağılanlardır.
[2] «Pəhrizkarlıq», «vaxtını ibadətə sərf etmə» mənalarını ifadə edir.
[3] «Haramlardan çəkinmə» deməkdir.
[4] Məzarın indiki yeri.

# SEYİD ƏMİR ƏHMƏDİN DÖYÜŞÜ VƏ ŞƏHADƏTİ

Seyid Əmir Əhməd o zalım qövmə qarşı təkbaşına mübarizə apararaq elə cəsarətli davrandı ki, min yüz ildən sonra, elə indinin özündə də tarixi şəxsiyyətlərin ibrət və həsədlərinə səbəb oldu. Nəhayət, ona kömək gəlmədiyini gördükdə, qonşunun evinin divarını dəlib, o həzrətin sığındığı evə girdilər. Həzrət döyüşdən yorulduqda, bir az nəfəs alıb, təkrar döyüşürdü. Divara söykənib nəfəs aldığı vaxt, arxadan başına bir qılınc endirdilər, eyni zamanda digər bir dəstə də evi sökməklə məşğul idi. Bu səbəbdən, mübarək bədəni torpaq qalıqları altında gizli qaldı. O xaraba ev şəhər əhalisi tərəfindən böyük viranəyə çevrildi. Çünki Şiraz şəhərinin camaatının çox az bir hissəsi mövcud hakimiyyətə müxalif idi. Hicri VII əsrin əvvəllərinə qədər, yəni Fars səltənəti Atabək Əbubəkr ibn Səd Müzəffiruiddin şahın əlinə keçənədək, mübarək bədəni o qalıqlar altında gizli qaldı. Müzəffiruiddin şah saleh bir padşah idi. Otuz altı il dava edən səltənət dövründə zahid, abid, alim və fəzilətli şəxslərə qarşı ehtiram və mütəhhər İslam şəriətini yaymaqda çox səylər göstərmişdi. «İnsanlar padşahların dini üzrədirlər» babından Fars məmləkətinin bütün vəzir və böyük şəxsiyyətləri pak İslam şüarını qoruyan kəslərdir.

Atabək Müzəffüruiddin şahın yaxın vəzirlərindən biri də Əmir Müqərrəbuiddin Məsud ibn Bədruddin idi. Bu vəzir, abadlığa və rifaha çox meyilli olan bir şəxs idi. Bu səbəbdən, Şiraz şəhərinin ortasında pis bir görkəm alan o uçuq Evin yığılıb-təmizlənməsi və yerində böyük bir bina tikilməsini əmr etdi. Bu işlə əlaqədar çoxlu sayda işçi qüvvəsi oradakı torpaq və başqa qalıqları şəhərin kənarına daşımağa başladılar.

Bir gün iş əsnasında başından zədə almış bir insanın cəsədinin qalıqlar altında qalmış olduğunu görüb, bu məsələni hökümətə bildirirlər. Baş vəzir və bir qrup digər məmurlar bu hadisənin nə olduğunu öyrənmək, təftiş etmək məqsədiylə oraya gəldilər.

## ŞAHÇIRAĞIN CƏSƏDİNİN TAPILMASI

Uzun sürən təftişdən sonra o gəncin cisminin tanınmasına səbəb olan tək şey barmağındakı üzük qaşına yazılmış olan buy azı oldu: «Əl izzətu lillah Əhməd ibn Musa». O məkanda Haşimi gəncinin döyüşüb şəhid olması çox məşhur olduğuna görə cəsədin, ehtiramı fərz olan imamzadə seyid Əmir Əhməd ibn Kazımın (ə) mübarək cəsədi olduğunu bilirlər. Təqribən üzərindən 400 il keçməsinə baxmayaraq, o mübarək bədəninin çürüməməsi, görənləri heyrətə saldı və bir dəstə müxaliflərin də bəsirətləşmələrinə səbəb oldu.

Atabək Müzəffüruiddin şah və vəziri-əzəmin əmriylə cəsədin tapıldığı yerdə gözəl bir türbə tikirlər. O mübarək cəsədi böyük bir ehtiramla, alim və böyük şəxsiyyətlərin müşayətilə qəbirə qoyurlar. Xalq bu türbəyə olduqca böyük ehtiram göstərir. Atabək Müzəffüruiddin şah hicri 658-ci ildə vəfat edir. Hicri 750-ci ildə Şiraz və fars səltənəti İshaq ibn Mahmud şahın əlinə keçir. Çox saleh və xeyirxah bir qadın olan şahın anası Mələykə Taşi Xatun o həzrətin türbəsini çox gözəl bir şəkildə təmir etdirir, qəbrin üzərində gözəl bir günbəzli məqbərə ucaltdırır. Şiraz şəhərinin on səkkiz fərsəxində yerləşən Məyənd qəsəbəsini də o mübarək məkana vəqf edir. Hal-hazırda da, o qəsəbə mövcuddur. Məyməndin gül suyu dünyada məşhurdur.

## SEYİD ƏLAUİDDİN HÜSEYN

Seyid Əlauiddin Hüseyn imam Museyi-Kazımın (ə) digər bir oğludur. Əziz qardaşıyla Şiraza gəlib, o şəhərin bir guşəsinə sığınaraq, gecə-gündüz ibadətlə məşğul olurdu. O yaxınlarda Qətləb xanın böyük bir bağçası var imiş. Bir gün Həzrət o bağçanın bir guşəsində təfərröc[1] etdikdə, onu tanıyırlar. Həmin yerdə onu şəhid edib, Quran əlində olduğu bir halda torpağa basdırırlar.

Bu hadisənin üzərindən illər keçir. Qətləğ xan ölür və o bağça viran olur. O şərəfli seyiddən Səfəvilər zamanına qədər bir əsər tapılmır. Səfəvilər zamanında bu

[1] Açılmaq, qəm və qüssəni dağıtmaq.

xaraba bağçada bina tikərkən bədəni çürüməmiş, qana boyanmış, bir əlində Quran, digər əlində isə qılınc olduğu halda torpaq altından bir cəsəd çıxarırlar. Mövcud olan əlamət və cizgilərlə bu cəsədin imam Musa (ə) ibn Cəfərin (ə) şəhid oğlu seyid Əlauiddin Hüseynin mübarək cəsədi olduğunu bilirlər. Həmin bağçada onu dəfn edirlər və Qətləğ xan[1] da, o qəbrin üzərində türbə tikdirir.

Müəyyən illər keçdikdən sonra Mirzə Əli Mədəni Mədinədən imamzadələrin ziyarətinə[2] gəlir. Çox dövlətli olduğuna görə, o mübarək qəbrin üzərində gözəl bir məqbərə tikdirir. Çox sayda mülk və bağçalar alıb, o mübarək məkana birləşdirir. Vəfat etdikdən sonra o mərhumu da həmin müqəddəs yerdə dəfn edirlər. Mərhum şah İsmayıl zamanında o qəbir gözəl bir şəkildə təmir edilir; indiyə qədər bütün fars xalqının ziyarətgahı və maraq göstərdikləri müqəddəs bir yerdir.

Bəziləri möhtərəm seyidin nəslinin davamı olmadığını, bəziləri də nəsnin davam edib, yalnız sonradan kəsildiyini yazırlar. Mərhum seyid Əmir Əhmədin oğlu yox, yalnız əfifə və salihə bir qızı var idi. Bu məsələ «Umdətut-talib fi ənsabi Əli Əbu Talib» kitabında mövcuddur. Bəziləri də oğlunun olduğunu yazırlar.

## İBRAHİM MÜCAM

Seyid Əmir Məhəmməd Abidə gəlincə, o da kənara çəkilib ibadətlə məşğul olur. Beləcə, təbii əcəli ilə dünyadan köçür. Çox dəyərli övladları varmış. Elm, zöhd, vərə və təqva baxımından onların hamısından ən üstün olanı ayıqlıqda Əmirəl-möminin Həzrət Əli (ə) kimi şəxsiyyətin salamının cavabı iftixarına nail olan və buna görə də «Mücab» ləqəbiylə məşhur olan seyid İbrahim Mücabdır.

Seyid İbrahim Mücab dəyərli atasının vəfatından sonra mütəhhər cədlərinin, xüsusən mübarək məzarı yeni tapılan və o zamanda böyük bir şöhrətə yol açan

[1] Qətləğ, qədim türk dilində «böyük» deməkdir. Qədim zamanlarda padşah tərəfindən bəzi hakim və böyüklərə «Qətləğ» ləğəbi verilirdi. Bu səbəbdən Monqollar İranda qələbə çaldıqdan sonra Oqtay, «Qətləğxan» ləğəbin onlara qarşı müxalifət etməyən Atabək əzəm Muzəffüruiddin Əbubəkr ibn Sədi Zəngiyə verdi. Seyid Əlauiddinin məzarını yad edən Qətləğ xan, Məmun tərəfindən fars valisi olan və imamzadələrlə döyüşən Qətləğ xan deyil.

[2] Şiələrin Qumdakı Həzrət Məsumənin (ə.s) ziyarətinə getdikləri kimi, Şirazdakı Rəsulallahın (s) nəvəsi olan imamzadənin də ziyarətinə getmələri yaxşı olardı. Onları ziyarət etmək böyük savabdır.

Həzrət Əlinin (ə) qəbrini ziyarət etmək üçün o müqəddəs ziyarətgahlara doğru hərəkət edir».

**Hafiz:** «Əmirəl-möminin həzrət Əlinin (ə) (kərəməllahu vəchəhu) məzarı o zamana qədər necə imiş ki, yüz əlli ildən sonra kəşf oldu?».

**Dəvətçi: «**Əmirəl-möminin həzrət Əlinin (ə) şəhadəti Müaviyənin xilafəti və bəni-Ümməyyənin azğınlığı zamanında vaqi olduğuna görə, Həzrətin vəsiyyəti ilə onun mübarək cismini gecə ikən, gizli bir şəkildə dəfn etdilər. Hətta qəbrin üzərində bir əlamət belə qoymadılar. O həzrətin (ə) əshab və övladlarından çox az hissəsi dəfndə iştirak etdilər. Ramazan ayının 25-ci gününün səhəri vəziyyətin düşmənlərə şübhəli olması və həzrətin (ə) qəbrinin yerini bilməmələri üçün iki məhməl[1] bağlayıb birini Mədinəyə, digərini də Məkkeyi-müəzzəməyə doğru göndərdilər. Bu səbəbdən həzrətin (ə) mübarək məzarı uzun illər gizli qaldı. O həzrətin (ə) övladları və məxsus əshablarından başqa, heç bir kəs İmamın (ə) qəbrinin yerini bilmirdi».

**Hafiz:** «Belə bir vəsiyyətin və qəbrin yerini gizli saxlamağa israr etmənin səbəbi nə idi?».

**Dəvətçi:** «Ola bilər, dinsiz bəni-Ümməyyənin qorxusundan idi. Çünki onlar tağı[2], yağı və xüsusən Peyğəmbər (s) Əhli-beytinə (ə) buğz[3] edən insanlar idi. Həzrətin (ə) mübarək qəbrinə ədəbsizlik edilməməsi və bu zülmün digər bütün zülmlərdən daha pis olması mümkün idi».

**Hafiz:** «Bun ə sözdür? Bir müsəlman öldükdən sonra düşmənçilik ortada qalsa belə, onun qəbrinə çirkin bir əməl etmələri mümkündürmü?».

## BƏNİ-ÜMƏYYƏNİN ÇİRKİN ƏMƏLLƏRİ

**Dəvətçi:** «Qardaşlar, məgər bəni-Üməyyənin çirkin tarixinə baxıb, onların iyrənc əməllərini görmədinizmi? Bu şəcərənin məlun, əxlaqsız tayfası müsəlmanların idarə edənləri və əmirləri olduqları gündən müsəlmanlar arasında

[1] Məhməl – dəvə üzərinə bağlanılan bir daşıma sandığı və ya səbət.
[2] «Azğın» deməkdir.
[3] «Sevməyən», «nifrət edən» mənaların ifadə edir.

zülm, təcavüz və pozğunluq qapısı açılmışdı. Etdikləri zülm qalmadı; nə qədər qan tökdülər, nə qədər namusa təcavüz etdilər! Bu heysiyyətsiz, rəzil qövm heç bir şeyə bağlı deyildi. Böyük alim və tədqiqatçılarınız da onların çirkin və pis əməllərini böyük bir kədərlə öz kitablarında qeyd etmişlər».

## ZEYD İBN ƏLİNİN (Ə) ŞƏHADƏT VAQİƏSİ

Böyük alimlərinizdən olan Əllamə Muqrizi Əbul Abbas Əhməd ibn Şafei «Ən-niza vət-təhasum Fima beynə bəni-Haşim və bəni-Üməyyə» adlı məşhur kitabında onların çirkin əməl və işlərini geniş bir şəkildə izah etmişdir: «Onlar ölü və diri tanımırlar». Misal olaraq iki önəmli tarixi hadisəni açıqlamaqla, bu qövmün –Bəni-Üməyyənin etdikləri çirkin cinayətlərdən bir neçəsin hüzurunuza ərz edim.

Təəccüblənməyin qardaşlar, bilin ki, söyləyəcəklərim sənəd və əsas üzrədir. Bu önəmli hadisə Həzrət Zeyd ibn Əli (ə) ibn Hüseyn (ə) və oğlu Yəhyanın şəhadətidir. Hər iki məzhəbin-şiə və əhli-sünnətin bütün tarixçiləri bu cür yazmışlar: «Hişam ibn Əbdülməlik ibn Mərvan Hicri-qəməri 105-ci ildə xilafətə yetişdi. Zülm və təəddi[1] əməlini artırdı. Özü və ona tabe olanlar xüsusilə bəni-Haşimə zülm və əzab verməkdə ən son həddə yetişdilər.

Nəhayət Zeyd ibn Əli (ə) – o yeganə şərif, alim, abid, zahid, fəqih və mütdəqi insan təzəllüm[2] üçün Şama – xəlifənin yanına getdi. Rəsafədə Hişamla görüşdü. Həzrət nə üçün gəldiyini bəyan etməzdən əvvəl Hişam Rəsulallahın (s) bədəninin bir parçası, nəslindən olan bir müsafiri qarşılamaq, yardım etmək və ehtiyaclarını öyrənmək əvəzinə, onu dinləmədən, sərt bir şəkildə, dilə gəlməyən çirkin sözlərlə, təhqirlərlə və əzab verməklə xilafət sarayından qovdu.

Buna görə də, bizim və sizin böyük tarixçilərimiz, məsələn: imam Məsudi «Mürəvvicuz-zəhəb»in II cildində, Əllamə Muqrizi «Ən-niza vət-təhacum Fima beynə bəni-Haşim və bəni-Üməyyə» İbn Əbil-Hədid Mötəzili «Şərhi Nəhcül-bəlağə» kitabında və digər şəxslər müfəssəl olaraq yazırlar ki, Zeyd ibn Əli (ə) ona

[1] «İnsafsızlıqda həddi aşma» deməkdir.
[2] Zülmdən şikayət etmək.

yönələn təhqirlərdən, dəyən ağır zərbələrdən və xəlifənin yanından qovulduqdan məcburən Şamdan Kufəyə getdi. Zülmü yox etmək üçün Əməvilərin əleyhinə bir hərəkat yaratdı.

Kufə şəhərinin hakimi olan Yusif ibn Ömər Səğəfi böyük bir orduyla o hərəkatı məhv etmək üçün mübarizəyə başladı. O həzrət də Haşimi bir şücaət və cəsarətlə bu şerləri oxuyub döyüşürdü:

***Zillətli həyat və izzətli ölüm***
***Hər ikisini də çətin və şiddətli görürəm.***
***Onlardan birini seçmək məcburiyyətində olsam***
***İzzətli ölümə doğru getməyim daha gözəldir.***

Bu anda düşmən tərəfindən bir ox Həzrətin mübarək alnına sancıldı və beləliklə, şəhadət şərbətini içərək, Liqaullaha qovuşdu. O Həzrətin oğlu Yəhya şiələrlə birlikdə qarışıqlıqdan istifadə edərək, atasının mübarək bədənini gizli bir şəkildə götürüb şəhərin kənarındakı bir noxurun içərisində qəbir qazıb, dəfn etdilər. O həzrətin qəbrinin harada olduğunu bilməmələri üçün noxurun suyunu qəbrin üzərinə axıtdılar. Amma Yusif Səqəfinin mufsid[1] casusları bu hadisəni ona çatdırdılar. Bundan sonra Yusif Səqəfi qəbrin açılması və cəsədin məzardan çıxarılmasını əmr etdi. Qəbir açıldı və o həzrətin başını bədənindən ayırıb, Hişam üçün Şama göndərdilər. O nanəcib, naəsl və məlun Kufə hakimi olan Yusif Səqəfiyə, Zeydin bədənini üryan olaraq dar ağacından asmalarını əmr etdi. O məlunlar da Hişamın əmrini yerinə yetirərək, səfər ayı Hicri-qəməri tarixi ilə 121-ci ildə Rəsulallahın (s) zürriyətinin bədənini çılpaq şəkildə ağacdan asdılar. Peyğəmbərin (s) bədəninin bir parçası olan o alim və zahidin bədəni 4 il ağacda asılı qaldı. 126-cı ildə Vəlild ibn Yezid ibn Əbdülməlik ibn Mərvan xilafətə yetişdikdə, o həzrətin sümüklərini dar ağacından endirilib yandırılması və sonra da külünün havaya sovrulmasını əmr etdi, tabeliyində olanlar da bu əmri icra etdilər.

---

[1] «Fəsad» sözündən götürülüb. Ərəb sözü olub, «fəsad törədən», «fitnəçi», «araqarışdıran» deməkdir.

# CƏNAB YƏHYANIN ŞƏHADƏTİ

O məlun Vəlid ibn Yezid eyni əməli Xorasan şəhərlərindən biri olan Cürcanda[1] Yəhya ibn Zeyd ibn Əli ibn Hüseynin (ə) mübarək bədəninə qarşı tətbiq etdi. Çünki o həzrət də bəni-Üməyyənin zülmünə qarşı qiyam etdi (bunun tarixi çox geniş surətdədir) və döyüş meydanında şəhid oldu. Onun başını bədənindən ayırıb, Şama göndərdilər; mübarək bədənini, atasının bədəni kimi dar ağacından asdılar və 6 il ağacda asılı qaldı. Dost və düşmən o həzrətin halına ağlayırdı. Vəlid Cəhənnəmə vasil olduqdan sonra bəni-Abbas tərəfindən bəni-Üməyyənin əleyhinə qiyam edən Əbu Müslim Xorasani Rəsulallahın (s) zürriyətinin bədənini zülm ağacından qurtarıb, Cürcanda dəfn etdi. İndiyə qədər mübarək qəbri bütün müsəlmanların ziyarətgahı və ehtiram göstərdikləri müqəddəs bir yerdir (məclisdə olanlar bu acı vaqiəni eşitdikdə təsirləndilər; bəziləri də özlərindən asılı olmayaraq ağlayıb, o lənətlilərə lənət oxudular).

Bu səbəbdən, misal olaraq zikr etdiyimiz cinayətləri edən xəbis ailənin əlinə Əmirəl-möminin həzrət Əli (ə) ibn Əbu Talibin (ə) mübarək bədəni keçsəydi, o Həzrətin cismilə də eyni şəkildə davranacaqdılar və bu əməl, onlar tərəfindən gözlənilirdi də.

Buna görə də İmam (ə) vəsiyyətinə əsasən, cənazəsi gecə ikən dəfn edildi və qəbrin üzərində heç bir əlamət qoyulmadı və Abbasi xəlifəsi Harun Rəşidin zamanına qədər gizli qaldı.

Bir gün Harun Rəşid xidmətçiləri ilə birlikdə qamışlıq və ceyranların mövcud olduğu yer olan Nəcəf çölünə ova çıxıb, tazı[2] və parslarla[3] ceyranları təqib edirdi. Ovlar Təllü-Nəcəfə[4] sığındılar; amma tazı və parslar Təllü-Nəcəfin üzərinə çıxmadılar. Bu əməl bir neçə dəfə təkrarlandı; yəni tazılar geri qayıtdıqda, ceyranlar təpədən aşağı enir, təqib edildikdə isə, təkrar o təpəyə sığınırdılar. Xəlifə

---

[1] Hal-hazırda «Qorqan» adlandırılır.
[2] Ov itinə deyilir.
[3] Pələngə oxşayan yırtıcı heyvan.
[4] «Nəcəf», lüğətdə suyun yetişdiyi təpəyə deyilir. Nəcəf Selin ev və məzarlara mane olan Kufənin arxasındakı su bəndinin adıdır. Həzrət Əlinin (ə) məzarı o bəndin yaxınlığındadır. Bu səbəbdən, Fiyruz Abadi Qamusun da Nəcəfi bu şəkildə məna etişdir.

tazıların təpənin üzərinə çıxmadıqlarını gördükdə, o yerdə bir sirr olduğunu düşündü. Xidmətçilərinə yerli camaatdan yaşlı bir adamı onun hüzuruna gətirmələrini əmr etdi. Bir ağsaqqal tapıb gətirdilər. Xəlifə o adamdan «Bu təpədə nə sirr vardır ki, tazılar ceyranların ardınca onun üzərinə çıxmırlar?» - deyə soruşdu.

## HƏZRƏT ƏLİNİN (Ə) QƏBRİNİN AŞKAR EDİLMƏSİ

Qoca cavabında «Mən sirrini bilirəm, lakin söyləsəm, həyatım əldən gedər» dedi. Xəlifə təminat verdikdən sonra ağsaqqal sözə başladı: «Atamla birlikdə buraya gəldik. Atam bu təpənin üzərini ziyarət edib, orada namaz qıldı. Atamdan «Burada nə var?» - deyə soruşdum. Atam cavabında belə dedi: «Biz, imam Cəfər Sadiqlə (ə) birlikdə buranı ziyarətə gəldik. İmam  (ə) «**Bura cəddimiz Əli ibn Əbu Talibin (ə) məzarıdır, bu yaxında aşkar olacaqdır**» buyurdu.

Xəlifə o yerin qazılmasını əmr etdi. Oranı qazanda, qəbir əlamətinə oxşar lövhə çıxdı. Orada iki sətir səryani yazısıyla yazılan bir lövhə gördülər. Lövhədəki yazını tərcümə etdikdə, bu sözlərin yazıldığı məlum oldu: «**Bu Nuh Peyğəmbər tərəfindən tufandan 700 il əvvəl Məhəmmədin (s) vəsisi olan Əli üçün qazdığı qəbirdir».**

Harun bunu gördükdə, o qəbrə çox ehtiram göstərdi; torpaqları təkrar öz yerinə tökmələrini əmr edib, özü də dəstəmaz alandan sonra aşağı endi. İki rükət namaz qıldı, çox ağladı və özünü o mütəhhər qəbrin üzərinə atdı. Daha sonra Həzrət Musa (ə) ibn Cəfərin (ə) hüzuruna bir məktub yazaraq, bu hadisənin o Həzrətdən öyrənilməsini əmr etdi. Həzrət onların suallarının cavabında belə yazdı: «**Bəli, ora cəddim Əmirəl-möminin həzrət Əlinin (ə) qəbridir**».

Harun qəbrin üzərində daşla bir bina tikilməsini əmr etdi. Bu bina «Təhciri-Harun» adı ilə məşhur oldu. Daha sonra bu xəbər digər şəhərlərə yayıldı. Möminlər dörd bir tərəfdən səfər edib, o həzrətin (ə) ziyarətinə axışdılar. Bu səbəbdən seyid İbrahim Mücab da fürsət tapıb, Şiraz şəhərindən həzrətin (ə) ziyarəti üçün yola çıxdı. Kərbəlayi-Müəllanı ziyarət edib ondan ayrıldıqdan sonra haqqın nidasına

«ləbbeyk» deyib, dünyadan köçdü və cəddi ima Hüseynin (ə) məzarı yaxınlığında dəfn edildi. İndiyə qədər mübarək qəbri həzrət Hüseynin (ə) məqbərəsinin şimal qərbində dostlarının ziyarətgahıdır.

## HƏZRƏT ƏLİNİN (Ə) MƏZARI HAQQINDAKI İXTİLAF

**Hafiz:** «Amma mən belə açıq və qəti buyurduğunuz kimi mövlamız Həzrət Əlinin (kərrəməllahu vəchəhu) onda ixtilaf etmişlər. Bəziləri Kufənin Qəsrül-imarəsində, bəziləri Kufənin məscidinin qiblə tərəfində, bəziləri Kufə məscidinin Kəndə qapısında, bəziləri Kufə Rəhbəsində və bəziləri də Bəqi qəbristanında Fatimə (ə.s) qəbrinin kənarında olduğunu söyləmişlər. Bizim Əfqanıstanın Kabul şəhərinin yaxınlarında «Məzari-Əli» adında bir qəbir vardır. Deyirlər ki, mövlamız Əlinin cənazəsini bir sandığa qoyub sonra onu bir dəvənin üzərinə bağlayaraq, Mədinəyə doğru apardılar; bəziləri sandığın içərisində qiymətli əşyaların olduğunu güman edərək, karvanı qarət edib, onu apardılar; Sandığın ağzını açdıqda, həzrətin mübarək cəsədini gördülər. Onu Kabula gətirib, dəfn etdilər. Bu səbəbdən, o bölgənin əhalisi məzara ehtiram edirlər».

**Dəvətçi:** «Bütün bu mübahisəli fikirlər o həzrətin (ə) qəbrinin gizli qalmasını əmr etməsinə görə ortaya çıxmışdır; təfsilatıyla izah etmək istəmədim. Bu səbəbdən imam Cəfər (ə) ibn Məhəmməd Sadiqdən (ə) belə bir rəvayət nəql edilmişdir: «**Əmirəl-möminin həzrət Əli (ə) vəfat anında oğlu ima Həsənə (ə) belə buyurdu: «Nəcəfdə məni dəfn etdikdən sonra qəbrimin yerini heç kəsin bilməməsi üçün bu dörd yerdə qəbir qaz: 1. Kufə məscidində; 2. Rəhbədə; 3. Cödətu Hübəyrənin evində; 4. Ğəraydə**».

Əlbəttə, bu fikir ayrılığı sizin alimləriniz arasındadır; çünki onlar hər kəsin sözünə etina göstərirlər. Amma şiə alimlərinin o həzrətin (ə) mübarək qəbrinin Nəcəfül-əşrəfdə olmasında fikirləri birdir. Yaddan çıxartmayın ki, onlar hədislərini mütəhhər Əhli-beytdən (ə) almışlar. Əhli-beytin (ə) də evdə olan şeyləri başqalarından daha yaxşı bilmələri açıq-aşkardır.

Buyurduğunuz «Həzrət Əlinin (ə) məzarı Kabulun yaxınlığındadır» fikri, həqiqətən, çox gülünc, tamamilə yalandır və bu hadisə, doğru bir xəbərdən daha çox əfsanəyə yaxındır.

Daha çox sizin alimlərinizə heyrət edilməlidir. Çünki hər yerdə mütəhhər Əhli-beytdən (ə) və onların sözlərindən uzaq durmuşlar; hətta ixtilaf çıxmaması üçün atalarının qəbrinin yerini övladlarından soruşmağa belə hazır olmamışlar. Çünki «Ev əhli» evdə olanı daha yaxşı bilir; o həzrətin (s) övladlarının atalarının dəfn edildiyi yeri başqalarından daha yaxşı bilmələri gün kimi aydındır.

Əgər o zikr edilmiş yerlərdən hər hansı biri doğru olsaydı, hər halda Əimmeyi-əthar[1] öz şiələrinə xəbər verərdilər. Əksinə, Nəcəful-əşrəfə yönəlmişlər. Hətta özləri belə Əmirəl-möminin (ə) Nəcəfdəki qəbrinin ziyarətinə gediş və şiələri də bu işə təşviq etmişlər.

Səbt ibn Covzi «Təzkirə» kitabının 103-cü səhifəsində müxtəlif rəvayətlər zikr etmişdir: «**Altıncı rəvayət də budur ki, həzrət Əlinin (ə) qəbri bu gün bütün xalqın ziyarətgahı olan «Nəcəful-əşrəf**» şəhərindədir». Bu rəvayət daha aşkar və məşhurdur».

Yenə digər alimləriniz, məsələn: Xətib Xarəzmi «Mənaqib», Xətib Bağdadi «Tarixi-Bağdad», Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-suul», İbn Əbil-Hədid «Şərhi Nəhcül-bəlağə» və Fiyruz Abadi «Qamus» kitabının Nəcəf maddəsində və sairləri öz kitablarında imam Əlinin (ə) dəfn edildiyi yerin Nəcəfül-əşrəf olduğunu yazmışlar.

## İBRAHİM MÜCABIN ÖVLADLARI

«Söz sözü gətirir» münasibətiylə əsl mövzudan uzaqlaşdıq. İbrahim Mücabın Kərbəlayi-Müəllada vəfatından sonra ondan Əhməd, Məhəmməd və Əli adında üç oğlu yadigar qaldı. Onların hər üçü də cədlərinin dinini təbliğ etmək üçün o zaman

---
[1] Mütəhhər məsum İmamlar (ə)

«Darül-imarə»[1] olan İrana doğru hərəkət etdilər. Əhməd «Qəsri ibn Hübəyrə»yə gedərək, orada məskunlaşdı və övladlarının hamısı dinə xidmətlə məşğul oldular.

Məhəmməd və Əli Kirana azim oldular. Cənab Əli Kirmana tabe olan və 30 fərsəx məsafəsi olan Sircanda sakin oldu. Oğulları və nəvələri o şəhərdə təbliği işlərlə məşğul oldular. Məhəmməd[2] Kirmana gəldi. Ondan Əbu Əli əl-Həsən, Məhəmməd Hüseyn Şəyyiti və Əhməd adında üç uşaq yadigar qaldı. Onlara da çox şərəfli nəvələr nəsib oldu. Məhəmməd Hüseyn və Əhməd Kərbalaya qayıtdılar və atalarının qəbri kənarında ömürlərini başa vurdular. Onların nəslindən Kərbəla və ətrafında məşhur böyük qəbirlər vardır. Məsələn, möhtərəm Ali Şəyyiti və Əli Fəxar seyidlərinin qəbiləsi ki, Məhəmməd Hüseyn Şəyyitinin nəslindəndirlər və Əli Əbu Nəsr və Əli Təmə seyidləri də «ərvahuna fədah»ın[3] möhtərəm xidmətçilərindən idilər. Onlar da Əhmədin nəslindəndirlər.

Əbu Əli əl-Həsən isə Şiraza gəldi. Şiraz əhalisi mütəəssib əhli-təsənnün, ümumiliklə nasibi və xəvaric təqibçilərindən idilər. Əhli-beytə (ə) qarşı məxsus bir ədavətləri olduqlarına görə, Əli əl-Həsən seyid olduğunu gizli saxladı. Buna görə də, ərəb libasıyla şəhərin kənarındakı çuxur bir yerdə[4] ev tikib, orada yerləşdi. Şirazın Sərdəzəq məhəlləsində evləri olan şiə ailələri müəzzəm imamzadələrlə əlaqə qurdular. İmamzadələr də, gizli bir şəkildə dini təbliğat və vilayət haqqında həqiqətləri yaymaqla məşğul oldular.

Əbu Əli Əhməd vəfat etdikdən sonra onun böyük oğlu Əbu Təyyib təbliğat sahəsini genişləndirdi, yavaş-yavaş şöhrəti artmağa başladı. Müxaliflərdən çoxu hidayət olub, haqq yolunu tapdılar. Artıq şiə cəmiyyəti çoxalmağa başladı. Müəzzəm imamzadələrin təbliğat və təşəbbüsləri nəticəsində əhəmiyyətli təşkilatlar quruldu. Hətta Şirazda «Sadati-Abidi və Mücabi» adında təbliğat minbərləri bərpa edildi.

---

[1] Bütün millərlərə aid olan yurd

[2] «Hairi» ləğəbiylə məşhurdur.

[3] Həzrət Hüseynin (ə) hərəmi.

[4] Yavaş-yavaş şəhər genişləndi. Qacaro səltənətinin əvvəli olan Məhəmməd xan Qacarın səltənəti zamanına qədər artıq şəhərin çevrəsindəki xəndək və çuxurlar şəhərin cüzi bir hissəsi oldu. İmazadələrin evlərdə təbliğat apardıqları məhəllə indi də Şirazda məhşurdur. Həmin məhəllədə məhşur olan məscid İran padşahı Kərim xan Zəndin qardaşı mərhum şeyx Əli xan Zənd tərəfindən o əsrlərin tanınmış alimlərindən olan bizim böyük cəddimiz mərhum Hacı seyid İbrahim Müctehid üçün tikdirilmişdi.

Öz qohumlarını dini təbliğ etmək üçün dəstə-dəstə kəndlərə göndərir, bir az olsun belə, dini xidmət və təbliğdən çəkinmirdilər. Onların təbliğat sahəsi İranın ətrafındakı şəhərlərdə getdikcə genişlənirdi. Şiəliyi seçən Diyaləmə zamanında Qazan xan (Mahmud) və Ulcayitu (Sultan Məhəmməd Xudabəndə) səltənəti dövründə və tamamilə azad olduqları Səfəviyyə zamanında şiə aləminə böyük xidmətlər edildi; İran şəhərlərinin çoxunda şiə imamiyyə məzhəbinin həqiqətləri bu uca ailə vasitəsiylə yayılmış oldu.

## ŞİRAZ SEYİDLƏRİ TEHRANDA

Mərhum Fətəli Şah Qacarın səltənət dövrünün sonlarında Mərhum seyidul-füqaha vəl müctehid Əllamə Hacı seyid İsmayıl Müctehid Mücabın ən seçilmiş övladlarından olan bizim böyük cəddimiz mərhum Seyid Həsən Vaiz Şirazi müqəddəs Məşhəddə imam Rizanın (ə) məzari-şərifini ziyarət edib döndükdən sonra Tehrana gəldi. Elmsevər Şahin şah ona çox maraq göstərib, Tehranda qalmasını rica etdi. Dini vəzifəsini icra etmək üçün o, şahın ricasını qəbul etdi. O zamanlar Tehranda alimlərin dini məsələləri bəyan etdikləri məscidlərdən başqa, bu günki kimi digər təbliğat məclisləri adət və mütədavil deyildi. Təkkələrdə sadəcə təziyə və nohə oxuyar, mərasimlər təşkil olunardı. Onlardan ən əhəmiyyətlisi Şahin şah dövlətinin təkkəsində təşkil olunan məclislər idi.

Bu səbəbdən, hörmətli seyid Həsənin göstərişi və Şahin şahın təyidi ilə təkkələr, nohə və təziyə məclislərini təbliğ məclislərinə çevirdilər.

Tehranda ilk təbliğ toplantısının təməlini qoyan və təbliğ minbərləri quran mərhum seyid Həsən Vaix Şirazi olmuşdur. Bu toplantılar müctehid və mərceyi-təqlidlərin hədəfləri istiqamətindəki irəliləyişlərə çox yardımçı olmuşdur.

Bunun üçün mərhum seyid Həsən böyük babamız və Şirazda yaşayan cəddi mərhum hacı seyid İsmayıl Müctehid babasına bir məktub yazır. Bununla əlaqədar öz övladları arasından seyid Cəfər, seyid Riza müctehidi-fəqih, hacı seyid Abbas, seyid Cavad, seyid Məhdi, seyid Müslim, seyid Kazım və seyid Fəthullah Tehrana gəldilər.

Qəzvin əhalisinin dəvəti ilə seyid Məhdi, seyid Müslim və seyid Kazım təbliğ üçün o bölgəyə göndərilirlər. O üç seyidin nəslindən olan Mücabi seyidləri indi də o bölgədə məşhur və mərufdurlar.

Mərhum seyid Həsənin özü də, digər qardaşlarıyla birlikdə Tehranda təbliğ məclisləri təşkil edirdi. Nurlu şəriəti yaymağa çalışırdılar. Hicri 1291-ci ildə mərhum seyid Həsən (r.ə) vəfat edir. Ondan sonra «Silsileyi-cəliləi sadat»ın riyasəti mərhumun rəşid oğlu, mənim böyük babam olan mərhum seyid Qasim Bəhrululuma verilir. Çünki «Silsileyi-cəliləi sadat»ın bu gözəl riyasət libası o zaman min kişi bərabərində olan Şirazi ailəsi arasında zöhd, vərə və təqvada məşhur, məqul və mənqulu[1] cəm üsul və furunu əhatə edən, zamanın üstün zəkalısı, elm, əməl və siyasətdə məşhur olan sadəcə o şəni uca seyidə yaraşırdı.

Mərhum Bəhril-ulumun Allahın rəhmətinə qovuşduğu[2] Hicri 1308-ci ildən bu zamana qədər, bu şəni uca ailənin riyasəti «Camiuş-şiə, muhyiş-şəriət, nasiri-millət vəd-din, mürəvvici-əhkami-seyidil-mursəlin, siqətul-İslam vəd-müslimin, fəridüd-dəhr, vəhidul-əsr» və Qacar şah Nəsrəddin tərəfindən «Əşrəful-vaizin» ləqəbiylə məşhur olan həzrət seyid Əli Əkbər (daəd bərəkatuh) ilədir.

Bu uca insan 80 ilə yaxın müddət ərzində töhvid bayrağı olmuş və müxtəlif, xüsusən son əsrin hadisələri, din düşmənləri və əcnəbilər qarşısında tam bir cəsarət, fədakarlıq və sonsuz bir qüdrətlə durmuş, dini və əhkamı aşkar yaymağa çalışmışdır. Mənhiyyatı (nəhy edilləni) qabaqlamaqda, pak İslam şəriətinin hökmlərini qorumaqda, həqiqətləri çatdırmaqda və elm mərkəzlərini genişləndirməkdəki xidmətləri dost və düşmən tərəfindən təsdiq və təyid olmuşdur.

O uca şəxsin günəşdən daha aşkar olan sehirli bəyan və təsiredici sözləri müxtəlif zaman və məkanlarda üləmai-ələm və mərəceyi-təqlidlərin diqqətlərini çəkmişdir. Xüsusilə Höccətul-İslamlar, ayətullahlar, mərceyi-təqlidlər, əsrin üstün zəkalıları mərhum Höccətül-İslam hacı mirzə Məhəmməd Həsən Şiraziye Bozorq (VIII yüzilliklə Əhli-beyt (ə) məzhəbini canlandıran), Hacı Mirzə Həbibullah Rəşdi, Hacı şeyx Zeynülabidin Mazandarani, Hacı Mirzə Hüseyn, Hacı Mirzə Xəlil

[1] «Məqul» və «mənqul», əqlə və nəqlə söykənən sözlərə deyilir.
[2] Mərhum Bəhri-ulum hicri, 1308-ci ildə vəfat etmişdir. Kərbəlayi Müəllada irzə Musa Balkonuyla həzrət Seyyiduşşuhədanın (ə) başının arxa tərəfi arasında cəddi mərhum seyid Həsən Vaiz Şirazinin qəbrinin kənarında dəfn edildi.

Tehrani, seyid İsmail Sədr İsfahani və Mirzə Məhəmməd Təqi Şirazi (qaddəsəllahu əsrarəhum), xüsusilə elm şəhəri Nəcəful-əşrəfdə oturan, bu qarmaqarışıq əsrdə «Firqeyi-naciyeyi-İmamyyə»Nin riyasətinin qabaqcıl fəqihi Əhli-beyti ismət vət-təharət seyidul-füqaha vəl-müctehidin, ayətullahi fil-ərəzin, nabiğatüd-dəhr və həzrət seyid Əbül Həsən İsfahani (mətdəallahul-müsliminə bituli bəqaih) o şəni uca seyid Əşrəful-vaizin haqqında həddindən çox lütf və məhəbbət izhar etmişlər[1].

Seyid Əbül Həsən İsfahani (r.ə), həqiqətən, elm və Hüsni-siyasətilə «**Mən elmin şəhəri, Əli onun qapısıdır**» bayrağını bir dünya müxalif qarşısında bəşəriyyət Aləmi üzərində yüksəltməyə, okeanın o tayına qədər İslam əhkamını yaymağa və müxtəlif millət və inanclara sahib olanlardan bir çox qrupların İslam hövzəsinə (elm mərkəzi) və haqq məzhəb olan Cəfəri məzhəbinə daxil olmalarına səbəb olmuşdur[2].Yenə usdadların usdadı və Qumun ilahi elmlər mədrəsələrinin rəhbəri olan müqəddəsə zat Ayətullahul-üzma hacı şeyx Əbdül Kərim Hairi Yəzdi (mudde zilluhul-ali)[3](şəkil:12) Əşrəful-vaizinə (şəkil: 13, 14, 15, 16) həddindən artıq dəyər vermiş, təyid etmişdir; daima «Seyful-İslam» (İslamın qılıncı) adıyla onu yad etmişdir. Çünki kəsici dil qılıcının gücüylə küfr, ilhad, zındıqlıq və fəsad sarayının təməlini sarsıtdığını, ilahi kəlmətullah və haqq məzhəbini yaymaq yolunda cihad və fədakarlıq göstərməkdən çəkinmədiyini müşahidə edirdi. Allahın verdiyi qüdrət və güclə, bir an belə mülhitlər və İslam düşmənlərinin zəhərli hədəflərini məhv etmək yolunda rahat oturmamışdı. Daxili və xarici düşənlərin o böyük şəxsin məqsəd və hədəflərinin qarşısını almaq üçün göstərdikləri səylərinə baxmayaraq, daima ümumi olaraq İslam dini və millətini, xüsusən də haqq olan Cəfəri məzhəbini müdafiə etmişdi.

Xülasə, indiyə qədər bu silsileyi-cəlilə Tehran və onun ətrafında, «Sadati-Şirazi Abidi və Mücabi» adıyla daima şəriətə xidmət etmiş və üzərlərinə düşən

---

[1] Əşrəfül-Vaizin Şirazi 21 şəban h.1351-ci ildə, 83 yaşında ikən Kirmanşahda Allahın rəhmətinə qovuşdu. Üç gün tətildən sonra mərhumun cənazəsi Dəvətçinin ittifaqıyla birlikdə müqəddəs ziyarətgahlara aparıldı. Böyük alim, tüccar, əsnaf və s.-dən ibarət Kərbəla xalqının müşayəti ilə həzrət Seyyiduş-şühədanın (ə) mütəhhər ziyartgahında (böyük cəddi seyid İbrahim Mücabın qəbri kənarında) dəfn edildi.

[2] Mərhum seyid Əbülhəsən İsfani 9 zilhiccə h. 1365-ci ildə Kazimeyində, 30 il dünya müsəlmanlarının riyasət və liderliyindən sonra 88 yaşında ikən Allahın rəhmətinə qovuşdu. Mərhum şeyx Mufiddən (r.ə) sonra bənzəri görüləmiş qəribə bir cənazə ilə Nəcəfül-əşrəfə aparılıb, qızıl eyvanın qarşısında yerləşən səhnin kənarındakı Hücrədə basdırılmışdır.

[3] 17 Zilqəddə h. 1355-ci ildə Qumm şəhərində dünyasını dəyişdi və «Mədrəseyi-Balasər»də dəfn edildi.

vəzifələrini yerinə yetirmişlər. Müxaliələrin baltaları, böhtan və iftiraları qarşısında müqavimət göstərərək, gözəl bir şəkildə cavablarını vermişlər. Deməк, «Nə səbəbdən İrana getdiniz və bun ə cür baş verdi?» sualının cavabı, bu silsileyi-cəlilənin uzun həyatından qısaca ərz etdiklərimdir.

Bu böyük ailənin hədəf və məqsədi imam Museyi-Kazım (ə) oğlanlarından olan seyid Əmir Məhəmməd Abid və seyid İbrahim Mücabın zamanından (təqribən 1300 il ötür) indiyə qədər İslam dini və şəriətinə xidmət etmək olmuşdur. Daima bu ayəni – «***Allahın risalətini təbliğ edənlər və ONdan qorxanlar, Allahdan başqa heç kəsdən qorxmurlar. Allah hesabgörücü olaraq yetər***»[1] göz önündə canlandıraraq təbliğ kürsüsündə oturmuş, Allahdan başqa heç kəsdən qorxmadan, Ona söykənərək, üzərlərinə düşən vəzifələrini yerinə yetirmişlər».

Müzakirə bura yetişdikdə, Seyid Əbdülhəy saatına baxıb «Gecədən xeyli vaxt keçmişdir. İzn versəniz, digər söhbətlər sabaha qalsın; sabah, inşallah, vaxtımızın daha çox olması üçün bir az tez gələrik» dedi.

Mən də təbəssümlə, gülər üzlə həmsöhbətlərimə müvəffəqiyyət dilədim. Çay içib Hindistan şirnilərindən yedikdən sonra ayağa qalxdılar; biz də səmimiyyət və məhəbbətlə onlarla vidalaşdıq.

---

[1] «Əzhab» surəsi, ayə: 39

# İKİNCİ GECƏ

24 Rəcəb, şənbə gecəsi, 1345-ci il (1924)

Axşam namazından sonra dünən gecə məclisdə iştirak edən eyni şəxslər, sonradan tacir və sahibkar olduqlarını bildiyimiz digər möhtərəm bir neçə nəfər şəxslə birlikdə gəldilər; bir az səmimi söhbət etdikdən və çay içdikdən sonra Hafiz ağa sözə başladı.

**Hafiz:** «Qibləsahib, tərif etmək üçün demirəm, həqiqətən, dünən gecəki məclisdən böyük bir feyz aldıq, mühüm tarixi xatirələr eşitdik. Hüzurunuzdan ayrıldıqdan sonra bütün yol boyu qardaşlarla sizin haqqınızda söhbət edirdik. Həqiqətən, cazibəniz o qədər güclü idi ki, hamımızı sima və davranışına cəzb etmişdi. Gözəl sima və davranışa sahib olan kəslər çox az tapılırlar. Şəhadət verirəm ki, həqiqətən, sən Rəsulallahın (s) övladısan.

Bu gün sübh kitabxanaya getmişdim. Ənsab və tarix kitablarından bir neçə cild, xüsusilə qədri uca seyidlərin nəsli haqqında «Hezar-məzar» və «Asari-əcəm» kitablarını götürüb, mütaliə etdim və dünən gedə dediklərinizə bir az diqqət etdim; həqiqətən, xoşhal oldum, feyz aldım və həqiqətən, bu şərəfli nəsilə qibtə etdim. Bir müddət düşündüm, sonda bu cənab kimi şərif və nəsli doğru bir şəxsin bu gözəl sima və davranışına baxmayaraq, nə səbəbdən keçmişdəkilərin mənasız və azğın adətləri təsirindən qalaraq böyük cədlərinin yolundan çıxıb, məcusi iranlıların siyasi adət və üsullarını qəbul etmişdir!» deyə düşünərək, çox təəssüf etdim».

**Dəvətçi:** «Birincisi, cənabın gözəl güman və baxışından şad oldum, təşəkkür edirəm. İkincisi, məqsədinizi anlamadığım qarışıq və qeyri-müəyyən bir neçə cümlə buyurdunuz. Zəhmət olmasa, həqiqətin əslinin aşkar olması üçün cümlələri ayrı-ayrı bəyan edin. Məsələn, keçmişdəkilərin mənasız və azğın adətləri, üz çevirdiyimiz dəyərli cədlərimin yolu və tabe olduğum İranın siyasi adət və üsulları nələrdir?».

**Hafiz:** «Keçmişdəkilərin mənasız adətlərindən məqsədim, yəhudilərin əliylə hənif dini olan İslama qatılan bidət və əqidələrdir».

**Dəvətçi:** «Mümkünsə, bir az daha izahlı şəkildə söyləyin: aludə olduğum bidətlərin hansılardır?».

## ŞİƏ MƏZHƏBİNİN ARAŞDIRILMASI

**Hafiz:** «Əlbəttə, tarix təsdiq edir ki, hər böyük peyğəmbərdən sonra düşmənlər, Tövrat və İncil kimi, onların müqəddəs kitablarına əl uzatmış və bir çox təhriflər edərək, dinini etibar edilən dərəcədən endirmişlər. Lakin İslam dinində Qurani-hakimin möhkəm olduğu və o gücə sahib ola bilmədiklərinə görə Əbdullah ibn Səba Sənai, Kəbül-Əhbar və Vəhəb ibn Münəbbih kimi daima hiyləgər olan yəhudilərdən bir dəstə zahirən müsəlman olub, sehirli təbliğatlar aparmağa qərar vermişlər. Peyğəmbərin (s) sözləri adı altında öz inanclarıyla birlikdə digər batil inancları da müsəlmanlar arasında yaymışlar.

III xəlifə Osman ibn Uffan (r.z) onları təqib etdiyinə görə xəlifənin qorxusundan qaçırdılar. Misiri öz mərkəzləri qərar verib, yavaş-yavaş bir qrup insanları aldadaraq, özlərinə tabe etdilər və «Şiə» adında bir hizb qurdular. Osmanın xəlifə olmasına baxmayaraq, Əlini imam və xəlifə olaraq tanıyırdılar. Öz hədəflərinə uyğun olaraq «Peyğəmbər (s) Əlini xəlifə və imam elan etmişdir» deyə bəzi saxta hədislər uydururdular.

Bu hizbin qiyamı nəticəsində çox qanlar töküldü. Nəhayət bu hadisə, məzlum xəlifə Osmanın öldürülməsi və Əlinin xilafət məqamına oturdulmasına yol açdı. Osmandan narazı olan bir dəstə camaat da Əlinin ətrafına toplaşdılar. Şiə hizbi bax o zamanda, bu səbəbdən qurulmuşdu. Lakin bəni-Üməyyənin xilafəti zamanında Əlinin övladları və dostlarının öldürülməsiylə, bu hizb zahirdə aradan getdi.

Buna baxmayaraq, Salman Farsi, Əbuzər Qəffari və Əmmari Yasər kimi bəzi insanlar Əlinin (kərəmullahu vəchəhu) leyhinə ciddi bir şəkildə təbliğat aparırdılar: qətiyyətlə Əlinin ruhu bu növ təbliğatlardan uzaqdır. Bu vəziyyət Harun Rəşid və xüsusilə iranlıların əliylə qardaşı Məhəmməd Əminə qalib gələn və xilafət məqamında sabitləşən oğlu Məmun Rəşid Abbasinin xilafət zamanına qədər beləcə

davam edir. Belə ki, artıq Əli ibn Əbu Talibi dəstəkləyib, onu haqsız yerə «Xüləfayi-raşidin»dən (digər üç xəlifədən) üstün etməyə çalışırlar.

İranlılar da bu səbəbdən məmləkətlərinin ərəblərin qüdrət əliylə işğal olması və istiqlaliyyətlərinin aradan getməsinə görə, münasibətlərinin onlarla yaxşı halda olmadığı və din adıyla ərəblərin qarşısında qiyam etmələri üçün bir yol tutmağa bəhanə axtarırdılar. Bax, buna görə o haqsız yolu tutub, bəyənib ona aldandılar; şiə hizbinin adıyla onun ətrafında əvəz çıxartdılar. Diyaləmə zamanında güc topladıqdan sonra iqtidarlı Səfəviyyə səltənəti zamanında bu şiə hizbi bir rəsmi məzhəb olaraq elan edildi. Məcusi iranlılar da indiyə qədər siyasət məqsədiylə məzhəblərini şiə olaraq tanıtdırırlar.

Qısaca desək, şiə məzhəbi siyasi bir məzhəbdir, yəhudi Əbdullah ibn Səbanın əliylə ortaya çıxmışdır. Daha əvvəllərdə İslamda «şiə» adı yox idi; cəddiniz Nəbiyyul-əkrəm (s) də bu ada nifrət edir. Çünki bu yol onun istəyinin xilafınadır. Həqiqətdə demək mümkündür ki, şiə, yəhudilərin məzhəb və əqidələrindən bir təmsilçilikdir.

Bax, bu səbəbdən, sizin kimi şərif və nəsli pak olan bir şəxsin adəti üzrə keçmişdəkiləri təqlid edərək, bürhan və dəlilsiz olaraq uca cəddinizin yolu olan pak İslam dinini buraxıb, bidət icad edən yəhudilik yoluna tabe olması, həqiqətən, məni təəssüfləndirir; halbuki, Qurana və cəddiniz Rəsulallahın (s) sünnətinə bağlanmağa siz daha layiqsiniz».

Məclisdəkilərin və Hindistanlı şərif möminlərin xüsusilə Hindistan şiələrinin qüdrətli, qeyrətli və hərarətli Qızılbaşların Hafiz ağanın sözlərindən qəzəbləndikləri və rənglərinin dəyişdiyini gördükdə, bir az onlara nəsihət edib, səbirli olmağa dəvət etdim və dedim: «İranda belə bir atalar sözü vardır, deyirlər ki, «Şaha namənin sonu xoş olar». Və ya «Səbir et, səbir qurtuluşun açarıdır». Sonra cənab Hafizin sözlərini cavablandırmağa başladım.

# MÜXALİFLƏRİN ARAŞDIRMALARINA CAVAB

**Dəvətçi:** «Sizin kimi alim bir şəxsin qətiyyən əsaslandırılmayan bu uydurma, mənasız və cəfəngiyat sözlərlə dəlil gətirməsi, həqiqətən, təəccübləndiricidir. Çünki bunlar xəvaric kimi münafiqlərin, təəssübkeş nasibilərin və Əməvilərin yaydığı, avam xalqın da araşdırmadan, heç bir dəlil və bürhanları olmadan tabe olduqları şeylərdir!

İndi əgər icazə versəniz, məsələnin aydınlıq tapması, müəmmanın aydınlaşması və həqiqətin ortaya çıxması üçün həqiqətdən uzaq sözlərinizin cavabını məclisin sonuna qədər müxtəsər şəkildə verməyə çalışacağam».

**Hafiz:** «Buyurun, sözlərinizi diqqətlə dinləməyə hazırıq».

**Dəvətçi:** «Əvvəla möhtərəm qardaşımız, siz tamamilə iki zidd məsələni bir-biriylə qarışdırdınız. Əgər şiənin hədislərində çox lənətlənən və münafiqlərin cərgəsində tanıdılan yəhudi münafiq və məlun Əbdullah ibn Səba bir neçə gün özünü xalq arasında həzrət Əlinin (ə) dostu kimi tanıtdırmışsa, onun imamiyyə şiələri ilə nə əlaqəsi vardır? Əgər bir qurd qoyun sürüsünə girir, bir oğlu alim və üləmanın libasını geyib özünü minbər və mehrabda göstərir və ondan İslam və müsəlmanlara bəzi zərərlər yetişirsə, o zaman bütün alim və üləmalara pis gözlə baxmaq lazımdırmı?! «Onların hamısı oğrudurlar!» deməliyik?!

Həqiqətdə pak olan şiə məzhəbini məlun Əbdullah ibn Səbaya şamil etməniz və «o, əsasını qoymuşdur» - deyə şiə məzhəbini ləkələməyiniz insafsızlıqdır! Haqq olan şiə məzhəbini kiçildib, onun bir siyasi hizb olduğunu söyləməyiniz və Osmanın zamanındakı məlun Əbdullah ibn Səbanın bidət və əsərlərindən saymağınız, həqiqətdə, təəccübləndirici bir şeydir. Həqiqətən, çox böyük bir səhvə düşdünüz. Çünki şiə bir hizb deyildir; haqq bir əzhəb və haqq bir yoldur! Osmanın xilafət zamanında meydana gəlməmişdir; Rəsulallahın (s) öz zamanında və O həzrətin (s) öz əmri ilə məşhurlaşmışdır.

Sizin gətirdiyiniz dəlillər xəvaric və nəsibilərin yalan və iftiralarından ibarətdir; biz isə haqqın batildən ayrılması üçün Qurani-kərim və öz mötəbər hədislərinizdən olan dəlillərə söykənirik.

Bunu da xatırlatmaq istəyirəm ki, həqiqət ortaya çıxdıqdan sonra utanmamağınız üçün daima söz və əməllərinizə olduqca diqqət göstərin.

Əgər icazə verirsinizsə, sözlərim də təbiətinizə əks deyilsə, məsələnin buyurduğunuz kimi olmadığını isbatlayım».

**Hafiz:** «Əlbəttə, buyurun, onsuz da bu məclisin təşkil edilməsi və bizim bura toplanmağımız həqiqətlərin ortaya çıxması və şübhələrin aradan getməsi üçündür; qətiyyən dəlilə söykənən sözlərdən narahat olmuruq».

## ŞİƏNİN MƏNASI VƏ TƏŞƏYYÜNÜN HƏQİQƏTİ XÜSUSUNDA

**Dəvətçi:** «Əlbəttə, möhtərəm ağalar bilirlər ki, «şiə» sözü lüğətdə «təqibetmə» və «tərəfdar» mənasındadır; «şiətür-rəcül» isə «insanın təqibçisi və yardımçısı» deməkdir. Böyük alimlərinizdən olan Fitruz Abadi özünün tərtib etdiyi lüğətində belə deyir: «Bu adla – «şiə» kəlməsi ilə ümumi olaraq Əli və Əhli-beytini sevənlər adlandırılmışdır; belə ki, artıq onlar üçün xüsusi bir ada çevrilmişdir». Eyni ilə bu mənanı İbn Əsir «Nihayətul-lüğət» kitabında demişdir.

Amma siz bilərəkdən və ya unudqanlıqdan, yaxud da təfsir və hədis elmindən məlumatınız olmadığınız üçün keçmişdəkilərin sözlərinin təsiri altında qalaraq, heç bir dəliliniz olmadan, «şiə» kəlməsini və onun Əli (ə) və Əhli-beytinin (ə) təqibçilərinə verilməsini Osman zamanında meydana gəldiyini və bu adı verənin də yəhudi Əbdullah ibn Səbadır olduğunu iddia edərək, böyük bir səhvə yol verdiniz. Lakin məsələ buyurduğunuz şəkildə deyildir. Sizin öz kitab və təfsirlərinizdə yer alan mötəbər hədislərə görə, «şiə» istilahı Rəsulallahın (s) zamanında Əli (ə) ibn Əbu Talibin (ə) təqibçilərinə verilən bir addır.

Şiə adını həzrət Əlinin (ə) təqibçilərinə verən – sizin sözünüzün əksinə olaraq şəxsən Rəsulallahın (s) özü olmuşdur. Bu kəlmə vəhy sahibinin öz dilindən cari olmuşdur. O Peyğəmbər (s) ki, Allah-təala onun haqqında belə buyurmuşdur:

«***O, həva-nəfsindən (öz istək, düşüncəsinə görə) danışmaz; söylədikləri yalnız ona vəhy olunan şeydən başqa bir şey deyildir***»[1]

Bax, belə bir Peyğəmbərin (s) şəxsən özü, həzrət Əlinin (ə) tərəfdar və təqibçilərini «şiə», «naci» və «qurtuluşa çatanlar» adlandırmışdır».

**Hafiz:** «Harada belə bir şey mövcuddur ki, biz onu indiyə qədər görməmişik?!».

**Dəvətçi:** «Siz görməmisiniz, ya görmək istəməmisiniz, yaxud görüb həqiqəti etiraf etməyi öz məqamınıza uyğun bilməmiş və yaxud da tabenizdə olanları, tərəfdarlarınız və müridlərinizi göz önündə canlandırmısınız. Lakin biz görmüşük və haqqı gizlətməyi, din və dünyamıza uyğun bilmirik! Çünki Alla-təala Qurani-kərimin iki ayəsində haqqı görüb gizlədənlərə açıq-aydın şəkildə lənət etmiş və onları Cəhənnəm əhlindən bilmişdir.

Birincisi, «Bəqərə» surəsinin 159-cu ayəsində belə buyurmuşdur:

«***Göndərdiyimiz açıq-aydın dəlilləri və hidayət [yolunu] kitabda insanlara açıqladığımızdan sonra gizlədənlərə həm Allah və həm də bütün lənət edənlər lənət edərlər***».

İkincisi, yenə də «Bəqərə» surəsinin 174-cü ayəsində buyurulur:

«***Allahın endirdiyi kitabdan bir şeyi gizlədənlər və onunla dəyəri az (bir qarşılığı) satın alanlar; onların qarınlarına doldurduqları atəşdən başqa bir şey deyildir. Allah da Qiyamət günü onlarla danışmaz və onları arındırmaz. Və onlar üçün acıqlı bir əzab vardır***».

**Hafiz:** «Ayeyi-şərif haqdır; əlbəttə, kim haqqı gizlədərsə, bu ayələrin misdaqı olacaqdır. Amma biz indiyə qədər gizlədiləcək bir haqq görmədik; əlbəttə, hər haqqı tanıdıqdan sonra onu qulaq ardına vursaq, bu ayənin hökmü bizim də haqqımızda düzgün olacaqdır; ümidimiz, heç bir zaman zikr edilən ayələrin hökmünə düşməməkdir».

**Dəvətçi:** «İndi Allah-təalanın lütf və inayəti və Xatəmul-ənbiyanın (s) xüsusi diqqəti ilə edə bildiyimiz qədər günəşdən daha aydın olan haqqı örtülü pərdə arxasından çıxarıb, əziz qardaşlarıma (məclisdə əyləşən əhli-təsənnünə işarə)

---

[1] «Nəcm» surəsi, ayə: 3

göstərəcəyəm. Ümid edirəm ki, zikr etdiyimiz hər iki ayəni daima gözümüz önündə canlandırıb, adət və təəssübün bizləri hər hansı bir haqqın gizlədilməsinə səbəb olmasına icazə verməyək».

**Hafiz:** «Allah şahidi olsun ki, hər vaxt bir haqq mənə sabit olarsa, cidal etməyəcəyəm. Siz mənimlə həm söhbət olmadığınıza görə, əxlaqımı bilmirsiniz; nəfsimin istəklərinə qalib olmaq üçün çox ciddi və qətiyyətliyəm. Əgər tutarlı dəlil gətirsəniz, təslim olacağımın şahidi olarsınız. Əgər bir bəyanın və sözün müqabilində sakit dursam, onda bilin ki bu mövzu haqqında tamamilə aydınlıq əldə etmişəm. Əgər ziddiyyət və mübarizə aparmaq üçün bir yolsa da, cidal etməyəcəyəm; əgər cidal etməyə başlasam, həqiqətən, bu iki ayənin hökmü mənə şamildir.

İndi həqiqət üzərində deyiləcək bəyanlarınızı dinləməyə hazıram; inşallah ki, Allah-təala bizi və sizi haqqa hidayət edər».

**Dəvətçi:** «Hafiz Əbu Nəim İsfahani Əhməd ibn Əbdullah üləmayi-əzəm mühəddis, böyü və dəyərli mühəqqiqlərinizdəndir. İbn Xəllağan «Vifyatul-əyan» kitabında onu belə tərif etmişdir: «O, ən böyük etibarlı hafizlərdən və ən elmli mühəddislərdəndir. Onun on cildlik «Hilyətul-övliya» kitabı ən gözəl kitablardandır».

Səlahuddin Xəlil ibn Əbik əs-Səfdi «Vafi bil-Vəfiyyat» kitabında onun haqqında belə deyir: «Hədis söyləyənlərin tacı Hafiz Əbu Nəim elm, zöhd və dəyanətdə imamdır; rəvayətləri dərk və nəql etməkdə, hifz və dəyanətdə uca bir məqama sahibdir. Onun ən gözəl təsniflərindən biri də, on cildlik «Hilyətul-övliya» kitabıdır. Bu kitab səhiheyndən («Səhihi-Buxari» və «Səhihi-Müslim») çıxarılış edilmişdir. Buxari və Müslimdəki hədislərdən əlavə, bir çox hədisləri özünün eşitdiyi kimi nəql etmişdir».

Məhəmməd ibn Əbdullah əl-Xətib də «Ricali mişqatil-məsabih» kitabında onu belə tərif edir: «O, etibarlı hədis şeylərindəndir; nəql etdiyi hədislər araşdırılmışdır; o, şəni uca bir şəxsdir; yaşı isə, altmış doqquzdur».

# ŞİƏLİK MƏQAMININ İZAHI HAQQINDA AYƏ VƏ RƏVAYƏTLƏR

Qısaca desək alim, hafiz, mühəddis olan və alimlərinizin də onunla iftixar etdiyi belə bir kəs, öz sənədiylə mötəbər kitabı «Hilyətul-övliya»da İbn Abbasdan belə nəql edir: «Bəyyinə» surəsinin 7-8-ci ayələri – «***İman gətirib saleh əməllər edənlər isə, yaradılmışların ən xeyirliləridirlər. Rəbbləri yanında onların mükafatı, içində ağacları altından çaylar axan Ədn Cənnətdir. Allah onlardan razı, onlar da Allahdan razıdırlar***» nazil olduqda, Rəsulallah (s) Əli ibn Əbu Talibə (ə) xitabın belə buyurdu:

«***Ya Əli! «xəyrul-bərriyə»dən (yaradılmışların ən xeyirlilərindən) məqsəd sən və sənin şiələrindir. Qiyamət günü sən və şiələrin Allahın sizdən, sizin də Allahdan razı və xoşhal olduğunuz halda gələcəksiniz***».

Əbul-Müəyyid Müvəffəq ibn Əhməd Xərəzmi «Mənaqib» kitabının 17-ci bölümündə, böyük müfəssirlərinizdən olan Hakim Əbülqasim Ubeydullah ibn Əbdullah əl-Həskani «Şəvahidut-tənzil fi qavaidit-təfsil» və Məhəmməd ibn Yusif Gənci Əş-Şafei «Kifayətut-talib» (səh: 119) və Səbt ibn Covzi «Təzkirətu xəvassil-üməti fi mərifətil-əimməti» kitabında (səh: 31 ayəni yazmamaqla), Munzir ibn Məhəmməd ibn Munzir, məxsusən Hakim rəvayət etmişlər ki, böyük alimlərinizdən olan Hakim Əbu Əbdullah Hafiz mərfu[1] bir sənədlə bizə xəbər verdi ki, Əmirəl-möminin Əli ibn Əbu Talibin (kərrəməllahu vəchəhu) katibi Yezid ibn Şərahil O həzrətin belə buyurduğunu eşitdiyini nəql edir: «***Xatəmul-ənbiya (s) vəfat anında, mübarək kürəyi sinəmin üzərində ikən, buyurdu:***

***«Ya Əli! Allah-təalanın «İman gətirib saleh əməl edənlər, yaradılmışların ən xeyirliləridir» - buyurduğunu eşitmədinmi? Bax, onlar sənin şiələrindir. Mənimlə sizin görüş yeriniz Kövsər hovuzunun kənarıdır. Bütün ümmət hesab üçün toplaşdıqda, «üzü ağ olanlar» - deyə çağırılacaqsınız***».

Yenə iftixar edilən alimlərinizdən olan və Hicri IX əsrdə əhli-sünnət camaatının yolunun islahatçısı olaraq tanınan Cəlaləddin Syuti «Dürrül-Mənsur fi

---

[1] Rəvayəti nəql edənlərin adı söylənilmədən hədisi bir məsumdan nəql etmək

kitabillahi bil-Məsur» təfsirində zamanın fəzilətlilərindən və böyük alimlərinizin etibar etdiyi şəxslərdən olub, İbn Əsakir Dəməşqi (İbn Xəllaqan «Vəfəyatul-əyan», Zəhəbi «Təzgirətül-Huffaz», Xarəzm «Ricalu müsnədi-Əbu Hənifə» və «Təbəqati-Şafeiyyə»də və Hafiz Əbu Said «Tarix»ində onu təriflәmiş və etibarlı şəxs olduğunu söyləmişlər. İbn Əsakir öz zamanında hədis əhli imamı, elmi çox, etibarlı və təqvalı bir şəxs və 550-ci ildən əhli-sünnət camaat alimləri arasında ən elmlisi imiş) adıyla məşhur olan Əbulqasim Əli ibn Həsəndən, o da Peyğəmbərin (s) böyüu əshabından olan Cabir ibn Əbdullah Ənsaridən o Həzrətin (s) belə dediyini nəql edir: «Rəsulallahın (s) hüzurunda olduğumuz bir vaxta Əli ibn Əbi Talib otağa daxil olduqda, Peyğəmbər buyurdu:

«***Canım əlimdə Olana And olsun ki, bunun (həzrət Əliyə işarə) şiələri Qiyamət günü qurtuluşa yetişəcəklər***».

Bu əsnada zikr edilən ayə (İnnəlləzinə amənu…) nazil oldu».

Yenə eyni təfsirdə İbn Ədiddən, o da İbn Abbasdan belə rəvayət etmişdir: «Həmin ayə nazil olduqda, Rəsuli-əkrəm (s) Əirəl-möminin Əliyə belə buyurdu:

«***Sən və şiələrin Qiyamət günü Allah sizdən sizin də Allahdan razı olduğunuz halda gələcəksiniz***».

«Mənaqibi-Xarəzmi» kitabının IX bölümündə Cabir ibn Əbdullahdan belə nəql edilmişdir: «Rəsulallahın (s) hüzurunda idik. Əli bizə doğru gəldi. Peyğəmbər (s) «***Qardaşım Əli yanınıza cəldi***» buyurdu. Sonra Kəbəyə tərəf yönəldi və Əlinin əlini tutub, belə buyurdu:

«***Canım əlində Olana And olsun ki bu Əli və şiələri Qiyamət günü qurtuluşa çatanlardırlar***».

Rəsulallah (s) daha sonra belə buyurdu:

«***Əli hamınızdan daha əvvəl iman gətirdi; O, Allahın əhdinə vəfalı olanlardandır. Xalqın və sizin aranızda ən adili, ən gözəl və bərabər bölüşdürən və Allah qatında məqamı ən uca olandır***».

Bu əsnada daha əvvəl zikr olunan ayə nazil oldu; artıq o zamandan etibarən Əli(ə) bir qrupcamaatın arasında göründükdə, Peyğəmbərin (s) əshabına; «**Yaradılmışların ən xeyirlisi gəldi**» deyirdilər.

Yenə İbn Həcər «Səvaiq» kitabının XI babında böyük fəqih və alimlərinizdən olan Hafiz Cəmaləddin Məhəmməd ibn Yusif Zərəndi əl-Mədənidən nəql etmişdir ki, zikr edilən həmin ayə nazil olduqda, Rəsuli-əkrəm (s) Əliyə buyurdu.

«***Ya Əli! Sən və şiələrin yaradılmışların ən yaxşısıdır; Sən və şiələrin Qiyamət günü Allah sizdən, siz də Allahdan razı olduğunuz halda gələcəksiniz; düşmənlərin isə qəzəbli və (boyunlarına halqalar keçirildiyinə görə) başları yuxarı qalxmadığı bir halda gələrlər***».

Həzrət Əli «***Düşənləri kimdir?***» dedikdə, Rəsulallah (s) «***Səndən üz çevirən və sənə lənət oxuyan kəslərdir***» - deyə buyurdu.

Yenə Əllamə Səmhudi özünün «Xəvarihul-əqdeyn» kitabında Hafiz Camaləddin Zərəndi Mədəni və böyük alim və ali fəqihiniz, İbn Səbbaq günyəsi ilə tanınan Nuriddin Əli ibn Məhəmməd ibn Əhməd Maliki Məkkinin «Fusulul-muhimmə» kitabının 122-ci səhifəsindən İbn Abbasdan nəql edir ki, məzkur ayə nazil olduqda Rəsuli-əkrəm (s) Əliyə buyurdu:

«***O, (yaradılmışların ən yaxşısı) sən və şiələrindir. Qiyamət günündə sən və onlar Allahdan razı, Allah da sizdən razı halda düşmənlərinsə qəzəbli və əlləri boyunlarına bağlı bir halda gələrlər***».

Yenə etibarlı və əmin alimlərinizdən olan İr Seyid Əli Həmədani əş-Şafei «Məvəddətül-qurba» və mütəssib İbn Həcər «Səvaiqul-Muhriqə» kitabında həzrət Peyğəmbərin (ə) möhtərəm zövcəsi və möminlərin anası Ümmü-Sələmədən Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər:

«***Ya Əli! Sən, əshabın və şiələrin Cənnətdə olacaqsınız; düşmənlərin isə, Cəhənnəm atəşindədirlər***».

Xarəzm xətiblərinin ən üstünü Müvəffəq ibn Əhməd «Mənaqib» kitabının 19-cu bölümündə sənədiylə Rəsulallahın (s) həzrət Əliyə (s) belə buyurduğunu nəql edir: «***Sənin ümmətin arasındakı məsəlin, Məsih İsa ibn Məryəmin əsəli kimidir. Çünki onun qövmü üç firqə oldu: bir firqə həvarilər olan möminlər, bir firqə yəhudi olan düşmənlər, bir firqə də o həzrət haqqında həddi aşaq ğulat[1]. Ümmətimdə sənin haqqında üç firqə olacaq: Bir firqə mömin olan şiələrin, bir***

[1] Ğulat – ifratçılar, həzrət Əlini Allah və Allahın şəriki bilənlər.

***firqə əhd və beyəti pozan düşmənlərin, bir firqə də azğın olan və sənin haqqında həddi aşan ifratçılar. Ya Əli! Sən və şiələrin Cənnətdəsiniz, şiələrinin dostları da Cənnətdədir; düşmənlərin və sənin haqqında həddi aşanlarsa Cəhənnəm odundadırlar***».

Söhbət bu yerə yetişdikdə, əzan səsi eşidildi, ağalar namaz qılmaq üçün ayağa durdular. Namaz qıldıqdan sonra çay içməklə məşğul olunduğu vaxtda camaat namazını qılmaq üçün məscidə gedən möhtərəm seyid Əbdülhəy ağa da namazı qılıb, geri döndü və «Ev yaxın olduğu üçün bu bir neçə cild kitabı da özümlə gətirdim. Bunlar, «Təfsiri-Syuti», «Məvəddətül-qurba», «Müsnədi-Əhməd ibn Hənbəl» və «Mənaqibi-Xarəzmi»dir» - dedi[1].

Kitabları açıb eyni söylənilən hədislər və məsələni təyid edən digər bir neçə hədis də oxundu. Ağaların rəngi dəyişdi, xüsusilə öz təqibçilərinin yanında məhcub[2] olduqları diqqət çəkirdi. Bu vaxt bir az öncə zikr edilən hədisi «Məvəddətül-qurba» kitabında oxudular; üstəlik yeni qarşılaşdıqları digər iki hədisi də oxudular. Rəvayət edilir ki, Rəsulallah (s) belə buyurub:

«***Ya Əli! Yaxın bir zamanda sən və şiələrin Allahın sizdən, sizin də Allahdan razı olduğunuz bir halda Onun hüzurunda olacaqsınız, düşənlərin isə qəzəbli və (boyunlarında halqalar olduğuna görə) başları yuxarı doğru bir halda Allahın hüzurunda olarlar***».

**Dəvətçi:** «Baxın, bunlar Qurani-kərim və öz kitablarınızda yazılmış olan sağlam hədislərlə təyid olan və qısaca olaraq nəql etdiyimiz möhkəm dəlillərdir. Əgər sabaha qədər əzbərdən və qarşınızdakı bu kitabların üzündən hədəf və məqsədi isbat etmək istəsəm, Allahın yardımıyla buna qadirəm. Güman edirəm ki, anlaşılmamazlıqların aradan aparılası üçün misal olaraq nəql etdiyimiz bu qədər rəvayət yetərlidirsə, qardaşlar artıq bundan sonra düşmənlərin azğın sözlərini gərək dillərinə gətirməsinlər. Xaricilər, nasibilər və Əməvilərin uydurduqları sözlərə uyaraq, hər şeydən xəbərsiz avam xalqa «Şiəliyi quran yəhudi Əbdullah ibn Səbadır» deyərək, məsələni yanlış olaraq onlara bildirməsinlər.

---

[1] Məzkur kitablar, son gecəyə qədər Dəvətçinin yanında qaldı.
[2] Utanmaq.

Möhtərəm ağalar, biz şiələr yəhudi deyilik; biz Məhəmmədiyik (s). Həzrət Əlinin (ə) təqibçilərini «şiə» adlandıran da məlun Əbdullah ibn Səba deyil, Rəsulallahın (s) şəxsən özüdür. Biz Əbdullah ibn Səbanı müvafiq və məlun bir kəs bilirik. Dəlil və bürhansız da heç bir fərd və ya dəstəyə uymayın.

Sizin dediyiniz kimi, həzrət Əlinin (ə) təqibçilərinin şiə adlandırılması Osmanın zamanında olmamışdır. Rəsulallahın (s) öz zamanında o həzrətin (s) xas səhabəsinə «şiə» söyləyirdilər. Çünki Hafiz Əbu Xatəmi Razi alimlər arasında ütədavil (etibar edilən) kəlamları təfsirinə yazdığı «Əz-zinət» kitabında belə yazır: «İslamda Rəsulallahın (s) öz zamanında ortaya çıxan ilk ad «şiə»dir. Əshabdan dörd nəfəri «şiə» ləğəbiylə çağırırdılar: Əbuzər Ğəffari; Salman Farsi; Miqdad ibn Əsvədi Kəndi və Əmmar ibn Yasir.

Qardaşlar düşünün, əgər bu termin bidət olsaydı, Rəsulallahın (s) zamanında həzrətin (s) məxsus əshabından olan dörd nəfəri «şiə» ləğəbiylə çağırmaları və Peyğəmbərin (s) də bu kəlmənin bidət olduğunu bilib, onları nəhy etməməsi mümkündürmü?! Bu səbəbdən, onların – Əli (ə) şiələrinin qurtuluş əhli olduğunu həzrət Peyğəmbərin (s) bilavasitə özündən eşitmiş olduqları məlum olur. Baxın, buna görə belə bir məqamla iftixar edirdilər və əshab aşkar şəkildə onları şiə adıyla çağırırdı».

## SALMAN, ƏBUZƏR, MİQDAD VƏ ƏMARIN MƏQAMI

**Dəvətçi:** «Bunlara əlavə olaraq, siz Peyğəmbərin (s) əshabının əməlini höccət bilir və O həzrətdən belə bir hədis nəql edirsiniz:

«***Şübhəsiz, əshabın ulduzlar kimidir, hansına iqtida etsəniz, hidayət olarsınız***».

Əbul-Fida «Tarix» kitabında «Peyğəmbərin (s) əshabından olan bu dörd nəfər «Səqifeyi-Bəni-Səidə»də Əliylə (ə) birlikdə Əbu Bəkrə beyət etməkdən çəkindilər», - deyə yaxılmamışdırmı? Belə isə, nə səbəbdən onların əməlini və beyətdən çəkinmələrini höccət bilmirsiniz?! Öz alimləriniz ki, onları Allahın və Peyğəmbərin (s) dostu olduqlarını yazmışlar. Biz də Həzrət Əlinin (ə) təqibçiləri

olaraq onlara bağlanırıq. Siz də öz hədislərinizin hökmüylə doğru yolu tapa bilərsiniz.

Qardaşların izniylə, vaxtınızı nəzərə alaraq, sizlərə bir neçə hədis nəql etmək istəyirəm:

Hafiz Əbu Nəim İsfahani «Hilyətul-övliya»[1] və İbn Həcər Məkki «Səvaiqul-muhriqə» kitabında həzrət Əlinin (ə) fəzilətləri haqqındakı qırx hədisin 5-cisində Tirmizidən, Hakim də Bureydədən Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər:

«***Allah-təala dörd nəfəri sevməyi mənə əmr etmiş və mənə də onların məni sevdiyini bildirmişdir***». «Ya Rəsulallah! O dörd nəfər kimlərdir?» soruşulduqda, Həzrət(s) «***Əli ibn Əbu Talib, Əbuzər, Miqdad və Salmandır***» - deyə buyurdu.

İbn Həcər 39-cu hədisdə Tirmizidən və Hakim Ənəs ibn Malikdən Rəsulallahın (s) belə buyurduğunu nəql etmişdir:

«***Cənnət üç nəfərin həsrətini çəkir: Əli, Əmmar və Salman***».

Görəsən, Allahın, Peyğəmbərin (s) və Cənnət əhlinin məhbubu olan Rəsulallahın (s) xas əshabının əməl və davranışları nümunə deyilmi?! Müsəlmanların onları qəbul edəcək və onlara əhəmiyyət verəcək dərəcədə «Səqifə» oyunyula müvəffəqiyyət qazanan bəzi qrupların əshab sayılması və Rəsulallahın (s) Səqifə əhlinin niyyətlərinə müxalifət edən digər pak səhabəsinin etibar dərəcəsindən düşüb təsirsiz qalması utandırıcı deyilmi?!

Bu səbəbdən, nəql etdiyiniz hədisi mütləq bir şəkildə deyil, bu çıxılmaz vəziyyətə düşməməniz və bizi də hidayət dairəsindən çıxarmamağınız üçün «***Əshabımdan bəzisi ulduzlar kimidir***» desəydiniz daha yaxşı olardı».

## İRANLILARIN DİYALEME QAZAN XAN VƏ XUDABƏND ŞAHIN ZAMANINDA ŞİƏ OLMALARININ SƏBƏBİ

Lakin «şiə məzhəbi siyasi bir məzhəbdir», «məcusi iranlılar siyasətdə ərəblərin əsarətindən və səltənətindən uzaqlaşmaq üçün bunu qəbul etmişlər»

[1] Cild: 1, səh: 172

sözlərinizə gəlincə, diqqət etmədən atalarınıza tabe olaraq, onların səhv sözlərini bəyan etdiniz. Çünki əvvəlcədən şiənin İslami bir məzhəb olduğunu və Xatəmul-ənbiyanın (s) Allahın əmriylə ümmətin qarşısında qoyduğu bir yol olduğunu sabit etdik. Biz o həzrətin (s) əmrinə görə, Əmirəl-möminin həzrət Əli (ə) və pak Əhli-beytinə (ə) bağlanırıq. Bizə verilən əmrə uyğun əməl edirik və özümüzü haqq bildiyimizdən, qurtuluşa yetişəcəyimizə inanırıq.

Siyasətçilərdir Rəsulallan (s) ən kiçik bir göstərişi olmadan və Onun əmrinə uyğun olmayan Səqifə iclasını təşkil edənlərdir, Onlar həzrət Peyğəmbərin (s) xəttində və hər şeydən pak Əhli-beytə (ə) bağlı olan kəslər deyildilər. Çünki Əhli-beytə (ə) bağlanmaq üçün O həzrətin (s) bilavasitə özündən göstəriş vardır və etibarlı kitablarınızda da zikr olunmuşdur. Lakin Səqifə və Səqifə əhlinə bağlanaq xüsusunda Rəsuli-əkrəm (s) tərəfindən qətiyyən heç bir göstəriş sadir olamışdır.

İranlıların Əmirəl-möminin Əlinin (ə) və mütəhhər Əhli-beytinin (ə) vilayət məqamlarına diqqət etmələrinə gəlincə, əhli-sünnətdən olan qardaşlar ya inad və təəssüb üzündən, ya düşünmədən, ya da heç bir araşdırma aparmadan, keçmiş ata-babalarının adətinə bağlanaraq hökm vermişlər. Beləcə, əhli-sünnətin kitablarını mütaliə edən digər yazarlar da yanlışlığa qapılmışlar. Belə məşhur bir atalar sözü vardır: Tək başlarına hakimin yanına gedib, sevinclə döndülər. Onlar iranlıların siyasi məqsədlərə görə haqq olan şiə məzhəbini seçdiklərini səhvən düşünmüşlər.

Həqiqətən, iranlıların Əmirəl-möminin Əliyə (ə) və o həzrətin (ə) Əhli-beytinə (ə) olan maraq və sevgilərinin əsl səbəbini adət və təəssübdən uzaq duraraq öyrənək istəməmişlər və ya dərin bir şəkildə düşünüb diqqət etməmişlər. Bir az düşünüb diqqət etsəydilər, həqiqətə tez yetişərdilər.

Əgər bir kəs və ya bir cəmiyyət bir işi siyasət məqsədi ilə etmiş olarsa, o iş müvəqqətidir; nəticə əldə edib hədəfə yetişdikdən sonra gəldikləri eyni yolla da geri dönərlər. Onlar şiə kimi min il o əqidədə sabit qalmaz, bu yol uğrunda canlarını verməz, şiə kimi bayrağını qanlarıyla qorumaz və «La ilahə illəllah Məhəmmədun (s) Rəsulallah»dan sonra «Əliyyun (ə) vəliyyullah» kəlməsini söyləyərək, iftixar etməzlər.

Ağaların icazəsiylə tarixin aydınlığa qovuşması, onların siyasət hicabı ilə özlərini şiə göstərmədiklərini həqiqət, dəlil, bürhan və qəlbdən qaynaqlanan sevgi ilə haqq olan şiə məzhəbini seçib, qəbul etdiklərini bilməyiniz üçün bütün millətlər arasında iranlıların həzrət Əli (ə) və mütəhhər Əhli-beytinə (ə) olan sevgilərinin əsl səbəbini qısaca hüzurunuza ərz edirəm:

Əvvəla, iranlıların ağıl və zəkaları, cəhalət, adət və təəssübün onlara mane olmamasını, eyni zamanda haqq və həqiqəti tez idrak edib, səmimi qəlbdən bunu qəbul etməyin vacib olduğunu bilmişlər. Çünki müsəlman ərəblərin əliylə İranın fəth edilməsindən sonra müsəlmanların onlara tanıtdırdıqları müqəddəs İslam dinini tam azad bir şəkildə qəbul etməklərində heç bir məcburiyyət və zorakarlıq olmadı. Müsəlmanlarla həmsöhbət olduqdan sonra dəqiq bir araşdırma ilə İslamın haqq olduğunu anlayıb, neçə min illik atəşpərəstlik və Məcusiyyət dininin batil olduğunu müəyyən edərək, tam bir istəklə iki tanrıya – Əhrimən və Yəzdana olan inanclarından üz çevirib, İslam dinini qəbul etdilər. Beləliklə, həqqaniyyəti sabit edən dəlilləri şiə məzhəbinə, yəni həzrət Əlini (ə) təqib etməklə, əqli dəlillərə bağlandılar.

Dar düşüncəli yazarların çoxunun iddialarının əksinə olaraq, iranlıların vilayət məqamına olan bağlılıqları və onların Əmirəl-möminin həzrət Əliyə (ə) olan sevgiləri Harun və Məmunun xilafəti dövründə olmamışdır; bu sevgi bilavasitə Rəsulallahın (s) zamanında insanların qəlbinə yerləşmişdi. Çünki hər iranlı Mədinəyə gəlib müsəlman olduqda, sahib olduqları xüsusi baxışları və zəkalarıyla haqq və həqiqəti həzrət Əlidə (ə) görürdülər. Bax, bunun üçün Rəsulallahın (s) əmr və rəhbərliyi ilə o həzrətin (ə) vilayətinin sağlam ipinə sarılırdılar.

İmanın bütün dərəcələrinə sahib olan Salman onların başında yer almışdı. Hər iki firqənin nəql etdiyinə görə, Rəsulallah (s) onun haqqında belə buyurmuşdur:

«***Salman biz Əhli-beytdəndir***».

O, Əvvəl gündən «Salmani Məhəmmədi» ləqəbiylə məşhur oldu. Baxın, bu Salman xalis şiələrdən, İmamın (ə) vilayətinə maraq göstərənlərdən və Səqifə hadisəsinə qarşı ciddi bir şəkildə müxalif olanlardandır. Sizin öz kitablarınızda nəql olan hədisin hökmünə görə, ona bağlanmaq hidayət yoluna tabe olmaqdır.

Salman Farsinin belə xalis şiə olmasının səbəbi həzrət Əli (ə) haqqında eşitdiyi ayə və Rəsulallahın (s) sözləri idi. Çünki dəfələrlə Rəsulallahın (s) belə buyurduğunu eşitmişdi:

«***Əliyə itaət edən mənə, mənə itaət edən isə, Allaha itaət etmişdir; Əliyə müxalifət edən mənə, mənə müxalifət edən isə, Allaha müxalifət etmişdir***».

Rəsulallahın (s) zamanında və ondan sonrakı zamanlarda Mədinəyə gedib müsəlman olan hər iranlı O həzrətin (ə) itaət və səfində yer alırdı. Buna görə də II xəlifə qəzəblənərək, onlar üçün bəzi hüdudlar qoydu. Bu məhdudiyyət və təzyiqlər onların qəlbində bəzi ədavət və kinin yaranmasına səbəb oldu. Xəlifənin, Rəsulallahın (s) əmr və davranışına zidd olaraq onları qovması və İslami haqqlardan məhrum etməsinə görə çox kədərləndilər.

Bunlara əlavə olaraq, iranlıları hər şeydən daha çox həzrət Əliyə (ə) və Əhli-beytinin (ə) müqəddəs məqamına istiqamətləndirən, O həzrət (ə) haqqında geniş təhqiqat aparmaları və qəlblərində ona qarşı məhəbbət bəsləmələrinə səbəb olan şey, onların Əmirəl-mömininin (ə) Əsir düşmüş şahzadələrini müdafiə edib, qoruması olmuşdur.

Mədain[1] (Tisfun) əsirlərini Mədinəyə gətirəndə, II xəlifə əsir olan bütün qadınları müsəlmanlara cariyə (kəniz) verilməsini əmr etdi. Əmirəl-möminin Əli (ə) bu işə mane olub, belə buyurdu:

«***Şəhzadələr müstəsna və möhtərəmdirlər, İran şahı Yezdəkirdin iki qızı əsirlər arasındadır, onlar cariyə verilməməlidir***».

II xəlifə «Belə isə nə etmək lazımdır?» dedikdə, Əli (ə) buyurdu:

«***Əmr et, ayağa qalxsınlar və müsəlmanlardan istədikləri şəxsi, azad şəkildə özlərinə ər qəbul etsinlər***».

Həzrət Əlinin (ə) tövsiyəsinə əməl edərək, durub səhabələri gözdən keçirtdilər. Şahzadə, həzrətin (ə) himayəsi altında tərbiyə görən və böyüyən Məhəmməd ibn Əbu Bəkri, Şəhribanu da Rəsulallahın (s) nəvəsi imam Hüseyni (ə) seçdi. Bu qızlar şəri bir nikahla onların evinə getdilər.

---

[1] İran şəhəri.

Allah-təala Şahi-Zənəndən Məhəmmədə bir övlad verdi (İmam Cəfər Sadiqin anası olan Ümmü Fərvənin babası Qasim Fəqihi). Şəhribanudan da imam Hüseynə (ə) imam Zeynul-Abidin (ə) bağışladı.

Bu xəbər və həzrət Əlinin (ə) şahzadələri qoruması məsələsi iranlılara yetişdikdə, imama (ə) xüsusi bir maraq göstərdilər; bu göstərilən maraq Əmirəl-möminin (ə) haqqında dərin bir şəkildə təhqiq aparmalarına səbəb oldu.

Xüsusilə də, İran müsəlmanların əliylə fəth edildikdən sonra müsəlmanlarla yaxından təmasda olmaları nəticəsində, o həzrətin (ə) vilayət, imamət və xilafət məqamını isbatedici dəlillərlə öyrənib, qəlbən ona bağlandılar. Mane və məhdudiyyətlər aradan getdikdə, vəziyyət münasib olduqda, öz inanc və əqidələrini açıq-aydın söyləyib, məzhəblərini aşkar etdilər.

Bu əqidənin ortaya çıxması və məzhəbin mövcudluğunun Harun və Məmunun zamanı və Səfəvilərin səltənət dövrüylə heç bir əlaqəsi yoxdur! Səfəvilərin səltənət dövründən 700 il əvvəl haqq olan şiə məzhəbi İranda zühur etmişdir, yəni hicri IV əsrdə İranda Hakim Diyalemi Əli Buyeye devrildikdən sonra bu həqiqətin üzərindən pərdə götürülmüşdü. Beləcə, iranlılar tam bir azadlığa qovuşub, qəlblərində gizli qalan məzhəbi aşkar etdilər.

## MONQOLLARIN DÖVRÜNDƏ ŞİƏNİN ZÜHURU

Hicri 694-cü ildə İranın səltənəti Qazan xan Monqola[1] yetişdi. Əhli-beytə (ə) məxsus bir maraq göstərdiyinə görə, şiə məzhəbi onun zamanında daha da geniş yayıldı. Onun vəfatından sonra hicri 707-ci ildə səltənət Qazan xanın qardaşı Cayituya[2] keçdi.

[1] İslami adı «mahmud»dur.
[2] Məhəmməd şah Xudabəndəyə

# ƏLLAMƏ HİLLİNİN QAZİ ƏL-QƏZATLA MÜNAZİRƏSİ

Alim və tarixçi Şafei əl-həmədaninin nəql etdiyinə görə Şahin şahın sarayında şahın hüzurunda, o zamanda şiə alimlərinin iftixarlarından və əsrin dahilərindən olan cəmalül-milləti vəd-din, Əllamə kəbir Həsən ibn Yusuf ibn Əli ibn Mütəhhəri Hilli ilə əhli-sünnətin ən böyük alimlərindən olan Xacə Nizamuddin Əbdülməlik Məraği Qazi əl-Quzat Əş-Şafei arasında bir qrup mübahisələr meydana gəldi. O məclisdə imamət məsələsi bəhs edildi. Əllamə Hilli açıq və qəti dəlillərlə Əmirəl-möminin Əlinin (ə) Rəsulallahdan (s) sonrakı xilafət və imamətini sabit etdi və digər şəxslərin iddiasının batilliyini ortaya qoydu ki, artıq məclisdə oturanlar üçün şübhə ediləcək heç bir yol qalmadı. Hətta Xacə Nizamuddinin özü belə; «Möhtərəm Əllamənin dəlili aydın və güclüdür, amma atalarımız bir yolu tutub getmişlər, bizim də avam xalqı susdurmaq və İslam ümmətinin birliyinin pozulmaması üçün o yolu təqib etməyimiz və sirləri aşkar etməməyimiz lazımdır» dedi.

Bu vaxtda Şahənşahın təəssübkeşliyi olmadığı və hər iki tərəfin dəlillərini yaxşı dinlədiyinə görə, münazirə qurtardıqdan sonra şiənin həqiqəti ortaya çıxdıqda, haqq olan İmamiyyə (şiə) məzhəbini seçdi və bu məzhəbin sərbəst şəkildə fəaliyyət göstərməsini, bütün vilayətlərin hakim və valilərinə, bütün məscidlərdə Əmirəl-möminin həzrət Əli (ə) və digər İmamların (ə) adı ilə xütbə oxumalarını İranın bütün şəhərlərinə elan etdi. Dinarların (pulların) üzərinə üç sətirdə «La ilahə illəllah Məhəmmədun Rəsulallah Əliyyun vəliyullah» kəlməsinin yazılmasını əmr etdi (şəkil: 17).

Şahin şah möhtərəm Əllamə hillini hillə[1] şəhərindən bir qrup məsələlərin izahı üçün çağırtdırmışdı. Amma bu elmi toplantıda münazirələr aparılaraq, şiənin həqiqəti ortaya çıxdı. Şahin şah Əllamə hillini öz yanında saxladı və onun üçün xüsusi bir mədrəsə ayırdı. Bundan sonra tələbələr onun ətrafına toplaşdılar. Aşkar şəkildə aparılan təbliğatların nəticəsində həqiqətlər ortaya çıxdı və hər şeydən

[1] İraqda yerləşir.

xəbərsiz olan insanlar haqq olan İmamiyyə yolunun həqiqətini anladılar. Beləliklə, vilayətin işıq saçan günəşi təqiyyə[1] buludunun altından aydınlığa çıxdı.

Təxminən 700 ildən sonra Səfəvilərin güclü sultanlarının dəstəyi və o zamanın kamil təbliğləriylə qara buludlar tamamilə dağıldı və vilayət və imamət günəşi dünyaya işıq saçdı.

İranlılar nə qədər çox Məcus (oda sitayiş edən) və iki tanrıya inanırdılarsa da, müsəlmanların məntiqə uyğun dəlil və burhanlarını bildikdə, onu cani-qəlbdən qəbul etdilər; indiyə qədər də tam bir səmimiyyətlə İslami əqidələrinin üzərində sabitdirlər.

Əgər iranlıların arasında inanc baxımından məcus olan, bir yerə bağlı olmayan və ya ğulatlar silsiləsinə girib, Əlini (ə) öz məqamından uluhiyyət dərəcəsinə yüksəldən, onu Xaliq və ruzi verən və yaxud Hulul[2], ittihat və vəhdəti-vücuda[3] inananlar olarsa, onların iranlıların təmiz qəlbli əhalisi ilə heç bir əlaqəsi yoxdur! Hər qövm və cəmiyyətdə bu növ düşüncəsiz və ağılsız insanlar mövcuddur. Lakin İranın nəcib və məlumatl xalqının əksəriyyəti Allah-təalanın vəhdaniyyəti, Xatəmul-ənbiyanın (s) nübuvvət və Əmirəl-möminin həzrət Əli (ə) və on bir övladınının (ə) Peyğəmbərin əmr və göstərişi ilə imamətə seçildikləri xüsusunda sabit və doğru bir iman və əqidəyə sahibdirlər».

**Hafiz:** «Hicazlı, məkkəli və mədinəli olan sizin kimi bir şəxsin, İranda bir müddət qalmaqla onları bu qədər dəstəkləməniz və onları Əlinin (kərrəməllahu vəchəhu) təqibçiləri bilməniz, həqiqətən, təəccüblü bir şeydir. Əli Allahın qulu, Onun əmrinə bağlı və Ona itaət edən biri insan idi. Lakin iranlı şiələrin hamısı Əlini Allah bilirlər, onu Allahdan ayrı bilmirlər. Öz şerlərində də Allah-təalanın mərtəbəsində olan, Əlini haqq və hətta haqqın eynisi bilirlər. Çünki onların divan və cib dəftərlərində bu növ küfriyyət görünür. İranlı şiə alimlər Əlinin (kərrəməllahu vəchəhu) dilindən bu növ şerləri nəql edirlər. Qətiyyən deyə bilərik ki, Əli belə bir inancdan uzaqdır…».

---

[1] Təqiyyə – bəzi can və mala gələcək zərərlər üçün din, məzhəb və inancı büruzə verməmək
[2] Hulul – Tənasüx inancına görə, ruhun bir bədəndən çıxdıqdan sonra başqa bədənə girməsi.
[3] Varlıq aləminin ən uca mərtəbəsində Allah-təalanın varlığı olmaq üzərə canlı və cansız bütün varlıqların bir vücud olmasına «vəhdətu-vücud» deyilir.

**Dəvətçi:** «Sizə təəccüb edilməlidir ki, araşdırmadan iranlı bütün şiələri ifratçı və Əlipərəst (Əliyə sitayiş edən) bilirsiniz. Bu sözlərlə məsələni hər şeydən xəbərsiz sünni qardaşlarımızın zehninə həkk edir, sonra da iki qardaşın bir-birlərini öldürməsinə səbəb olursunuz. Bu növ sözlər Əfqanıstan, Hindistan, Özbəkistan, Tacikistan və digər yerlərdə şiələrin öldürülüb, qanlarının axıdılmasına yol açmışdır.

Özbəkistan və Türkistan (Türkmənistan) müsəlmanları «şiələr Əlipərəst, müşrük, kafirdirlər və öldürülmələri vacibdir» deyən alimlərin fəryadları nəticəsində nə qədər müsəlanların qanını töküb, tarixin səhifəsini ləkələdilər. Əhli-sünnətin hər şeydən xəbərsiz zavalı xalqı da, sizin kimi alimlərin rəhbərliyi ilə iranlı müsəlmanlara ədavət, şirk, küfr və irtica gözüylə baxırlar.

Keçmiş zamanlarda türkmənlər Xorasan yolunda «kafirdirlər» deyərək, iranlıların qarşısını kəsir, mallarını talan edir, öldürür və belə deyirdilər: «Kim yeddi nəfər rafizi (şiə) öldürərsə, Cənnət ona vacib olar!».

Bilin ki, bu əməllərin qətllərin məsuliyyətini «şiələr Əlipərəst, müşrik və kafirdir» deyən sizin kimi alimlər daşıyır. Hər şeydən xəbərsiz saf və avam sünnilər də bu cür sözləri qəbul edib, savab qazanmaq qəstiylə, bu növ əməllərə təşəbbüs göstərirlər».

## İSLAM HƏR CÜR İRQÇİLİYİ QADAĞAN ETDİ

Əvvəldə söylədiyiniz sözün cavabını verdikdən sonra əsr mətləbə keçəcəyəm «Siz Hicazlı, Məkkədən və mədinəli olduğunuz halda nə üçün iranlıları müdafiə edirsiniz?» - deyə buyurduğunuz sözünüzə gəlincə, bu aydındır ki, məkkəli, mədinəli və Məhəmmədi (s) olmaq iftixarımdır, yalnız cəhalət və ağılsızlıqdan qaynaqlanan irqçilik təəssübü qətiyyən məndə yoxdur. Çünki uca cəddim Xatəmul-ənbiya (s) hər millətin qövm və vətən sevgisini nəzərə alaraq «***Vətənin sevgisi imandandır***» cümləsini buyurmaqla, hər qövm və millətə vətəni sevməyi əmr etmişdir.

Rəsulallahın (s) insanların birliyi və onlardan hər növ mənasız düşüncələri aradan aparmaq yolunda atdığı ən böyük addımlardan biri də, irqçilik və cahilyanə təəssübləri tamamilə aradan aparması idi. Uca bir səslə bütün insanların diqqətini buyurduğu bu sözə cəlb etdi:

«***Ərəbin əcəmdən, əcəmin ərəbdən, ağ dərilinin zəncidən, zəncinin də ağ dərilidən elm və təqvadan başqa heç bir üstünlüyü yoxdur***».

Yenə Rəsulallah (s) alim və təqvalı şəxslərin məsələni səhv başa düşüb, buruğundan sənəd əldə etməmələri, təvazökarlıqdan uzaqlaşıb, başqalarına qarşı kibr və mənəmçilik göstərməmələri üçün belə buyurdu:

«***Ərəbdən olmağım iftixar deyildir; Adəm (ə) övladlarının seyidi (ağası) olmağım da iftixar deyildir***».

Zikr edilən bu cümlənin məxsus mənası budur ki, ərəb və Adəm (ə) övladlarının ağası-şərəflisi olmağıma baxmayaraq, bu məqam və soyla başqalarına qarşı öyünmürəm. Peyğəmbərin (s) iftixarı, sadəcə Allahın itaətkar qulu olmasıdır. Allaha yalvarışlarında bel ərz edirdi:

«***Allahım! Sənə qul olmağım mənə iftixar olaraq yetər***».

Allah-təala «Hucurat» surəsinin 13-cü ayəsində belə buyurmuşdur:

«***Ey insanlar! Həqiqətən, Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Həqiqətən, Allah yanında sizin ən üstün olanınız, təqvaca ən irəlidə olanınızdır…***»

Gördüyünüz kimi Allah-təala fəzilət, üstünlük və ucalığı təqvada qərar vermişdir. Yenə «Cuhurat» surəsinin 10-cu ayəsində belə buyurur:

«***Həqiqətən, möminlər qardaşdırlar. Belə isə, aralarında sülh yaradın…***».

Ağ, qara, sarı və qırmızı dərili irqdən olan kəndli, şəhərli, afrikalı, asiyalı, avropalı və amerikalı olan bütün insanlar İslam bayrağı və «La ilahə illəllah Məhəmmədən Rəsulallah» kəlməsi altında bir-biriylə qardaşdırlar və heç birinin başqa birisindən üstünlüyü yoxdur.

İslamın uca rəhbəri Xatəmul-ənbiya (s) da əcəmdən olan Salman Farsini, Rusdan olan Suheyb Rumini və Həbəşədən olan zənci Bilalı məhəbbət və sevgiylə qəbul etməyi əməlində açıq göstərmişdir. Lakin ərəblərin ən yaxşı irqindən, şərif

soydan olan əmisi Əbu Ləhəbi özündən uzaqlaşdırdı və onun haqqında bir surə belə nazil oldu:

«*Əbu Ləhəbin iki əli qurusun və qurudu da…*».

## BÜTÜN POZĞUNÇULUQ VƏ SAVAŞLAR İRQÇİLİK SƏBƏBİNDƏNDİR

Bütün fitnə, fəsad, savaş və çəkişmələr irqləri ilə öyünmələrdən və cahillik təəssübünə görədir. Almanlar deyirlər ki, Ariya və Cirmin irqi bütün irqlərdən üstündür. Yaponlar deyirlər ki, ağalıq haqqı sarı dərili olan irqindir. Avropalılar da deyirlər ki, ağ dərili olanlar böyük və üstündürlər. Ucqar Amerikada zəncilər insan haqlarından məhrumdurlar; hətta ağların kafe, kinoteatr və mehmanxanalarına girməyə belə haqları yoxdur. Bir xristian zəncinin ağların kilsəsinə girməyə haqqı yoxdur. Təəccübləndirici şey budur ki, məbəddə də bir səviyyədə otura bilməzlər. Zəncilərin ziyalı və alimləri ağ dərili ziyalıların elmi toplantılarında iştirak edərlərsə, məclisin arxa tərəfində oturmalı, ağ dərililərin qarşısında elmlərini izhar etməməlidirlər. Zənci olan bir ziyalı, ağ dərili gəncin qarşısında təzim edib, təslim olmalıdır. Zənci tələbələri, ağ dərililərin məktəblərinə buraxmırlar; hətta qatarın vaqonlarının arasında olan keçiddə bir zənci durub qalsa da, onun ağ dərililərin boş olan vaqonlarına keçmək haqqı yoxdur.

Qısaca desək, Amerikadakı zəncilərin öz azadlıqları üçün apardıqları mübarizəyə baxmayaraq, heyvanların cərgəsində sayılırlar. Ağ dərililər kimi mövcud imtiyazlardan yararlanmaq haqları yoxdur[1].

Lakin müqəddəs İslam dini azğın və xurafat bütün əqidələri 1400 il bundan əvvəl aradan aparmış və «bütün müsəlmanlar, hansı irq və qəbildən olursa-olsunlar, möhtərəmdirlər», deyə buyurmuşdur.

---

[1] İtaliyanın diktator rəhbəri Mussalini (Benito) öz təmsilçisinin beynəlxalq toplantıdan çıxmasını əmr etdi. Çünki Həbəşi zəncilərinin qatıldığı bir toplantıya təmsilçisinin qatılması, onun üçün bir təhqir idi. Amma İslam Peyğəmbəri (s) on dörd əsr əvvəl Həbəşi zənci olan Bilalı bağrına basıb, ona «Ya Bilal! Bizə Quran oxu, bizi şa det» buyuruşdu. İndi əziz oxudular yolun hardan-haraya fərqli olduğuna diqqət etsinlər.

Avropalı, asiyalı, afrikalı müsəlmanlar bir-birlərinə qarşı məhəbbət bəsləyib, ədalətli davranmalıdırlar; dünyanın harasında olurlarsa-olsunlar, daima bir-birlərinə yardımçı və dərdlərinə şərik olmalıdırlar. İslam məkkəli, mədinəli və hicazlı müsəlmanlar ilə digər məmləkətlərin müsəlmanları arasında heç bir fərq qoymamışdır.

Bu səbəbdən, soyum Hicazi, Qureyşi, Haşimi və Məhəmmədi (s) olduğuna görə haqqı gizlətməyim doğru deyildir. Qətiyyətlə deyirəm ki, saxta hicazlıları mərdud sayır və iranlı müsəlmanları isə sevirəm. Biz insanların qəlbinə və imanına baxırıq, zahirinə yox!

Üstəlik, siz iranlı ğulatları heç bir dəliliniz olmadan pak, müvəhhid və xalis şiələrlə qarışdırdınız.

## ĞULATIN ƏQAİDİ, ONLARIN QINANILMASI VƏ ƏBDULLAH İBN SƏBANIN LƏNƏTLƏNMƏSİ

**Dəvətçi:** «Əirəl-möminin həzrət Əlinin (s) bütün şiələri Allah-təalanın seçilmiş qulları, Allah-təalaya, Onun qulu və rəsulu olan Məhəmmədə (s) itaət edən və Əli ibn Əbu Talib (ə) haqqında həzrət Peyğəmbərin (s) buyurduğundan başqa bir şey söyləməyən kəslərdir. Bizlər həzrət Əlini (ə) Allahın saleh qulu və Rəsulallahın (s) da vəsisi və xəlifəsi bilirik.

Biz bu əqidədən başqa bir əqidəyə sahib olan kəsi özümüzdən uzaq sayır, onu mərdud bilirik. Məsələn, səbaiyyə, xətabiyyə, ğarəbiyyə, ulyaviyyə, muhamməsə, buzəyqiyyə və İranın bəzi kənd və şəhərlərində, Mosul və Suriyada əhli-haqq adıyla tanınmış və sair bu kimi bəzi ğulat qruplar da vardır.

Bütün şiələr bu inancdadırlar; onları kafir, mürtəd və nəcis bilirlər. Şiə müxtehidləri bütün fiqh və əhkam kitablarında ğulatı kafirlər cərgəsində zikr edirlər; çünki onlar artıq dərəcədə azğın inanclara sahibdirlər. Məsələn, deyirlər ki: «Ruhani şeyin cismani halda zühur etməsi mümkündür. Cəbrayıl «Dehyei-Kəlbi» surətində həzrət Peyğəmbərə (s) zahir olurdu; haqqın (Allahın) hikməti

hakimanəsi, zatı əqidəsinin bəşər surətində aşkar olması lazım gəlirdi. Buna görə həzrət Əlinin (ə) surətində zahir oldu!».

Bax bu səbəbdən, həzrət Əlinin (ə) məqamını həzrət Peyğəmbərin (s) müqəddəs məqamından daha uca bilirlər. Həzrət Əlinin (ə) yaşadığı dövrdən etibarən insu-cin şeytanlarının aldatmalarıyla, bir qrup insanlar bu əqidəyə sahib olmuşlar. Həzrət Əlinin (ə) özü Hindistan və Sudandan gələn və Onun (ə) ilahlığını iddia edən bir qrup insanlara xeyli nəsihət etdi. Bu nəsihətlərin bir fayda vermədiyini gördükdə, onların dumanlı quyularda (tarix kitablarında nəql edildiyinə görə) ölüdürülmələrini əmr etdi.

Bu hadisənin izahı Əllamə cəlilul-qədr, mərhum mola Məhəməd Baqir Məclisi (r.ə) «Biharul-ənvar» kitabının VI cildində ətraflı şəkildə zikr edilmişdir. Əmirəl-möminin həzrət Əli (ə) və digər məsum İmamlar (Allahın salamı olsun onlara) onlara lənət edib özlərindən uzaqlaşdırmış və onlardan bizarlıq etmişlər.

Yenə mötəbər kitablarımızda mövlamız Əmirəl-möminin Əlinin (ə) belə dua etdiyi nəql olunmuşdur:

«***Allahım! İsa ibn Məryəmin Nəsaradan (Xristianlar) bizarlıq etdiyi kimi, mən də ğulatdan uzağam. Allahım! Onları daima zəlil et və heç birinə yardım etmə***».

Digər bir xəbərdə də həzrət Əli (ə) belə buyurmuşdur:

«***Mənə görə iki qrup insanlar həlak olacaqdır (bu işdə mənim heç bir günahım yoxdur): Sevgidə həddini aşanlar (yəni ifrat və ğuluv edənlər) və sevməyib geri qalanlar (yəni düşmən olanlar). Biz, haqqımızda həddini aşacaq dərəcədə ğuluv (mübaliğə) edən kəslərdən, İsa ibn Məryəmin nəsranilərdən bizarlıq etdiyi kimi bizarlıq edir və Allaha sığınırıq***».

Həzrət Əli (ə) buyurmuşdur:

«***Mənə münasibətdə ifrata varan iki qrup insan həlak olacaqdır: Ğuluv edərək sevən və nifrət edərək düşmənçilik edən***».

Bax, bu səbəbdən on iki imam (ə) şiələri Əmirəl-möminin Əli (ə) və mütəhhər Əli-beyti (ə) haqqında nəzm[1] və nəsir[1] olaraq ğuluv edən, onları Allah və

---

[1] Nəzm – ölçülü və qafiyəli söz və ya yazı.

Rəsulunun (s) müəyyən etdiyi məqamın kənarına çıxaran və bəndəlik məqamından Allahlıq məqamına yüksələn kəslərdən bizarlıq edirlər. Belə bir əqidəyə sahib olan kəslər bizdən deyillər; onlar ğulat və məlunlardandır.

Sizlər şiə camaatını onlardan ayrı bilməlisiniz. Çünki, İmamiyyə alimləri ğulatın kafi və nəcis olmaları haqqında icma etmişlər. Əgər şiə fəqihlərinin «Cəvahirül-kəlam», «Məsaliq» və digər kitablarına, mərhum Ayətullah Yəzdinin (qüddisə sirruh) «Urvətul-vüsqa» və Ayətullahul-üzma İsfahaninin (müddə zilluhul-ali) «vəsilətun-nicat» adlı risalələrinə (kitablarına) müraciət etsəniz, «Təharət», «Zəkat», «Nigah» və «İrs» bablarında müctehidlərimizin onların kafir və nəcis olduqlarına dair fitvalarını görərsiniz. Bütün müctehidlərimiz, onların qüsl və dəfnində iştirak etmənin, onlarla evlənmənin, (bu evlənmə əhli-kitabla müvəqqəti olaraq caiz olsa da belə) müsəlmanın miras haqşqının və hətta sədəqə və zəkatın onlara verilməsinin caiz olmadığına dair fitva vermişlər.

Qurtuluş əhli olan şiələr kəlam və əqaid kitablarında bu fəsid və kafir firqədən bizarlıq etmənin hər müsəlmana, xüsusilə əqidələri xalis olan şiələrə vacib və lazımlı olduğu, geniş bir şəkildə, dəlillərlə açıqlamışlar.

Ğulatın inkarına dair kifayət qədər ayə və hədis mövcuddur; biz onlardan bəzisini bildiririk.

Allah-təala Maidə surəsinin 77-ci ayəsində belə buyurur:

«***De ki: «Ey kitab əhli haqsız yerə dininiz mövzusunda [İsanın nübuvvət məqamından ilahlıq məqamına qaldıraraq] ifrata getməyin və əvvəldə bir çoxunu azdırmış və düz yoldan çəkindirmiş bir qövmün [Xristian keşişlərinin] həvayi-nəfslərinə uymayın***».

Mərhum Əllamə Məclisi (qüddisə sirruh) şiənin elm ensiklopediyası olan «Biharul-ənvar» kitabının 30-cu cildində onların (ğulat) qınanması və risalət ailəsinin onların iddia etdiyi şeydən uzaq olmaları xüsusunda bir çox rəvayətlər nəql etmişdir. Məsələn, imam Cəfər Sadiqdən (ə) nəql etmiş olduğu hədisin mənası məxsus olaraq belədir:

---

[1] Təbii danışma tərzində söz və ya yazı.

«***Biz, Allah-təalanın bizi yaratdığı və seçdiyi qullarıq… Biz mütləq öləcəyik, sorğu-sual olunacağıq (biz də sizin kimi bəşərik). Ğulatın sevən bizə nifrət etmişdir; onlara nifrət edən bizi sevmişdir. Kafir və müfəvvize[1] olan ğulat, müşrikdirlər; Allah ğulata lənət etsin***».

Yenə şiənin böyük rəhbərlərindən olan ima Cəfər Sadiqin (ə) belə buyurduğunu nəql etmişlər:

«***Allah, Əbdullah ibn Səbaya lənət etsin; o Əmirəl-möminin Əli (s) haqqında rübubiyyət (ilahçılıq) iddiası etdi. Allaha And olsun ki, Əmirəl-möminin Əli (ə) Allahın itaət edən qulu idi. Bizə böhtan deyən qullara yazıqlar olsun! Bəzi kəslər söyləmədiyimiz şeyi bizim haqqımızda söyləyirlər. Biz onlardan bizarlıq edib, Allaha sığınırıq. Yenə biz onlardan bizarlıq edib, Allaha sığınırıq***».

Şiə fəqihlərinin iftixarı olan Əbu Cəfər Məhəməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Babeveyh Qummi (quddisə sirruh) «Əqaidi-Səduq» kitabında şiənin etibarlı ravilərindən, Əhli-beytin (ə) elmini qoruyanlardan və həzrət Baqirul-ulum (ə) və həzrət Sadiqin (ə) əshabından olan Zürarə ibn Əyəndən belə bir rəvayət nəql etmişdir:

«***İmam Sadiqə (ə) «Əbdüllah ibn Səbanın övladlarından biri təfvizə inanır» - deyə ərz etdim. İmam (ə) «Təfviz nədir?» soruşdu. Ərz etdim: «Allah-təala Məhəmməd və Əlini yaratdı, sonra qulların işlərini onlara təfviz etdi (öhdəsinə buraxdı). Onlar da yaratdılar, rizq verdilər, diriltdilər və öldürdülər». İmam (ə) bu sözü eşidəcək, belə buyurdu: «Allahın düşməni yalan söyləmişdir; gedib, «Rəd» surəsindəki bu ayəni ona oxu:***

***«Yoxsa Allaha bir sıra şəriklər qoşdular ki, Onun (Allahın) yaratdığı kimi [guya onlar da]yaratdılar və sonra da [bu iki] yaranmışlar [qarışıb] bir-birinə oxşadılar. De: «Hər şeyin yaradanı yalnız Allahdır və O, təkdir, hər şeyə qadirdir***»[2].

Daha sonra buyurdu:

---

[1] Müfəvvize – bu söz lüğət etibarı ilə işləri başqasının öhdəsinə buraxmaq mənasını verir. Amma istilah olaraq, «Allah-təala insanları yaradıb, hər şeyi onların öz üzərinə burazmışdır» deyən kimsələrə deyilir.

[2] «Rəd» surəsi, ayə: 16.

«***Bu ayə, Allah-təalanın birliyinə aşkar şəkildə dəlalət edir***».

Zürarə belə deyir: «Onun yanına qayıtdıqda, İmamın (ə) buyurduğu bu ayəni ona oxudum. Bu ayəni oxumaqla sanki onun ağzına bir daş qoydum. Beləcə, susub qaldı».

Ğulat firqəsini qınamaq və onları lənətləmək xüsusunda buna bənzər bir çox rəvayətlər bizim etibarlı kitablarımızda yer alır. Avam xalqın aldadılmasına səbəb ola bilən sözləri ağzınıza almamağınız və ilahi ədalət məhkəməsində mühakimə edilməməniz üçün bizim sizin alimlərinizin kitablarını oxuduğumuz kimi sizin də şiə alimlərinin etibarlı kitablarını oxumağınız yaxşı olardı.

Möhtərəm ağaların insafla danışmaqlarını istəyirəm; görəsən, İmamlarımızın (ə), şiələri hidayət etmələri üçün belə bəyan etdikləri və həqiqi şiələri, yəni həzrət Əlinin (ə) təqibçiləri və övladları öz rəhbərlərindən eşitdikləri halda, yenə də onları Allah və ya İlahilik məqamına ucaldarlarmı?

Ğulat firqəsi tamamilə bizdən uzaqdır, biz də onlardan uzağıq. Zahirdə şiəlik iddiasında olsalar da, Allah-təala, Peyğəmbər (s), Əli (ə) və Əli (ə) övladlarının hamısı və bütün şiələr onlardan uzaqdır. Çünki mövlamız Əmirəl-möminin həzrət Əli (ə) ğulatların rəhbəri olan məlun Əbdullah ibn Səbanı üç gün həbs etmiş, tövbə etməsini istəmiş, qəbul etmədikdə məcburən onu oda atıb yandırmışdır.

Allah xatirinə, etiraflı olun, alimlərinizin təəssübkeşlərindən və keçmişlərinə uyaraq «şiə məktəbinin qurucusu məlun Əbdullah ibn Səbadır» demələri və ya yazmaları utandırıcı deyilmi?! Şiə alimləri bu məsələ ilə bağlı bütün kitablarında İmamlarına (ə) bağlanmış, Əbdüllah ibn Səbanı məlun bilmişlər. Əbdullah ibn Səbaya uyan kəslər də məlundur; çünki onlar ğulatdır və Peyğəmbərin (s) Əhli-beyti (ə) haqqında ifratçı düşüncəyə sahib olanlardır.

Əgər təəssübkeş alimlərinizin yazdığı və digər şəxslərin də kor-koranə onlara bağlanaraq tədbir və minbərlərdə söylədikləri kimi, məlun Əbdullah ibn Səba şiə məktəbinin qurucusu və şiələr də onun təqibçiləri olsaydı, o zaman ən azından şiə kitablarından birinci o tərif edilərdi. Əgər şiə alimlərinin kitablarının sadəcə olaraq birində məlun Əbdullah ibn Səbanı tərif etdiklərini göstərsəniz, mən bütün sözlərinizə təslim olacağam. Amma əgər göstərməsəniz (qətiyyən göstərə

bilməzsiniz), o zaman hesab günündən və ilahi ədalət məhkəməsindən qorxun və pak müvəhhid şiələri məlun Əbdullah ibn Səbanın təqibçiləri kimi tanıdıb, məsələni hər şeydən xəbərsiz avam xalqa yanlış çatdırmayın.

Yenə alicənab qardaşlardan rica budur ki, elm əhlindən olduğunuz üçün daima qayda, elm, məntiq və həqiqət üzərində danışın; düşmənlərin inadkarcasına şiələrə nisbət verdikləri azğın və məntiqsiz sözlərdən çəkinin».

**Hafiz:** «Sizin qardaşcasına söylədiyiniz nəsihətlərinizi ağıllı olan hər kəs qəbul edib, diqqət edir. Lakin icazənizlə, mən də yadınıza salım deyə, bəzi şeyləri ərz edim».

**Dəvətçi:** «Çox şad olaram, buyurun».

**Hafiz:** «Siz söhbətlərinizdə daima «biz İmamlar haqqında Ğuluv etmirik» deyirsiniz, ğulatı məlun, mərdul və Cəhənnəm əhli bilirsiniz. Amma bu iki gecədə dəfələrlə imamlar haqqında sizdən bəzi sözlər duyulur. Bəyan etdiyinizə görə, onlar bu cür sözlərə razı deyildilər. Mümkünsə, siz də danışıqlarınızda qınanmağa yol açacaq sözlər söyləməməniz üçün diqqətli olun».

**Dəvətçi:** «Mən təəssübkeş və cahil bir kəs deyiləm, danışığımda yanlışlıq olarsa, deyin, çox şad olaram. Çünki insan yanılan və unutqan bir varlıqdır. Bu iki gecədə hidayət İmamlarının (ə) rizasına zidd olan, elm, əql və məntiqlə uyğun olmayan şeylər görmüsünüzsə, rica edirəm ki, açıq şəkildə bəyan edin!».

**Hafiz:** «Bu iki gecədə dəfələrlə imamlarınızın adını dedikdə, «Rəziyallahu ənhum» yerinə «Salamullahi əleyhim» və ya «Salavatullahi əleyhim» buyurdunuz. Bu isə, özünüz də bildiyiniz kimi, «Əhzab» surəsindəki bu ayənin – «**Həqiqətən, Allah və mələkləri Peyğəmbərə Salavat göndərirlər. Ey iman gətirənlər! Siz də ona Salavat göndərin və tam bir təslimiyyətlə ona salam verin**»[1] hökmüylə Salavat və salam sadəcə Rəsulallaha (s) məxsusdur. Amma siz danışanda imamlar haqqında Salavat və salam söyləyirsiniz. Etdiyiniz bu əməlin Quranın təbirinə zidd olması çox aşkar görünür. Sizə qarşı irəli sürülən iradlardan biri, bax elə bu məsələdir. Belə bir şey bidətdir, «bidət əhli də, zəlalət əhlidir» deyirlər».

---

[1] «Əzhab» surəsi, ayə: 56.

# MƏHƏMMƏD (S) ƏHLİ-BEYTİNƏ (Ə) SALAVAT DEMƏK BARƏSİNDƏ İRAD VƏ ONUN CAVABI

**Dəvətçi:** «Şiə camaatı qətiyyən ayəyə və hədisə zidd bir iş etməyib və etmirlər də. Keçmiş əsrlərdə onların düşmənləri, məsələn xəvaric, nəvasib, Əməvi və onlara bağlı olanlar bəhanələr axtararaq, şiələri bidət əhli kimi tanıtmaları üçün əsassız dəlillər gətirmişlər. Şiənin böyük alimləri onların bütün cavablarını vermiş və bidət əhli olmadıqlarını isbatlamışlar. Qələm düşmənin əlində olarsa, tənha qazilik edər və istədiyini yazar. Bu mövzunun da cavabı təfərrüatıyla verilmişdir. Amma vaxt keçdiyinə görə, geniş bir şəkildə cavab verə bilməyəcəyəm. Buyurduqlarınızın cavabsız qalmaması və məsələnin də məclisdə iştirak edən əziz qardaşlarımız tərəfindən səhv başa düşülməsəsi üçün mövzu ilə bağlı bəzi nöqtələrə qısaca toxunmaq istəyirəm:

Birincisi, zikr edilən ayə salavat və salamın başqalarına söylənməsini qadağan etməmişdir; müsəlmanların həzrət Peyğəmbərə (s) salavat deməyin vacib olduğunu əmr edir.

İkincisi, həmin bu ayəni nazil edən Allah-təala «Saffat» surəsinin 130-cu ayəsində belə buyurur:

«***Ali-Yasinə salam olsun***».

Risalət (s) ailəsinin (ə) böyük xüsusiyyətlərindən biri də, Quranın hər yerində böyük peyğəmbərlərə (ə) xüsusi sala buyurur:

«***Aləmlər arasında Nuha salam olsun***», «***İbrahimə salam olsun***», «***Musa və Haruna salam olsun***»[1].

Quranın heç bir yerində peyğəmbərin (ə) övladlarına salam söylənməmişdir. Sadəcə Xatəmul-Ənbiyanın (s) övladlarına (ə) salam söylənmişdir. Allah-təala «***Yasin övladlarına salam olsun***» buyurur. «Yasin» Rəsulallahın (s) adlarından biridir».

---

[1] «Səffat» surəsi, ayə: 79, 109, 120.

## «YASİN» KƏLMƏSİNİN MƏNASI, «SİN» ƏDATININ PEYĞƏMBƏRİN (S) MÜBARƏK ADI OLMASI XÜSUSUNDA

**Dəvətçi:** «Bildiyiniz kimi, Qurani-məciddə həzrət Peyğəmbərin (s) on iki adından beşi ümmətin bəsirətinin artması üçün zikr olunmuşdur. Beş müqəddəs adlar bunlardır: Məhəmməd (s), Əhməd (s), Əbdullah (s), Nun (s) və Yasin (s). 36-cı surənin əvvəlinci 3 ayəsində belə buyurur:

«***Ya Sin, and olsun hikmətli Qurana, həqiqətən, sən göndərilən (Peyğəmbər)lərdənsən***».

«Ya» nida ədatıdır, «Sin» də Rəsulallahın (s) mübarək adıdır; O Həzrətin (s) həqiqətinə, zahiriylə batininin bərabərliyinə işarədir».

**Nəvvab:** «Təhəcci hərflərinin arasında «Sin» ədatının O həzrətin (s) mübarək ismi olmasının səbəbi nədir?».

**Dəvətçi:** «Bir az əvvəl ərz etdiyim kimi, məna aləminə və Rəsulallahın (s) həqiqəti mötədilliyinə işarədir. Çünki xatəmiyyət məqamına sahib olacaq insan vücudu-həddi-mötədilə yetişən və zahiri ilə batini bərabər olan kəsdir. Bu mərtəbə Peyğəmbərin (s) müqəddəs vücudunda mövcud idi. Bax buna görə, «Sin» ədatıyla O həzrət (s) üçün məqam isbat edilir.

Hər kəsin anlaya biləcəyi bir üslubda bəyan etməli olsaq, təhəcci hərflərinin arasında zahir və batini bərabər olan sadəcə «Sin» ədatıdır. Belə ki, elmi ədəd (hesab» alimlərinin bildiyi 28 təhəcci hərflərinin hər birinin zubur və bəyyinəsi vardır; hər hərfin zubur və bəyyinəsi tətbiq edildikdə, kəsinliklə ya zuburu çoxdur və ya bəyyinəsi».

**Nəvvab:** «Qibləsahib! Cəsarət edib soruşduğuma görə üzr istəyirəm, əfv edin; məsələni anlamaqda aciz olduğum üçün bu gecələrdə məsələləri hər kəsin anlaya biləcəyi sadə və açıq bir şəkildə bəyan etmənizi istəyirəm. Çünki zubur və bəyyinənin nə olduğunu anlaya bilmədik; aydın bir şəkildə izah etməyinizi rica edirik».

**Dəvətçi:** «Məmnuniyyətlə. «Zubur» kağızın üzərində yazılan hərfin şəklidir; «bəyyinə» də oxunarkən artımı ortaya çıxan şeydir. Məsələn, «S» ədatı kağızın

üzərində bir hərfdir, amma oxunduğunda üç hərf – «s», «i», «n» olur və beləcə, iki hərf artır. Çünki 28 ədəd olan təhəcci hərflərinin arasında tətbiq edildiyində zubur və bəyyinəsi bərabər olan sadəcə «Sin» hərfidir. Son 60 ədəddir, bəyyinəsi də «i», «n» hərflərindən ibarət olub, 60-dır. «İ» 10, «n» da – 50-dir, ikincisinin cəmi 60 olur.

Bax, bu səbəbdən Quranda Xatəmul-anbiyaya «Ya Sin» olaraq xitab edilir. Bu, həzrət Peyğəmbərin (s) zahir və batininə işarədir. «*Ya Sin*», yəni «*Ey zahir və batin baxımından bərabərliyə sahib olan kəs!*».

## ALİ-YASİN»DƏN MƏQSƏD, MƏHƏMMƏDİN (S) ƏHLİ-BEYTİDİR (Ə)

Bu səbəbdən «Sin» Rəsulallahın (s) mübarək ismidir. Allah-təala bu ayədə buyurur:

«***Ali-Yasin salam olsun***».

**Hafiz:** «Buyurduğunuz bu şeylər, sirli kəlamla isbatlamaq istədiyiniz sözlərdir. Alimlər arasında belə bir mənada (Ali-Yasinə salam olsun) söylənməmişdir».

**Dəvətçi:** «Rica edirəm, bir şeyi inkar etmək istədikdə, qəti bir qərarla onu inkar etməyin; cavabı verildikdən sonra utanmamağınız üçün ehtimal verərək danışın. Öz kitablarınızdan ya xəbəriniz yoxdur və ya xəbəriniz olsa da, təsdiq etmək istəmirsiniz. Amma biz sizin kitablarınızdan xəbərdarlıq və haqqı da inkar etmək istəmirik!

Böyük alimlərinizin kitablarında bu mənaya çox işarə edilmişdir. Məsələn: mütəəssib İbn Həcər Məkki «Səvaiqul-muhriqə» kitabında, Əhli-beyt (ə) haqqında nəql etdiyi ayələrdən üçüncü ayənin izahında yazmışdır ki, bir qrup müfəssirlər İbn Abbasdan belə nəql etmişlər: «Ali-Yasindən məqsəd, Məhəmmədin (s) Əhli-beytidir». Bu səbəbdən, «*Ali-Yasinə salam olsun*» demək, «Məhəmmədin (s) Əhli-beytinə salam olsun» deməkdir.

Yenə yazır ki, imam Fəxri Razi belə zikr etmişdir: «Peyğəmbərin (s) Əhli-beyti beş şeydə O həzrətlə (s) bərabər vəziyyətdədir:

1. Salamda;

Buyurmuşdur ki, «***Salam olsun sənə ey Peyğəmbər***». Yenə buyurmuşdur ki, «***Ali-Yasinə salam olsun***». Yəni Məhəmmədin (s) Əhli-beytinə salam olsun.

2. Təşəhhüddə ona və onlara salavat deməkdə;

3. Təharətdə;

Allah-təala buyurmuşdur: «***Taha!***». Yəni «***Ey Tahir (pak və münəzzəh)***». Onların haqqında da «Təthir» ayəsini nazil edərək, «***Allah hər növ ricsi (pisliyi) siz (Əhli-beytdən) uzaqlaşdırmaq və sizi təmiz və pak etmək istəyir***»[1] buyurmuşdur.

4. Sədəqəni onlara haram etmişdir.

5. Məhəbbətdə.

Allah-təala buyurmuşdur:

«***Ey Peyğəmbər, de ki: Əgər Allahı sevirsinizsə, mənə bağlanın, Allah sizi sevsin***».

Yenə buyurmuşdur:

«***Ey Peyğəmbər! De ki, mən buna (təbliğimə) qarşılıq olaraq Əhli-beytimi sevməkdən başqa sizdən heç bir muzd istəmirəm***»[2].

Seyid Əbubəkir ibn Şəhabuddin Ələvi, «Rəşfətüs-sadi min Bəhri-fəzaili Minən-Nəbiyyil-Hadi» adlı kitabının I babının 24-cü səhifəsində (1303 H.Elamiyyə çapı) bir qrup camaatdan, müfəssirlərdən, İbn Abbasdan, II babın 34-cü səhifəsində də Nəqqaşın Kəlbidən «Həmən ayədəki Ali-Yasindən məqsəd, Məhəmmədin (s) ailəsidir (Əhli-beyt)» deyə nəql etdiyini söyləmişdir. İmam Fəxri Razi «Təfsiri-kəbir» kitabının VII cildinin 163-cü səhifəsində bəhs olunan ayəni həmin mənada oxşar surətdə nəql etmişdir. «Ali-Yasindən məqsəd, Məhəmmədin (s) Əhli-beytidir» demişdir.

---

[1] «Əzhab» surəsi, ayə: 33.
[2] «Şura» surəsi, ayə:23.

İbn Həcər «Savaiq» kitabında bir qrup müfəssirlərin İbn Abbasdan belə nəql etdiklərini yazmışdır: «Salamun əla Ali-Yasin»dən məqsəd, «Salamun əla Ali-Məhəməd»dir.

Pak Əhli-beytə (ə) salavat deməyə gəlincə, bu hər iki tərəf (şiə və əhli-sünnət) arasında qətidir. Hətta Buxari və Müslim «Səhih»lərində həzrət Peyğəmbərin (s) belə buyurduğunu təsdiq etmişlər;

«***Salavatda mənimlə Əhli-beytim arasına ayrılıq salmayın***».

## MƏHƏMMƏD (S) AİLƏSİNƏ SALAVAT DEMƏK SÜNNƏT, TƏŞƏHHÜDDƏ İSƏ VACİBDİR

Xüsusilə, Buxari «Səhihi-Buxari»Nin III cildində, Müslim «Səhihi-Müslim»in I cildində, Süleyman Bəlxi əl-Hənəfi «Yənabiul-məvəddət»də, hətta mütəəssib İbn Həcər «Səvaiq» kitabında və digər böyük alimləriniz Kəb ibn Əcəzədən belə nəql edirlər: «İnnəllahə və məlaikətəhu yusəllunə alən-nəbiy»…» ayəsi nazil olduqda, Rəsulallahdan soruşduq: «Ya Rəsulallah! Sənə necə salam verilməsini öyrət, necə salavat deyək?». Peyğəmbər buyurdu: «***Belə salavat deyin: Allahummə səlli əla Məhəmədin və Ali Məhəmməd***».

Digər rəvayətlərdə bu cümlə əlavə edilmişdir: «***Kəma salləytə əla İbrahimə və Ali İbrahim, innəkə Həmidun Məcid***».

İmam Fəxri, «Təfsiri-kəbir»in VI cildində belə nəql edir: «Rəsuli-Əkrəmdən (s) «sənə necə salavat deyək?» soruşulduqda, buyurdu: «***Belə söyləyin: Əllahummə səlli əla Məhəmmədin və əla ali-Məhəmməd, kəma salləytə əla İbrahimə və əla ali-İbrahim və barik əla Məhəmmədin və əla ali-Məhəmməd, kəma barəktə əla İbrahimə və əla ali-İbrahim, innəkə Həmidün Məcid***».

İbn Həcər eyni rəvayəti cüzi bir fərqlə hakimdən nəql etmiş və bu xüsusi belə açıqlamışdır: «Bu həmin hədisdə Peyğəmbərə (s) və ailəsinə (Əhli-beytinə) salavat deməyin əmr edilməsinə dair çox açıq bir dəlil vardır». Yenə Rəsulallahın (s) belə buyurduğunu nəql etmişdir:

«***Mənə naqis salavat deməyin***». Həzrətdən, «Ya Rəsulallah, naqis salavat nədir?» soruşduqda, buyurdu: «***Allahummə səlli əla Məhəmməd***» **söyləməyinizdir. Halbuki, belə söyləməlisiniz – «*Allahummə səlli əla Məhəmməd və əla Ali-Məhəmməd*»**.

Bu cümləni də Deyləmi Rəsulallahın (s) buyurduğunu nəql etmişdir: «**Məhəmməd və ailəsinə (Əhli-beytinə) salavat deyilmədikcə, dua örtülü qalar**».

Şafeinin belə dediyini nəql edirlər:

***Ey Rəsulallahın (s) Əhli-beyti!***
***Sizin sevginiz, Allah tərəfindən Quranda vacib edilmişdir.***
***Bu böyük məqam sizə yetər ki,***
***Sizə salavat deməyənin namazı qəbul olmaz***[1]**.**

Rəsulallahın (s) buyurduğu kimi, «***Namaz Dinin sütunudur; o qəbul olarsa, digər əməllər də qəbul olar; o qəbul olmazsa, digər əməllər də qəbul olmaz***».

Bütün əməllərin qəbul olması namaza bağlıdır; bir az əvvəl zikr etdiyimiz hədisə görə də, namazın qəbul olması, Şəhabuddin Ələvi «Rəşfətüs-sadi min bəhri fəzaili minən Nəbiyyil-Hadi» kitabının II babında səhifə 29-dan 35-ə qədər Məhəmməd və Ali-Məhhəmmədə salavat deməyin vacib olması xüsusunda olan bəyanlar və Nəsai, Daru Qutni, İbn Həcər, Beyhəqi Əbu Bəkridən, Tərtusi Əbu Əshəqdən, Mərvəzi Səmhudidn, Nəvəvi «Tənqiyh» kitabında, Şeyx Siracuddin Qəsimi Yəməni təşəhhüddə həzrət Peyğəmbərin (s) mübarək adından sonra Ali-Məhəmmədə (s) də salavat deməyin vacib olmasına dair dəlillər zikr etmişdir. Artıq vaxt keçdiyinə görə, daha çox izah verə bilmirəm və hökmü qardaşların təmiz vicdanlarına buraxıram.

Bu səbəbdən, siz əhli-sünnət qardaşlarımız Peyğəmbərin (s) Əhli-beytinə salam və salavat deməyin bidət olmadığını, əksinə Peyğəmbərin (s) bilavasitə öz göstərişi ilə bir sünnət və ibadət olduğunu təsdiq edirsiniz. Bunları əhli-sünnət

[1] Şafeinin məqsədi, təşəhhüddəki salavatdır. Qəsdən bunu söyləməyənin namazı batil və qəbul olmaz.

qardaşlarımıza yanlış çatdıran xaricilər, nasibilər, təəssübkeş və inadkar düşmənlərdən başqa bir kəs qətiyyən inkar etməz. Bu hökmdə Xatəmul-ənbiyanın (s) yanında yer alan və zikr olunmaqda digərlərindən öndə olan kəsləri başqalarıyla qiyas etməyin və digər kəsləri onlardan üstün bilməyin cəhalətdən, təəssübdən qaynaqlanması gün kimi açıq-aydındır!

Söz bu yerə yetişdikdə, gecə yarısında keçdiyi və məclisdə iştirak edənlərin bəzilərində yorğunluq hiss olunduğuna görə, söhbətə son qoyduq. Çay içdikdən və sabah bir az tez yığışmağı qərarlaşdırdıqdan sonra ağalar getdilər.

# ÜÇÜNCÜ GECƏ

25 rəcəb, bazar gecəsi 1345-ci il (1924)

Axşam namazını yeni bitirmişdik ki, ağalar gəldilər. Hal-əhval soruşduqdan sonra onlar çay içməklə məşğul ikən, mən də bu aradan işa namazını qılaraq, rahat bir zehin ilə ağaların sözlərini dinləmək üçün hazır oldum.

**Hafiz:** «Qibləsahib! Dünən gecə evə getdikcə, xəyalımda hey, nə üçün müxtəlif millətlərin əqidələrini ətraflı araşdırmırıq, onlara diqqətlə nəzər yetirmirik? Sizin deyiminizlə, nə üçün təəssübkeş şəxslərin bəzi kitablarıyla keçinirik? Beləcə, bir qrup həqiqətlər bizdən gizli qalır düşünərək, özümü qınadım».

**Dəvətçi:** «Allah-təala, «Ən am» surəsinin 150-ci ayəsində «***De: (Ey Peyğəmbər!) Ən üstün dəlil Allahındır***» buyurduğuna görə, dünən gecəki məclis də ilahi höccətlərdən biriydi.

Ağalar, söhbətin əvvəlində bir az adətlərinizi kənara qoyub insaf, elm və ağıl gözüylə sözlərimə diqqət etdiniz. Bilməlisiniz ki, söylədiyim şeylər elm, ağıl, məntiq və həqiqət ölçüləri üzrədir. Mübarək qulaqlarınıza doldurduqları və ağlınıza yeritdikləri şeylər batinininzdəki təəssüb və təkəbbüb kimlərinsə inadlarından qaynaqlanmışdır.

Allah şahiddir ki, bu məclisdə danışarkən, qalib olmaq və ya ağaları məğlub etmək fikrində deyiləm; təkcə hədəfim, Əhli-beyt (ə) haqqını və onların məktəbini müdafiə edərək, həqiqətlərin ortaya çıxmasını təmin etməkdir».

**Hafiz:** «Dünən gecəki söhbətlərinizdə şiənin müxtəlif qruplara ayrıldığı ortaya çıxdı. Görəsən, şiənin hansı qrupu haqdır və onların hansının sözünü, əqidələrini doğru bilirsiniz? Əgər mümkünsə, mövzunun aydın olması üçün bu qrupları və bəhs etdiyimiz mövzuya aid olan qrupu incəliklə bizim üçün açıqlayın».

**Dəvətçi:** «Dünən gecə, «şiə müxtəlif qruplara ayrılmışdır» deyə bir şey ərz etmədim, sadəcə şiənin mənasını ərz etdim; yəni şiə, Allah və Peyğəmbrə (s) itaət edən və Rəsulallahın (s) əmri çərçivəsində risalət (s) ailəsinin (ə) təqibçiləri olan

bir camaatdır. Amma bəzi azğın firqələr özlərini şiə göstərərək, hər şeydən xəbərsiz cahil insanları öz ətrafına toplamış, müqəddəs şiə adından sui-istifadə etmişlər; batil inancları, hətta küfr və zındıqlığı bu adla insanlar arasında yaymışlar. Bax, bu səbəbdən həqiqətlər üzərində tədqiqat aparmayan bir qrup cahil insanlar onları tarixdə şiə adıyla tanımışlar. Onlar həqiqətdə dörd firqəyə ayrılmışlar; o dörd firqədən sadəcə ikisi özünü yaşada bilmişdir, digərləri isə tamamilə dağılıb aradan getmişdir. Qalan iki firqədən də müxtəlif firqələr meydana gəlişdir. Bu dörd firqə bunlardan ibarətdir: zeydiyyə, keysaniyyə, qəddahiyyə, ğulat.

## ZEYDİYYƏ FİRQƏSİNİN İNANCI

Birinci firq Zeydiyyə firqəsidir. Zeyd ibn Əli (ə) ibn Hüseynin (ə) təqibçiləridir. Zeydi, imam Zeynül-Abidindən (ə) sonra imam bilirlər. İndi də Yəmən və ətrafında Zeydiyyə firqəsinə bağlı insanlar kifayət qədər sayca üstünlüyə sahibdirlər.

Zeydilərin əqidəsi belədir: hər alim, zahid və cəsur olan Fatimi-ələvi (həzrət Fatimənin (ə) övladı) qılıncla qiyam edib xalqı özünə tərəf dəvət edərsə, o İmamdır. Çünki həzrət Zeyd, Əməvi xəlifəsi Hişam ibn Əbülməlikin xilafti zamanında bəni-Üməyyənin zülm və təcavüzü nəticəsində Kufədə qiyam etdi və sonda şəhadət şərbətini içdi. Sırağa gün gecə onun haqqında başqa bir mövzu ilə əlaqədar qısaca olaraq ərz etmişdim. Dediyimiz kimi, Zeydilər onu imam qəbul edib, ona bağlı olmağı özlərinə vacib bilirlər. Zeydin məqamı, bu növ sözlərin ona istinad edilməsindən daha ucadır.

Həzrət Zeyd bəni-Haşimin böyük şəxsiyyətli seyidlərindəndir. Zöhd, elm, fəzilət, din, vərə, ibadət, şücayət və comərdlikdə qövmünün qabağcılarındandır. Gecələri ibadət, gündüzləri isə oruc tutmaqla keçirirdi.

Rəsulallah (s) əvvəlcədən onun şəhadəti haqqında xəbər vermişdi. Həzrət Seyyidüş-Şühəda Əba Əbdullahil-Hüseyndən (ə) belə bir hədis nəql edilmişdir:

«***Rəsulallah (s) mübarək əlini mənim çiynimə qoyaraq, belə buyurdu «Ya Hüseyn! Yaxın bir zamanda Zeyd deyə xitab ediləcək olan bir insan sənin sülbündən çıxacaqdır; o, şəhid olaraq öldürüləcəkdir. Qiyamət günü o və əshabı xalqın boynuna ayaq qoymuş bir halda Cənnətə daxil olacaqlar***».

Lakin həzrət Zeydin özü qətiyyən imamət iddiası etməmişdir; bu, ona istinad edilən bir iftiradır. O, özünün dəyərli qardaşı imam Məhəmməd Baqirin (ə) imamətliyinə müti və tabe idi. Lakin azğınlar o həzrətdən (ə) sonra belə bir düşüncəyə etiqad bəslədilər: «Evində oturub xalqdan uzaq düşən kəs, imam deyildir. İmam, alim, saleh, nəzər sahibi olan və qılıncla qiyam edən hər Fatimi olan şəxsdir».

Bu azğın kəslər xalqı Zeydin imamətinə dəvət etdilər, bir təşkilat qurdular. Belə demək də mümkündür: hədəfləri istiqamətində bir dükan açdılar və öz aralarında beş firqəyə ayrıldılar: muğiyriyyə, carudiyyə, zukeyriyyə, xəşəbiyyə və xulqiyyə.

## KEYSANİYYƏ FİRQƏSİNİN İNANCI

İkinci firqə, Keysaniyyə firqəsi idi. Bu firqənin mənsubları həzrət Əlinin (ə) azad etdiyi köləsi Kisanın əshabından sayılırdılar. Onlar həzrət Əlinin (ə) Həsən (ə) və Hüseyndən (ə) sonra böyük oğlu olan Məhəmməd Hənəfiyyənin imamətinə inanırdılar. Lakin cənab Məhəmmədin belə bir iddiası yox idi. Əksinə, ona Seyyidüt-tabein (tabe olanların ağası) deyirdilər. Elm, zöhd, vərə[1] təqva və Mövlanın (ə) əmrinə itaət etməkdə məşhurdur.

Bəzi oyunbazlar onun imam Zeynul-Abidin (ə) ilə müxalifət etmə hadisəsini bəhanə edərək, bunun imamətliyinə bir dəlil olmasını iddia edirdilər. Həqiqətdə bu hadisə imaməti iddia etmək məsələsi deyildi. Cənab Məhəmmədin bu müxaliflikdə məqsədi dördüncü imam həzrət Səccadın (ə) məqamını isbat etmək və bu yolla hər şeydən xəbərsiz və saf müridlərinə özünün bu məqama layiq olmadığını bildirmək idi.

---
[1] Vərə – haram və şübhəli şeylərdən çəkinmək.

Çünki hədis və tarix kitablarında təfərrüatlı bir şəkildə nəql edilmişdir. Məscidül-Hərəmdə Həcərul-əsvəd qarşısında haqq sabit olduqdan sonra Həcərul-əsvəd həzrət Səccadın (ə) imamətliyini iqrar etdi. O cənabın (ə) imamətliyinə inananların önündə gələn Əbu Xalid Kabuli, Məhəmməd Hənəfiyyənin imamətliyinə inanan bir qrup camaatla bərabər cənab Məhəmməd Hənəfiyyəyə təslim olaraq, imam Səccadın (ə) imaətliyini etiraf etdilər.

Lakin bir qrup saxtakarlar və hər şeydən xəbərsiz cahil avamlar o inanca bağlı qalmadılar. Bəhanə gətirərək deyirdilər: «Məhəmməd təvazökarlıq göstərmişdir və bəni-Üməyyə qarşısında siyasət belə tələb edirdi; buna əsasən, cənab Məhəmmədin imam olması qətidir».

Bunlar Məhəmmədin vəfatından sonra da eyni inanc üzərində sabit qaldılar; «Cənab Məhəmməd ölməmişdir, o, Mədinə yaxınlığında Rəzəvi dağında qeybə çəkilmişdir, bir zaman gəlib dünyanı ədalətlə dolduracaqdır» deyirdilər. Daha sonra dörd firqəyə ayrıldılar: «Muxtariyyə, Kərbiyyə, İshaqiyyə, Hərbiyyə».

Hal-hazırda belə bir inancın ardıcılları qalmamışdır.

## QƏDDAHİYYƏ İNANCI

Üçüncü firqə Qəddahiyyə firqəsidir. Bu firqənin əsas inancı, zahirdə şiə inancıdır, lakin batində küfrdür. Bu məzhəbin əsas təməlini Məymun ibn Salim (Disan və ya Qəddah adıyla məşhur olan Disan və İsa Çəhar Lühtanın əliylə Misirdə qoyulmuşdur. Qurani-kərim və hədislərdə təvillərə baş vuraraq, öz istəkləri üzrə hərəkət etmiş, şəriət üçün zahir və batin yolu göstərmişlər. «Şəriətin batinini Allah-təala həzrət Peyğəmbərə (s) , o həzrət (s) imam Əliyə (ə), İmam (ə) da övladları (ə) və xalis şiələrinə öyrətdi» deyirdilər. Yenə şəriətin batinini öyrənən kəslər üçün zahiri itaət və ibadət qeydinin olmadığı inancındadırlar. Onlar məzhəbi yeddi təməl üzərində qurdular. Yeddi Peyğəmbərə, yeddi İmama inandılar və yeddinci İmamı qeybdə bilib, zühurunu gözləməyə başladılar. Bunlar ümumi olaraq iki firqəyə ayrılmışlar:

1. **Nasiriyyə:**

Nasir Xosrov Ələvinin davamçılarıdır, bunlar söz və şer kitablarında şiə adıyla çox insanları küfrə çəkib, Təbəristan bölgəsində məskunlaşdılar.

**2. Səbahiyyə:**

Həsən Səbbahın davamçılarıdır, əslən misirlidilər. Sonradan İrana gəlib, Qəzvin şəhərində çox dəhşətli və ələmli böyük «əl-movt» fitnəsini meydana gətirib, bir çox insanın ölümünə səbəb oldular. Bu hadisə tarixdə geniş bir şəkildə qeyd edilmişdir. Lakin məclisimiz həmin tarixi hadisələri təfərrüatlı bir şəkildə anlatmaq üçün münasib deyildir.

## ĞULAT FİRQƏSİNİN İNANCI

Dördüncü firqə Ğulat fiqəsidir. Onlar Təşəyyü adıyla məşhur olan ən alçaq qövm və tayfalardır. Hamısı, kafir, nəcis, fasiq insanlardır. Onlar yeddi firqəyə ayrılmışlar: Səbaiyyə, Mənsuriyyə, Ğərabiyyə, Buzəyğiyyə, Yəqubiyyə, İsmailiyyə, Əzdəriyyə.

Onların necə meydana gəlməsinin izahını, keçən gecə qısaca olaraq ərz etdim. Biz şiə camaatı, hətta bütün dünya müsəlmanları onlardan və inanclarından uzağıq və onları hər nəcisdən daha nəcis və hər kafirdən daha dinsiz bilirik. Lakin təəssüflər olsun ki, hər inanc şiə adıyla aşkar və ya gizli şəkildə dillərdə küfrlə məşhur olub, bəzi kitablarda qəsdən, bilərək və ya bilməyərək qeyd edilmişdir. Bu sözlərin çoxu özlərini Əlinin (ə) şiəsi göstərən həmin bu firqələr tərəfindn ortaya atılmışdır.

Ancaq dünyada sayları yüz milyonu keçən on iki ima (ə) şiəsi bu fasiq inanclardan uzaqdır. Rəsulallahın (s) elm qapısı olan Əmirəl-möminin həzrət Əli (ə) vəsiləsiylə onlara yetişən şəriətin özüdür. Dinin əsası və pak inanc onların yanındadır.

# ON İKİ İMAM ŞİƏSİNİN İNANCI

On iki imam (ə) şiəsi haqq olan, əql və nəqlə uyğun şəriətin özünə sahibdir. Həqiqi olan şiələr bax bunlardır. Amma öncə bəhs edilən o dörd firqə saxta şiələrdir.

Bu şiə adlandırılanların əqidəsini, sonradan həqiqi şiələrə yanlış nisbətlər verməməniz üçün qısaca olaraq sizə ərz etmək istəyirəm.

İmamiyyə şiə camaatı Allah-təalanın varlığına, bənzəri və bərabəri, həmçinin cisim, surət, cövhər və ərəz olmadığına və bütün imkanı sifətlərdən uzaq olduğuna inanırlar. Bütün ərəz və gövzərləri yaradan Odu rvə varlıqları yaratmada və onlara feyiz vermədə şəriki yoxdur.

Ariflərdən bəziləri Allah-təalada olmayan sifətləri vəsf edən şerlərində belə zikr etmişlər:

***Nə mürəkkəbdir, nə cisim, nə cövhərdir, nə də ərəz.***
***Şəriki yoxdur Onun, ehtiyacsız bir yaradıcıdır.***

Vücudu vacib olanın zatı qətiyyən görülmədiyindən və digər tərəfdən də, yaratdıqlarını hidayət etməsi lazım gəldiyinə görə, bəşər cinsindən bəzi elçilər seçərək, onlara insanları hidayətə yönətmələri və hər zamanın insanlarının ehtiyaclarını ödəmək üçün aydın dəlillər, möcüzələr və əmrlər göndərmişdir. ONların sayları olduqca çoxdur. Ulul-əzim və insanların hidayət rəhbəri olan beş peyğəmbərin, yəni Şeyxul-ənbiya Nuh (ə), Xəlili-Rəhman İbrahim (ə), Kəlimullah Musa (ə), Ruhullah İsa (ə) və peyğəmbərlərin sonuncusu Məhəmməd-Mustafanın (s) əmri altındadırlar. Son peyğəmbər olan həzrət Məhəmmədin (s) din və şəriəti Qiyamət gününə qədər mövcud olacaqdır.

Şiə camaatı inanırlar ki, Məhəmmədin (s) halalı Qiyamətə qədər halal, haramı da Qiyamətə qədər haramdır; şəriəti də Qiyamət gününədək davam edəcəkdir.

Allah-təala insanların yaxşı və ya pis – bütün əməlləri üçün cəza və mükafat müəyyən etmişdir. Bunlar Cənnət və Cəhənnəmdə onlara veriləcəkdir. Cəza və

mükafat üçün təyin olunan günə «yovmul-cəza» deyirlər. Allah-təala dünyanı və dünya həyatını sona yetirdikdən sonra bütün məxluqatı əvvəldən sonuna qədər dirildəcək, cismi olan bu bədənlə məhşərə çəkəcəkdir. Məhkəmə və sorğu-sualdan sonra hər kəsi öz əməlinə görə cəzalandıracaq və ya mükafatlandıracaqdır.

Ümumi olaraq səmavi kitablarda, xüsusilə Tövrat, İncil və Qurani-məciddə xəbər verilmişdir. Qurani-kərim sənədi sağlam, sabit və mühəqqəq olan mötəbər bir sənədlə əlimizə yetişmiş və təhrif də olmamışdır. Bu kitabın əmrlərinə əməl etməklə Allah yanında mükafatlandırılacağımıza ümidliyik.

Bu səmavi kitabda yazılmış olan, məsələn: namaz, oruc, zəkat, xumsə, həcc, cihad və s. kimi bütün əhkamlara, eyni zamanda Rəsulallah (s) vasitəsiylə yetişən bütün vacib və sünnət olan əmrlərə inanırıq; Allah-təalanın yardımıyla da onlara əməl etməyə qərarlıyıq. Şərab, qumar, Zina, ləvat, riba, zülm və insan öldürmək kimi böyük-kiçik – bütün günahlardan diqqətlə çəkinirik.

Biz şiə camaatı inanırıq ki, Allah-təala bu ilahi əhkam və əmrləri gətirəni seçib, insanlara tanıtmışdır. Rəsulallahın (s) vəfatından sonra onun dini və şəriətini qoruyan bir nəfərin olması lazım gəlirdi. Allah-təala həzrət Peyğəmbəri (s) seçib insanlara tanıtdırdığı kimi, onu da, yəni Peyğəmbərin (s) vəsisi və xəlifəsini də Rəsulallah vasitəsiylə ümmətə tanıtmalıdır. Çünki bütün peyğəmbərlər Allah-təalanın əmriylə öz vəsilərini tanıtmışlar. Onların ən fəzilətlisi olan Xatəmul-ənbiya da (s) fəsadı və ümmətin ixtilaflarının qarşısını almaq üçün vəsilərini Allah-təalanın əmriylə cari olan sünnət üzrə tanıtmışdır. Allah-təala tərəfindən tanıdılan Rəsulallahın (s) vəsiləri (ə) on iki nəfərdir. Onların əvvəli vəsilərin ağası olan Əli (ə) ibn Əbu Talibdir. Ondan sonra oğlu Həsən (ə), daha sonra Həsənin (ə) qardaşı Hüseyn (ə), Hüseynin (ə) oğlu Zeynul-Abidin (ə), onun oğlu Məhəmməd Baqir (ə), Məhəmməd-Baqirin (ə) oğlu Cəfər Sadiq (ə), ondan sonra oğlu Musa Kazım (ə), sonra Musa Kazımın (ə) oğlu Əli Rza (ə), sonra onun oğlu Məhəmməd Təqi (ə), ondan sonra oğlu Əli Həqi (ə), daha sonra onun oğlu Həsən Əsgəri (ə) və nəhayət, Həsən Əsgərinin (ə) oğlu Məhdidir (ə). Allahın höccəti olan on ikinci İmam (ə) gözlərdən qeybdədir. Lakin Allah-təala onun vasitəsi ilə yer üzündəki zülmü aradan aparıb, ədalətlə dolduracaqdır.

İmamiyyə şiəsinin inancı budur ki, bu haqq olan on ikinci İmam (ə), Allah tərəfindən Peyğəmbər (s) vasitəsiylə tanıdılmışdır, bunların on ikincisi, yəni həzrət Məhdi (ə) mütəvatir[1] və müstəfiz[2] hədislərə görə, qeybətə çəkilmişdir. Bu xüsusda əhli-sünnət alimlərindən də bir çox hədislər vardır, bütün Peyğəmbər və vəsilərin zamanında qeybət olduğu kimi, o zamanda da qeybət olmuşdur. O müqəddəs vücudu, Allah-təala zülmü aradan aparmaq və ədaləti yaymaq üçün zühurunun vaxtı yetişənə qədər gözlərdən uzaq etmişdir.

İmam Məhdi (ə) bütün Aləmi islah edəcəkdir. Hər kəs belə bir şəxsin zühur edəcəyini gözləyir.

Xülasə, şiə camaatı Əhli-beyt (ə), xas səhabə və etibarlı ravilər iləsiylə yetişən bütün səhih hədislərə və Qurani-kərimdə mövcud bütün əhkamlara inanır. Bu müqəddəs inanca, ana və atalarımızdan təqlid yoluyla deyil, əksinə təhqiq, məntiq və dəlillə yetişdiyimə görə, Allaha şükrlər edir və bu inanc və məzhəblə iftixar edirəm.

Kimin bu din və məzhəbdə bir şəkk-şübhəsi olarsa, mən o şübhəni aradan aparmaq və həqiqətləri isbat etmək üçün Allah-təalanın yardımı ilə hazıram».

Bu əsnada azan səsi eşidildi. Namaz qılıb, çay içdikdən sonra Hafiz ağa sözə başladı.

**Hafiz:** «Qibləsahib! Şiə adlandırılan firqələrin tarixini bəyan etdiyinizə görə, təşəkkül edirik. Amma sizin hədis və dua kitablarınızda, sözlərinizin əksinə, zahirləri İsna Əşəriyyə (on iki İmam) şiəsinin küfrünü göstərən bəzi sözlər mövcuddur».

**Dəvətçi:** «O hədis və duaları və şübhəli olan sözləri, haqqın ortaya çıxması üçün buyursanız, çox yaxşı olardı».

---

[1] Çox rəvayət edilən xəbər.
[2] Məşhur xəbər.

## «MƏRİFƏT» HƏDİSİNİN TƏNQİDİ

**Hafiz:** «Çox hədislər görmüşəm. Ancaq indi yadımda olan budur ki, böyük alim və müfəssirlərinizdən olan Feyzi Kaşi «Təfsiri-Safi» kitabında belə bir hədis nəql edir: «Bir gün şəhid həzrət Hüseyn əshabı qarşısında belə dedi: «Ey insanlar, Allah-təala qulları ancaq Onu tanımaq üçün yaratmışdır. Onu tanıdıqda, Ona ibadət edərlər, ibadət etdikdə Ondan başqasının ibadətindən ehtiyacsız olarlar». Əshabından bir nəfər «Ey Rəsulallahın nəvəsi, anam-atam sənə fəda olsun! Allahı tanımaq nədir?» soruşduqda, o, belə buyurdu: «Hər zaman əhlinin mərifəti, özünə itaəti vacib olan İmamları tanımasıdır».

## TƏNQİDİN CAVABI

**Dəvətçi:** «Əvvəlcə, hədisin sənədinin silsiləsinə diqqət etmək lazımdır. Görəsən, hədis doğrudurmu, mötəbərdirmi, həsəndirmi, zəifdir, yoxsa mərduddur? Doğru olduğu təqdirdə tövhid haqqındakı açıq-aşkar ayələr və Əhli-beyt (ə) yoluyla yetişən mütəvatir hədislər qarşısında xəbəri-vahidlə əməl etmək doğru deyildir. Siz nə səbəbdən tövhid haqqındakı mövcud olan bu qədər hədisləri və Əhli-beyt (ə) İmamlarının maddəçilərlə münazirlərini və xalis Tövhidi isbat etmələrini görüb onlara diqqət etmirsiniz? Halbuki, şiənin önəmli bütün təfsirləri və hədis kitabları məsələn: «Tövhidi-müfəzzəl», «Tövhidi-Səduq» və Əllamə Məclisinin «Biharul-ənvar» kitabındakı tövhid bölümü və şiə alimlərinin Tövhid haqqındakı kitabları Əhli-beytdən (ə) nəql olunan mütəvatir hədislərlə dolub-daşır.

Nə səbəbdən Hicri 413-cü ildə vəfat edən və şiənin böyük alimlərindən və Şeyx Mufid adı ilə məruf olan Əbu Əbdullah Məhəmməd ibn Nömanın «Ən-nüqətul-etiqaddiyyə» risaləsini və o şəxsiyyətin təlif etmiş olduğu «Əvailul-məğalat fil-məzahibi vəl-muhtarat» kitabını mütaliə etmirsiniz? Nə səbəbdən cəlalətli Şeyximiz Əbu Mənsur Əhməd ibn Əli ibn Əbi Talib ət-Təbərsinin «İhticac» kitabına həzrət Rizanın (ə) müxaliflər və tövhidi inkar edənlər qarşısında xalis tövhidi necə isbat etdiyini bilib öyrənməniyiz üçün müraciət etmirsiniz, ancaq

dönüb-dolaşıb, mütəşabih hədisləri tapıb onlara əsaslanaraq, şiəyə həmlə edirsiniz? Ərəb şairi nə gözəl söyləmişdir:

***Görəsən, məni gözümdə çör-çöpü tez görürsən;***
***Nə üçün öz gözündəki xurma gövdəsini görmürsən?***

Guya, möhtərəm ağalar öz kitablarındakı cəfəngiyatı, hətta küfriyyəti görüb, onlara diqqət etmirlər. O kitablarda elə sözlər vardır ki, oğlu ölən ana belə gülməyə məcbur olar. Əgər onları görsəniz, utandığınızdan başınızı yuxarı qaldıra bilməzsiniz. Hətta etibarlı «Səhih»lərinizdə o qədər gülünc hədislər nəql olunmuş ki, insanı heyrətə gətirir».

**Hafiz:** «Gülünc olan sizin sözlərinizdir ki, böyüklük və ucalıqda misli görülməmiş kitablara, xüsusilə bizim alimlərimizin iftixarlı hədislərini qəbul etdiyi «Səhihi-Buxari» və «Səhihi-Müslim»ə xurafat və xəta nisbəti verərək dəyərləndirirsiniz! Kim bu iki kitabdakı hədisləri inkar edər və oradakı sözlərin xəta olduğunu söylərsə, həqiqətdə əhli-sünnət vəl-camaət məzhəbini inkar etmişdir. Çünki bu iki böyük kitab Qurandan sonra camaat içərisində ən mötəbər sayılan kitablardır.

İbn Həcər Məkki «Səvaiqul-muhriqə» kitabının əvvəlində belə yazmışdır: «Bu bölüm Əbu Bəkrin xilafətinin xüsusiyyətinin bəyanı haqqındadır. Buxari və Müslim bunu «Səhih»ində rəvayət etmişlər. Bu iki kitab Qurandan sonra ümmətin icmasıyla ən səhih kitablardır».

Aydındır ki, bu iki kitabda nəql olunan hədislərin Rəsulallahdan (s) nəql olunduğu qətidir. Çünki ümmət bunları qəbul etməkdə icma etmiş və ümmətin qəbul etdiyi hər şeyə qətidir. Çünki səhih kitablarda nəql olunan hədislərin də doğruluğu qətidir. Belə isə, bir kəs nə cür cürət edib, «bu iki kitabda küfriyyət, cəfəngiyat və xurafat vardır» deyə bilər?!».

# «SƏHİHİ-BUXARİ» VƏ «SƏHİHİ-MÜSLİTM»DƏKİ XURAFAT HƏDİSLƏR

**Dəvətçi:** «Əvvəlcə söhbət əsnasında buyurdunuz ki, bu iki kitab («Səhihi-Buxari» və «Səhihi-Müslim») bütün ümmət tərəfindən qəbul edilmişdir. Sizin bu iddianız İbn Həcərin sözünə istinad edərək, elm, əməl və məntiq baxımından, əql və basirətlə əməl edən yüz milyon müsəlmanın (şiələrin) inkar etdiyi bir şeydir. Belə isə, buradakı ümmətin icması, İslamın əvvəlində xilafət xüsusundakı qəbul edilən icmanın eynidir!

Birdə ki, mənim dediyim sözlər dəlil və bürhanladır. Əgər möhtərəm ağalar həqiqəti görən gözlə o kitablara baxarlarsa, bizim gördüyümüz şeyləri onlar da görərlər. Biz və bütün insanlar kimi, siz də o kitablardakı nəql edilən sözlər qarşısında heyrət içərisində qalıb, güləcəksiniz. Çünki böyük alimlərinizdən çoxu məsələn: Daruqutni, İbn Həzəm və Şəhabuddin Əhməd ibn Məhəmməd Qəstalani «İrşadus-sari», Əllamə Əbul-Fəzl Cəfər ibn Sələbi Şafei «Əl-imtafi əhkais – sima» və Şeyx Əbdülqadir ibn Məhəmməd Qureşi Hənəfi «Cəvahirul-İslam Əbu Zəkəriyyə Nəvəvi «Səhihin şərhi»ndə, Şəmsəddin Əlkami «Kəvkəbi munir fi şərhi camiis-səğir»də və İbn Qəyyum «Zadul-məad fi huda xeyrul-ibad» kitabında, xülasə Hənəfi alimlərinin hamısı və əhli-sünnətin digər böyük alimləri açıq-aydın «Səhihi-Buxari» və «Səhihi-Müslim»dəki bəzi hədisləri araşdırıb tənqid etmiş və bu iki kitabda səhih olmayan çox zəif hədislərin mövcud olduğunu etiraf etmişlər. ÇƏünki Buxari və Müslim sadəcə hədis toplamış, lakin onların səhih olub-olmadığına diqqət etməmişlər.

Sizin mühəqqiq alimlərinizdən bəziləri, məsələn: Kəmaluddin Cəfər ibn Sələb Səhihin kitablarındakı hədislərin fəzahət və qəbahətlərini açıqlamada və onların utandırıcı eyblərini nəşr etməkdə olduqca qüvvə sərf etmişdi. Bu babdakı dəlil və bürhanlarımız çox bariz və aydındır. Belə isə, hədislər haqqında araşdırma apararaq hügumunuza məruz qalanlar sadəcə biz deyilik. Hətta böyük mühəqqiq alimləriniz də həqiqətlər üzərində araşdırma aparıb, bu cür sözləri bəyan etmişlər».

**Hafiz:** «Dəlil və burhanlarınızı, məclisdə olanların haqqa hökm verə bilmələri üçün bəyan etməyiniz, çox yaxşı olar».

**Dəvətçi:** «Gəl ki, biz bu mövzu üzərində danışmırdıq. Əgər bu mövzuya başlamaq istəsəm, əvvəlki sualınızın cavabı qalacaq. Lakin yenə də, isbatı üçün qısaca olaraq bir neçə misal deməyə çalışacağam».

## ALLAH-TƏALANI GÖRMƏK XÜSUSUNDA ƏHLİ-SÜNNƏTDƏN HƏDİSLƏR

Əgər siz hulul, ittihad, cismaniyyət və Allahı görmə haqqındakı insanı küfrə aparan hədisləri mütaliə etmək istəsəniz, mötəbər kitablarınıza – «Səhihi-Buxari»Nin I cildin 100-cü səhifəsinə «Fəzlus-sucud min kitabil-əzan» babına, yenə IV cildin 92-ci səhifəsinə «Əs-siratu min kitabir-riqaq» babına və «Səhihi-Müslim»ün I cildin 86-cı səhifəsindəki «İsbatur-röyətil-möminin Rəbbəhum fil-axirəti» babına və ima Əhməd ibn Hənbəlin «Müsnəd»İnin II cildinin 275-ci səhifəsinə baxsanız, məsələni yaxşı anlayarsınız. Misal olaraq, o bablardan sadəcə iki hədisi hüzurunuza ərz edim:

Əbu Hürəyrə belə rəvayət edir: «Cəhnnəmin atəşinin hərarəti şiddətlənir. Allah-təala ayağını onun içərisinə qoyduqda, durub, «Yetər, yetər, mənə kafidir, mənə kafidir deyər».

Yenə Əbu Hüreyrə belə rəvayət edir: Bir qrup camaat Rəsuli-əkrəmə (s) «Görəsən, Qiyamət günü Rəbbimizi görə biləcəyikmi?» dedikdə, O həzrət (s) buyurdu: «Bəli, görəcəyik. Görəsən, göydə bulud olmadıqda günəşi görməkdə sizə bir zərər toxunurmu?». Camaat, «Xeyr, toxunmur» dedilər. Həzrət buyurdu: «Görəsən, göydə bulud olmadığı gecədə dolğun ayı görməkdə sizə bir zərər toxunurmu?». Camaat, «Ya Rəsulallah (s), xeyr, toxunmur» dedilər. Həzrət buyurdu: «O ikisini görməklə sizə zərər toxunmadığı kimi, Qiyamət günü Allahı görməkdə də sizə bir zərər toxunmayacaqdır. Qiyamət günü bir müəzzin belə nida edəcəkdir: «Hər ümmət tapındığına tabe olsun. Bu anda Allahdan başqasına tapınan hər kəs od içinə düşəcək. Sadəcə tapınanlar əbədi olacaqlar». Bu əsnada

aləmlərin Rəbi insanların onu görəcəyi bir şəkildə gəlib, «Mən sizin Rəbbinizəm» deyəcəkdir. İnsanlar onu gördükdə, «Biz səndən Allaha sığınırıq, Allaha şərik qoşmayın» deyəcəklər. Bunun üzərinə belə buyuracaqdır: «Görəsən, sizində Allah arasında, Allahı tanıyacaq bir nişanə vardırmı?» İnsanlar, «Bəli, vardır» deyəcəklər. Bu halda Allah ayağını (onlara göstərmək üçün) açacaqdır. Daha sonra insanlar başlarını yuxarı qaldırıb, Rəbblərini ilk gördükləri şəkildə görəcəklər. Sonra «Mən sizin Rəbbinizəm» deyəcəkdir. İnsanlar da, «bəli, sən bizim Rəbbimizsən» deyəcəklər».

Allah xatirinə insafla söyləyin, Allah-təalanın mücəssəm olub, bir cisim şəklində özünü insanlara göstərməsi və ya ayağını açıb onlara nişan verməsi küfredici sözlər deyilmi? Sözümüzün isbatına ən böyük dəlil budur ki, Müslim Allah-təalanın görünməsinin isbatı xüsusunda xüsusi bir bab açmış, Əbu Həurəyrə Zeyd ibn Əsləm, Süveyd ibn Səid və digərlərindən yalan və uydurma hədislər nəql etmişdir. Böyük alimləriniz, məsələn Zəhəbi «Mizanul-Etidal», Syuti «Əl-ləalil-məsnuəti fi əhədisil-movzuəti» və Səbt ibn Covzi «Əl-Movzuat» kitabında onların uydurma olduğunu açıq dəlillərlə bəyan etmişlər. Bu sözlərin batilliyinə dair dəlil hədis və rəvayətlərin, Qurani-kərimin bir çox aşkar ayələridir. Quranın bu ayəsi açıq-aydın Allah-təalanın görülməsini inkar edir:

«***Gözlər Onu (Allahı) idrak edə bilməz (görə bilməz); O, bütün gözləri idrak edər (görər). O, lətif və xəbərdar olandır***»[1].

Yenə Qurani-kərim həzrət Musanın (ə) bəni-İsrailin həmləsi qarşısında münacat məqamında belə ərz etdiyini nəql edir:

«***Rəbim özünü mənə göstər; Səni görə bilim. (Allah-təala cavabında): «Məni, əsla, görə bilməzsən***»[2].

**Seyid Əbdülhəyy:** «Mövlamız Əlidən (kərrəməllahu vəchəhu) «Görmədiyim Rəbə ibadət etmərəm» - deyə, bir hədis nəql olunmamışdırmı? O halda, Əlinin (ə) belə bir sözündən haqq-təalanın görülməsinin mümkün olduğu anlaşılır».

---

[1] «Ənam» surəsi, ayə:103
[2] «Əraf» surəsi, ayə:143

# ALLAH-TƏALANIN GÖRÜLMƏSİNİN MÜMKÜN OLMADIĞINA DAİR DƏLİL VƏ HƏDİSLƏR

**Dəvətçi:** «Cənabali, siz hədisin sadəcə bir cümləsini qeyd etdiniz. Ağaların icazəsilə hədisi tam şəkildə söyləyim, o zaman sizin kifayət qədər cavabınız verilmiş olar. Bu hədisi siqətul-İslam əzəmətli Şeyx Məhəmməd ibn Yəqub Kuleyni (q.s) «Üsuli-kafi»nin «Tövhid kitabı»nın babında və hörmətli Şeyx Səduq Əbu Cəfər Məhəmməd ibn Əli ibn Hüseyn ibn Musa ibn Babaveyh Qummi (q.t), «Tövhid» kitabının «Allahı görmə əqidəsinin ibtalı» (batilliyi) babında haqq və natiq olan Məhəmməd (ə) oğlu imam Cəfər Sadiqin (ə) belə buyurduğunu nəql edirlər: «Yəhudi bir alim Əmirəl-möminin həzrət Əlinin (ə) yanına gələrək, «Ey Əmirəl-möminin! Allaha ibadət etdikdə Onu görürsənmi?» soruşdu. Həzrət Əli (ə): «Görmədiyim Rəbə itaət etmərəm» buyurdu. «Necə görürsən?» soruşanda İmam (ə) belə buyurdu: «Gözlər Onu görməz, fəqət qəlblər iman nuruyla Onu görürlər».

Əmirəl-möminin həzrət Əlinin (ə) bu cavabından belə anlaşılır ki, Allahı cismani olan bu maddi gözlə görmək mümkün deyildir. Ancaq qəlb gözüylə mümkündür. Bu məna «Lən» kəlməsindən anlaşılır. Çünki məlumdur ki, «Lən» ədatı əbədi nəfy ədatı üçün istifadə olunur və bu ayədə, «Gözlər onu görməz» əvvəldəki ayəni təkid edir. Yəni dünya və axirətdə qətiyyən Allah-təala heç bir şəkildə görülməyəcəkdir.

Əqli və nəqli dəlillər bu mənanı ortaya çıxarır. Şiənin böyük alim, mühəqqiq və müfəssirlərindən başqa, Qazi Bəyzavi və Carullah Zəməxşəri kimi böyük alimləriniz öz təfsirlərində Allah-təalanın görülməsinin əqlən imkansız olduğunu vurğulamışlar. Kim Allah-təalanın istər bu dünyada olsun, istər axirətdə, görülməsinə inanırsa, Allah-təalanı öz əhatəsində qərar vermiş və Onun zatı üçün cismaniyyəti qəbul etmişdir. Çünki maddi cism olmazsa, maddi gözlə onu görmək mümkün olmaz. Belə bir inanc tamamilə küfrdür. Çünki böyük alimlərimiz bunu öz təfsir və elmi kitablarında zikr etmişlər. Bu mövzu üzərində bəhs etmək imkanımız olmadığına görə, onlardan bəzi cümlələri şahid ərz etdik.

Etibarlı kitablarınızda qeyd edilmiş yalan, uydurma və xurafat sözlərə gəlincə, misal olaraq iki hədisin xülasəsini möhtərəm ağaların şiə kitablarındakı açıqlaması və təvili mümkün olan bəzi xəbəri-vahidləri irad tutmamaları üçün nəql edirəm».

«Sitz «Səhihi-Sittə»ni, xüsusilə «Səhihi-Buxari» və «Səhihi-Müslim»i vəhy olan bir kitab kimi təsəvvür edirsiniz. Ricam, təəssübdən uzaq olub, bir az insaf gözüylə, bu qədər ifrata getməməniz üçün bu hədislərə baxmanızdır.

## «SƏHİHİ-BUXARİ» VƏ «SƏHİHİ-MÜSLİM»DƏKİ XURAFATLARA BİR BAXIŞ

Buxari «Səhih»İnin «Ğusl» kitabının «Mən İğtəsələ Üryanən» babında və Müslim öz «Səhih»İnin II cüzündə «Fəzaili-Musa» babında və imam Əhməd ibn Hənbəl «Müsnəd»in II cüzünün 315-ci səhifəsində və digər alimləriniz Əbu Hureyrədən belə nəql edirlər: «Bəni-İsrail arasında belə bir adət vardı: hər kəs hamı ilə birlikdə, övrət yerlərini örtmədən, suya girib, bir-birlərinə də baxırdılar. Belə bir davranış onların arasında eyb sayılmırdı. Lakin həzrət Musa, kimsənin onun övrət yerini görməməsi üçün, tək yuyunurdu.

Bəni-İsrail həzrət Musanın bu davranışına qarşı belə deyirdi: «Həzrət Musanın tək halda suda yuyunması və bizdən uzaq durmasının səbəbi, bədənində bir nöqsan və eybəcərlik olduğuna görədir. Bax, buna görə, bizim onu görməmizi istəmir».

Bir gün həzrət Musa yuyunmaq üçün bir suyun kənarına getdi. Paltarlarını çıxarıb, bir daşın üzərinə qoydu və suya girdi. Daş həzrət Musanın (ə) paltarlarıyla birlikdə qaçdı. Musa da onun ardınca qaçaraq, «Ey daş, paltarım! Ey daş, paltarım!» (Yəni paltarımı hara aparırsan?) deyirdi. Nəhayət, bəni-İsrail həzrət Musanın övrət yerini gördü. Allaha and olsun, «Musanın bir nöqsanı yoxdur» dedilər. Bu əsnada daş yerində durdu. Həzrət Musa paltarlarını götürdü. Daha sonra çubuqu ilə daşı döyməyə başladı. Belə ki, daş altı və ya yeddi dəfə inildədi.»

Allah xatirinə insafla söyləyin, belə bir hadisə siz ağalardan birinin qarşısına çıxsaydı, çılpaq halda xalqın qarşısında, övrət yerinizi gördükləri halda, paltarınızın arxasınca qaçmağınız nə qədər pis olardı?! Fərz elə, belə bir hadisə baş verib. Bu halda bu cür insan Sudan çılpaq vəziyyətdə çıxmaz, paltarlarının gətirilməsini camaatdən istəyər.

Görəsən, insanın ağlı belə bir əməlin Kəlimullah olan həzrət Musa (ə) kimi bir şəxsiyyətdən vücuda gəldiyinə və daşın hərəkət edib, həzrət Musanın (ə) paltarlarını aparmasına insan inana bilərmi?».

**Seyid Əbdülhəy:** «Görəsən, daşın hərəkət etməsi daha böyükdür, yoxsa əsanın əjdəhaya dönüb, hərəkət etməsi və Allah-təalanın xəbər verdiyi doqquz möcüzəmi?».

**Dəvətçi:** «Belə məşhur bir söz vardır, deyirlər: «Duanı yaxşı öyrənmiş, lakin duanın yerini itirmisiniz». Əziz ağalar, bizlər peyğəmbərlərin möcüzəsini inkar etmirik, əksinə Qurani-kərimin hökmüylə o möcüzələrə iman edirik.

Lakin bunu təsdiq edin ki, möcüzələr təhəddi (meydan-oxuma) məqamında düşmənin batil olduğunu isbat etmək və haqqı ortaya çıxartmaq üçün edilmişdir. Görəsən, belə bir əməldə Peyğəmbərin (ə) insanların qarşısında rəzil olmasından başqa nə kimi bir təhəddi və haqqın ortaya çıxması vardır?!».

**Seyid Əbdülhəy:** «Həzrət Musanın üzv orqanlarının nöqsanlı olmadığı və camaatın onun fitq olmadığını bilmələrindən daha böyük haqq nədir ki?».

**Dəvətçi:** «Fərz edək ki, həzrət Musa fitq idi. Bunun peyğəmbərlik məqamına nə kimi bir zərəri vardır. Peyğəmbərlər üçün nöqsanlıq sayılan zati nöqsanlıqlardır. Məsələn: Korluq, karlıq, altı və ya dörd barmaq olmaq, anadangəlmə iflic olmaq, çolaq olmaq və s. Amma bəzi xəstəliklər, cismi nöqsanlar peyğəmbərlik məqamına heç bir zərər verməz. Məsələn: Həzrət Yəqub (ə) və həzrət Şüeyb (ə) peyğəmbərin çox ağlamaqdan gözlərinin kor olması və ya Əyyub (ə) peyğəmbərin bədənin yara olması və yaxud da, Peyğəmbəri-əkrəmin Ühüd döyüşündə başının yarılması və dişinin qırılması kimi.

Fıtıq da cismani xəstəliklərdən olub, insan üçün hasil olan şeylərdən biridir. Bunun nə qədər bir önəmi vardı ki, Allah-təala möcüzə göstərməklə, onun məqamını müdafiə etmək istəsin?! Beləcə, bəni-İsrail Allahın Peyğəmbərinin (ə) övrət yerini görsün və o həzrətin (ə) hörməti və şəxsiyyəti xalqın arasında zədələnsin.

Görəsən, camaat sonradan «həzrət Musa (ə) çılpaq halda camaatın yanına gəldi və qəzəbli olduğuna görə daha o qədər vurdu ki, daş altı və ya yeddi dəfə inildədi» deyib, gülməyəcəklərmi? Məgər Allahın peyğəmbərləri daşın hisiyatsız olduğunu bilmir ki, Musa (ə) da daşı döyür?! Buy alan sözlərdən Allaha sığınıram.

# HƏZRƏT MUSANIN (Ə) ÖLÜM MƏLƏYİNİN (ƏZRAYIL) ÜZÜNƏ SİLLƏ VURMASI

Cənab seyid Əbdülhəyyin bu növ yalan-palan sözləri nəql edən Əbu Hüreyrəni müdafiə etməyə qalxması, Buxari və Müslim ki, fikr etmədən xurafatı nəql etməsi və möhtərəm ağaların da haqqında ğuluv etdikləri Səhihlərinin güman etdikləri kimi olmadığını yəqin etmələri üçün daha gülünc bir hədisi nəzərinizə çatdırıram:

Buxari «Səhih» kitabının I cildinin 158-ci səhifəsində cənazə bablarından olan «Mən Əhəbbəd-Dəfnə fil-Ərzil-Müqəddəsəti min əbvbabil-cənaiz», «Səhih»in II cildinin 163-cü səhifəsində isə «Vəfati-Musa» babında və Müsli də «Səhih»İnin II cildinin 309-cu səhifəsində, «Fəzaili-Musa» babında Əbu Hüreyrədən hədis nəql etmişlər: «Ölüm mələyi həzrət Musanın yanına gələrək «Rəbin dəvətini qəbul et» dedi, Musa ölüm mələyinin gözünə bir zərbə vuraraq, onun gözünü çıxartdı. Mələk qayıdıb, Rəbbinə belə dedi: «Məni, ölmək istəməyən bir quluna doğru göndərdin, o da vurub, gözümü çıxartdı». Allah-təala mələyin gözünü özünə qaytarıb belə buyurdu: «Yenidən qulumun yanına get və de ki, dünya həyatını istəyirsən?! Bu halda əlini öküzün belinə qoy, əlinə nə qədər tük çıxarsa hər bir tükün sayı üçün bir il yaşayacaqsan».

İmam Əhməd ibn Hənbəl Müsnədinin II cildinin 315-ci səhifəsində, Məhəmməd ibn Cərir Təbəri də öz «Tarixi»nin I cildində həzrət Musanın (ə) vəfatını zikr edərkən, həmin hədisi az bir fərqlə nəql etmişdir. O da bu şəkildə: «Həzrət Musa (ə) zamanında Mələkul-Movt (Əzrayıl) bəndələrin ruhunu almaq üçün açıq bir şəkildə gəlirdi, amma həzrət Musa (ə) üzünə zərbə vuraraq gözünü kor etdiyi andan etibarən, məxluqatın ruhunu almaq üçün gizli bir şəkildə gəlir». Çünki cahil insanların sağlam gözünü də kor etmələrindən qorxur! (məclisdə olanların çoxu qəh-qəhə ilə güldülər).

İndi siz ağalardan insafla hökm verməyiniz istəyirəm. Görəsən, sizin də özünüzü saxlaya bilməyib güldüyünüz bu rəvayət uydurma və xurafat deyilmi?

Mən belə uydurma və xurafat hədisi düşünmədən qələmə alan yazıçı və ravilərə heyrət edirəm.

## İNSAF, BƏSİRƏT VƏ XOŞBƏXTLİYƏ SƏBƏB OLUR

Görəsən, Musa Kəlimullah (ə) kimi ulul-əzim bir peyğəmbərin (əuzu billah) o qədər düşüncəsiz və daşürəkli olub, Allahın əmrinə itaət etmək əvəzinə Onun elçisinin gözünü kor edəcək bir şəkildə üzünə möhkəm bir zərbə vurmasını hər hansı bir ağıl sahibi qəbul edərmi?

Fərz edək ki, bir nəfər, Hafiz ağanın möhtərəm bir şəxsiyyət kimi qonaq dəvət edir. Lakin «Hafiz, elçinin dəvətini qəbul etdikdə, ona möhkəm bir zərbə vuraraq gözünü kor etdi» deyilərsə, siz gülməzsinizmi? Allah xatirinə söyləyin, Hafiz ağa «Belə bir söz mənə iftiradır» deməzmi?...

O, bir ömür elm əldə etdikdən və nəfsini pakladıqdan sonra bilmir ki, mənə bu xəbəri gətirənin təqsiri yoxdur. Əlavə olaraq mənə ehtiram edərək, məni böyük bir şəxsiyyətin qonaqlığına dəvət edir.

Heç daşürəkli cahil bir adam belə bir iş edərmi? O zaman mərifət əhli ulul-əzim və Kəlimullah olan bir peyğəmbər (ə) necə belə bir iş edə bilər və Allahın dəvətini qəbul etməyib, heç bir təqsiri olmayan elçinin üzünə bir zərbə vuraraq, necə onu kor edə bilər?

Peyğəmbərlərin göndərilməsindən məqsəd, insanları hidayət etmək və onları heyvani hərəkətlərdən çəkindirməkdir. Mərifət əhli olmayan cahil bir fərdin bir heyvana belə zülm etməsi çirkin olduğuna görə, ulul-əzim olan bir peyğəmbərin Allahın müqərrəb mələyi və elçisinə bir-başa zülm etməsi daha çirkin və daha pis olmazmı?

Hər kəs belə bir hədisin uydurma və iftira olduğunu başa düşür. Belə uydurma bir hədisi uyduranların məqsədi sırf peyğəmbərlik məqamına xəyanət etmək və ya cəmiyyətin gözündə böyük bir peyğəmbəri kiçildib, alçatmaqdır. Mən (belə yalan hədisləri uyduran) Əbu Hüreyrə kimi insanlara təəccüb etmirəm; çünki o, öz alimlərinizin yazdığına görə, qarnını Müaviyənin yağlı və dadlı süfrəsindən

doyurması üçün hədislər uydurmuşdur; hətta II xəlifə Ömər ibn Xəttab onu hədis uydurduğuna görə, kürəyi qana boyanacaq bir şəkildə şallaqlatdırmışdı.

Amma mənim təəccübləndiyim budur ki, böyük bir elmə sahib olan şəxslər necə olub düşünmədən bu növ yalan və uydurma hədisləri öz kitablarında qeyd etmişlər? Hafiz kimi digər alimlər də bu cür kitabları oxuyub, düşünmədən onları Qurandan sonra ən səhih kitab olaraq qəbul etmişdir.

Bu cür uydurma hədislər səhih bildiyiniz kitablarınızda olduğuna görə, o zaman şiə kitablarında yazılmış, tövcihə və açıqlanmağa qabiliyyəti çatan hədislərə etiraz etməyə haqqınız yoxdur! Söz sözü çəkər deyə, mövzudan kənara çıxdığım üçün üzr istəyirəm.

Keçək əsl mövzuya. Nəql etdiyiniz o hədisin üzərində bir az durub, onun açıqlaması olub-olmadığına baxaq. Bu aydındır ki, hər insaflı alim sizin və bizim kitablarda mövcud olan bu növ gizli və vahid olan hədislərdə qarşılaşdıqda onları sənədi səhih olan minlərcə hədislərlə açıqlayar. Əks təqdirdə, bir kənara atar və ya ən azından onlara qarşı susar. Nəinki onları küfrdə qərar verib, öz dini qardaşlarına həmlə edər. İNdi «Təfsiri-Safi» yanımda olmadığı üçün və xəbərin silsiləsindən xəbərsiz olduğum üçün bilmirik necə nəql edək. Gərək ətrafında özümüzdən şərh verək və ya səbir edək, görək islah olunmağa qabiliyyəti var, ya yox. Mən bu zəif ağlımla o hədis (Mərifət hədisi) haqqında belə düşünürəm. O həzrətin (s) həmin sözü ya kəlamçılar arasında məşhur olan qaydaya, yəni «məlul haqqında tam elm sahibi olmaq, səbəb haqqında tam elm sahib olmaq deməkdir» qaydasına əlavə edilmiş və ya «böyük vəziri tanıyan kimsə, padşahı tanımışdır» sözü kimi mübaliğəyə əlavə edilmişdir. Buna misal, «İxlas» surəsinin dəlili, Quranın digər ayələri və bir çox hədislərdir.

Deyə bilərik ki, bu hədisdən məqsəd imamı tanımaq və onu tanımağın ən böyük ibadətlərdən olmasıdır. Çünki imam insan və cinlərin yaradılış qayəsi olmuşdur. «Camiə Ziyarəti»ndə yer alan; «ONlar Allahı tanımağın yollarıdır» sözünün mənası da budur.

Digər bir şəkildə də mənalandırmaq mümkündür. Çünki araşdırmaçılar bu cür yerlərdə belə məna vermişlər, hər felin failini, hər binanın banisini (ustasını), o fel

və binanın sağlamlığından anlamaq mümkündür. Belə isə hər usta və əsəri onun cəhətlərinin bir cəhətinə kamil bir dəlildir. Rəsulallah (s) və pak Əhli-beyti (ə) bütün uca mövqelərə sahib olduqlarına görə ONlardan daha sağlam bir əsər və ONlardan daha əhatəli bir məxluq yoxdur. Belə isə, Allahın mərifətinə onlardan daha açıq və daha əhatəli bir yol olmamışdır. Allahın mərifət yolları, sadəcə Onlar ola bilmişlər. Onları tanıyan Allahı tanımışdır. Çünki məsum İmamların (ə) özləri buyurmuşlar: «***Bizim vəsiləmizlə Allah tanınır, bizim vəsiləmizlə Allaha ibadət edilir…***» (Yəni Allahın mərifət və ibadət yolu bizim əlimizdədir).

Xülasə, Allahı (tam anlamaqla) tanımağın yolu bu şəni uca ailədir. Əgər bu ailənin rəhbərliyi olmadan insanlar yol tapmaq istəyərlərsə, zəlalət vadisində, çaşqınlıq içərisində qalarlar; zəlalət vadisində məhv olanın rəhbərsiz halda səadət evinə yetişməsi imkansızdır. Bax, buna görə iki tərəfin də ittifaq etdiyi bir hədisdə Rəsulallah (s) belə buyurmuşdur:

«***Ey insanlar! Mən aranızda iki dəyərli əmanət qoyuram, (ehtiyac duyduğunuz işləri) Onlardan öyrənin, heç vaxt yolunuzu azmazsınız. Biri Allahın kitabı, digər isə, itrətim olan Əhli-beytidir».***

**Hafiz:** «Düzəliş verməyə çalışdığınız, sadəcə bu hədis deyildir, dua kitablarınızdakı bütün dualarınızda şirk və küfr əlamətləri gözə çarpır. Məsələn, Allaha diqqət etmədən, imamlardan hacətləriniz tələb edirsiniz, bu isə, şirkin ən böyük dəlilidir».

**Dəvətçi:** «Cənabalinin keçmiş ata-babalarının sözlərinə uyaraq belə əsassız sözlər söyləməsi həqiqətdə insafsızlıqdır. Ya nə buyurduğunuz fərqində deyilsiniz və ya şirkin mənasına diqqət etmədən danışırsınız. Həqiqətin ortaya çıxması üçün ilk öncə şirk və müşrikin mənasını açıqlamağınızı rica edirəm».

## ŞİƏNİ ŞİRKDƏ GÜNAHLANDIRMAQ

**Hafiz:** «Mövzu o qədər aydındır ki, izaha ehtiyac olmadığını sanıram. Allah-təalanı qəbul edib, Ondan başqasına yönəlmənin şirk olduğu açıq bir həqiqətdir. Müşrik, Allahdan başqasına yönəlib, istəyini ondan tələb edən kəsdir.

Məlum olduğu kimi, şiə camaatı tam şəkildə Allaha yönəlməmişdir. Bütün istəklərini Allahın adı olmadan imamlarından istəyirlər. Hətta şiə fəqirləri yollarda, evlərin qapılarına və ya dükanlara gəldikləri zaman, «Ya Əli!», «Ya Hüseyn!», «Ya qərib ima Riza!», «Ya həzrət Abbas» deyirlər. Bir dəfə olsun «Ya Allah» dedikləri görülməmişdir. Bütün bunlar şirkə, şiə camaatının Allaha yönəlmədiyinə və Allahdan başqasına yönəldiklərinə dəlildir».

**Dəvətçi:** «Sözlərinizi nə cür anlayım bilmirəm. Görəsən, inadkarlıq üzündən bildiyiniz halda özünüzü bilməzliyə vurmağınızamı, yoxsa həqiqətlərə lazımınca diqqət göstərmədiyinizəmi? Ümidvaram ki, inadkar deyilsiniz. Çünki alim olmağın şərtlərindən biri, insaflı olmaqdır. Haqqı bilən bir kəs öz istək və məqsədi uğrunda haqqı yalan sayırsa, demək o kəs insaflı deyildir. İnsafı olmayan alim də, əməlsiz alimdir. Rəsulallah (s) bir hədisdə belə buyurur: «***Elmiylə əməl etməyən, meyvəsiz bir ağac kimidir***».

Danışığınızda dəfələrlə şirk və müşrik kəlmələrini işlətdiniz. Boş və əsassız dəlillərlə Allahı tək bilən şiələri müşrik adlandırdınız. Bu kimi sözləriniz məlumatsız əhli-sünnət qardaşların üzərində təsir buraxa, şiələri müşrik bilmələrinə səbəb ola bilər. Necə ki, indiyə qədər də bu təsir qalmaqdadır. Başqa tərəfdən, burada olan şiələr də bu sözlərinizdən çox narahat olurlar. Sizə qərəzli bir alim və iftiraçı gözüylə baxırlar. Çünki onlar əqidələrində sizin dediyiniz sözlərin heç birinin olmadığını görürlər. Bu halda, sözlərinizə diqqət yetirib elə cümlələr söyləyin ki, həm haqq bəlli olsun, həm də qəlblərdə sizə qarşı məhəbbət yaransın.

Burada olan və olmayan əhli-sünnət qardaşların zehinlərinin aydınlıq tapması üçün əgər izn versəniz, məcburiyyət qarşısında, məclisimizin vaxtını da nəzərə alaraq, Əllamə Hilli, Mühəqqiq Tusi, Əllamə Məclisi kimi şiənin iftixarı və dahiləri olan böyük tədqiqatçı alim, fəqih və həkimlərinin – Mola Sədra, Mola Novruzi, Əli Taliqani, Mola Hadi Səbzəvari, Mərhum Feyzi Kaşani və Fəyyaz Lahicani kimi başqa həkim və tədqiqatçıların, Quranın ayələri, Əimmeyi-Ətharın (ə) uca əmrlərindən istifadə edərək şirk və müşrik mövzusundakı etiqadlarını ərz edəcəyəm. Belə ki, burada əyləşənlər güman etməsinlər ki, şirkin mənası Hafiz qardaşın buyurduğu kimidir».

**Hafiz:** (əsəbi bir şəkildə). «Buyurun, buyurun».

**Nəvvab:** Qibləsahib! «Məclisdə iştirak edənlərin hamısı alim olmadığına görə, bəzi mövzuları və terminləri anlamaq onlar üçün imkansızdır. Rica edirəm, sözlərinizi olduqca aydın və sadə söyləyin. Təkcə alimləri nəzərdə tutub, cavablarınızı onlara yönəltməyin. Xüsusilə, Hind və Pişəvərdən olanlar ali təhsilli deyillər. Bu səbəbdən, qarışıq və çətin anlaşılan mövzulardan çəkinməyinizi xahiş edirəm».

**Dəvətçi:** «Nəvvab qardaş, xatırlatdığınız sözləri mən hər zaman nəzərə alıram. Yalnız bu məclisdə deyil, hər hansı tədbir və yığıncaqda olursa-olsun, alimləri deyil, camaatın ümumi kütləsini nəzərə almaq mənim adətimdir. Peyğəmbərlərin göndərilməsi, kitabların nazil olması həqiqətlərdən xəbərsiz olan insanlar üçün deyilmi? Həqiqətlər sadə və hər kəsin anlaya biləcəyi bir şəkildə izah edilməlidir. Bir hədisdə Rəsulallahın (s) belə buyurduğu nəql edilir: «***Biz peyğəmbərlər insanlarla ağılları yetişən səviyyədə danışarıq***».

İstəyinizi daima nəzərdə tuturam. İnşallah, bundan belə daha çox diqqət edərəm. Əgər unutsam, rica edirəm, mənə xatırladın».

## ŞİRKİN NÖVLƏRİ

**Dəvətçi**: «Quran ayələri, bir çox alimin dərin araşdırmaları, xüsusilə Sədrul-Mütəəllihin və Fazil Taliqaninin önəmli açıqlamalarından şirkin iki  növ olduğu anlaşılır. Şirkin başqa qisimləri də bu ikisinin əhatəsinə aid olur. Bu iki qisim şirk: aşkar və gizli olan şirkdir.

## AŞKAR ŞİRK

**1. Zatidə olan şirk:**

İnsan Allaha zatında, sifət, fel (əməl) və ya ibadətlərində ortaq qoşarsa, bu aşkar şirkdir.

Zatidə olan şirk, üluhiyyət, zat və Allahın vəhdaniyyəti mərtəbəsində Allaha şərik qoşmaq, bunu etiraf etmək deməkdir. Bütpərəstlər, (atəşpərəst) nur və zülmət (qaranlıq), Yezdan (Allah) və Əhrimən (pislik İlahı) kimi iki əsl və məbdəyə (başlanğıca) inanan məcusilər buna gözəl misaldır.

Yenə xristianlar ata, oğul və Ruhul-Qüds bilməklə Allahın zatını üç qismə ayırmışlar. Onlardan bəziləri Ruhul-Qüds Məryəm (ə.s) olduğunu söyləyirlər. Bu üçünün hər birinin ayrı-ayrı xüsusiyyətləri olduğuna inanırlar; «Bu üçün bir araya gəlməzlərsə, Allahın zatı da aşkarlaşmaz» deyirlər. Bu səbəbdən, Allah-təala da onların bu əqidəsini «Maidə» surəsinin 73-cü ayəsində bildirmiş və onu yalan saymışdır:

«***Allah, üçlüyün üçüncüsüdür» deyənlər [də], əlbəttə, kafir oldular. Halbuki, vahid Allahdan başqa heç bir Tanrı yoxdur***».

## XRİSTİANLARIN ƏQİDƏSİ

Bu ayə xristianların Nəsturiyə, Milkaiyə və Yəqubiyyə kimi firqələrinə aiddir. Onlar da bu inancları bütpərəstlərdən və məcusilərdən götürmüşlər. (Müəllif Tənir Biyruninin «əl-Bəsniyyətu fid-diyanətin – nəsraniyyə» kitabına müraciət edin.) Qısaca desək, xristianlar da bütpərəst və məcuslər kimi müşrükdirlər. Çünki üç əslə inanırlar.

Başqa sözlə desək, onlar üluhiyyətin Allah, Məryəm (ə.) və İsanın (ə) arasında ortaq olduğunu söyləyirlər. Onlardan bəziləri Allah, İsa (ə) və Ruhul-Qüsdün ayrı-ayrı ilahlar olduğu inancındadırlar. Deyirlər Ki, başlanğıcda ilahlar üç idilər: Ata, oğlu və Ruhul-Qüds. Sonra bu üçün bir araya gəlib, Məsih oldular.

Şübhə yox ki, əqli və nəqli dəlillərə görə, bu anlamda belə, bir ittihad imkansız və batildir. Hətta vücudu vacib olanın zatı xaricindəki varlıqlar üçün belə imkansızdır. Bu səbəblə, yuxarıda söylədiyimiz ayənin sonunda belə buyurur:

«***O tək bir İlahdan başqa ilah yoxdur***».

Yəni bir olan Allahdan başqa, ibadətə layiq heç bir varlıq yoxdur. O, xalis vəhdaniyyət mahiyyətlidir.

2. **Sifətlərdə şirk**

Allah-təalanın elm, hikmət, qüdrət, həyat və başqa bu kimi sifətlərini, qədim və Onun zatına zaid (yəni zatın xaricində) bilmək, sifətlərdə şirk anlamına gəlir. Əbülhəsən Əli ibn İsmayıl Əşəri Bəsrinin davamçıları olan Əşərilərin etiqadı belədir. Böyük alimlərinizdən Əli ibn Əhməd ibn Həzəm əz-Zahiri «Fəslin» IV cüzünün, 207-ci səhifəsində və məşhur filosof Əndülüslü İbn Rüşd Məhəmməd ibn Əhməd «Əl-Kəşfu ən mənahicil-ədilləti fi əqaidil-milləti» kitabının 58-ci səhifəsində Allahın sifətlərinin zaid (zatından əlavə) və qədim olduğuna inandıqlarını yazmışdır.

Belə isə, əgər bir kəs Allahın sifətlərini Onun uca zatının xaricində olduğunu qəbul edirsə, yəni Allahı alimiyyət, qadiriyyət, hikmət, həyat və bu kimi sifətlərlə vəsfləndirir və bunları Allah-təalanın zatının özü olaraq bilməzsə, müşrikdir. Çünki qədimlikdə Onun üçün bənzər və bərabər edilmiş olar. Halbuki, Allah-təalanın zatının xaricində heç bir şey qədim deyildir. Allahın sifətləri Onun zatının özüdür. Məsələn, şəkər və şirinlik, yağ və yağlılıq kimi; şəkərdən şirinliyi, yağdan da yağlılığı ayırmaq mümkün deyildir; şirinlik və yağlılıq, sonradan şəkər və yağın zatına qatılan şeylər deyillər. Allah-təala daha başlanğıcda onları şirin və yağlı olaraq yaratmışdır. Şəkərdən şirinliyi, yağdan da yağlılığı ayıra bilsək, artıq o, yağ və şəkər olmayacaqdır.

***Bax bunlar bir qrup misallardır. Onları insanlara göstərib, bildirərik, ancaq elm sahiblərindən başqaları bunları anlamaz.***

Allahın sifətlərinin Onun zatından ayrı olmadığını daha yaxşı anlaya bilmək üçün misallar, mövzunun daha aydın anlaşılmasını təmin edir. Allah yəni «Alim», «Həyy», «Qadir», «Hakim»… deməkdir.

3. **Fellərdə (əməllərdə) şirk:**

Həqiqət və mənada Allahı bir bilməmək, fellərdəki şirkdir. Yəni məxluqatdan birini və ya bir neçəsini İlahi fellərdə müəssir, ya da müəssirin bir cüzi, ya da işləri yaradılmışdan sonra insanlara təfviz edilmiş olaraq bilmək şirkdir. Yəhudilər belə bir inanca sahibdirlər. Onlar deyirlər: «Allah məxluqatı yaratdı. Sonra da işləri məxluqatın ixtiyarına verib, özü kənara çəkildi».

Çünki «Maidə» surəsinin 64-cü ayəsində yəhudilər belə pislənilir:

«*yəhudilər, «Allahın əli bağlıdır» dedilər. Onların öz əlləri bağlansın! Dedikləri bu sözə görə [qoy] Allahın lənətinə gəlsinlər*».

Müfəvvizə adlandırılan ğulat müşriklər Allahın işləri imamların ixtiyarında olmasına və onların yaradıb, ruzi verməsinə inanırlar.

Kim, hansı yolla olursa-olsun, Allahın fellərində istər müəssirin cüzi olsun, istər işləri ənbiyaya (ə), ümmətlərə, imalara (ə) və ya məmurların ixtiyarına verilməsi şəklində olsun, başqasını şərik bilsə, qətiyyən müşrikdir.

**4. İbadətdə şirk:**

İbadətdə şirk isə budur: İnsanın ibadət etdiyi zaman zahiri görüşünü, ya da qəlibindəki niyyətini haqqdan (Allahdan) başqa səmtə çevirməsinə deyilir. Məsələn, namazı başqaları üçün niyyət edib qılmaq kimi. Niyyətə nail olan ibadətlərdə niyyətini Allahdan başqasına çevirən müşrikdir. Çünki Quran «Kəhf» surəsinin 110-cu ayəsində belə bir əməli (şirki) nəhy (qadağan) edərək buyurur:

«***Kim Rəbi ilə qarşılaşacağına (Qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracağına) ümid bəsləyirsə, (yaxud Qiyamətdən qorxursa,) gərək saleh əməl etsin və Rəbbinə etdiyi ibadətdə heç kəsi şərik qoşmasın***».

Əməl və ibadət edildiyi zaman, Allahdan başqasına yönəlməməli və peyğəmbərin, imamın, ya da mürşidin üzü göz önündə canladırılmamalıdır. Yəni namaz, oruc, həcc, xüms, zəkat, nəzir, qurban və bu kimi vacib və ya sünnət ibadətlərin zahiri Allah üçün olsa, amma qəlbdə və batində Allahdan başqasının diqqətini çəkmək və ya məşhur olmaq üçün olarsa, bu şirkdir. Çünki hədislərdə əməldə riya etməyin kiçik şirk olduğu bəyan edilmişdir. Bir hədisdə Rəsulallahın (s) belə buyurduğu nəql edilir: «***Kiçik şirkdən çəkinin!***». Kiçik şirkin nə olduğu soruşulduqda, O həzrət belə buyurdu: «***Riya və şöhrətdir***»[1].

Başqa bir hədisdə Rəsulallah (s) belə buyurur:

«***Sizin üçün qorxduğum Ən pis şey gizli şirkdir. Gizli şirkdən uzaq durun. Çünki ümmətimin içində gizli olan şirk qaranlıq gecədə, qara daşın üstündə yavaş yeriyən qarışqadan daha gizlidir***».

[1] Şöhrət – yəni etdiklərini başqalarına eşitdirmək və ya göstərməklə məhşur olmağa çalışmaq.

Sonra o həzrət (s) belə buyurdu:

«***Kim namazında, orucunda riya edərsə, müşrikdir. Kim sədəqəni riya ilə verərsə, həccə riya ilə gedərsə və riya ilə kölə azad edərsə, müşrikdir***».

**Hafiz:** «Siz öz özünüzü ələ verdiniz. Deyirsiniz Ki, insan, insan üçün nəzir deyərsə, müşrikdir. Belə isə, siz şiələr müşriksiniz. Çünki İmamlara, ya da imamzadələrə hər zaman nəzir deyirsiniz. Belə bir nəzir Allahdan başqası üçün olduğuna görə şirkdir».

## NƏZİR NİYYƏTİ

**Dəvətçi:** «İnsan bir qövmün və ya bir millətin əqidəsini araşdırıb hökm vermək istədikdə, bu hökm ağıl, məntiq və elmin imkan verdiyi qaydada olmalıdır. Yoxsa cahillərin sözlərinə və əməllərinə baxıb hökm verməsi düzgün deyil. Onların qanunlarını və etibarlı kitablarını diqqətlə araşdırmalıdır.

Şiənin inancını öyrənmək istədiyiniz zaman, cahil və avam şiələrin sözlərinə və hərəkətlərinə baxıb şiələr haqqında qəti bir nəticə çıxarmaq, yanlış bir şeydir. Çöldə-bazarda savadsız insanların «Ya Əli», «Ya imam Riza» dediklərini gördükdə, onların, ya da bütün şiələrin müşrik olduğunu söyləyə bilməzsiniz. Bəzi cahil kəslər imamlara, imamzadələrə nəzir deyirsə, bunu onlara qalib olmanız üçün bir dəlil saymayın. Çünki hər qövmdə cahil və avam insanlar mövcuddur. Amma əgər sizlər saf niyyətlə və bəhanə axtarmadan əqli dəlillərlə bir araşdırma aparmaq istəyirsinizsə, şiənin fiqh kitablarını nəzərdən keçirməyiniz lazımdır. Bu xətti və ya çap olunmuş kitablar bütün kitabxanalarda, hər kəsin əli çatacaq yerdədir.

İstidlali-fiqh kitabları və əməl risalələrini oxusanız, Cəfəri fiqhində şirkə gedən yolun və xurafata meyilli qanunların olmadığını görəcəksiz. Həqiqətdə, xalis Tövhid Cəfəri fiqhiylə özünü göstərir.

«Şərhi-Lümə» və «Şərayi» kimi bütün kitabxanalarda mövcud olan fiqh kitablarını araşdırsanız, onlarda nəzir üçün xüsusi bir babın ayrıldığını görərsiniz. Şiə alimlərinin hamısının əhkam risalələrində nəzir mövzusuna aid fitvalar vardır. Bu kitablarda nəzir üçün xüsusi bir babın ayrılmasının səbəbi, nəzirin ibadət

olmasına görədir. Allah üçün nəzir edilməsi zamanı iki şərtin yerinə yetirilməsi lazım gəlir. Bu iki şərtdən hər hansı biri olmazsa, nəzir batil olar. Bu iki şərtdən biri əməllə həmdəm olan «niyyət», ikincisi isə hansı dillə olursa-olsun, siqə (əqd) oxunmasıdır. Bir müsəlman bu iki şərt olmadan nəzirin gerçəkləşmədiyini anlayarsa, ilk öncə bu iki şərtin məna və xüsusiyyətini öyrənən və daha sonra nəzir niyyətini edər.

İnsan bir fəqihdən, ya da onun risaləsindən nəzir məsələsini araşdırdığı zaman hər şeydən öncə niyyət mövzusuyla qarşılaşır. Niyyət, hər ibadətdə, xüsusilə də nəzirdə Allah və Onun rizasını qazanmaq üçün olmalıdır. Demək ki, niyyət Allah üçün olmazsa, o əməl puç olar.

İkincisi, niyyəti tamamlayıb onu sabitləşdirmək üçün nəzir niyyəti edən kimsənin nəzir etdiyi zaman, niyyət əqdini oxuması lazım gəlir. Əqddə də Allah adı olmazsa, əqd batil olur. Məsələn, bir kəs oruc tutmağı nəzir etmək istəsə, niyyət edərək belə deməlidir: «Lillahi əleyyə Ən əsumə» (Allah üçün oruc tutmaq mənim üzərimə vacib olsun) və ya içki içməyi tərk etmək istədiyi zaman «Lillahi əleyyə Ən ətrukə şürbəl-xəmr» (Allah üçün içkini tərk etmək, mənim üçün vacib olsun) deməlidir. Digər bütün niyyətlər də, bu şəkildədir.

Əgər əqdi ərəbcə oxumaq mümkün olmazsa, hər kəs öz dilində oxuya bilər. Amma mənası ərəbcəyə uyğun olmalıdır.

Əgər niyyətində Allahdan başqası olarsa və ya başqasının adı Allahla bərabər tutularsa və o başqası istər diri olsun, istər ölü, istər peyğəmbər olsun, istər imam və ya imamzadə, niyyəti batildir. Bunu da bilərəkdən və qəsdlə etsə, müşrikdir. Çünki yuxarıda söylənilən ayədə Quran aydın şəkildə belə buyurur:

«***Rəbbinə itaətdə heç kəsi ortaq tutmasın***.

Elm əhlinin bunu bilməyənlərə öyrətməsi lazımdır. Necə Ki, moizə əhli və mübəlliğlər vəzifəyə əməl edirlər.

Şiə fəqihləri istər diri olsun, istər ölü, peyğəmbər və ya ima adına deyilən nəzir niyyətinin batil olduğunu, bunu bilərək və qəsdən edənin də müşrik olduğunu söyləyirlər. Niyyət Allah adına olmalıdır, amma nəzir istənilən yerlərdə istifadə oluna bilər. Məsələn, Allah üçün qurban niyyətiylə bir qoyunu bir evdə, bir ibadət

yerində və bu kimi yerlərdə kəsərsə, bunun maneəsi yoxdur. Pul, paltar və bu kimi şeyləri Allah üçün niyyət edib bir fəqirə, bir yetimə, ya da Rəsulallahın (s) nəslindən olan bir seyidə verirsə, yenə bir maneəsi yoxdur. AMma Peyğəmbər (s), ya İmamlar (ə) üçün və ya onların nəslindən olan seyidlər (Peyğəmbər (s) və İmamın (ə) nəvələri), ya da alimlər və yetimlər üçün nəzir niyyəti edilərsə, bu niyyət batildir. Bilərək və qəsdən olsa, şirkdir.

Hər rəsulun, fəqihin, alimin, vaizin, mübəlliğin vəzifəsi yazmaq və söyləməkdir. Quranda buyurulur:

«***Peyğəmbərin əsl vəzifəsi, ancaq [Allahın əmrini insanlara] çatdırmaqdır***»[1]

Xalqın vəzifəsi isə dinləmək və əməl etməkdir. Birisi və ya bir çoxu dini vəzifələrini öyrənib-öyrətməklə səhlənkarlıq edirsə və dini vəzifələrinə uyğun şəkildə əməl etmirsə, bu, o dinin, o məzhəbin nöqsanı deyildir.

Güman edirəm, həqiqətin anlaşılması üçün bu qədər kifayət edər. Artıq bundan sonra «şiələr müşrikdir» deməyin.

## GİZLİ ŞİRK

Yenidən mövzumuza qayıtsaq, yaxşı olar. Şirkin ikinci qismi gizli şirkdir. Bu şirk əməllərdə, ibadət və itaətlərdə riya olaraq özünü göstərir. Bu şirklə, aşkar şirkin qisimlərindən olan ibadətdə olan şirkin fərqi budur: İbadət şirki Allaha ortaq qoşaraq, o ortağa da ibadət etməkdir. Məsələn, namaz qılarkən əgər Şeytanın aldatmasıyla, vilayət məqamı və ya bir mürşid nəzərə alınırsa, bu əməl batil və bilavasitə şirkdir.

İbadət edərkən Allahın zatından başqa heç bir şey insanın zehninə və fikrinə gəlməməlidir. Yoxsa, açıq şirk qisminə daxil olar.

Rəsulallahın (s) belə buyurduğu nəql edilir:

«***Allah-təala buyurur ki, kim saleh bir əməl edərək Məndən başqasını onda ortaq edərsə, o əməl bütünlüklə onun üçündür; mən ondan [o əməldən, ya da o əməli edəndən] uzağam. Mən şirkdən, uzaq ehtiyacsızların ən ehtiyacsızıyam***».

---

[1] «Maidə» surəsi, ayə: 99.

Başqa bir hədisdə belə nəql edilir:

«***Kim xalqın onu tərif etməsi üçün namaz qılıb, oruc tutub və ya həccə gedərsə, şübhəsiz, o əməlində Allahın ortaq qoşmuşdur***»

Haqq, natiq olan və həqiqət sirlərini kəşf edən Məhəmməd (ə) oğlu imam Cəfəri Sadiq (ə) belə buyurur:

«***Bir qul Allahın rəhmətiylə axirət savabını tələb edərək, bir əməl edib və əmələ insanlardan birinin rızasını qatarsa, o, müşrikdir***».

Gizli şirkin sahəsi çox genişdir. Hər əmələ ən kiçik bir şəkildə də olsa, Allahdan başqası ortaq qoşularsa, bunu edən müşrik olar.

## SƏBƏBLƏRDƏ ŞİRK

Gizli şirkin qisimlərindən bir başqası, səbəblərdəki şirkdir. Çünki insanlardan çoxu səbəb və yaranmışlara ümid bəsləyərək onlardan qorxur. Bu da şirkdir; amma bağışlanan şirkdir.

Səbəblərdə şirkdən məqsəd budur: Səbəblərin təsirlərinin özlərindən olduğuna inanmaqdır. Məsələn, günəşin bir çox şey üzərində təsiri vardır. Əgər bu təsirin onun özündən olduğunu söyləyərək yaradıcısından qəflət edilirsə, bu şirkdir. Amma günəş, hakim yaradıcısı tərəfindən feyzi artıran bir vəsilə olaraq qəbul edilirsə, bu, əsla, şirk deyildir. Əksinə, bu bir növ ibadətdir. Çünki haqqın ayələrinə (nişanələrinə) yönəlmənin özü, haqqa yönəlmənin müqəddiməsidir. Qurani-kərimin bir çox ayəsində «***İlahi ayələrə baxın***» deyə əmr olunmuşdur. Çünki bu baxışlar Allaha yönəlmənin təməlini hazırlayır.

Eyni şəkildə (yəni səbəblərdə şirkin bir başqa şəkli), hər hansı bir səbəbi müstəqil olaraq qəbul etməkdir. Məsələn, tacir ticarətinə, əkinçi əkin sahəsinə, fəhlə işinə, qısası hər hansı bir işə sahib olan kəs o işinə müstəqil gözlə baxarsa, müşrikdir. Amma səbəblərə «Allahdan başqa heç bir müəssir yoxdur» niyyətiylə baxarsa, bu şirk olmaz.

# ŞİƏ HEÇ BİR ŞƏKİLDƏ MÜŞRİK DEYİLDİR

Bu qısa müqəddimədə şirkin əsl mənaları və əlamətləri bəyan olub aydınlığa qovuşduqdan sonra bu sözlərimizdən bir nəticə əldə edək. İndi söyləyə bilərsinizmi, şiələr bəyan etdiyimiz bu şirk növlərinin (gizli və aşkar) hansı qrupuna aiddirlər? Görəsən, hansı alim, ya da avam bir şiənin, Allah-Təbarək və Təalanın zat, sifət və fellərində şərik qəbul etdiyini eşitdiniz, ya da gördünüz? Görəsən, nəyə əsaslanaraq Allaha ibadət edənlərin başqa bir məbuda tapındığını söyləyirsiniz?

Görəsən, bu şirk növlərindən birini şiələrin, üsul, füru və əqaid kitablarının hansında oxudunuz və hansı İmamından (ə) bir rəvayət edildiyini eşitdiniz? Xalqın diqqətini çəkmək və riya etmək kimi şirkin gizli qismi sadəcə şiələrə məxsus deyildir.

Şiə və sünnilərin hamısı bu maddi aləmdə dusdaqdır. Elm və mərifətin olmaması, günahlardan çəkinməmək, bəzən Şeytanın hiyləli vəsvəsələrinə uyaraq riya etməyin şiəsi, sünnisi yoxdur. Yenə səbəblərdə qərq olub, Allaha itaət etməmək və Şeytana itaət etmək mövzusu da eyni şəkildədir. Belə bir şirkin bağışlanmış olduğunu daha öncə söyləmişdik. Çünki bir az özünə gəlməklə, insan özünü ondan qurtara bilər. Belə isə, nəyə əsaslanaraq şiələrin müşrik olduğunu söyləyir və bilməyənləri də, bu cür öyrədirsiniz?!».

**Hafiz:** «Söylədiklərinizin hamısı doğrudur, amma ərz etdiyim kimi, imalara təvəssül edib, onlardan arzu diləmək şirkdir. Çünki bizim vasitəyə ehtiyacımız yoxdur. Nə zaman Allaha yönəlsək, nəticə əldə edə bilərik».

**Dəvətçi:** «Doğrusu, sizin kimi insaflı və düşüncəli bir alimin araşdırmadan, keçmişdəkilərin təsiri altında qalaraq bunları söyləməsi, təəccüblü bir şeydir.

Bəlkə yuxulu idiniz və ya bir az əvvəl söylədiklərimi diqqətlə dinləmədiniz! Yuxarıda mövzunu geniş açıqlamağıma baxmayaraq, yenə də «İmamlardan (ə) bir şey istəmək şirkdir» deyirsiniz.

Deyə bilərsinizmi ki, xalqdan bir şey istəmək şirkdir? Əgər belə olarsa, o zaman hər kəs müşrikdir. Heç bir zaman bir müvəhhid tapmaq olmaz. İnsanlardan

bir şey istəmək, onlardan yardım diləmək şirkdirsə, nəyə görə peyğəmbərlər insanlardan yardım istəyirdilər? Ağaların həqiqəti görə bilməsi üçün Quranın ayələri üzərində bir az daha düşünmələri yaxşı olar.

## ASİFİN BİLQEYİSİN TAXTINI HƏZRƏT SÜLEYMANIN YANINA GƏTİRMƏSİ

«Nəml» surəsinin 38-40-cı ayələrində Allah-təala belə buyurur:

«***Süleyman dedi: «Ey əyanlar! Onlar mənə təslim olub gəlmədən öncə, sizdən kim onun taxtını mənə gətirə bilər? Cinlərdən bir ifrit dedi: «Sən yerindən qalxmamış, onu sənə gətirərəm və şübhə yox ki, mən, əlbəttə, etibar edə biləcək bir güdə sahibəm***».

***Kitaba aid bir məlumata sahib olan dedi ki, mən göz qırpımında onu sənə gətirə bilərəm. Elə bu an (Süleyman) taxtı yanında duran vəziyyətdə gördükdə dedi: «Bu, Rəbbimin lütf və ehsanındandır…***».

Bilqeyisin o böyük və əzəmətli taxtının uzun məsafədən, bir göz qırpımından daha tez bir şəkildə gətirilməsi aciz məxluqun işi deyildir. Bu işin qeyri-adi bir şey olduğu bəllidir. Həzrət Süleyman (ə) bu işin əmələ gəlməsi üçün İlahi bir qüdrət lazım gəldiyini bildiyi halda, Allahdan taxtın gətirilməsini istəmədi. Əksinə, onu gətirmək üçün aciz bir məxluqdan yardım istədi. Bilavasitə ətrafında olanlardan o taxtın gətirilməsini istədi. Həzrət Süleymanın (ə) aciz yaranmışlardan belə bir işi istəməsi bunu göstərir ki, yaranmışlardan bir işin etməsini istəmək mütləq olaraq şirk deyildir.

Allah-təala dünyanı səbəblər dünyası olaraq yaratmışdır. Şirk qəlbə aid olan bir şeydir. İnsan birindən bir şey istədiyi zaman onu Allah, ya da Allahın şəriki olaraq görməzsə, istəyini istəməsi, əsla, şirk sayılmaz. Çünki bu təməl insanların yanında normaldır. İnsanlar davamlı şəkildə, Allahın adını çəkmədən, ondan-bundan yardım istəyirlər.

Görəsən, xəstə həkimin yanına gedib «Dərdimə bir çarə tap, bu xəstəlik məni öldürəcək» dediyi zaman müşrik olurmu?! Suda boğulan bir kəs Allahın adını

çəkmədən insanlardan yardım istədiyi zaman müşrik olurmu?! Zalım, bir nəfərə zülm edəndə, o məzlum da bir məmurun yanına gedib, «Bu zalımın əlindən məni qurtar» dediyi halda müşrik olurmu?!

Əgər oğru, birinin evinə girərək o ev sahibinin can, mal və ya namusuna zərər vermək istərsə və ev sahibi də dama çıxıb qonşularını köməyə çağıraraq, «Bizi xilas edin» deyərsə, o adam müşrik olurmu?!

Cavab birmənalı şəkildə «xeyr»dir. Ağılı olan heç bir insan onlara müşrik deməz. Əgər müşrik deyərlərsə ya cahil, ya da qərəzli insanlardır!

Möhtərəm ağalar, ifrata getməyin. Şiələr Ali-Məhəmmədə (ə) Allah deyən və ya Ali-Məhəmmədi (ə) zatidə, sifətdə və ya fellərdə Allaha şərik qoşanları müşrik bilirlər.

Şiələr çətin anlarda «Ya Əli (ə)», «Ya Hüseyn (ə)» deyirlərsə, bunun mənası «Ey Allah olan Əli», «Ey Allah olan Hüseyn» deyildir. Əksinə dünya, səbəblər dünyası olduğu və Allah-təala da işləri səbəblərlə etdiyi üçün Ali-Məhəmmədi (ə) də qurtuluş, səbəb və vəsilələri etmişdir. Onların vəsiləsiylə Allaha yönəlirlər».

**Hafiz:** «Nə üçün Allaha arxalanıb istəklərini Ondan istəmirlər? Nə üçün səbəb və vəsilələrin arxasınca gedirlər?»

**Dəvətçi:** «İstəklərimizin həyata keçməsi və dərdlərimizin aradan getməsi mövzusunda Allaha olan diqqətimiz yerindədir. Ancaq səmavi bir sənəd olan Qurani-kərim vəsiləylə Allaha yönəlməmizi və vəsiləylə Onun dərgahına getməmizi özü əmr edir. «Maidə» surəsinin 35-ci ayəsində belə buyurur:

«**Ey insanlar, Allahdan qorxub çəkinin və (sizi) Ona (yaxınlaşdıracaq) vəsilə axtarın**».

## ALİ MƏHƏMMƏD (Ə) HAQQIN FEYZ VƏSİLƏLƏRİDİR

Biz şiələr «Ali-Məhəmməd (ə) işlərimizi təkbaşına özləri həll edirlər» demirik. Əksinə, onları Allahın saleh qulları bilir və Allahın feyzinə yetişmək üçün bir vasitə olaraq qəbul edirik. Bizim onları vəsilə olaraq qəbul etməmiz Rəsulallahın (s) əmrinə görədir».

**Hafiz:** «Rəsulallah (s) harada onları vəsilə etməyi əmr etmişdir? Bu ayənin Ali-Məhəmmədə aid olduğunu haradan söyləyirsiniz?».

**Dəvətçi:** «Bir çox hədisdə Rəsulallah (s) təhlükələrdən xilas olmaq üçün Əhli-beytinə (ə) təvəssül etməyi əmr etmişdir».

**Hafiz:** «O hədislərdən yadınızda olanlardan bəzilərini söyləyə bilərsinizmi?».

**Dəvətçi:** «Vəsilədən məqsəd həzrət Peyğəmbərin (s) Əhli-beytidir (ə). Buna dəlilimiz Hafiz Əbu Nəim İsfahaninin «Nüzulul-Quran fi Əliyyin» (Əli (ə) haqqında nazil olan ayələr) adlı əsərində, Hafiz Əbubəkr Şirazi «Ma nəzələ min əl-Qurani fi Əliyyin» (Quranda Əli haqqında nazil olan) imam Əhməd Sələbi öz yazdığı təfsirdə nəql edərək deyir: «Bu ayeyi-kərimdəki[1] vəsilədən məqsəd həzrət Peyğəmbərin Əhli-beytidir. Necə ki, bu mövzuda Rəsulallahdan (s) bir çox hədislər nəql olunmuşdur».

Böyük alimlərinizdən İbn Əbil-Hədid Mötəzili «Şərhi Nəhcül-bəlağə» adlı əsərinin IV cildinin 79-cu səhifəsində həzrət Fatimənin (ə.s) xütbəsindən bu ayəyə dəlil olaraq bir cümləni göstərir. Həzrət Fatimə (ə.s) «Fədək» hadisəsində mühacir və ənsara istiqamətlənmiş bir xütbə oxumuşdur. Bu xütbənin əvvəlində həzrət Fatimə (ə.s) belə buyurur:

«***Göylərdə və yerdə nə varsa, əzəməti və nuru üçün ibadət edilən Allaha həmd edirəm. Bütün vəsilələrin hədəfi Odur və Onun insanlar arasındakı vəsiləsi bizik».***

## «SƏQƏLEYN» HƏDİSİ

Həzrət Peyğəmbərin (s) pak Əhli-beytinə (ə) təvəssül edib, onlara bağlanmağın sağlam dəlillərindən biri də, Səqəleyn hədisidir. Bu hədisi həm sünnilər, həm də şiələr səhih sənədlərlə mütəvatir olaraq nəql etmişlər. Rəsulallah (s) o hədisin bir yerində belə buyurur:

«***Əgər onlara bağlansanız, məndən sonra, əsla, azmazsınız***».

[1] «Maidə» surəsi, ayə: 35

**Hafiz:** «Bu hədisə mütəvatir və sənədi səhih deməklə, bəlkə də xəta edirsiniz. Çünki bu, alimlərimizin yanında məlum deyildir. Böyük şeyximiz sünnət və camaatın Qiblə və Kəbəsi Məhəmməd ibn İsmail Buxari Qurandan sonra ən səhih olan öz mötəbər «Səhihi-Buxari» kitabında bu hədisi nəql etməmişdir».

**Dəvətçi:** «Xəta etdiyimi düşünürsünüz. Əksinə, bu hədisin mötəbər olduğunu alimləriniz qəti şəkildə qəbul edirlər. Hətta İbn Həzər Məkki kimi çox etiraf etmişdir. Şübhənizin aradan getməsi üçün «Savaiqul-Muhriqə» kitabının II fəslinin sonunda – 89 və 90-cı səhifələrində, 11-ci babdakı 4-cü ayənin aşağısında Tirmizi, Əhməd ibn Hənbəl, Təbərani və Müslimdən hədislər nəql etdikdən sonra belə deyir: «Bil ki, Səqəleynə (Quran və Əhli-beyt (ə) bağlanmaq hədisi bir çox yollarla 20-dən çox səhabədən nəql edilmişdir».

Daha sonra belə deyir: «Bəziləri Rəsulallahın (s) bu hədisi vida Həccində – Ərafatda ikən, bəziləri Mədinədə ölüm yatağında otağı səhabələrlə dolu olduğu zaman, bəziləri Qədiri-Xumda, bəziləri də Taifdən döndükdən sonra buyurduğu mövzusunda ixtilaf etmişlər».

Daha sonra öz nəzərini belə açıqlayır: «Bu ixtilafların arasında hər hansı bir ziddiyyət yoxdur. Rəsulallahın (s) adı çəkilən bütün yerlərdə Quranın və Əhli-beytin əzəmətini isbat etmək üçün bu hədisi dəfələrlə buyurmasında bir maneə yoxdur».

## TƏƏSSÜBDƏN UZAQ OLAQ SƏADƏTƏ SƏBƏB OLUR

«Hədis «Səhihi-Buxari»də yoxdur, buna görə də zəifdir» sözünüzə gəlincə, bu söz bir çox tərəfdən rədd edilmiş və alimlərin qəbul etmədiyi bir şeydir. Əgər Buxari hədisi nəql etməmişsə, əvəzində onun tək möhtərəm bildiyiniz böyük alimlərinizin ümumisi nəql etmişdir. Hətta Buxariylə eyni səviyyədə olan Müslüm ibn Həccac və digər «Səhih» sahibləri bunu geniş surətdə nəql etmişlər. Yoxsa səhihləri və mötəbər kitablarınızı bir kənara qoyub, əqidənizi yalnız «Səhihi-Buxari»də yazılanlarla məhdudlaşdıracaqsınız?! Ya da, o biri alimlərinizin də öz zamanlarında əhli-sünnətin ən adil, ən alim və ən savadlı insanlar olduqlarını etiraf

edib, onları da qəbul edəcəksiniz. Xüsusilə də, «Səhihi-Sittə»ni yazanları. Bir hədis «Səhihi-Buxari»də bəzi səbəblərə görə nəql edilməmişsə, başqaları nəql etmişsə, o zaman onu qəbul etmək məcburiyyətindəsiz!».

**Hafiz:** «Buxarinin üstündə durmağımızın hər hansı bir məxsus səbəbi yoxdur. Buxari çox ehtiyatlı və hədis nəql etməkdə diqqətli olduğundan, sənəd və ya mətn baxımından şübhəli və ya əqlə uyğun olmayan hədisləri nəql etməmişdir».

**Dəvətçi:** «Siz əhli-sünnətin etdiyi xətalardan biri də, «bir şeyi çox sevmək insanı kor və kar edər» qaydasının əsasına görədir. Buxari haqqında ğuluv edirsiniz (yəni onu sahib olduğu məqamdan yüksəkdə görürsünüz). Çox dəqiq olduğunu və «Səhih»ində gətirdiyi hər hədisin çox mötəbər, hətta vəhy kimi olduğunu güman edirsiniz. Halbuki, güman etdiyiniz kimi deyildir. Buxarinin hədislərin sənədində gətirdiyi bir çox şəxs (ravi) rədd edilmiş, nifrət edilmiş, yalançı və uydurmaçı insanlardır».

**Hafiz:** «Əslində, sizin bu sözləriniz mərdud və mənfurdur. Siz Buxari kimi bir insanın elmi məqamını təhqir edirsiniz». (Yəni əhli-sünnət və camaatın hamısını təhqir etdiniz).

**Dəvətçi:** !Eli bir tənqid təhqirdirsə, bu halda hədisləri diqqətlə araşdırmış mötəbər «Səhih»lərdəki, xüsusilə «Səhihi-Buxari» və «Səhihi-Müslim»dəki bir çox hədisin sənədində bir çox şəxsin uydurmaçı, yalançı və mərdud olduğunu söyləyən böyük alimləriniz də, elm məqamına ihanət etmiş və mərdud insanlardır.

Hədis kitabları mövzusunda dəqiq və diqqətli olmanız yaxşı olardı. ONları oxuduğunuz zaman ğuluv edərək, «Buxari və Müslim onları nəql etmişsə, hamısı səhih və doğrudur» deməyin.

«Səhihi-sittə», xüsusilə də «Səhihi-Müslim» və Buxariyə ğuluv gözüylə baxan siz və digər alimlər öncə onlardakı hədisləri araşdırıb, səhihlərlə səhih olmayanları bildirən kitablara baxsanız, yaxşı olardı. Bununla da, Buxarinin əzəmətinin, hədis nəql etməkdəki diqqətinin nə dərəcədə olduğunu görərdiniz.

Əgər Syutinin «əl-Ləalil-məsnuə fi əhadisil-Mövzuə» əsərinə, Zəhəbinin «Mizanul-Etidal» və «Təlxisul-Müstədrək» adlı kitablarına, İbn Covzinin «Təzkirətul-movzuat»ına, Əbubəkr Əhməd ibn Əli Xətib Bağdadinin yazdığı

«Tarixi-Bağdadi»yə və qısaca «Rical» mövzusunda böyük alimlərinizin yazdıqları kitablara baxsanız, məni günahlandırmaz və «Buxarini təhqir etdiniz» deməzsiniz.

## BUXARİ VƏ MÜSLİM UYDURMAÇI VƏ YALANÇILARDAN HƏDİS NƏQL ETMİŞLƏR

Mən nə söylədim ki, bu qədər qəzəbləndiniz? Sadəcə «Səhihlər, hətta «Səhihi-Müslim» və «Səhihi-Buxari»də yalançılardan hədislər nəql edilmişdir» dedi.

«Səhihi-Buxari»dəki hədisləri «Rical» kitablarına nəzər yetirib diqqətlə araşdırsanız, bir çox yalançı və uydurmaçı insanlardan hədislər nəql etmiş olduqlarını görərsiniz. Məsələn, çox yalançı Əbu Hüreyrə, xaricilərdən olan Əkrəmə Məhəmməd ibn Əbd Səmərqəndi, Məhəmməd ibn Bəyan, İbrahim ibn Məhdi Əbəlli, Bənus ibn Əhməd Vasidi, Məhəmməd ibn Xalid Həbli, Əhməd ibn Məhəmməd Yəmani, Əbdullah ibn Vaqid Hərrani, Əbu Davud Süleyman ibn Əmr Kəzzab və İmran ibn Xəttan kimi bir çoxları mərdud ravilərdən hədis nəql etmişlər. Onların hamısının adlarını saymağa nə məclisin vaxtı çatar, nə də mənim hafizəmin imkanı var. Rical kitablarına baxsanız, söylədiyim həqiqəti daha yaxşı anlayarsınız.

Buxari sizin güman etdiyiniz kimi o qədər çox ehtiyatlı və diqqətli bir şəxs də deyildi. O, ravilərin sadəcə xarici görüşünə baxırdı. Sizin sözünüzlə yaxşı bir şəxs idi, görünüşü yaxşı olan hər kəsdən hədis nəql etmişdir. Bu iddiamızı rical kitabları yaxan alimləriniz də təsdiq edirlər.

Onların bəzilərinin adlarını əvvəldə söylədim. Bu alimlər uydurma hədisləri müəyyən etmiş, Müslim və Buxarinin hədis nəql etdiyi raviləri diqqətlə araşdırmışlar. Onlar bu işi, bu gün bizlər və sizlər də bunlardan xəbərdar olsunlar deyə etmişlər. Diqqətli, dəqiq və ehtiyatlı bir alimin, etimad edilməyən yalançı və uydurmaçı ravilərdən gülünc hədislər nəql edərək, elm əhlinin rüsvay etməsinə səbəb olmaq, dəqiq bir alimdən heç gözlənilə bilərmi?

Kəlimullah həzrət Musanın (ə) Əzrayıla bir zərbə vurub, onu kor etməsi, ayaqyalın və övrəti açıq halda bəni-İsrailin qarşısına çıxması (bunları əvvəlcədən söyləmişdim) görəsən xurafat və uydurma deyilmi?!

Görəsən, Allahın Qiyamətdə ayağı yaralı şəkildə ayağını göstərməsi küfr deyilmi?! Buxari bunları «Shih»ində nəql etmiş və biz də, əvvəldə onlardan bəzilərini bildirmişdik.

## SƏHİHİ-MÜSLİM VƏ SƏHİHİ-BUXARİDƏKİ RƏSULALLAHA (S) XƏYANƏT SAYILAN GÜLÜNC HƏDİSLƏR

«Səhihi-Buxari»nin II cildinin 120-ci səhifəsində, «Əl-Ləhvu bil-hirab» babında və «Səhihi-Müslim»in I cildinin «Ər-Ruxsətu fil-Labilləzi La Məsiyətə fi Əyyamil-İyd» babında Əbu Hüreyrədən bu hədisi nəql edirlər:

«Bir bayram günü, bir qrup Sudanlı zənci Rəsulallahın (s) məscidində toplaşaraq, əyləncə alətləriylə milləti əyləndirirdi. Rəsuli-əkrəm (s) Aişədən «Sən də baxmaq istəyərsənmi?» - deyə soruşdu. Aişə də «Bəli, ya Rəsulallah (s)» - deyə cavab verdi. Bundan sonra Rəsulallah (s) onu kürəyinə aldı. Aişə başını Rəsulallahın (s) çiynindən uzadıb, üzünü onun mübarək üzünə qoydu. Rəsulallah (s) Aişənin daha çox ləzzət alması üçün onları daha yaxşı oynamağa təşviq edirdi. Aişəni yoruluncaya qədər kürəyində saxladı. Aişə yorulduqdan sonra onu yerə endirdi».

Allah xatirinə deyin, əgər belə bir şeyi, sizlər haqqında söyləsələr, əsəbiləşməzsiniz? Bunu özünüzə təhqir biləzsiniz?

Əgər bir adam desə ki, dünən axşam Hafiz ağanın evinin arxasında bir qrup insan oyun oynayıb, əl çalıb əylənirdi; böyük alim Hafiz də xanımını kürəyinə alaraq, onları seyr edirdi. Hətta möhtərəm Hafiz xanımının daha çox ləzzət alması üçün onları daha yaxşı oynamağa təşviq edirdi. Hafiz ağa, Allah eşqinə deyin, bu sözləri eşitdiyiniz zaman utanıb, həyat etmisiniz? Əgər belə bir sözü xarici görünüşü gözəl olan bir kəsdən eşitmiş olsam, onu nəql etməyim doğru olarmı?

Əgər nəql etsəm, ağıllı insanlar mənə deməzlərmi ki, cahil bir adam bir söz söylədi. Bəs sizin ağılınız vardısa, niyə nəql etdiniz?

Buxarinin nəql etdiyi hədislər haqqında artıq özünüz hökm verin. Əgər o, hədis mövzusunda, həqiqətən, dəqiq və diqqətli idisə, fərz edin belə bir hədisin söyləndiyini eşitmişdi. Lakin bu hədisi nəql etməsi ona yaraşarmı? Sonra da sizlər durub deyirsiniz ki, Qurandan sonra ən səhih kitab «səhihi-Buxari»dir!

Buxari, Rəsulallahın (s) özündən sonra Qurana və pak Əhli-beytə (ə) bağlanmağı əmr etdiyi Səqəleyn hədisini, Əhli-beytin (ə) adı o hədisdə deyildiyinə görə onu nəql etməmişdir. Amma uydurma, yalan hədislər üçün (onların hamısını vaxtın məhdud olduğuna görə, deyə bilmirəm) kitablarında xüsusi bablar ayıraraq, nəql etmişdir!

Bəli, bir baxımdan sözünüzü təsdiq edirəm ki, Buxari əhli-sünnət alimlərinin içində çox ehtiyatlı idi. Bu mənaya ki, o, həzrət Əli (ə) və Əhli-beytin (ə) vilayət məqamını isbatlayan bir hədis gördükdə, ehtiyat edərək, onu nəql etməmişdir. Çünki bu hədislər savadlı və alim insanların əlinə keçdikdə, haqq və həqiqətin ortaya çıxacağını bilirdi. Səhihləri «Səhihi-Buxari» ilə müqayisə etdikdə, bir hədis mütəvatir belə olsa, Quran ayələriylə təyid belə edilsə, Buxarinin onu nəql etmədiyini görəcəyik.

Məsələn, «Maidə» surəsinin 67-ci ayəsi – «***Ey Peyğəmbər, Rəbbindən sənə nazil olanı təbliğ et…***», 55-ci ayəsi – «***Sizin vəliniz, sahibiniz ancaq Allah, Onun Rəsulu, namaz qılan və rüku edərkən zəkat verən möminlərdir***» və «Şuəra» surəsinin 214-cü ayəsi – «***Və ən yaxınlarını qorxut***» kimi ayələrin nazil olması səbəbləri haqqındakı bir çox hədisi, əsələn «Qədiri-Xum», «Yovmid-Dar» (İnzar), «Muvaxad», «Səfinə» və «Babul-Hitdə» hədisləri kimi vilayət məqamı və Əhli-beytin (ə) ucalığını isbat edən digər hədisləri ehtiyat edib nəql etməmişdir. Amma Nəbilərin, xüsusilə Xatəmul-ənbiya həzrət Məhəmməd (s) və onun pak Əhli-beytinin (ə) uca məqamına xəyanət sayılan hər hədisi (hansı yalançı və uydurmaçıdan olmasına baxmayaraq) ehtiyat etmədən nəql etmişdir. ONların bəzilərini əvvəlcədən bildirdim.

## «SƏQƏLEYN» HƏDİSİNİN SƏNƏDLƏRİ

İndi də, «Səqəleyn hədisini nəql edən mötəbər hədis kitablarınızdan bəzilərini deyəcəyəm. Beləcə, Buxaridən başqa, digər böyük və etibarlı alimlərinizin, hətta Buxariylə (sizə görə doğruluqda) bərabər olan Müslim ibn Həccacın belə Səqəleyn hədisini nəql etmiş olduqlarının şahidi olacaqsınız. O kitablardan bəziləri bunlardır: «Səhihi-Müslüm» cild: 7, səh:122, «Səhihi-Əbu Davud», «Sünəni-Tirmizi», cild: 2, səh:307, «Xasaisi-Nəsai», səh: 30, «Müsnədi-Əhməd ibn Hənbəl», cild: 3, səh: 14 və 17, cild:4, səh:26 və 59, cild: 5, səh: 182 və 189, «Müstədrəki-Hakim» cild: 3, səh:109 və 148, «Hilayətul-övliya» (Hafiz Əbu Nəim İsfahani) cild: 1, səh:355, «Təzkirə» (Səbt ibn Covzi) səh: 182 «Usdul-ğabə» (İbn Əsir Cəzri), cild: 2, səh:12 və cild: 3, səh: 147, «Əl-Cəmu bəynəs-Səhihəyn» (Həmidi), «Cəmun beynəs-Sihahis-sittə» (Rəzin), «Kəbiri Təbərani», «Təlxisul-Müstədrək» (Zəhəbi), «İqdul-Fərid» (İbn Əbdurəbbih), «Mətalibus-suul» (Məhəmməd ibn Təlhə Şafei), «Mənaqibi-Xətib Xarəzmi», «Yənabiul-məvəddət» (Süleyman Bəlxi Hənəfi) 4-ci bab, «Məvəddətul-qurba» (Mir Seyid Əli Həmədani İkinci Məvəddətdə), «Şərhi-Nəhcil-Bəlağa» (İbn Əbil-Hədid), «Nurul-absar» (Şəblənci) səh: 99, «Fusulul-muhimmə» (Nuruddin ibn Səbba Maliki) səh: 25, «Fəraidus-simteyn» (Həmuyini), «Təfsiri-Kəşful-bəyan» (İmam Sələbi), «Mənaqibi-Səmani» və İbn Məqazəli Şafei, «Kifayətut-talib» (Məhəmməd ibn Yusif Gənci Şafei) I babda, Qədiri-Xum xütbəsinin səhih olduğunu bəyan edərkən və bab: 62, səh: 130-da nəql etmişdir. «Təbəğat» (Məhəmməd ibn Sədi Katib) cild: 4, səh: 8, Təfsiri-Fəxri Razi, cild: 3, səh: 18-də «Etisam ayəsi»ni təfsir edərkən, Təfsiri-İbn Kəsir Dəməşqi, cild:4, səh: 113 «Məvəddət ayəsi»ni təfsir edərkən, İqdul-Fərid (İbn Əbdürəbbih) cild: 2, səh: 158 və 346, Şərhi-Nəhcül-bəlağə» (İbn Əbil-Hədid) cild: 6, səh: 130, Yənabiul-Məvəddət (Süleyman Hənəfi) müxtəlif təbirlərlə səh: 18, 25, 29, 30, 31, 32, 34, 95, 115, 126, 199 və 230, Səvaiq (İbn Həcər Məkki) müxtəlif təbirlərlə səh: 75, 87, 90, 99 və 136-da və digər bir çox böyük alimləriniz az bir fərqlə, (şiə və sünnilərin nəql edilən təvatür həddinə yetişən) bu şərafətli hədisi Rəsulallahdan (s) nəql etmişlər:

«***Şübhəsiz ki, mən sizin aranızda iki dəyərli əmanət qoydum; Allahın kitabı və itrətim olan Əhli-beytimi. Bu ikisi də Hovuzun başında mənə yetişənə qədər, əsla, bir-birlərindən ayrılmazlar. Kim onların ikisinə də bağlanarsa, şübhəsiz, xilas olar və kim üz çevirərsə, həlak olar. Onlara bağlı olduğunuz müddətdə, əsla azmazsınız***».

Bu bizim güclü dəlilimizdir; Rəsulallahın (s) əmriylə Qurani-kərim və Əhli-beytə (ə) bağlanmaq və onlara təvəssül etmək məcburiyyətindəyik.

**Şeyx:** «Bu hədisi Saleh ibn Musa ibn Əbdullah ibn İshaq ibn Təlhə ibn Əbdullah Qureşi Teymi ət-Təlhi öz sənədiylə Əbu Hüreyrədən belə nəql edir:

«***Şübhəsiz ki, mən aranızda iki şey qoyuram: Allahın kitabı və sünnəti***».

**Dəvətçi:** «Yenə birtərəfli olaraq zəif, saleh olmayan və cərhi-tədil sahibləri (Zəhəbi, Yəhya, imam Nəsai, Buxari, İbn Ədiy və b.) tərəfindən rədd edilmiş bir kimsədən hədis nəql edərək, məclisin vaxtını aldınız. Mənim ağam, böyük alimlərinizdən nəql edilən bu qədər səhih və mötəbər hədis sizi qane etmədimi ki, bütün bu səhih hədisləri bir kənara qoyub, alimlərinizin də qəbul etmədiyi zəif hədislərdən yapışdınız? Halbuki həm sünni, həm də şiə alimləri Rəsuli-əkrəmin (s) «***Allahın kitabı və itrətim***» - deyə buyurduğu sözündə ittifaq etmişlər. Çünki kitab və sünnətin bir şərhçiyə ehtiyacları vardır. Onların bəyan edilməsi lazım gəlir. Sünnətin özünün açıqlanmağa ehtiyacı olduğu halda, necə ola bilər ki, quranı açıqlasın?! Demək ki, itrət – Əhli-beyt (ə) Quranın bərabəridir; həm Quranın açıqlayıcısı və həm də, sünnəti aşkar edəndir.

## SƏFİNƏ HƏDİSİ

Rəsulallahın (s) Əhli-beytinə (ə) bağlanmağın dəlillərindən digəri mötəbər «Səfinə hədisi»dir. Bu hədisi bir çox böyük alimləriniz təqribən təvatür həddində nəql etmişdilər. Bu an yadımda olan 100-dən çox böyük alimləriniz öz mötəbər kitablarında bu hədisi nəql etmişlər. Müslim ibn Həccac «Səhih»də, ima Əhməd ibn Hənbəl «Müsnəd»də, Hafiz Əbu Nəim İsfahani «Hilyə»də, İbn Əbdulbir «İstiab»da, Əbubəkr Xətib Bağdadi «Tarixi-Bağdad»da, Məhəmməd ibn Təlhə

Şafei «Mətalibus-süul»da, İbn Əsir «Nihayə»də, Səbt ibn Covzi «Təzkirə»də, İbn Səbbağ Maliki «Fusulul-Muhimmə»də, Əllamə Nuruddin Məhudi «Tarixul-Mədinə»də, Seyid Mömin Şəblənci «Nurul-əbsar»da, ima Fəxri Razi «Təfsiri-Məfatihil-qeyb»də, Cəlaluddin Süyyiti «Dürrül-mənsur»da, İmam Sələbi «Təfsiri-Kəşfil-bəyan»da, Tabərani «Ovsət»də və Hakim «Müstədrək»in 3-cü cildinin 151-ci səhifəsində sözügedən hədisi nəql etmişlər. Eləcə də Süleyman Bəlxi Hnəfi «Yənabiul-məvəddə»nin IV babında, Mir Seyid Əli Həmədani «Məvəddətül-qurba»nın II əvəddəsində, İbn Həcər Məkki «Səvaiq»də 8-ci ayənin şərhində, Təbəri «Təfsir» və «Tarix» kitablarında Məhəməd ibn Yusif Gənci «Kifayətut-talib» in 100-cü babının 233-cü səhifəsində və digər bir çox böyük alimləriniz Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər:

«***Şübhəsiz ki, Əhli-beytimin sizin aranızdakı məsəli, Nuhun gəmisinin məsəli kimidir. Kim ona minmişsə qurtulmuşdur, kim ondan uzaqlaşarsa, həlak olar***».

İmam Məhəmməd ibn İdris Şafei də yazdığı bir şerində bu hədisin səhih olduğunu bəyan etmişdir. Əllamə Fazil Əcili də bu şeri «Zəxirətul-məal»da nəql etmişdir:

«İnsanların azğınlıq dəryasında qərq olduqlarını gördükdə, «Bismillah» deyərək, qurtuluş gəmiləri olan Əhli-beytə sarıldım. Allahın ipi olan Əhli-beytin dostluğuna, əmr olunduğumuz üçün yapışdıq. Hədislər bəyan etdiyi kimi, din yetmiş üç firqəyə bölündüyündə, onlardan sadəcə biri haqq idi. Söylə mənə ey ağıl və elm sahibi! Görəsən, Ali-Məhəmməd batil firqələrin içindədirmi? Yoxsa qurtuluşa yetişən firqənin içindədir? Əgər «qurtuluşa yetişən firqənin içindədir» deyirsənsə, sözümüz birdir. Yox, əgər «batil firqənin içindədir» deyirsənsə, düz yoldan münhərifsən. Bil ki, o cəlalətli ailə qətən haqda, haqq ilə və düz yol olan yoldadırlar. Mən də onlara razı oldum və öz razılığım ilə onların yolunu qəbul etdim. Allah onların kölgəsini üzərimdən əksik etməsin və həmişəlik qərar versin. Mən Əli və övladlarının imamətinə razı oldum. Sən də həqiqətin ortaya çıxacağı günə qədər batil firqələrdə baqi qalanlarla ol!».

Əgər əhli-sünnət camaatının rəhbərlərindən biri olan imam Şafeinin bu aydın şerinə diqqət etsəniz görəcəksiniz ki, Əhli-beyt (ə) gəmisinə minmək və onlara bağlanmaq qurtuluşun səbəblərindən olduğunu aşkar iqrar edir. Çünki 73 firqəyə bölünən ümmətdən yalnız Ali-Məhəmmədə (ə) bağlananların firqəsi nicat tapacaq. Demək ki, şiələr Rəsulallahın (s) əmrinə təslim olaraq, Əhli-beytə (ə) təvəssül edib, Allaha yönəlirlər.

Ağlıma daha bir şey gəldi. Deyirsiniz ki, insanın vasitə və vəsiləyə ehtiyacı yoxdur. Vəsiləylə Allaha yalvarıb yardım istəmək, yanlış bir iş hesab olunur, sizə görə bu cür insanlar müşrik olur. Əgər dediyiniz kimidirsə, nə üçün Ömər ibn Xəttab ehtiyac duyduğu vaxtlarda və zəruri hallarda vasitəylə Allaha yönəlib yardım istəyirdi?».

**Hafiz:** «Xəlifə Ömər (r.z) heç bir zaman vasitəylə bir əməl etməmişdir! İlk dəfə olaraq sizdən belə bir şey eşidirəm. Xahiş edirəm, belə bir şey varsa, açıqlayın, biz də bilək».

**Dəvətçi:** «Xəlifə ehtiyac duyduqda Əhli-beyti (ə) vəsilə edib, onların səbəbiylə Allaha yönələrək, ehtiyaclarını ödəyirdi. Məclisimizin vaxtını nəzərə alaraq, sadəcə olaraq iki hadisəni deyə bilərəm:

1. İbn Həcər Məkki «Səvaiq»də, 14-cü ayədən sonra «Tarixi-Dəməşq» kitabından belə nəql edir: «Hicri 17-ci ildə camaat dəfələrlə yağış duası üçün çölə çıxmışdı. Amma duaları qəbul olmamışdı. Hamı pərişan olmuşdu. Ömər ibn Xəttab belə dedi: «Sabah elə bir şəxsin vasitəsiylə yağış istəyəcəyəm ki, Allah onun vasitəsiylə bizə yağış yağdıracaq». Səhəri gün Ömər Rəsulallahın (s) əmisi Abbasın yanına gedərək «Bizimlə bərabər gəl, sənin xatirinə Allahdan yağış istəyək» dedi.

Cənab Abbas belə buyurdu: «Bir az otur, vəsiləni hazırlayım». Sonra birini bəni-haşimə xəbər verməsi üçün yolladı, özü də təmiz paltar geyinib xoş ətir vurdu. Daha sonra həzrət Əli qabaqda, imam Həsən sağında, ima Hüseyn və bəni-Haşi də arxalarında olmaqla çölə çıxaraq, beləcə müsəllaya getdilər. Sonra Abbas Ömərə tərəf baxaraq, belə buyurdu: «Ey Ömər! Heç kimi bizimlə qarışdırma».

Cənab Abbas əllərini göyə qaldıraraq, belə münacat etməyə başladı: «Rəbbimiz, sən bizi yaratdın və edəcəyimiz hər şeyi bilirdin. Allahım, əvvəldə bizə lütf etdiyin kimi, sonda da bizə lütf et».

Cabir deyir: «Hələ dua bitməmişdi ki, buludlar hərəkət etməyə və yağış yağmağa başladı və evlərimizə çatmamışdıq ki, yağış bizi islatdı».

Buxari belə nəql edir: «Qıtlıq zamanında Ömər ibn Xəttab Abbaş ibn Əbdülmüttəlibi vəsilə edərək Allahdan yağış yağdırmasını istəyirdi. O, belə dua edirdi: «Allahım! Peyğəmbərimizin əmisini vəsilə edərək səndən yağış istəyirik». Sonra yağış yağmağa başladı».

2. İbn Əbil-Hədid Mötəzili «Nəhcül-bəlağənin şərhi» kitabında (cild: 2 səh: 256, Misir çapı) belə nəql edir: «Xəlifə Ömər Rəsulallahın (s) əmisi həzrət Abbasla bərabər Allahdan yağış istəmək üçün çölə getdi. Xəlifə Ömər yağış istəmək üçün olan yerə gəlib yetişdikdə, belə ərzi etdi: «Allahım, şübhəsiz ki, biz Peyğəmbərin əmisini və onun atalarının yadigarı və bəni-Haşimin böyüklərini vasitə edərək, Sənə yönəldik. Peyğəmbərinin məqamını onun əmisində hifz et. Çünki o, əzəmətli dərgahından şəfaət və məğfirət diləmək üçün bizi Sənə yönəltməkdə rəhbərlik etdi».

Sünnü ağaların hekayəsi və xəlifə Ömərin təqibçilərinin halı aşdan daha isti bir qab kimi çox məşhur bir sözə bənzəyir. Onların vəziyyəti Ömərin halıyla tutuşmur. Çünki xəlifə Ömər zəruri və ehtiyac duyduğu hallarda Peyğəmbərin (s) Əhli-beytini (ə) şəfaətçi edərək, Allahdan hacətini tələb edərdi. Amma biz şiələr o pak Əhli-beyti (ə) şəfaətçi qərar verib, onların vəsiləsi ilə Allahdan bir şey istədikdə, bizə etiraz edərək, bizləri ya kafir edirlər, ya da müşrik!

Ali-Məhəmmədi (s) Allaha şəfaətçi (vasitəçi) etmək şirkdirsə, o zaman öz alimlərinizin rəvayətlərinə görə ilk müşrik xəlifə Ömər ibn Xəttabdır. Yox, əgər xəlifənin əməli şirk deyilsə, ən gözəl əməllərdəndirsə (çünki xəlifə bu əməli etmişdir), o zaman şiələrin əməlləri və onların Ali-Məhəmmədi (ə) vəsilə etmələri də, heç vaxt şirk sayılmayacaqdır.

Belə isə ağaların, Allahın qəzəbinə gəlməmələri üçün (şiələrə iftira etdiklərinə görə) sözlərindən dönərək, Allahdan məğfirət istəmələri lazım gəlir.

Əgər xəlifə Ömər səhabələrin irəlidə gedənlərindən olmasına baxmayaraq, həzrət Peyğəmbərin (s) Əhli-beytini (ə) özünə vəsilə etmədən duaları qəbul olmursa, o zaman vasitəsiz olaraq bizim dualarımızın qəbul olmasını necə deyə bilərsiniz?!

Deməк ki, Ali-Məhəmməd (ə) Peyğəmbəri-əkrəmin (s) zamanından günümüzə qədər bütün zamanlarda bəndələr üçün Allaha yönəlməkdə bir vasitə idilər. Biz də, onlar tərəfdən Allahdan iznsiz hacətlərin qəbul edildiyinə inanmırıq. Əksinə, onları saleh bəndələr, haqq İmalar (ə) və Allahın dərgahına yaxın olaraq görürük. Bu səbəbdən, Onları Allah-təalayla öz aramızda vasitə edirik.

Bu nəzərimizə ən böyük dəlilimiz, dua kitablarımızdır. Məsum İmamlardan (ə) nəql olan bu dualar əvvəldə bildirdiyim şeyin xaricində bizə əmr edilməmişdir. Biz də, bunların xaricində əməl etmirik və etməyəcəyik də!».

**Hafiz:** «Eşitdiklərinizi qoyul bir kənara, gördüklərinizi söyləyin! Görəsən, şiənin böyük alimlərinin hansı mötəbər dua kitablarını gördünüz və ya oxudunuz?».

**Hafiz:** «Əlimiz çatan yerdə deyillər».

**Dəvətçi:** «Bu kimi kitabları oxumadan yersiz iddialar etməyiniz, doğru bir şey deyildir. Bu anda yanımda iki dənə dua və ziyarət kitabı vardır. Biri «Zədul-məad»dır ki, Əllamə Məclisi (r.a) onu yazmışdır, digəri «Hədiyətuz-zairin»dir ki, fazil mühəddis Hacı Şeyx Abbas Qummi yazmışdır. Onları oxuya bilərsiniz»[1]

Bu iki kitabı alıb oxuduqda, təvəssülə aid dualarda Əhli-beytin (ə) vasitə və vəsilə edildiyini gördülər. Sonra Seyid Əbdülhəyy Əllamə Məclisinin, Məhəmməd ibn Babeveyhdən, o da məsum İmamlardan (ə) nəql etdiyi «Təvəssül duası» məclisdəkilər üçün oxudu:

---

[1] Şeyx Abbas Qummi h.q. 1359 zil-hiccə ayının 23-də Allahın tükənməz rəhmətinə qovuşdu. Həcəfi-əşrəfin qiblə tərəfdə olan qapısının sağ tərəfində dəfn olunub. Allah rəhmət eləsin.

# TƏVƏSSÜL DUASI

***Əllahummə inni əsəlukə və ətəvəccəhu ileykə ibnəbiyyuikə nəbiyyir-rəhməti Məhəmmədin səlləllahu əleyhi və alihi, ya Əbəl-Qasim, ya Rəsulallah, ya İmamər-rəhmət, ya seyyidəna və movlana, inna təvəccəhna vətişəfəna və təvəssəlna bikə iləllah, və qaddəmnakə beynə yədəyh hacatina, ya vəcihən indəllah işfə ləna indəllah.***

***Ya Əbəl-Həsən, ya Əmirəl-möminin, ya Əliyyəbnə Əbi Taliibn, ya huccətəllahi əla xəlqih, ya səyyidəna və movlana, inna təvəccəhna vəstəşfəna və təvəssəlna bikə iləllah və qəddəmnakə beynə yədəyh hacatina, ya vəcihən inədəllah işfələna indəllah…***».

Bu mənada ki, həzrət Əliyə (ə) daha sonra Onun (ə) on bir məsum (ə) övladına xitab edir. Ancaq onlara xitab edilərkən, «Ey Allahın yaradılmışlar üçün olan höccəti» - deyə bir-bir onların adlarını deyərək, təvəssül edirlər. Sonda onların hamısına təvəssül edilərək, «Sizin vəsilənizlə Allahdan şəfaət istəyirik və deyirik ki, sizlər Allahın yanında etibarı olan insanlarsınız, Allahın yanandı mənim heç etibarım olmadığına görə şəfaət edin…» - deyilir. Duanın axırında Peyğəmbər (s) ailəsini müxtəb tutaraq belə oxuyuruq:

«***Ya Sadati və məvaliyyə inni təvəccəhtu bikum əimməti və uddəti li yovmi fəqri və hacəti iləllah və təvəssəltu bikum iləllah vəstəşfətu bikum iləllah fəşfəu li indəllah vəstənquzuni min zunubi indəllah. Fəinnəkum vəsiyləti iləllah və bihubbikum və biqurbikum ərcu nəcatən minəllah. Fəkunu indəllah rəcan. Ya Sadati! Ya Ovliyaəllah!***

(Seyid Əbdülhəyy duanı oxuyarkən, məclisdəki möhtərəm ədəbiyyat əhli olanlar ardıcıl olaraq, «La ilaha illallah, subanəllah! Bu məsələni necə də bizə yanlış bildirmişlər» deyib, əllərini əllərinin üstünə vururdular. Bu aradan mən müdaxilə edərək, belə dedim:)

İnsafla söyləyin, bu duanın harasında şirk vardır? Görəsən, duanın hər yerində Allah-təalanın mübarək adı yoxdurmu? Harada onları Allaha şirk qoşduq? Nə üçün bizə iftira edirsiniz? Nə üçün muvəhhid müsəlanalara azğın və müşrik deyirsiniz?

Nə üçün müsəlmanların arasında düşmənçilik toxumları səpirsiniz? Məsələni bir-birinə qarışdıraraq, həqiqətdən xəbəri olmayan insanların din qardaşlarına qarşı kafir gözüylə baxmasına səbəb olursunuz?

Bir çox təəssübkeş və həqiqətdən xəbərsiz insan var ki, zavallı şiələrə «kafi» deyərək öldürür, özlərini «kafir öldürdük» deyə Cənnət əhli güman edirlər. Bunun günahı siz alimlərin boynundadır!

Görəsən, indiyə qədər bir şiənin, bir nəfər belə olsa, sünnini öldürdüyünü eşitdinizmi? Bizim alimlərimiz heç vaxt belə zəhərli şeyləri xalqın arasına salmamışlar. Onlar şiə və sünnilərin arasına düşmənçilik toxumları əkməzlər. Bizim alimlərimiz insanı qətl etməyi böyük günahlardan sayırlar.

Sünni və şiə arasındakı ixtilafları elm və məntiqlə xalqa anlatdığımız zaman bunu da deyirik ki, sünnilər bizim müsəlman qardaşlarımızdır, onlara qarşı düşmənçilik etməyin, kin bəsləməyin. Əksinə, onlarla qardaşcasına bərabər olmalıyıq və «La ilahə illallah» bayrağını ucaltmalıyıq.

Lakin təəssübkeş sünni alimlərinizə bir baxın. Əbu Hənifə, Malik ibn Ənəs, Məhəmməd ibn İdris və Əhməd ibn Hənbəlin üsul və füruda o qədər çox ixtilafları olmasına baxmayaraq, bu dörd məzhəb imamının arxasınca gedənlərə qardaş göyüzlə baxır və onlar hər yerdə sərbəst şəkildə öz inanclarına əməl edirlər. Amma Peyğəmbərin (s) Əhli-beytindən (ə) olan Əli (ə) ibn Əbu Talib və Cəfər (ə) ibn Məhəmmədin (ə) davamçılarını müşrik, kafir və azğın adlandırırlar. Beləcə, şiələrin mal və canlarını, sünnilərin yaşadığı bölgələrdə təhlükəyə salırlar. Necə də şiənin elm və təqva əhli olan bir çox insanları sünni alimlərinin fitvasıyla şəhid etmişlər. Amma şiə alimləri tərəfindən belə bir şey gerçəkləşmədiyi kimi, alim olmayanlar tərəfindən də təsadüf olunmamışdır. Şiələrin istər alimləri olsun, istərsə də ali camaatı, sünnilərə qarşı heç bir zaman bu şəkildə davranmamışlar. Sizin alimləriniz ümumilikdə şiələrə lənət deyirlər. Amma şiə alimlərinin kitablarının heç birində sünnilərə lənət dedikləri görülməmişdir».

**Hafiz:** «Haqsızlıq edirsiniz. Hansı şiə alimini sünni alimlərinin fitvasıyla öldürüblər? Nə üçün hisslərinizə qapılırsınız? Hansı alimimiz şiələrə lənət oxuyur?».

**Dəvətçi:** «Alimlərinizin və alim olmayanlarınızın (avamın) etdiklərini söyləməyə dursam, bu bir məclisdə qurtarmaz. Bunun üçün aylarla oturub danışmağımız lazım gəlir. Mən iddiamı isbatlamağım üçün sadəcə tarixdə yazılmış olanlardan bəzilərinə, hisslərimə qapılmaq istəmədiyimi bilməyiniz və söylədiklərimin bir həqiqət olduğunu öyrənməyiniz üçün deyəcəyəm.

Əgər siz təəssübkeş böyük alimlərinizin kitablarına diqqətlə baxmalı olsanız, necə lənət oxuduqlarını görərsiniz. Məsələn, imam Fəxri Razi yazdığı təfsirdə harada əlinə fürsət keçmişsə şiələrə lənət oxumuşdur. Məsələn, «Vilayət ayəsi», «İkmal ayəsi» və başqa ayələri təfsir edərkən, ardıcıl olaraq «və əmma ər-rafizətu lənəhhumullah…» (Rafizilərə gəlincə, Allah onlara lənət etsin…), «Haulair-rəfzətu lənahumullah…» (ONlar rafizilər, Allah onlara lənət etsin...), «Əmma qovlur-rəfaviz lənəhumullah…» (Rafizlərin sözlərinə gəlincə, Allah onlara lənət etsin…) deyə, lənət etmişdir. Amma heç bir şiə alimlərinin qələmi əhli-sünnət qardaşların nə alimlərinə, nə də onların ümuminə qarşı, əsla, belə bir şey yazmamışdır.

## ŞƏHİDİ-ƏVVƏLİN[1] BÜRHANUDDİN MALİKİ VƏ İBN CAMAATIN FİTVASIYLA ŞƏHİD EDİLMƏSİ

Sünni alimlərin şiə alimlərinin elm və əməl iftixarlarına qarşı etdikləri pis əməllərdən biri, Şamın iki böyük şəri hakimi olan Burhanuddin Maliki və İbad ibn əlm-Camaat əş-Şafeinin fitvalarıdır. Bu iki qazı şiənin böyük fəqihlərindən və elm, təqva və zöhdlə öz zamanının qabaqcıllarından olan Əbu Əbdullah Məhəmməd ibn Cəmaluddin Məkki Amilinin (Şəhidi-əvvəl) qətl edilməsi üçün fitva vermişlər.

Bu böyük fəqihin 7 günə yazdığı «Dümə» adlı əsəri (yanında «Müxtəsəri-nafi» adlı kitabından başqa, heç bir fiqhi kitab olmadan yazmışdır) onun fiqh elmindəki gücünü və geniş elmini göstərir. Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəbinin alimləri onun elmindən çox faydalanmışlar.

Sünnilərin ardıcıl təzyiqləri üzündən təqiyyə edib şiəliyini bildirməməsinə baxmayaraq, Şamın böyük qazısı İbad ibn əl-Camaat bu rəbbani-alimə həsəd

[1] Birinci şəhid.

apararaq, onu rafizi və şiəlikdə günahlandıraraq, Şam valisinə (Beydəmirə) şikayət edib, zindana atdırdı. Zindanda bir il işgəncəyə məruz qaldıqdan sonra hicri 786-cı ilin cəmadiul-əvvəl ayının 9 və ya 19-cu günündə o iki sünni qazısının (İbnul-Camaat və Burhanuddinin) fitvasıyla, əvvəlcə qılıncla öldürüb, sonra bədənini dar ağacına asdılar. Sonra onların təhrikiylə avam xalq, «müşrik və rafizi»dir deyə, onun dar ağacından asılmış cəsədini daş-qalaq etdi. Daha sonra cəsədini dar ağacından endirib, yandıraraq, külünü havaya sovurmuşlar[1].

---

[1] Qarşılaşdığım bir hadisə tarixi vaqiələri mənə sübut etmişdir:
H.1371-ci ildə cəmadüs-sani ayının 19-da Beytül-müqəddəsdəki Məscidül-Əqsanı ziyarət etdikdən sonra Şama daxil olurdum. İlk gecə namaz qılmaq üçün Ordunun (İordan) şərqində yerləşən Ommanın böyük məscidinə (ki, çox gözəl bir məscid idi) getdim. Sünni olan bu müsəlmanların bəziləri axşam namazından qayıdır, bəziləri də sünnətlə məşğul idilər. Mən də məscidin bir küncündə məğrib və işa namazını qılmağa başladım. Vacibləri və sünnətləri qıldıqdan sonra bəzillərinin qəzəbli bir şəkildə mənə baxdıqlarını gördüm. Xüsusilə də, bir neçə nəfərlə Quran qiraəti ilə məşğul olan bir alim mənim vəziyyətimə baxırdı. Təqibatı (zikr və duaları) da bitirdikdən sonra məsciddən çıxaraq, terminala gedib, avtobusun hərəkət etməsini gözlədim. Yemək yedikdən sonra məscidin müəzzini işa namazının azanını oxumağa başladı. Azan oxunanda öz-özümə dedim ki, avtobus yolda dayanmaya da bilər. Yaxşısı budur fürsət varkən, gecə namazını da qılıb gedim. Bu niyyətlə dəstəmazımı təzələdikdən sonra yenidən məscidə getdi. Hər kəsin gəlib-getdiyi böyük qapı yerinə, kiçik qapıdan içəri daxil oldum. Ətrafı sakit olan böyük sütunların yanında nafilə namazlarımı qılmağa başladım. Hələ əvvəl mənə pis-pis baxan və qiraətlə məşğul olan o alim işa namazından sonra xalqı ətrafına toplayıb, şirk və müşrik mövzusu üzərində söybət etməyə başladı. Bir az söhbət etdikdən sonra qəzəbli bir şəkildə ətrafındakılara belə dedi: «Siz üsəlmanlar vəzifəlisiniz, Qiyamətdə cavab vermək mücburiyyətindəsiniz. Çünki Allah-təala buyurur ki, müşriklər nəcisdirlər, onları məscidə buraxmayın. Bir az əvvəl bütpərəst, nəcis bir müşrik məscidə gəlib, hamınızın gözü qarşısında bütə səcdə etdi, amma onu qovmadınız. Mən qiraətlə məşğul idim, sizlər isə, ölmüşdünüz. Məsciddən şirk nəcasətini təmizləməyin, bütpərəst və müşrik rafizinin öldürülüb qətl edilməsinin zəruri olduğunu bilmirsinizmi?! Çünki müşrik müsəlmanların məscidində bütpərəstlik edərsə, qətli vacibdir».
Elə bir atəşli şəkildə avam xalqı təhrik edirdi ki, o anda yanlarında olsaydım, qətiyyətlə məni öldürəcəkdilər.
Söhbəti bitdikdən sonra camaatın yarısı mənim girdiyim qapıdan çıxdılar. Mən də vitğr namazı ilə məşğul olduğum üçün kimsə məni görməsin deyə, oturdum. Ama birdən gözləri mənə sataşan kimi, üzərimə təpik-yüruqla elə hücum etdilər ki, görülməyən bir iş idi. Ardıcıl olaraq, mənə «Qalx, ey müşrik, bayıra çıx, müşrik…» deyirdilər. Artıq həyatımdan ümidimi üzmüşdüm. Kəlmeyi-şəhadətimi dedim (Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləhu və əşhədu ənnə Məhəmmədən əlbuhu və rəsuluh). Şəhadət kəlməsini deyəndə onların arasında ixtilaf düşdü. Bir-birlərinə «Əgər bu müşrikdirsə, necə olur Allahın vəhdətinə və Xatəmül-ənbiyanın peyğəmbərliyinə şəhadət gətirir?» dedilər. Bir qismi də, «Biz nə bilək, qazi onun rafizi və müşrik olduğunu söylədi» deyirdilər.
Onlar aralarında mübahisə edərkən, mən də naazın salamını verib, özümü müdafiəyə etməyə hazırlaşdım. Ərəbcə uzun bir söhbət etdim, onları gözəl bir şəkildə özümə cəzb edib, özüü onlara sevdirdim. Qazını da Allahdan qorxmayan qərəzli biri kimi tanıdaraq, dedim: «O, müsəlmanların arasına təfriqə salaraq, əcnəbilərin müsəlmanlara hakim olmasını istəyir…».
Sözün qısası, məndən üzr diləyib, evlərinə dəvət belə etdilər. Amma yolçu olduğum üçün dəvətlərini qəbul edə bilmədim.
Bax, bu, əhli-sünnət alimlərinin hərəkətlərindən sadəcə bir nümunədir. Onlar ava xalqı aldadaraq, məzlum müsəlmanların qətl və təhqir edilməsinə səbəb olmuşlar.

# ŞƏHİDİ-SANİNİN[1] SAYDA QAZISI TƏRƏFİNDƏN ŞƏHADƏTƏ ÇATMASI

Şiənin alimlərindən və iftixarlarından bir digəri, hicri X əsrdə yaşayan Şeyx Zeynuddin ibn Nuruddin Əli ibn Əhməd Amilidir. O, elmdə, fəzilətdə, zöhddə, təqvada, dost və düşmənin yanında böyük bir şöhrətə sahibdir. Gecəsini gündüzünə qataraq xalqdan uzaqlaşıb dəyərli kitablar yazmışdır. Öz əl yazısıyla müxtəlif elm sahələrində 200-dən çox əsəri vardır.

Xalqdan uzaqlaşmasına baxmayaraq, o dövrün alimləri onunla bir müstəvidə dayana bilməmiş və xalq ona tərəf yönəldiyi üçün həsət etmişlər. Xüsusilə, böyük qazi olan Sayda Osmanlı padşahlarından olan Sultan Səlimə onun haqqında belə bir məktub yazmışdır: «Şam bölgəsində dörd məzhəbdən birinə mənsub olmayan bir bidətçi ortaya çıxmışdır».

Sultan Səlim bu fəqih alimi məhkəməyə çəkmək üçün İstanbula göndərilməsini əmr edir. Məscidul-Həramda onu tutub, 40 gün Məkkədə həbs etdilər. Sonra dəniz yoluyla İstanbula göndərdilər. Məhkəməyə aparıb mühakimə etmədən sahildə mübarək başını bədənindən ayıraraq, bədənini dənizə atdılar və başını da sultana apardılar.

Möhtərəm ağalar, indi Allah rizasına insafla deyin və ədalətlə hökm verin. Tarix boyu bir nəfər sünni alimin, hətta bir alim olmayan sünninin Cəfəri məzhəbinə mənsub deyil deyə, şiə alimləri tərəfindən bu cür pis və çirkin bir şəkildə öldürüldüyünü oxuyub və ya eşitmisinizmi? Allah eşqinə söyləyin, «Dörd məzhəbdən birinə mənsub deyil» sözü günah və qəbahətdirmi? Hansı dəlilə görə, dörd məzhəbdən (Hənəfi, Maliki, Şafei və Hənbəli) birinə mənsub olmayan bir kəs kafirdir və qətli də vacibdir? Görəsən, hansı dəlilə görə sonradan rəsmiyyət qazanmış olan bir qrup məzhəblərə itaət etmək vacib, amma Rəsuli-əkrəmin (s) zamanından etibarən mövcud olan bir məzhəbin arxasınca getmək küfr və ona itaət edənlərin qanının tökülməsi isə lazımdır?

---

[1] İkinci şəhid.

# İNSAFLI İNSANLAR ÜÇÜN GÖZƏL SÖZ

Allah rizasına deyin, Əbu Hənifə, Malik ibn Ənəs, İmam Şafei və ya imam Əhməd ibn Hənbəldən hansı Rəsulallahın (s) zamanında yaşamış və məzhəblərinin təməl (üsul) və cüz (füru) mövzularını o həzrətdən (s) vasitəsiz olaraq öyrənmişlər?».

**Hafiz:** «Heç kəs dörd məzhəb imalarının Rəsulallahla (s) görüşmə şərəfinə nail olduqlarını iddia etməmişdir».

**Dəvətçi:** «Görəsən, Əmirəl-möminin Əli (ə) ibn Əbu Talib Rəsulallahın (s) səhabəsindən olan onun elminin qapısı deyildimi?!».

**Hafiz:** «Aydındır ki, o səhabələrin böyüklərindən, hətta bəzi cəhətlərdə onlardan daha fəzilətli idi».

**Dəvətçi:** «Belə isə, bu qayda üzrə əgər həzrət Peyğəmbərin (s), «***Əliyə itaət etmək, mənə itaətdir***» sözünə əsaslanaraq və O həzrətin (s) əmri olan «***Kim mənim elmimdən yararlanmaq istəyirsə, Əlinin qapısına getsin***» sözünü əsas götürsək, Əli (ə) ibn Əbu Talibi təqib etmək vacibdir desək, haqq sözü söyləmiş oluruq. Yenə əgər «Məhəmmədi (s) məzhəbinin özü olan Cəfəri (ə) məzhəbindən üz çevirmək, zəlalətə səbəb olar» desək, haqlıyıq. Çünki Xatəmül-Ənbiya (s) onların (şiələrin) rəhbərləri olan Əhli-beyti (ə) Quranın bərabəri etmiş, «Səqəleyn» və «Səfinə» hədislərində onları təqib etməməyin fəlakətə səbəb olacağını buyurmuşdur.

Əgər «Əhli-beytdən (ə) üz çevirmək, Rəsulallahın (s) əmrindən üz çevirməkdir, sirati-müstəqimdən çıxmaqdır və sağlam ipə sarılmamaqdır» desək, haqlıyıq, buna dəlilimiz vardır!

Bütün bunlara baxmayaraq, şiə alimləri tərəfindən bu növ əməllər, sünnilərin cahillərinə qarşı belə edilməmişdir, o ki, qaldı, onların alimlərinə qarşı edilmiş olsun!

Biz hər zaman şiələrə belə deyirik: Sünnilər bizim müsəlman qardaşlarımızdır. ONlarla birlik və bərabərlikdə olmağımız lazımdır. Amma şiə alimlərinin əksinə, sizin alimləriniz davamlı şəkildə mömin, müvəhhid, pak və

Rəsulallahın (s) Əhli-beytinin (ə) davamçıları olan şiələrə, bidətçi, rafizi, yəhudi, hətta kafir və müşrik belə demişlər. Dörd məzhəb fəqihlərindən (Hənəfi, Hənbəli, Maliki və Şafei) birinə təqlid etməyənləri müşrik, rafizi və kafir bilmişlər. Halbuki, dörd məzhəb fəqihlərindən birinə təqlidn vacibliyinə dair heç bir dəlil yoxdur. Lakin əksinə, Rəsulallahın (s) əmri istiqamətində Əhli-beyt (ə) ardıcılları olanlar qurtuluş əhlidir.

Belə isə, yersiz fitvalar, yersiz söhbətlər avam xalqın əlində bəhanə olmuş, hər fürsət düşdükdə qətlə yetirmək, talamaq və namuslara əl atmaq kimi kafirlərə qarşı belə edilməyən çirkin əməlləri şiələrə qarşı etmişlər».

**Hafiz:** «Sizin kimi bir şəxsdən, heç bir zaman meydana gələn yalan sözləri əsas tutaraq hissə qapılmağı gözləmirdim».

## TÜRKMƏN, XARƏZMİ, ÖZBƏK VƏ ƏFQANLARIN İRANLILARA QARŞI ETDİKLƏRİ ÇİRKİN İŞLƏRƏ BİR BAXIŞ

**Dəvətçi:** «Yanılırsınız! Belə bir dəyərli məclisdə müsəlman qardaşlarıma dəlilsiz olaraq yersiz nisbətlər vermədim. Əhli-sünnət alim və qazilərinin şiənin böyük fəqihlərinə qarşı etdikləri cinayətlərdən, dediyim hadisələrlə əlaqədar tarixə bir nəzər salsaq, türkmənlərin, xarəzmilərin, özbəklərin və əfqanlıların dəfələrlə İrana təcavüz etdiklərini görəcək, sözlərimə haqq qazandıracaq, hətta onların şiə camaatına qarşı etdikləri zülmə görə utanacaqsınız.

İmkan düşdükdə və xarici ölkələrlə olan müharibələr nəticəsində və ya daxili qarşıdurmalar üzündən İranın vəziyyətini qarışıq gördükdə, şimal şərqindən hücuma keçmiş, bəzən Xorasan, Nişapur və Səbzivara qədər, hətta bir dəfə Şah Sultan Hüseyn Səfəvinin zamanında İsfahana qədər irəliləmiş, o şəhərin ətrafına hücum edib talan etmiş, iffət, insaniyyət və İslama zidd olan heç bir əməldən geri qalmamış və zavallı şiələri qətl edərək, mallarını taladıqdan, namuslarına toxunduqdan sonra bir çox insanı əsir edib, kafir əsirləri kimi dünya bazarlarında satmışlar.

Tarixin yaxdığına görə, Türkistan şəhərlərində yüz mindən çox şiə satılmış və onlara kafir kölələrə edilən müavilədən daha pis müavilələr edilmişdir. Bu növ əməlləri alimlərinizin hökm və fitvalarına əsaslanaraq edirdilər».

**Hafiz:** «Bu müharibə və hücumlar siyasi məqsədlə olmuşdur; bunların əhli-sünnət alimlərinin fitvalarıyla hər hansı bir əlaqəsi yoxdur».

## XAN XƏYVƏNİN İRANA HÜCUMLARI VƏ ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ŞİƏLƏRİN QƏTL VƏ MALLARININ TALANMASI ÜÇÜN VERDİKLƏRİ FİTVALAR

**Dəvətçi:** «Xeyr, elə deyil! Bu qətillər, talan və namuslara təcavüz əhli-sünnət alimlərinin fitva və hökmləriylə olmuşdur. Məsələn, Qacar şahlarından olan Nəsirəddin şahın səltənətinin ilk illərində və onun vəziri Mirzə Təqi Xan Əmir Nizamın zamanında İran ordusunun Xorasan hadisəsi və Salar fitnəsi ilə məşğul ikən, Xarəzmin əmiri olan Özbəkli Xan Xəyvə (Xarəzm) deyə məşhur olan Məhəmməd Əmin xan bunu fürsət bilərək, böyük bir orduyla Xorasan və Mərvə hücum etdi. Dəhşətli qətl və talandan sonra şəhərləri viran edib bir çox insanı da əsir apardı.

Salar hadisəsi sona çatdıqdan sonra dövlət Xəyvə xanın nə cür cəzalandırılması haqda plan hazırlamağa başladı. Tədbirli bir insan olan mərhum Əmir Nizam onu cəhd etmək üçün fəaliyyət göstərdi. Bu səbəbdən sarayın məsullarından hidayət adıyla tanınan mərhum Riza Qulu Xan Hezar Cəribi (Lillah Başi) Xan Xəyvənin yanına elçi göndərdi. Bu elçiliyin incəliklərini deməyə ehtiyac olmadığı üçün üstündən ötürəm. Ancaq Xan Xəyvə ilə mərhum Hidayətin arasında olan bu söhbəti işin içində siyasi məsələlərin olmadığı, əksinə alimlərin fitva və hökmləriylə baş verdiyini isbatladığı üçün bildirəcəyəm.

Mərhum Hidayət, Xan Xəyvəylə görüşdükdə, söhbət əsnasında ona belə dedi: «Bu çox maraqlıdır ki, iranlılar Rum, Rusiya, Hindistan və Avropa ölkələrinə getdikdə, orada onlar əmniyyətdə qalır və sağ-salamat geri dönürlər. Amma sizin

bölgəyə gəldikdə, tərəfdarlarınız onları qətlə yetirir, mallarını talan edərək, əsir alırlar. Kafirlər kimi təhqir edərək satırlar. Halbuki, Hamısı müsəlman, qiblələri bir, kitabları bir, bir Peyğəmbərin (s) ümməti və bir Allaha inanırlar. Axı niyə belə edirlər?».

Xan Xeyvə cavabında belə dedi: «Siyasi baxımdan bizim sizinlə hər hansı bir çətinliyimiz yoxdur. Amma məzhəbi baxımdan Buxara və Xarəzmin alim, müfti və qaziləri şiələri kafir, rafizi və bidət əhli bildiklərinə görə, onların cəzasını qətlə yetirmək, talan etmək və kafirlər kimi əsir alınmasının vacib olduğunu söyləyirlər».

Bu hadisə Riza Qulu xan Hidayətin yazdığı «Rovzatus-Sfayi Nasiri və Səfarət Namei Zərəzm» adlı tarix kitabında geniş şəkildə bildirilmişdir. Kitab Tehranda nəşr olunmuşdur.

## ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ŞİƏLƏRİN QƏTLİNƏ VƏ TALAN EDİLMƏSİNƏ DAİR FİTVALARI VƏ ƏBDÜLLAH XAN ÖZBƏYİN XORASANA HÜCUMU

Əbdüllah Xan Özbək Xorasanı mühasirəyə aldığı zaman Xorasan alimləri onun etdiyi cinayət və zülmlərə etiraz edib, «Nə üçün «La ilahə illallah, Məhəmməd (s) Rəsulallah» - deyən və Əhli-beytin (ə) yolu ilə gedənləri qətlə yetirirsiniz?! İslam belə bir zülmün, hətta kafirlərə qarşı edilməsinə belə izn verməmişdir» - deyə ona uzun bir məktub yazdı.

Əbdullah Xan da Məşhəd alim və əhalisinin məktublarını yanında olan sünni alim və qazilərinə verərək, onlara cavab yazmalarını söylədi. Beləcə sünni və Məşhəd alimləri bir-biri ilə məktublaşdılar (Bu məktublar «Nasixul-Təvarix» adlı kitabda cəm olmuşdur). Özbək olan sünni alimlər məktublarında «şiələr rafizi və kafirdirlər. ONların qanı, malı və namusu müsəlmanlara halaldır» deyə cavab yazmışdılar.

# ƏFQANLI PADŞAHLARIN ƏFQANISTAN ŞİƏLƏRİNƏ QARŞI RƏFTARI

Əfqanıstandakı əhli-sünnət camaatının, xüsusilə Əmir Dost Məhəmməd Xan, Kohəndil Xan, Şah Şüca Malik Əbdülmömin xan, Əmir Əbdürrəhman xan və Əmir Həbibullah xan kimi dövrünün əmirləri Kabul, Qandəhar, Herat və bu şəhərlər ətrafında sakin olan şiə xalqını, onların alimlərini, hətta uşaqlarını necə də vəhşicəsinə qətlə yetirmişlər. Bunları bir-bir anlatsam, həqiqətən, dəhşətə gələrsiniz. Özünüz də, tarix boyu edilən cinayətlərin nə dərəcədə olduğunu bilirsiniz. Hindistanda, xüsusilə də Pəncabdakı qeyrətli Qızılbaşlar, əfqanlıların etdikləri zülmün aşkar bir nümunəsidir. Onlar edilən zülmlərə görə öz vətənlərini tərk etmək məcburiyyətində qalıb, Pəncaba qaçmış və orada yerləşmişlər. Tarixçilər bu hadisələrin hamısını yazmış, bu haqda hökm çıxartmağı gələcək nəsillər ixtiyarına buraxmışdılar.

Qəlb yandıran dəhşətli hadisələrdən digəri, hicri-qəməri 1267-ci ilin Aşura günündə, Qəndəhar şiələrinin Rəsulallahın (s) Əhli-beyti (ə) və onun böyük nəvəsi üçün matəm tutduqları zaman baş verən hadisədir. O gün şiələr bir yerə toplaşaraq, Aşura mərasimini yerinə yetirirdilər. Bu an təəssübkeş sünnilər müxtəlif silahlarla xalqın toplandığı İmambarəyə hücum edərək, bir çox müdafiəsiz şiəni, hətta kiçik uşaqları faciəli bir şəkildə qətlə yetirib, mallarını taladılar.

Şiələr illər boyunca təhqil olunaraq, həqarət içində yaşamış və sərbəst şəkildə inanclarına əməl edə bilməmişlər. Aşura günləri belə iki-üç nəfər ancaq zirzəmilərdə bir yerə toplaşıb, Rəsulallahın (s) reyhanəsi (ə) və Kərbəla hadisəsinin məzlumları üçün yas tuta bilmişlər.

# ƏMİR ƏMƏNULLAH XANA TƏŞƏKKÜR

Bu məclisdə həm özüm, həm də bütün şiə alim, vaiz və mübəlliğləri tərəfindən, hətta bütün şiə camaatı tərəfindən bu anda Əfqanıstanın padşahı olan Əmanullah xana təşəkkür edirəm. O, Hakimiyyət başına gəldiyi andan etibarən, şiə

və sünni ixtilafını aradan aparmış və hər kəsə ta bir azadlıq vermişdir. Məzlum və müvəhhid şiələr də illər boyu davam edən qətl, sürgün və evlərindən didərgin düşdükdən sonra, rahatlıq görmüş, azadlıq əldə etmişlər. Allah onu zamanın bəlalarından və müstəkbirlərin şərindən müsəlmanların bərabərliyinin davamı üçün qorusun.

Bu şəfqətli padşahın devrilməsi üçün ingilislərin müxtəlif hiylələrə ələ atdığını eşitdim. Bütün sünni və şiələrin bu cür ağıllı, vətənsevər, İslam istəyən gənc bir sultanı düşmənlərin qarşısında qorumaları və onların planlarını təsirsiz etmələri lazımdır[1].

Ağalar, tarixə nəzər salsanız, Hindistanın özündə əcnəbilərin təhrikiylə sünni və şiələr arasında bir çox çəkişmələrin baş verdiyini, bir çox qanların töküldüyünü, təqvalı və fəzilətli alimlərin və pak möminlərin cahillərin həvayi-nəfsinin qurbanı olduğunu görərsiniz.

## ŞƏHİDİ SALİSİN[2] ŞƏHADƏTİ

Bu hadisələrin ən acılılarından biri də, hicri-qəməri 1019-cu ildə Monqol padşahı Cahangirin və sünni alimlərin əliylə 70 yaşında «şiə və rafizidir» deyə şəhid edilən Əhli-beytin (ə) təqvalı fəqihlərindən və Rəsulallahın (s) pak soyundan olan Qazi Seyid Nurullah Şuştərinin (r.ə) şəhadətə yetişməsidir. Bura gələndə Əkbər Abade Akirə qəbiristanlığında olan qəbrinin üstünə getdim. Axmaq və təəssübkeş cahillərin bu böyük insana etdikləri zülmlər məni çox üzdü. Onun qəbri indiyə qədər Agirədə şiələrin ziyarətgahı olmuşdur. Qəbrinin üstünə belə bir şer yazılmışdır:

**Zalımın biri Nurullahı[3] söndürdü.**
**Peyğəmbərin göz nurunun başını kəsdi.**

---

[1] Amma təəssüflər olsun ki, sonda əcnəbilərin təhrikləri təsirli oldu; daxili çaxnaşmalar salaraq, müsəlmanların birliyini təmin etmək istəyən bu insanı səltənətdən uzaqlaşdırdılar.
[2] İkinci şəhid.
[3] Allahın nuru.

**Əlinin zamin olduğu insanın qətl olunduğu il;**
**1019-cu ildə Seyid Nurullah şəhid oldu.**

**Hafiz:** «Haqsız yerə bizi günahlandırırsınız. Cahillərin və avamların etdikləri ifrat hərəkətlər məni də çox narahat edir. Amma şiələrin əməlləri onları bu cür iyrənc əməllər etməyə təhrik edir».

**Dəvətçi:** «Şiələrin hansı əməli onları öldürməyə, qorxutmağa, talan etməyə və namuslarına toxunmağa səbəb olmuşdur, söyləyə bilərsinizmi?!».

**Hafiz:** «Hər gün minlərlə insan ölülərin qəbirləri qarşısında durub, onlardan yardım istəyirlər. Görəsən, şiələrin bu davranışı ölülərə tapınmaq deyilmi? Nə üçün alimlər buna mane olmurlar? Milyonlarla insan o qəbirlərin önündə üzlərini torpağa sürtüb, səcdə edirlər. Bu andan sonra təmiz insanların əlinə bəhanə düşür, ifrat dərəcədə təsir göstərmələrinə səbəb olur. Təəccübləndiricisi də budur ki, siz bu növ əməllərə tövhid adını verib, bu kimi insanlara da müvəhhid deyirsiniz».

(Biz bir-birimizlə danışdığımız an Hənəfi fəqihlərindən Şeyx Əbdüsalam «Hədiyyətuz-zairin» adlı kitabı qarşısına qoyub, səhifələrini çevirərək, oxuyurdu. Sanki bir anda, bu kitabdan mənə tutarlı cavab vermək istəyirdi. Şeyx birdən başını qaldırıb, önəmli bir dəlil əlinə keçmiş kimi, mənə doğru dönüb, həmlə edəcək tək belə dedi:)

## ŞEYXİN HƏMLƏLƏRİNİN DƏF EDİLMƏSİ

**Şeyx:** «Bismillah, baxın burada (kitabı göstərir) alimləriniz ziyarətçilərə İmamları ziyarət etdikdən sonra iki rükət ziyarət namazı qılmaqlarını əmr edir. Görəsən, qürbət qəsti namazda şərt deyildir? Belə isə, ziyarət namazı nə deməkdir? İmam üçün namaz qılmaq şirk deyilmi? Ziyarətçilərin İmamın qəbrinə doğru dönüb namaz qılmaları, onların şirk qoşmaqlarına ən böyük dəlil deyilmi? Buna necə, cavabınız varmı? Bax, bu da səhih və mötəbər kitabınız».

**Dəvətçi:** «Artıq vaxt keçib, gecdir daha, hamı yorğundur. Əgər izn versəniz sizin, nə Hafiz ağanın cavabını sabah verərəm».

(Məclisdə olanlar – sünni və şiə – hamısı, belə bir şeyin imkansız olduğunu və heç bir yerə getməyəcəklərini etirazlı bir şəkildə söylədilər. Şeyxin cavabı verilib mövzu tam açıqlanana və ölüyə ibadətin mənası verilənə qədər gözləyəcəklərini və narahat olmayacaqlarını söylədilər. Ən təbəssüm edərək, Hafizə belə dedim:)

Şeyx çox qəribə alovlandı. Özü üçün böyük bir dəlil tapıb! İzn versəniz, əvvəlcə onun, sonra sizin cavabınızı ərz edərəm».

**Hafiz:** «Buyurun, Hamımız birlikdə dinləməyə hazırıq».

**Dəvətçi:** «Hörmətli şeyx, həqiqətən, uşaq kimi bəhanələr gətirirsiniz. İndiyə qədər ziyarətə gedib ziyarətçilərin əməllərini yaxından gördünüzmü?».

**Şeyx:** «Xeyr, getmədim və görmədim».

**Dəvətçi:** «Belə isə ziyarətçilərin, imamın qəbrinə tərəf dönüb namaz qıldıqlarını nəyə əsaslanaraq söyləyirsiniz və sonra da durub, bu namaz və ziyarəti mömin və müvəhhid şiələr üçün şirk kimi dəyərləndirirsiniz?».

**Şeyx:** «Əlimdəki bu dua kitabınızdan deyirəm. Burada, «Namazı imam üçün qılın» yazılmışdır».

**Dəvətçi:** «O kitabı mənə verə bilərsinizmi? (Kitabı verdikdə, təsadüfən qarşıma Əmirəl-möminin həzrət Əlinin (ə) ziyarəti çıxdı).

Qəribə bir təsadüf, öz əleyhinizə dəlil gətirdiniz. Allah-təala hər zaman bizə yardımçı olduğu üçün burada da bizə yardımını əsirgəmədi.

Hər şeydən əvvəl ən yaxşısı budur ki, ziyarətin necə əmələ gətirildiyinə dair hər bölümün əməllərini məclisimizin vaxtını nəzərə alaraq oxuyaq, sonra namaz məsələsini və şirkin harada olduğuna baxaq. Burada olanlar da hökm versinlər.

Ziyarətnamənin əvvəlindən sonuna qədər tövhidin xaricində bir şey görmədiyiniz təqdirdə utanmayın, bilin ki, xəta etmisiniz. Kitabın qarşınızda olmasına baxmayaraq, onu araşdırmadan həmlə edirsiniz. Bax, burada olanların hamısı bilsinlər ki, digər şübhələriniz də hörümçək toru kimi zəifdir.

# ZİYARƏTİN ADABI HAQQINDA

Baxın, burada ziyarətlə əlaqəli belə yazır: həzrət Əlini (ə) ziyarət edən bir kəs Kufə xəndəyinə yetişəndə durub belə desin:

«**Allah böyükdür! Allah böyükdür! O, böyük, səxavətli və əzəmətlidir. Allah böyükdür! Böyük sayılmağa, müqəddəs tutulmağa, naqisliklərdən uzaq hesab edilməyə layiq, nemət sahibidir. Allah, mənim qorxduğum və çətinliklərimdən çox ucadır. Allah böyükdür! O, mənim pənahım və təvəkkül etdiyimdir. Allah böyükdür! Ona ümid bəsləyib, ondan kömək diləyirəm».**

Nəcəfin girişinə daxil olduğu zaman belə deyilir: «**Həmd olsun Allaha ki, bizi hidayət etdi. Əgər bizi hidayət etməsəydi, hidayət olmazdıq…**»

Məqbərənin qapısına yetişdikdə, Allaha həmd etdikdən sonra deyilir: «**Mən şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur. O, birdir və şəriki yoxdur. Yenə şəhadət verirəm ki, Məhəmməd (s) Allahın qulu və Rəsuludur. O, Allah qatından haqqı gətirdi. Yenə şəhadət verirəm ki, Əli (ə) Allahın qulu və Rəsulallahın (s) qardaşıdır. Allah uludur, Allah uludur, Allahdan başqa məbud yoxdur…**»

Həzrət Əlinin (ə) mübarək məzarına yetişdikdə deyilir: «**Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur, təkdir, şəriksizdir**».

Ziyarətçi, Allah, Rəsulallah (s) və Əimmeyi-ətharın (ə) iznlərini istəyib hərəmə daxil olduqdan sonra, həzrət Peyğəmbərə (s) və Əirəl-möminin Əliyə (ə) salam verməyi bildirən müxtəlif ziyarətlər oxuyur. Ziyarət qurtardıqdan sonra altı rükət namaz qılınması buyrulmuşdur. Bunların iki rükəti Əmirəl-mömininə (ə), digər dörd rükəti də həzrət Əlinin (ə) qəbrinin ətrafında dəfn edilmiş həzrət Adəm (ə) və həzrət Nuha (ə) hədiyyə edilir.

# ZİYARƏT NAMAZI VƏ NAMAZDAN SONRAKI DUA

Görəsən, hədiyyə namazı şirkdirmi? Ana-ataya və möminlərin ruhlarına hədiyyə namazı deyə bir göstəriş yoxdurmu? Bu halda namaz şirkdirmi?

Ziyarətçinin «Qürbətən iləllah» deyib, iki rükət namaz qılıb həzrət Əliyə (ə) hədiyyə etməsi şirkdirmi?

İnsan bir dostunu ziyarət etməyə getdiyi zaman ona hədiyyə aparması lazıdır. Hər iki məktəbin hədis kitablarında Rəsulallahdan (s), mömini ziyarət edərkən hədiyyə verməklə əlaqəli hədislər üçün xüsusi bablar ayrılmışdır. Ziyarətçi mövlasının qəbrinin qarşısında durduqda, həyatında ən çox sevdiyi şeyi, yəni namazı Ona hədiyyə etməsi şirkdirmi?

Bu səbəbdən ziyarətçinin «qürbətən iləllah» niyyətiylə iki rükət namaz qılıb, Əmirəl-mömininə (ə) hədiyyə etməsi əmr olunmuşdur. Görəsən, bu sizə görə şirkdirmi?

Cənabali! Namazın qaydasını oxudunuz, namazdan sonrakı duanı da oxusaydınız, şübhə etdiyiniz şeyin cavabını elə oradan öyrənər və bizə də, bu cür irad tutmazdınız.

İndi də zehninizdən qərəzli fikirlərin aradan aparılması üçün şiələrin əməllərinə insaf gözüylə baxmanız və müşrik deyil, müvəhhid olduğumuzu və hər an belə Allahı unutmadığımızı və həzrət Əlini (ə), Allah-təalanın saleh qulu və Rəsulallahın (s) varisi və xəlifəsi olduğuna görə sevdiyimizi bilməniz üçün izninizlə bu duanı da oxuyum.

Duanın qaydası belədir: Namaz qurtardıqdan sonra həzrət Əlinin (ə) baş tərəfində (Şeyxin, «qəbrə tərəf oxuyurlar» - deyə söylədiyi sözün əksinə) qibləyə tərəf durub, qəbirin sol tərəfində olduğu halda bu dua oxunur:

**«Allahım, mən bu iki rükət namazı seyyidimə və vəlin olan mövlama və Rəsulunun (s) qardaşı Əmirəl-mömininin (ə) və vəsilərin seyyidi Əli (ə) ibn Əbu-Talibə öz tərəfimdən hədiyyə edərək qıldım. Allahın salavatı Ona və Onun ailəsinə olsun.**

**Allahım, Məhəmməd (s) və Ali-Məhəmmədə (ə) salam olsun və bu iki rükət namazı məndən qəbul et və məni bunun əvəzində ehsan edənlərin mükafatıyla mükafatlandır.**

**Allahım, Sənin üçün namaz qıldım, Sənin üçün rüku və səcdə etdim. Sən şəriki olmayan bir Allahsan. Namaz, rükü və səcdə ancaq Sənə caizdir. Çünki uca Allah Sənsən, Səndən başqa ilah yoxdur». (şəkil: 18-19)**

Allah rizasına deyin. Bir ziyarətçinin Nəcəfə atdığı ilk addımdan ziyarət namazını bitirdiyi ana qədər daima haqqı zikr etməsi, Allahın adının dilindən düşməməsi, Allahı əzəmətlə yad etməsi və həzrət Əlini (ə) Allahın saleh bir qulu, Rəsulallahın (s) qardaşı və varisi olduğunu söyləməsi və bunu etiraf etməsi şirkdiri?

Əgər namaz qılmaq və Allahın vəhdaniyyətinə şəhadət etmək şirkdirsə, zəhmət olmasa, mənə tövhidin nə olduğunu öyrədin. Bəlkə, Allah və Peyğəmbərin (s) yolundan çıxıb, sizin yolunuza gəldim!».

**Şeyx:** «GÖrmürsünüz burada nə yazılıb? «Əvvəlcə türbənin qapısını öp, sonra içəri daxil ol». Biz elə düşünürük ki, ziyarətçilər imamların türbələrinə gələndə səcdə edirlər. Bu səcdə Əli üçün deyilmi? Görəsən, Allahdan başqasına səcdə etmək şirk deyilmi?»

**Dəvətçi:** «Əgər mən yerinizdə olsaydım, məntiqli bir cavab aldıqdan sonra bu məclis qurtarana qədər, hətta bizim bu bəhs məclislərimiz tam qurtarana qədər, əsla, danışmazdım, susardım. Amma siz yenə də elə danışırsınız ki, eşidəni gülməyə məcbur edir (Məclisdəkilərin qəh-qəhə ilə gülüşləri).

## İMAMLARIN (Ə) TÜRBƏLƏRİNİN GİRƏCƏYİNİ ÖPMƏK ŞİRK DEYİLDİR

İmamların (ə) müqəddəs türbələrinin qapılarını, zirehlərini öpməyin şirk olmadığı haqqında bir az açıqlama vermək məcburiyyətindəyəm. Şeyximiz, öpməyi səcdə etməklə səhv salıb. Elə bizim yanımızda belə, əqidəmizi təhrif etdiniz. Allah bilir, başqa vaxt, gör, avam xalqın yanında bizə nə kimi iftiralar atırsınız!

Bu və buna bənzər dua və ziyarət kitablarınıza ziyarətçiyə ədəb üçün türbənin öpülməsi tövsiyə edilir, səcdə etmək yox! Hansı qaydaya görə öpməyi səcdə kimi

qələmə verirsiniz?! Hansı ayə və ya hədis Peyğəmbər (s), ya da İmamların (ə) türbələrinin öpülməsini qadağan edir və ya onların öpülməsi şirk əlaməti olaraq bildirilir?! Əgər məntiqli bir cavabınız yoxdursa, xahiş edirəm məclisin vaxtını almayın. «Ziyarətçilərin səcdə etdiklərini eşitdik» sözünüzə gəlincə, bu söz tamamən yalandır; həm də ağ yalandır!

**Eşitməklə görək arasında böyük bir fərq vardır.**
**Eşitmək, heç bir zaman görməklə bərabər ola bilməz.**

Allah-təala «Hucurat» surəsinin 6-cı ayəsində belə buyurmurmu?!:

«**Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbərlə gəlirsə, onu ətraflı şəkildə araşdırın. Yoxsa, nəticəsi cəhalətdir. Bir qövmə pislik edər, sonra da etdiklərinizdən peşman olarsınız**».

Bu ayəyə görə fasiq sözünə etibar etməməlidir. Çünki insan sonda peşman olar və utanar. İnsan araşdırmalıdır, həqiqəti tapmaq üçün səfərə çıxmaq əziyyətinə qatlanın. Beləcə, həqiqətləri yaxından görüb, sonra hökm verin.

Mən özüm Bağdadda Əbu Hənifə və Şeyx Əbdülqadirin qəbirlərini ziyarət etdim. Əhli-sünnətin avam camaatının o qəbirlərin qarşısındakı davranış və hərəkətlərini şiələrə etdiyiniz ittihamlardan daha şiddətli gördüm, lakin bu haqda heç bir məclis və yığıncaqda söz açmadım.

Allah şahiddir ki, Əbu Hənifənin Müəzzəmdəki qəbrinə getdikdə, Hindistanlı əhli-sünnət qardaşlardan bir qrupunun türbəni, bir neçə dəfə yeri öpdüklərini və özlərini yerə atdıqlarını gördüm. Kin və düşmənçilik bəsləmədiyim və etdikləri işin haram bir əməl olduğuna dair hər hansı bir dəlil olmadığı üçün indiyə qədər heç yerdə nəql etmədim. Çünki onlar bu işi ibadət məqsədiylə deyil, sevgi və məhəbbətlərini bildirərək edirdilər.

Möhtərəm Ağa, bilin ki, ziyarətə gedən heç bir şiə (istər alim olsun, istər cahil) Allahdan başqa heç bir varlığa səcdə etmir. Bu sözünüz tamamıyla iftira və yalandır!

Səcdə, əgər ibadət qəsti olmadan – özünü yerə atmaq, üzü və alnı yerə sürtmək şəklində olursa, bunun heç bir maneəsi yoxdur. Çünki şəxsiyyəti böyük olan bir insanı dahi tutmaq və ya ona hörmət göstərmək üçün Allaha şərik qoşmadan və onu Allah bilmədən onun qarşısında əyilmək, özünü yerə atmaq və ya üzünü torpağa sürtmək, əsla, şirk deyildir! Əksinə, sevgiliyə olan məhəbbətin şiddət və çoxluğu üzü torpağa sürtməyə və öpməyə səbəb olur».

**Şeyx:** «Özünü yerə ataraq alnı yerə qoymağı səcdə kimi qəbul etməmək necə mümkün olar?»

**Dəvətçi:** «Təsdiq edərsiniz ki, səcdə niyyətə bağlıdır. Niyyət isə, qəlbə aid bir şeydir. Qəlb və niyyətləri ancaq Allah bilir. Bəzən görürsünüz biri səcdə halında özünü yerə atmışdır. Əlbəttə, Allaha məxsus olan bu halda, Allahdan başqasına, hətta niyyət etməsə də, səcdə etməsi yaxşı deyildir. Lakin qəlbindəki niyyəti kimsə bilmədiyimiz halda üçün, «səcdə edir» leyə bilmərik. Ancaq səcdəyə aid məxsus zamanlarda, xarici görünüşü səcdə olduğu üçün ona səcdə deyirik.

## HƏZRƏT YUSİFİN (Ə) QARDAŞLARININ ONA SƏCDƏ ETMƏLƏRİ VƏ ÖZLƏRİNİ YERƏ ATMALARI

Qətiyyətlə deyə bilərik ki, bir şəxsin şənini ucaltmaq və ehtiram göstərmək üçün, səcdə etmək niyyətiylə olmasa, insanın özünü yerə atması küfr və şirk deyildir. Həzrət Yusifin (ə) qardaşlarının onun qarşısında etdikləri səcdə bu qismdəndir və orada olan iki peyğəmbər – həzrət Yəqub (ə) və həzrət Yusif (ə) onların bu işinə mane olmadılar. Allah-təala «Yusif» surəsinin 100-cü ayəsində bu mövzu haqqında açıq-aydın belə buyurur:

«***Anasıyla atasını taxtda oturtdu və onlar [hamısı] buna (nemətə) görə [Allaha] səcdə etdilər. Yusif dedi: «Atacan, bu daha əvvəlki yuxumun yozumudur. Doğrusu, Rəbbim onu gerçəkləşdirdi…***».

Məgər Quranın bir neçə yerində mələklərin həzrət Adəmə (ə) səcdə etdiyi buyrulmurmu? Söylədiyiniz kimi, (ibadət niyyəti olmadan) səcdə şəklində özünü torpağa atmaq şirk olursa, o zaman həzrət Yusifin (ə) qardaşları və müqqərrəb

mələklərin hamısı müşrik, sadəcə səcdəni tərk edən lənətli İblismi müvəhhid olur?! Halbuki, onların hamısı müvəhhid idi və Allaha itaət edirdi.

Xahiş edirəm, bundan sonra bəsit şeylərlə, əməvilərin, xəvariclərin, nasibilərin və təəssübkeşlərin uydurduqları hiyləli sözlərlə, belə əzəmətli, haqqın danışdığı və həqiqətin axtarıldığı bir məclisin vaxtını almayın! Daha sonra özünüz də söylədiklərinizə peşman olacaqsınız. Eyni zamanda, öz əlinizlə şiələrə qarşı istiqamətləndirdiyiniz nöqsanların, eyblərin və bəhanələrin belə, yersiz şeylər olduğunu aşkar edirsiniz.

Hafiz ağanın da cavabını vermək istəyirəm. Baxmayaraq ki, gec oldu, amma bəhsimiz çox uzun sürməyəcəkdir.

## CİSİM FANİ OLDUQDAN SONRA RUHUN ƏBƏDİ QALMASI

Möhtərəm ağalar elm əhli olduğu üçün dərindən düşünərək danışmaları lazımdır. Həvayi-nəfslərinə qapılmamalı, keçmişdəkilərin sözlərini təkrar edib onların təsirində qalmamalıdırlar. Boş və mənasız sözləri danışmamaq daha yaxşı olardı. Gümanə qapılaraq deyirsiniz ki, şiələr nə üçün ölülərin qəbirlərinin qarşısında duraraq, onlardan hacətlərini tələb edirlər?

Hafiz ağa, yoxsa siz də maddəçisiniz? Çünki maddəçilər öldükdən sonra dirilməyə inanmırlar. Maddəçilər deyirlər ki, insan öldüsə, artıq hər şey bitir. Allah-təala da «Möminin» surəsinin 37-ci ayəsində maddəçilərin sözünü belə nəql edir:

«***Bizim bu dünya həyatımızdan qeyri bir şey yoxdur, [bəzimiz] ölürük [bəzimiz isə] yaşayırıq və bir daha dirilməyəcəyik***».

Çox yaxşı bilirsiniz ki, ilahi inanca sahib olanların sabit əqidələrindən biri, insanın öldükdən sonra diriləcəyidir. İnsan öldükdən sonra cismi ünsürü artıq işə yaramır. Amma onun ruhu və nəfsi qalır. Maddi bədənlərə bənzəyən vücudları vardır, amma daha lətifdir. Ruh Bərzəx aləmində ya nemət, ya da əzab üçün sakin olur. Xüsusilə də, şəhidlər və Allah yolunda ölənlər daha böyük bir məqama sahib olub, ilahi nemətlərlə müjdələnərək yaşayır və özlərinə verilən mükafatla şad

olurlar. Allah-təala «Ali-İmran» surəsinin 169 və 170-ci ayələrində aydın bir şəkildə buyurur:

«***Allah yolunda öldürülənləri ölü sanmayın. Xeyr, onlar diridir və Rəbbləri yanında onlara ruzi verilir. Allahın öz fəzlindən onlara verdikləriylə sevinc içindədirlər. Və onların ardınca [gəlib] hələ özlərinə qatılmamış [şəhadətə nail olmamış] qardaşlarının da heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər***».

Görəsən, rizqlənmək, sevincli olaq, Allahın fəzl və kərəmindən faydalanmaq, ölülər, yoxsa dirilər üçündür? Üstəlik, ayə açıq-aydın bildirir:

«***Onlar diridir və Rəbbləri yanında ruzi verilir***».

Allah yolunda öldürülənlər necə yaşayırlar və necə rizqlənirlər? Demək ki, yemək üçün ağızları, eşitmək üçün də qulaqları olduğuna görə, cavab da verirlər. Amma cismani olan təbiət pərdəsi qulaqlarımızı bağladığı üçün biz onların səslərini eşidə bilmirik».

## RUHUN ƏBƏDİLİYİNƏ DAİR TƏNQİD VƏ ONUN CAVABI

Məclisin bir küncündə oturub sözlərimizi dinləyən və özünü də ziyalı güman edən əhli-sünnət gənclərindən Davudpuri adlı bir nəfər, şübhə icad etmək üçün izn alaraq, belə bir sual verdi:

**Davudpuri:** «Qibləsahib! Sözləriniz bu günki elmin kəşfləriylə uyğun gəlmir. Keçmişdə elm bu qədər inkişaf etmədiyi üçün insanlar cəhalət üzündən ruh deyilən bir şeyə inanırdılar. Amma elm və texnikanın qızıl əsri olan bu günümüzdə, maddi elm ən yüksək zirvəyə yetişmişdir. Artıq bu kimi şeylərin fatihəsi oxunmuşdur. Xüsusilə də, elmin inkişaf etdiyi Avropada ingilis Darvin və alman Bachner kimi elm adamları belə köhnəlmiş, məxsusən ruhun varlığı, onun əbədiliyi kimi inancların batil olduğunu sübuta yetirmişlər».

**Dəvətçi:** «Əzizim, bu növ sözlər yeni deyildir və sizin təbirinizə görə, qızıl əsrə də məxsus deyildir. Təxminən, 2400 ildir ki, maddəçilər bunun bayraqdarlığını edirlər.

## MADDƏÇİLƏRİN MEYDANA GƏLMƏSİ VƏ ZİMKRATESİN HƏKİM SOKRATA QARŞI ÇIXMASI

Zimkrates və onun ardıcıllarının Sokrat, Əflatun, Aristotel və s. bu kimi yunan ilahiyyətçilərinin qarşısında durduğu zamandan bəri, maddəçilik fikri də başlamışdr. Onlar elm, iradə, qüdrət və şüur sahibi olan Allahı inkar edir və belə deyirdilər: «Aləmdə beş duyğun orqanlarıyla hiss edilə bilən maddə və maddiyyatın xaricində heç bir şey yoxdur. Hər şey maddənin əsəridir».

Onlar «təbiətçi» və «maddəçi» adıyla məşhur oldular. Bu günki kommunistlər onların davamçılarıdır. Elm, iradə, qüdrət və şüurlu bir yaradıcını inkar etməyi əsas görən bu fasid inanc, ilk olaraq o dar düşüncəli kommunist firqəsinin əliylə kütləvi şəkil aldı.

İlahiyyatçı alim və filosoflar hər dövrdə onlara eli və məntiqli cavablar vermişlər. Amma Avropanın, adını çəkdiyiniz Darvinin Bachnerin etiqadlarından bəhs etdiyiniz üçün sizin kimi yenilikçi gənclərə nəsihətim var. O da budur: Elm, ağıl və məntiqdən uzaq olan hər nəzərin, sözün təsiri altına düşməyin. Əgər Darvinin (fəlsəfə haqqında təsəvvürü olan) fəlsəfəsini oxuduqdan sonra da onun nəzərini puç edən kitabları da oxusanız, daha ağıllı bir şəkildə hökm verə bilərsiniz. Çünki avropalıların nüfuzu elm və əməl baxımından siz gənclərin üzərində çox olduğu üçün Darvin, Bacher və başqa şəxslərin kitabları əlinizə keçdikdə, onlar sizin gözünüzdə böyüyür və avropalıların hamısının Darvinist olduğunu güman edir, bu kimi kitabları, bütün avropalı filosofların inanclarının bir əsası olduğunu sanırsınız.

## AVROPALI İLAHİYYƏTÇI ELM ADAMLARININ NƏZƏRLƏRİ

Sözügedən maddəçi Darvinin fəlsəfəsini oxuduqda ilahiyyatçı filosofların da kitablarını oxuyun. Məsələn, məşhur Fransız matematiki Kamil Flamoryon illərlə «Nəfsitanıma» (Mərifətun-nəfs) övzusu üzərində çalışmış, Allahın vəhdaniyyətinin

isbatı, ruhun əzəməti və öldükdən sonra onun əbədi qalacağı haqqında bir çox kitab yazmışdır. «Yaradılışda Allah» kimi bəzi kitablar ona məxsusdur. «Ölüm və əsrarı» jurnalları da İran və Misir alimləri tərəfindən fars və ərəb dilinə tərcümə olunmuşdur.

O, bu əsərlərində ölüm mövzusunu geniş şəkildə açıqlayaraq, belə deyir: «Həqiqətdə ölüm, fəna və yoxluq anlamında deyildir. Ölüm, bir aləmdən, bir başqa aləmə keçid deməkdir. Sadəcə olaraq, qəlib dəyişir. Maddi ünsürdən çıxıb, daha lətif bir şəklə düşməkdir. Çünki ruh (həyat mayası) heç bir zaman fəna olmaz və əbədi qalan bir varlıqdır.

Ruhun bədəndən ayrı, başqa bir şey olduğu mövzusu, illər boyu aparılan uzun araşdırmaların qəti nəticəsidir. Ruhun mənəvi azadlığı vardır. Bədən çürüdükdən sonra ruh yenə də eləcə qalır».

Avropalılar Darvin, Bachner kimi maddiçilərlə deyil, Bruksun (Fransız filosofu), müasir filosof Viqtor Hüqo (Fransız alim və şairi), Nermal (Alman tədqiqatçısı) və Dekart (Fransız filosofu) kimi tədqiqatçı və filosoflarla – hamısının nəzərlərini, hətta adlarını saymaq üçün məclisin vaxtı imkan vermədiyindən deyə bilmirəm – iftixar edirlər.

Birincisi, qərbin təsirində qalmış və onların ideyalarına yönələn gənclər təkcə Darvinin, Bacherin kitablarını oxumasınlar. Başqa avropalı mütəfəkkir və filosofların da kitablarına nəzər yetirsinlər.

İkincisi, gənclər hər iki qrupun (ilahiyyatçı və maddiyyatçı) nəzərlərini və onlara qarşı irəli sürülən nəzərləri də yaxşı oxuduqdan sonra ən gözəl və ən məntiqlisini seçməlidirlər.

Əgər məsələyə insanfla baxılsa, elmi, əqli və məntiqi yolda ilahiyyatçıların və maddəçilərin nəzərləri araşdırılarsa, əmin ola bilərsiz ki, yalnız bu nəticə əldə olunacaq: İnsanın bədəni xilqət aləminin yaradılmış ünsürlərindən olduğu üçün fani və yox olub gedir. Amma ruh başqa bir aləmə aid olduğu üçün yaşayır və heç bir zaman ölmür. Səmavi kitablar və Rəhmani təlimlər hökmünə görə, xüsusən şəhidlər, tövhid və haqq yolunda ölənlər ruhani həyatla bərabər, cismani şəkildə

yaşama, eşitmə və görmə imkanına sahibdirlər. Çünki Seyyidüş-üühəda imam Hüseynin (ə) ziyartnaməsində belə bir cümlə yer almışdır:

«***Mən şəhadət edirəm ki, şübhəsiz sən, sözlərimi eşidir və cavabımı verirsən***».

«Nəhcül-bəlaqə»nin 83-xütbəsini oxumadınızmı? Orada həzrət Əli (ə) Rəsulallahın (s) pak itrətini (Əhli-beytini (ə)) ümmətə tanıdarkən, belə buyurur: «***Ey insanlar! Xatəmul-Ənbiyanın (s) bu sözünü unutmayın (yəni Rəsulallah belə buyururdu): «Bizdən biri ölürsə, o həqiqətdə ölü deyildir. Bizdən kim zahirdə çürüyərsə, həqiqətdə o, çürüməmişdir***».

Həzrət Rəsulallah (s) həqiqətdə belə demək istəyir: «Biz, nur və ruhlar aləmində davamlı yaşayır və əbədiyik». İbn Əbil-Hədid, Meysəmi və misirli məşhur müftü Şeyx Məhəmməd Əbduh «Nəhcül-bəlağə»nin bu cümləsinin təfsirində belə deyirlər:

«***Peyğəmbərin (s) Əhli-beyti (ə) həqiqətdə başqa insanlar kimi ölü deyillər***».

Əgər biz zahirdə Rəsulallahın (s) məsum Əhli-beytinin (ə) qəbirlərinin önündə dururuqsa, bu heç də ölülərin qəbirlərilə danışırıq demək deyildir. Əksinə, yaşayanların və canlıların önündə durub, onlarla danışırıq. Biz ölüyə tapınmırıq. Biz Allaha tapınırıq, Allah onların cisim və ruhların yaşadır.

Görəsən, siz Əmirəl-möminin həzrət Əlini (ə) Seyyidüş-şühəda həzrət Hüseyni (ə) və Bədir, Ühüd və Kərbəlada şəhid olanları din yolunda, haq yolunda can verənlər bilmirsizmi ki, onlar Qureyş, bəni-Üməyyə Yezid və yezidlərin (dinin həqiqətlərini inkar edib, dini əsərləri yox etmək istəyirdilər) zülmlərinə qarşı qiyam edib, canlarını müqəddəs İslam dini və «La ilahə İlləllah» kəlməsi üçün fəda etdilər?! Necə ki, Rəsulallahın (s) səhabəsinin cihadları, Bədir, Ühüd və Hüneyn şəhidlərinin fədakarlıqları küfr və şirkin kökünü qazmış və tövhid kəlməsini ucaltmışlarsa, eyni şəkildə imam Hüseyn (ə) də İslamın güclənməsi üçün qiyam etmişdir. Əgər imam Hüseynin (ə) qiyamı olmasaydı, Yezid İslamın kökünü qazıb, fasiq inanc və batini küfrünü İslam cəmiyyətinə yerləşdirmək qərarında idi».

# MÜXALİFLƏRİN MÜAVİYƏYLƏ YEZİDİN XİLAFƏTİNİ VƏ KÜFRÜNÜ MÜDAFİƏ ETMƏLƏRİ VƏ ONLARIN CAVABI

**Şeyx:** «Sizin kimi şəxsin müsəlmanların xəlifəsi Yezid ibn Müaviyəni kafir və fasiq elan etməsi, həqiqətən, təəccüblüdür. Əmirə-mömінin və möminlərin dayısı Müaviyə ibn Əbu Süfyanın Yezidi xilafət məqamına qoyduğu və Müaviyəni isə II xəlifə Ömər və III xəlifə olan məzlum Osmanın (r.z) Şama müsəlmanların əmiri olaraq təyin etdiyini bilmirsiniz? Xilafətə layiq olduğu üçün xalq onları qəbul etmişdi. Siz müsəlmanların xəlifəsinə küfr, mürtəd nisbətiylə onların xilafətini qəbul edən bütün müsəlmanlara və onları xilafət məqamına gətirən öncəki xəlifələrə də böyük ihanət etdiniz.

Yezid xilafəti dövründə sadəcə bir xəta və tərki-ovla etdi. Onun xilafəti dövründə Rəsulallahın (s) reyhanəsini qətl etdilər. Bu iş isə əfv edilə bilər, çünki bilmədən, səhvən baş verən bir əməldir. Bax, o, buna görə də, tövbə etdi. Bağışlayan Allah da onun günahından keçdi. Çünki imam Ğəzali və Dəmiri bu mövzunu kitablarında geniş şəkildə qeyd etmiş və xəlifə Yezidin təmizlik və paklığını isbat etmişlər».

**Dəvətçi:** «Təəssüb dərəcənizin itaətsiz və inadçı Yezidi müdafiə edəcək qədər çox olduğuna heç inanmazdım!

Buyurduğunuz bu anlamdakı «Yezidin atası onu xilafət məqamına gətirdikləri üçün müsəlmanların onu kor-koranə qəbul edib, sözünə təslim olmaları lazım gəlir» sözünüzə gəlincə; bu sözünüzdə ağıl sahiblərinə görə, xüsusilə elm, hikmət və (sözdə) hürriyyət dövrü olan bu zamanda qəbul edilə biləcək bir şey yoxdur.

Bax, buna görə biz bu cür çətinliklərə düçar olmamaq üçün xəlifənin məsum olması və Allah tərəfindən təyin edilməsinin vacibliyinə inanırıq.

«İma Ğəzali, Dəmiri və başqa kimilər Yezidin etdiklərini müdafiə etmişlər» sözünüzə gəlincə də, onların da sizin kimi, təəssübləri ağıllarına və elmlərinə qalib gəlmişdir. Təəssübü ağlına qalib gəlməyən heç bir kəs Yezid kimi çirkin bir insanın müdafiəsinə qalxmaz. Çünki Yezidin müdafiə ediləcək heç bir əməli yoxdur.

«Yezid sadəcə bir xəta və səhv etdi, o da imam Hüseynin (ə) şəhid edilməsidir» sözünüzə gəlincə, əvvəlcə bunu bilin ki, heç bir günahı olmadan böyüklü-kiçikli 72 nəfərlə bərabər Rəsulallahın (s) bədəninin bir parçası olan imam Hüseynin (ə) şəhid edilməsi, onların namuslarının (yəni qadınlarının) kafir əsirləri kimi əsir alınması sadəcə bir xəta deyil, əksinə böyük günahlardandır. Sonra Yezidin çirkin əməlləri və kafirliliyinin səbəbi, sadəcə imam Hüseyni (ə) şəhid etdiyi üçün deyildir. Onun küfr və mürtətliyini isbatlayan bir çox dəlillər vardır».

**Nəvvab:** «Əgər Yezidin küfr və mürtədliyini isbatlayan daha aydın dəlillər varsa, onları söyləməyinizi rica edirəm».

## YEZİDİN KÜFR VƏ MÜRTƏDLİYİNƏ DAİR DƏLİLLƏR

**Dəvətçi:** «Yezidin küfr və mürtədliyinə dair bir çox dəlil vardır. Məsələn, o, həm sözlərində, həm də şerlərində içindəki küfrünü aşkar etmişdir. Xüsusilə şəraba aid şerləri açıq dəlillərdir. Məsələn, bir şerində belə deyir:

***Üzüm şərabı hər sübh mənim əlimdə doğur,***
***Hər axşam isə mənim ağzımda batır.***
***Əgər şərab Məhəmmədin dinində haramdırsa,***
***O halda, onu İsa Məsihin dininə görə iç.***

Başqa bir şerində belə deyir:

***Dünya, sadəcə bu dünyadır ki, var,***
***Bu aləmdən başqa bir aləm yoxdur.***
***Əgər, həqiqətən, belədirsə, bəs niyə mən,***
***Bu aləmin ləzzətlərindən əl çəkməliyəm?!***

Misralardan anlaşılır ki, hər nə var bu dünyadır. Bu aləmdən başqa aləm yoxdur. Bəs, gərək bu aləmin ləzzətlərindən və nemətlərindən əl çəkməyək. Bu

şerlərin hamısı onun divanında mövcuddur. Əbul-Fərəc ibn Covzi «ər-Rəddu ələl-mütəəsibil-ənid» adlı kitabında bu deyilən şerlərə şəhadət vermişdir. Onun kafir, zındıq və mülhid olduğuna dair dəlillərdən bir digəri, Səbt ibn Covzinin «Təzkirə»də və babası Əbül-Fərəcin geniş şəkildə nəql etdiyi şerlərdir. O şerlərindən birinin əvvəlində (sevgilisinə xitab edərək) belə deyir:

***Aliyə gəl yanıma, yaxınlaş mənə, sözünü mənə söylə,***
***Çünki sakit və yavaş danışmağı sevmirəm mən.***
***Qiyamətdən söz açan o şəxs, yalan sözlər söyləyir,***
***O, qəlbləri saz və sözdən uzaqlaşdırır.***

Çünki «Diqul-Cin» adıyla tanınan və şiənin böyük fəqih, alim, fazil və ədiblərindən olan İbrahim ibn İshaq, Abbasi xəlifələrindən Harun Rəşidin yanında Yezidin bütün şerlərini oxuduqda, Harun Yezidə ixtiyarsız lənət edərək, belə dedi: «Bu zındıq, Yaradanı və Qiyaməti tamamilə inkar etmişdir».

Onun küfr və azğınlığına dəlil olan şerlərindən bəziləri nəşəli vaxtlarında oxuduğu nəğmələrin sözləridir. Birində dostlarına xitabən belə deyir:

***Durun saza və sözə qulaq verin,***
***Xalis şərab üçün ay dostlar.***
***Dini və imanı atın kənara,***
***Saz, azan səsini unutdurdu mənə.***
***Müğənni yaşlı qadınları,***
***Cənnət və hurilərə dəyişərəm.***

Məqatil kitablarında, hətta Səbt ibn Covzi «Təzkirə» kitabının 148-ci səhifəsində belə nəql edir: «Rəsulallahın (s) Əhli-beyti Şama gətirildikdə, Yezid Ceyrun[1] tərəfə baxaraq bu küfr dolu şerini oxudu»:

---

[1] Yaqut Həməvi «Möcəmul-budan»da belə deyir: «Ceyrun, sütunları üzərinə yazılmış geniş tavandır. Bura Şamın giriş qapısına yaxındır. Onun ətrafında bir şəhər vardır ki, qədimdə dövlətlilərdən biri orada bir qala, sonralar isə, «Sabin» orada imarət tikdirdilər. Onun içində müştəri çəkmək üçün bir məbəd də var idi. Ora xalqın əyləncə yeri idi.

*Ali-Məhəmməd əsirlərinin karvanı göründükdə,*
*Bir qarğa ucadan qarıldamağa başladı.*
*Dedim ki, ey qarğa[1] qarıldasan da, qarıldamasan da,*
*Mən Peyğəmbərdən borcumu aldım.*

O bunu demək istəyirdi: «Ühüddə, Bədirdə və Hüneyndə öldürülən əmim və qohumlarımın intiqamını Peyğəmbərin övladlarını öldürməklə aldım».

Yezidin küfrünə dəlalət edən dəlillərdən digəri də, həzrət Peyğəmbərin (s) övladını (ə) şəhid etdikdən sonra şənliklər təşkil etməsi və Əbdullah ibn Zəbəriyə aid olan küfr şerlərini oxumasıdır. Səbt ibn Covzi, Əbu Reyhani Biruni və başqa bu kimi alimlər bu şerləri qeyd etmişlər. Yezid bu şerlərdə müşrik və kafir olan və böyük Bədir döyüşündə Allah v Rəsulun (s) əmriylə öldürülən atalarının dirilməsini arzu edir. Şerin 2-ci və 5-ci beyitlərini Yezid özünə həsr etmişdir. O, bu şeri müsəlman, yəhudi və xristianların yanında oxumuşdur. O şer budur:

1. ***Kaş ki, Bədir döyüşündə ölən qəbiləmin başçıları, Xəzrəc qəbiləsinin (Ühüd döyüşündə)***
2. ***Məğlubiyyətini görsəydilər, sevinərək deyərdilər: «Əlinə sağlıq, ey Yezid».***
3. ***Bədirdə ölənlərimizə qarşı, biz də bu gün onların böyüklərini öldürərək, bərabərləşdik.***
4. ***Bəni-Haşim səltənətlə oyun oynadı.***
   ***Nə göydən bir xəbər gəlmiş və nə də vəhy nazil olmuş.***
5. ***Bəni-Əhməd övladlarından intiqam alamasam,***
   ***Mən Xəndəf[2] ailəsindən deyiləm.***
6. ***Biz qanımızın əvəzini, Əlinin igid və qəhrəman oğlunu öldürməklə aldıq.***

[1] Qarğa səsi ərəblərdə pisə yozulur.
[2] Xəndəf, Yezidin atalarından biridir.

Əbül-Fərəc, Şeyx Əbdullah ibn Məhəmməd ibn Amir Şəbravi «əl-İthaf bi-hubbil-əşraf»ın 18-ci səhifəsində, Xətib Xarəzmi «Məqtəlul-Hüseyn» adlı kitabının II cildində və s. alimləriniz yazırlar ki, məlun Yezid imam Hüseynin (ə) mübarək dodağına və dişlərinə əlindəki çubuq ilə vuraraq, bu dediyim şerləri söyləmişdi.

## ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN MƏLUN YEZİDƏ LƏNƏTİ CAİZ BİLMƏLƏRİ

Bir çox alimləriniz o məlun zındığı kafir bilmişlər. Hətta Əhməd ibn Hənbəd (Hənbəlilərin imamı) və bir çox böyük alimləriniz Yezidə lənət oxunmasını caiz bilmişlər. Xüsusilə Əbdürrəhman Əbul-Fərəc ibn Covzi bu mövzuda «Ər-Rəddu ələl-mütəəssibil-ənid əl-maniu ən ləni Yezid lənətullah» adlı kitab yazmışdır. Əbul-Əla əl-Müərra isə, bu şeri söyləmişdir:

***Zamanəın, davamlı olaraq tövhid və tövhid əhlinin***
***əleyhinə şeytani planlar cızdığını görürəm.***
***Mənim təəccübüm getdikcə, durmadan artır.***
***Görəsən, Qureyşiniz, başda Yezid xəlifəniz olmaqla***
***Həzrət Hüseyni şəhid etmədimi?!***

Amma Ğəzali kimi bir qrup təəssübkeş alimləriniz isə Yezidin tərəfdarı olub, o məlunun etdiklərini təmizə çıxarmaq üçün məntiqsiz və gülünc üzrlər qondarmışlar. Halbuki, alimlərinizin çoxu Yezidin zalımanə və küfr dolu əməllərini təfərrüatıyla yazmışlar. Çünki Dəmiri «Həyatül-Həyavan» və Məsudi «Mürəvvicuz-zəhəb» kitabında belə yazırlar: «Yezidin çox sayda meymunu var idi. Onlara ipəkdən paltar geydirərək boyunlarına qızıl boyunbağı taxıb, onları ağların üzərinə mindirərdi. Bundan əlavə, boyunlarına qızıl zəncir taxılmış bir çox iti var idi. Onlara öz əliylə tumar çəkib, qızıl qablarda su verər, artığını isə özü içərdi. Çox spirtli içkilər içdiyindən, daima məst və sərxoş idi».

Məsudi «Murəvvicuz-zəhəb» kitabının II cildində belə yazır: «Yezidin yolu (əməl və hərəkətləri) Fironluq yoluydu. Hətta Firon idarəçilikdə ondan daha adil idi. Onun səltənəti İslam üçün böyük bir utandırıcı nöqsan qaynağı oldu. Şərab içməsi, həzrət Peyğəmbərin oğlunu şəhid etməsi, O həzrətin vəsisinə (Əli ibn Talibə) lənət oxuması, Kəbəni talan etməsi və bir çox insanların qanını tökməsi, xüsusilə Mədinə camaatını qətlə yetirməsi – sayısız-hesabsız iyrənc əməlləri onun bağışlanmayacağını göstərir».

**Nəvvab:** «Sizdən rica edirik ki, Mədinə əhalisini Yezidin əmriylə qətlə yetirilməsinin nə cür baş verdiyini olduğu kimi bəyan edəsiniz».

**Dəvətçi:** «Tarixçilər, xüsusilə Səbt ibn Covzi «Təzkirə» kitabının 63-cü səhifəsində belə yazır: «**Hicrətin 62-ci ilində Mədinə əhalisindən bir qrup Şama gələrək, Yezidin çirkin əməl və küfriyyatını gördükdə, Mədinəyə döndülər. Beyətlərini pozub, açıq-aşkar ona lənət oxudular. Yezidin Mədinədəki valisi Osman ibn Məhəmməd ibn Əbu Süfyanı da şəhərdən qovdular. Əbdullah ibn Hənzələ (ğəsilul-Məlaikə) belə dedi: «Ey insanlar! Biz əgər Şamdan gəlib Yezidin əleyhinə qiyam etdiksə, bunun səbəbi onun dinsiz olduğu, anaları, qızları və bacılarıyla cinsi əlaqədə olduğu, şərab içdiyi, namaz qılmadığı və Peyğəmbərin övladlarını öldürdüyü üçündür».**

## YEZİDİN BEYƏTİNİ POZDUQLARI ÜÇÜN MƏDİNƏ ƏHALİSİNİN QƏTLƏ YETİRİLMƏSİ

Yezid bu xəbəri eşitdikdə, Müslim ibn Əqəbənin başçılığı altında mədinəlilərin üsyanını dağıtmaq üçün Şam əhalisindən təşkil olunmuş böyük bir ordunu Mədinəyə yolladı. Onlar şəhərə yetişdikdə, üç gün – üç gecə, mədinəliləri qətlə yetirdilər. İbn Covzi, Məsudi və sairə tarixçilər belə yazırlar: «O qədər çox insan öldürdülər ki, küçələrdə qan axmağa başladı, əhali qan gölü içindəydi! Hətta qan Rəsulallahın (s) qəbrinə yetişdi və Məscidün-Nəbi qanla doldu».

Ənsar, Mühacir və Mədinə əhalisinin möhtərəm və şərafətli kişilərindən 700 nəfər öldürdülər. Ümumi əhalidən isə 10 min nəfər qətlə yetirdilər. Müsəlmanların namuslarına toxunduqlarını zikr etməyə həyat edirəm. Sadəcə Səbt ibn Covzinin «Təzkirə» kitabının 163-cü səhifəsində Əbdülhəsən Mədainidən nəql etdiyi bu

cümləylə kifayətlənirəm: «Hirrə faciəsindən (Mədinə əhalisinin qətli) sonra min qadın, ərsiz halda uşaq dünyaya gətirdilər».

Bundan artıq məclisin vaxtını almaq istəmirəm. Düşünüb haqqa yetişmək üçün bu qədər kifayət edər.

**Şeyx:** «Söylədikləriniz hamısı sadəcə Yezidin fasiq olduğunu göstərir və günahkar fasiqin etdiyi əməllər isə əfv edilə bilən şeylərdir. Yezid də tövbə etmiş və Allah da onu bağışlamışdır. Çünki Allah günahları bağışlayandır. O halda, siz nəyə əsaslanaraq ona daima lənət edir və məlun deyirsiniz?».

**Dəvətçi:** «Bəzi vəkillər, (advokat) haqq onlara aşkar olsa belə, maldan, puldan, bir şey əldə etmək üçün yenə də son fürsətə qədər müvəkkillərini müdafiə edirlər. Bilə bilmirəm, siz hansı mənfəətlər üçün o məlun Yezidi bu qədər müdafiə edirsiniz və «o, tövbə etmişdir» deyirsiniz?! Onun küfrlü sözləri, Ovliyaullahı (ə) şəhid etməsi, Mədinə əhalisinin qətli və başqa əməlləri tövbə etdiyi mövzuyla tamamilə uyğun deyil. Yezidin tövbə etməsi rəvayətdir və sabit olmamışdır, amma bizim nəql etdiyimiz hadisələr dirayətdir (dəqiq bir elmdir). Rəvayət dirayətin qarşısında dura bilməz!

Görəsən, məbdəni, məadı, vəhyi, peyğəmbərliyi inkar etmək və mürtəd olmaq sizə görə lənət oxumağa səbəb olan şeylər deyilmi? Allah Qurani-kərimdə zalımlara açıq-aydın lənət etmirmi? Sizə görə Yezid zalım deyilmi?

Möhtərəm Yezid ibn Müaviyənin müdafiəçisi olan vəkil! (Məclisdə olanların şiddətlə gülməsi) Əgər bu gətirdiyim dəlilləri yetərli görmürsünüzsə, izninizlə böyük alimlərinizin nəql etdiyi iki hədisi bildirim və bu mövzunu qurtaraq artıq. Üslim və Buxari «Səhih»lərində, Əllamə Səmhudi «Tarixul-Mədinə»də, Əbul-Fərəc İbn Covzi «ər-Rəddu ələl-mütəəsibil-ənid»də, Səbt ibn Covzi «Təzkirətu xəvassil-ümmə» də, imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında və başqa şəxslər Rəsulallahın (s) belə buyurduğunu nəql etmişlər:

«***Kim Mədinə əhalisini zülmlə qorxudursa, Allah da (Qiyamət günü) onu qorxudar. Allahın, mələklərinin və bütün insanların lənəti olsun belə bir zalım insana. Qiyamət günü Allah-təala bu cür əməl sahibinin heç bir əməlini qəbul etməz***».

Yenə başqa bir hədisdə belə buyurmuşdur:

«***Mənim şəhərimi (Mədinə əhalisini) qorxudana Allah lənət etsin***».

Mədinədə baş verən bu faciə, müsəlmanların kütləvi qətli, namuslara təcavüz və malların talan edilməsi Mədinə əhalisinin qorxmasına səbəb olmamışdırmı? Əgər bunu qəbul edirsinizsə, bilik ki, Allah, Peyğəmbəri (s), mələkləri və bütün insanlar o alçaq insana lənət etmiş və Qiyamətə qədər də lənət edəcəklər.

Alimlərinizin çoxu Yezidə lənət etmiş, ona lənəti caiz bilmiş və bu mövzuda kitablar da yazmışlar. Məsələn: Əllamə Əbdullah ibn Məhəmməd ibn Amir Şəbravi Şafei «əl-İthaf bi hubbil-əşraf» adlı kitabının 20-ci səhifəsində Yezidə lənət etmə mövzusunda bunu nəql edir: «Molla Səd Təftazaninin yanında Yezidin adını söylədikdə, o, belə dedi: «Allahın lənəti olsun ona, əshabına və yardımçılarına».

Əllamə Səmhudi «Cəvahirul-əqdəyn»dən belə nəql edir: «Alimlər həzrət Hüseyni (r.z) qətl edənə, onu öldürməyə əmr, ya da izn verənlərə və ya onun qətlinə razı olanlara lənət etməyin caiz olduğu mövzusunda ittifaq etmişlər».

Yenə İbn Covzi, Əbu Yəla və Əhməd ibn Hənbəldən Quran və hədislər baxımından Yezidin lənətlik olduğunu isbat edən dəlillər gətirdiklərini nəql edir. Məclisin vaxtı onları burada bildirməyə imkan vermir.

Əgər vaxt keçməsəydi, bu mövzu üzərində daha çox durardıq. Bu söylədiyim müqəddimədən anlayın ki, imam Hüseynin (ə) İslam və müsəlmanların üzərində böyük bir haqqı vardır. Çünki O, məzlumiyyət gücüylə belə bir zalımlığın və zalımın kökünü qazıdı. Özü və Əhli-beytinin qanıyla bəni-Üməyyənin, xüsusilə də məlun Yezidin zülmüylə qurumaqda olan «La ilahə illallah» ağacını öz qanıyla sulayıb, İslam və tövhidə yenidən həyat qazandırmışdır.

Təəssüfləndirici şey budur ki, siz İmam Hüseynin (ə) xidmətlərini təqdir etmək əvəzinə, Onun ziyarətinə gedənlərə etiraz edir, qınayır və onlara başqa nisbətlər verib, yaraşmayan adlar qoyursuz. Hər il milyonlarla insanın ima Hüseynin (ə) ziyarətinə getdiyindən və matəm tutub O məzlumun qəribliyinə ağladığına görə şikayətlənirsiz.

# ADSIZ ƏSGƏR MƏZARI

Qəzetlərdə, jurnallarda və ya Qərbin bəzi ölkələrinə gedib-gələnlər Paris, London, Berlin, Vaşinqton və başqa bu kimi şəhərlərdə «Adsız əsgər» deyə adlanan qəbirlər olduğunu söyləyirlər. Bu qəbirlərin üzərində abidə ucaldan xalqların məqsədini belə açıqlayırlar: Bu əsgər zalımların zülmünə qarşı vətənini qorumaq üçün canından keçmişdir. Amma onun bədənindən və paltarından kim olduğu və hansı ailə və şəhərdən olduğuna dair hər hansı bir məlumat və əlamət yoxdur.

O, əsgər hər nə qədər adsız və kimliyi naməlum olmasına baxmayaraq, qanını zalımların zülmünü dəf etmək yolunda axıtdığı üçün dəyəri vardır. Hər hansı bir dövlət adamı, baş nazir, nazir və ya dövlət məmuru o şəhərlərdən birinə səfər etsə, ehtiram üçün o adsız əsgərin qəbrini ziyarət edər və məzarı üstünə gül çələngi qoyur. Ona, milli heysiyyətlərini dünya millətləri qarşısında qorumaq üçün ehtiram göstərirlər.

İndi insaflı ağalardan soruşuram: biz müsəlmanlar 72 nəfər bilinən, tanınan, hamısı alim, abid və təqvalı, onlardan bəzisi isə Quran qarisi və hafizi olan, zalımların zülmü qarşısında din və tövhidi, İslam və ədaləti müdafiə etmək yolunda canlarından keçən və əksəriyyəti də həzrət Peyğəmbərin (s) pak Əhli-beytindən (ə) olan insanları yad edən və onları ziyarət edənləri təqdir və təşviq etmək əvəzinə, onlara maneçilik törətmək, təhqir etmək, təəssübkeş alimlərin təhrikləriylə onların qəbirlərini dağıtmaq və ondan qəhvə düzəltmək utandırıcı deyilmi?!

Hicri-qəməri 1216-cı ilin Qədiri-Xum bayramı günü Kərbəla əhalisinin çox hissəsi ziyarət məqsədilə Nəcəfi-əşrəfə səfər etmişdilər. Həcdli vəhhabilər fürsəti qənimət bilib, Kərbəlaya hücum edərək müdafiəsiz zəif şiələri qətlə yetirib, mallarını talan etdilər. Tövhid yolunda can vermiş İslam fədakarları imam Hüseynin (ə) və Onunla birlikdə şəhid olanların) müqəddəs qəbirlərini dağıdıb, yerlə-yeksan etdilər!

Kərbəla əhalisindən təxminən 5 min nəfəri, alim, cahil, zəif, güclü, böyük, kiçik bilmədən, hətta günahsız qadın və uşaqları vəhşicəsinə qətlə yetirdilər. İmam Hüseynin (ə) məqbərəsindəki xəzinələri talayıb qiymətli daşları, antik əşyaları apardılar. Hətta qəbrin üstündəki sənduqəni yandırıb, ondan qəhvə düzəltdilər. Bir çox insanı da əsir edib, özləriylə apardılar. İnna lillah və inna ileyhi raciun (Yazıqlar olsun belə bir müsəlmanlığa!)

Dünyanın bütün ölkələrində alimlərin, sultanların, ziyalıların, hətta adsız əsgərlərin qəbirləri belə ehtiramla yad edildiyi halda, müsəlmanların öz iftixarları olan insanların qəbirlərini qorumaları bir yana, onları vəhşicəsinə dağıdıb talan etmələri, həqiqətən, çox üzücüdür.

Hətta həzrət Həmzə kimi Ühüd şəhidlərinin qəbirlərini, Əbdülmüttalib və Əbdullah kimi həzrət Peyğəmbərin (s) ata və babalarının qəbirlərini, imam Həsən Müctəba (ə), İmam Zeynul-Abidin (ə), imam Baqir (ə) və imam Sadiq (ə) kimi Rəsulallahın (s) övladları və İslamın iftixarları olan digər kəslərin qəbirlərini Məkkə və Mədinədə dağıdıb yerlə-yeksan edib, sonra da özlərinə «biz müsəlmanıq» deyirlər! AMma öz rəhbərlərinin və sultanlarının qəbirlərinin üzərində abidələr ucaldırlar!

Sizin və bizim alimlərimiz möminlərin qəbirlərini ziyarət etmək haqqında, onların müxtəlif hadisələrdən, vaqiələrdən qorunması üçün bir çox hədislər nəql etmişlər. Rəsulallah (s) bilavasitə özü möminlərin qəbirlərini ziyarət edib, onlar üçün məqfiət diləyirdi. Buna baxmayaraq, bir qrup qara əllər din adıyla İslamın iftixarı olan böyük şəxsiyyətlərin qəbirlərini dağıdıb, onlardan ən kiçik bir əlamət belə qoyurdular. Sözün qısası, deyiləsi dərdlərimiz çoxdur.

***Bu ayrılığın və bağrı qan olmanın***
***Şərhi sonrakı zamana qalsın.***

# ALİ-MƏHƏMMƏD (Ə) HAQQ YOLUNUN ŞƏHİDLƏRİ VƏ DİRİLƏRİDİR

Siz din və tövhid yolunda can verən o uca ailənin insanlarını şəhid olaraq qəbul edirsiniz, yoxsa etmirsiniz? Əgər şəhid qəbul etmirsinizsə, o zaman dəliliniz nədir? Əgər şəhid qəbul edirsinizsə, o zaman nəyə əsasən onlara ölü deyirsiniz? Məgər Quran «***ONlar diridirlər və Rəbbləri yanında ruzi yeyirlər***» deyə buyururmu? Demək, Quran və hədislərin hökmüylə Onlar (ə) diridirlər, ölü deyillər. Belə isə biz ölüyə tapınmırıq, onlarla salamlaşmırıq. Əksinə, biz dirilərlə danışırıq. Şiələrin heç biri ONları (ə), istəklərin qəbul edilməsində əsas olaraq görmürlər. Onları (ə) Allahın saleh qulları və Allah yanında etibarlı şəxslər olaraq qəbul edib, vəsiləsiylə Allaha yönəlirlər. (Bu mövzuya əvvəlcədən toxunmuşduq) Lakin hacətlərini (istəklərini) Onlara (ə) ərz edirlər. Çünki İmamlar (ə) saleh və etibarlı olduqları üçün Allahdan, biz günahkar qullara inayət etməsini istəməkdədilər. Əgər şiələr, Ya Əli (ə), Ya Hüseyn (ə) deyirlərsə, bu buna bənzəyir ki: Məsələn bir nəfərin padşahdan bir istəyi olur, o da padşahın vəzirinin yanına gedib; Möhtərəm vəzir lütfən mənə yardım edin, deyirsə, o şəxs heç bir zaman vəzirə padşah gözüylə baxmır. O, vəzirin yanına getməklə vəzirə bunu demək istəyir: Sizin padşahın yanında etibarınız vardır, lütfən vasitəçilik edin ki, mənim bu işimi düzəltsin.

Eyni şəkildə şiələr də, heç bir zaman Ali-Məhəmmədi (ə) Allah ya da Allahın fellərinin (işlərinin) şəriki olaraq qəbul etmirlər. Onları (ə) Allahın saleh qulları olaraq görürlər. Çünki ONlar (ə), ibadət, təqva və şəri riyazətlər nəticəsində, pak fitrətləri Allahın yanında xüsusi bir məqama sahib olmuşdur. Bu səbəbdən hər iki aləmdə Onlara (ə) İmamət, vilayət və böyük məqamlar verilmiş, Allahın izni və əmriylə yaradılmışlar üzərində təsərrüf haqqında sahibdirlər.

Onlar (ə), Allah-təalanın əminləri və vəkilləri olduqdları üçün, istəklərimizi Allaha ərz edirlər. Əgər uyğun olarsa, istəyimiz yerinə yetirilir. Əks təqdirdə, əvəzi axirətdə verilir. Biz bunları əmələn edir və nəticə də alırıq.

Bunlar «Nə səbəbdən ölülərlə danışırsız?» sualınıza verdiyim qısa cavablardır, bu mövzu daha geniş bir şəkildə açıqlana bilər.

Bir incə nöqtəni də nəzərinizə çatdırmaq istərdim. O da budur ki, şiələr məsum imamın məqamını, digər şəhidlərin məqamından daha üstün bilirlər. Yəni onların məqamı, digər şəhidlər kimi sadəcə diri olduqları mövzusundan başqa bir şeydir. İmamların sadəcə diri olduqlarına deyil, daha böyük məqamlara sahib olduqlarına inanırlar.

**Hafiz:** «Bu cümləniz izaha ehtiyacı olan bir müəmmaya bənzəyir. Sizin imamınızın başqa imalardan fərqi nədir? Sizin imamlarınızın sadəcə seyid olub, Rəsulallahın soyuna mənsub olmaqdan başqa hər hansı bir üstünlükləri yoxdur!».

**Dəvətçi:** «Ortada heç bir müəmma yoxdur. Ömrünüz boyu imamət məqamını tanımadınız və ondan uzaq düşdüyünüz üçün bu mövzunu anlamaq sizə çox çətin gəlir. Əgər təəssüb və adətlərdən kənara çıxıb elm, ağıl, məntiq və insafla imamət məqamını araşdırsanız, şiənin imamət məqamına olan inancıyla sizin imamətə olan inancınız arasındakı fərqin nə qədər aşkar və aydın olduğunu görərsiniz.

Bu mövzunu isbat edə bilmək üçün sabahı gözləməyimiz lazımdır. Çünki bu önəmli mövzu geniş bir vaxt tələb edir. İnşallah, sabah söhbət edərik».

(Məclisi burada tamamladıq. Sübh azanına yaxın olduğu və söz uzandığı üçün imamət mövzusunu sabah axşam bəhs edilməsi qəbul edildi. Gülər üzlə ağları yola saldıq. Onlar da mehribancasına məclisi tərk etdilər.

# DÖRDÜNCÜ GECƏ

## HƏQİQƏTİ KƏŞF EDƏNLƏRİN MİNNƏTDARLIĞI

24 Rəcəb, bazar ertəsi gecəsi, 1345-ci il (1924)

Məğribin əvvəl vaxtı idi. Hələ məclis rəsmi olaraq başlamamışdı. Bu vaxt üç nəfər içəri daxil olub, oturdular, onlardan bir nəfər danışmaq üçün izn istədi.

İzn aldıqdan sonra üzünü mənə tutub dedi: «Bu gün axşama qədər hər tərəfdə; evlərdə, məscidlərdə, idarələrdə və bazarda hamı sizin haqqınızda danışdı. Kimin əlində bir qəzet gördükdə camaat onun ətrafına toplaşaraq, bəyanlarınız haqqında mübahisə edirdi. Xalqda sizə qarşı böyük bir rəğbətin oyandığının şahidi olduq; hər kəsin qəlbinə nüfuz etmisiniz. Üzərimizdə çox böyük haqqınız var. Çünki elə şübhələri həll edirsiniz ki, ömrümüz boyu böyüklərimiz bizə onların əksini öyrədiblər. Biz bir camaat olaraq şiəni müşrik bildiyimizə görə sizdən üzr istəyirik. Amma nə edək ki, uşaqlıqdan bu şəkildə öyrədiblər. İndi bağışlayan Allahdan ümidimiz tövbəmizi qəbul etməsidir.

Söhbətlərinizin jurnal və qəzetlərdə nəşr edilməsi bu bir neçə gündə oxucularının bir neçə dəfə sayını artırıb. Söhbətlər xalqın böyük bir hissəsinə aydınlıq gətirib. Xüsusilə məclislərdə bilavasitə iştirak etdiyimizdən sözlərinizdəki lətafətdən daha çox istifadə etmişik. Sizə olan rəğbətimiz daha da artıb. Xüsusilə dünən axşam çox gözəl bir şəkildə pərdələri aradan qaldırıb, həqiqətlərin aydınlığa qovuşmasını təmin etdiniz. Ümid edirik ki, pərdələr qaldırılaraq daha çox həqiqətlər kəşf ediləcəkdir.

Daha əvvəl də ərz etmişdik ki, bizi ən çox təsirləndirən söhbətlərinizdəki sadəlikdir. Mövzunu bizim öz dilimizlə o qədər sadə və anlaşılan bir şəkildə bəyan edirsiniz ki, oxumaq-yazmaq bilməyən xalq belə sizi anlayır. Buna görə də hər kəs cazibənizə qapılmış vəziyyətdədir. Bunu da nəzərə alın ki, bu cəmiyyətlə hər yüz nəfərdən beş nəfər belə elmi məsələlərdən xəbərdar deyildir. Onlar uşaqlıqdan bəri eşitdikləri hər şeyə kor-koranə inanıb, qəlbən bağlanmışlar. İndi bu insanlara gizli qalan həqiqətlər incəliklə öyrədilməlidir; siz də bu işi gözəl bir şəkildə bacarırsız. Daha mükəmməl nəticələr əldə edəcəyimizə ümid bəsləyirik».

Bu qardaş sözünü qurtarmışdı ki, ağalar məclisə daxil olub, əyləşdilər. Hamımız bir yerdə çay içdikdən sonra söhbət başladı.

**Nəvvab:** «Dünən axşam qərar oldu ki, bu günki məclisdə imamət mövzusu ətrafında danışılsın. Çoxumuz bu mühüm məsələni bilmək üçün böyük bir ehtiyac duyuruq. Çünki mövzu bizim üçün anlaşılmaz olan məsələlərin əslini təşkil edir. İmamət haqqında aramızdakı ixtilafın aydınlığa qovuşması üçün ricamız, sadəcə bu mövzu ətrafında danışmağımızdır».

**Dəvətçi:** «Əgər siz tərəfdən bir çətinlik yoxdursa, mən hazıram».

**Hafiz:** (Rəngi saralmış və sıxıntılı bir halda) «Biz tərəfdən də bir çətinlik yoxdur; necə məsləhət bilirsiniz, buyurun».

## İMAMƏT MÖVZUSUNDA BƏHS

**Dəvətçi:** «Bildiyiniz kimi, «imam» kəlməsinin bir neçə mənası var. Lüğətdə rəhbər mənasındadır. Yəni imam camaatın rəhbəridir. Məsələn «camaat imamı» dedikdə, camaat namazında hamıdan öndə durub namaza rəhbərlik edən mənasındadır; «xalqın imamı» dedikdə, yəni xalqın siyasi, ya ruhani, ya da başqa işlərdə başçısı mənasındadır; «Cümə imamı» dedikdə də, həmçinin xalqın cümə namazına rəhbərlik edən mənasındadır.

## ƏHLİ-SÜNNƏTİN DÖRD MƏZHƏBİ HAQQINDA BƏHS VƏ HƏQİQƏTİN BƏYANI

Əhli-sünnətdən olanlar öz rəhbərlərinə imam deyirlər. Məsələn: İmam Əbu Hənifə, ima Malik, imam Şafei, imam Əhməd. Yəni dini məsələlərdə onların rəhbərləri olan fəqih və müctehidlər ki, halal və haramı, ictihad və qiyasla bir-birindən ayırmışlar. Buna görə də bu şəxslərin fiqhi kitablarını oxuduqda bir çox ixtilafın mövcud olduğunun şahidi oluruq.

Bu cür rəhbərlər bütün məzhəb və dinlərdə vardır. Sizin imam olaraq qəbul etdiyiniz şəxslər şiədə də fəqih ünvanıyla vardırlar. Bu şəxslər 12-ci İmam həzrət

Mehdinin (ə) qeybəti dövründəki müddətdə kitab sünnət, ağıl və icmanı əsas tutaraq fitvalar verirlər. Amma biz bu şəxsləri imam olaraq adlandırmırıq. Çünki imamət sadəcə həzrət Peyğəmbərin (s) Əhli-beytindən (ə) olan 12 vəsiqəyə məxsusdur. İctihadda sizinlə bizim aramızda bir fərq vardır; o da budur ki, sizin böyükləriniz ictihad qapısını bağlamışlar. Hicri V əsrdə padşahların əmri və o günkü mövcud üləma və fəqihlərin qərarıyla ictihad dörd nəfərə məxsus edilmiş və dörd məzhəb, yəni Hənəfi, Maliki, Şafei və Hənbəli məzhəbləri rəsmi məzhəb olaraq qəbul olunmuş; xalq da onlardan birinə təqlid etməyə məcbur edilmişdir. Bax, bu vəziyyət günümüzə qədər davam etməkdədir.

Təqlid məqamında da bu dörd şəxsdən birinin digərlərinə udul edilməsinə dair hər hansı bir dəlil də yoxdur. Yəni Hənəfinin Malikiyə və ya Şafeinin Hənbəliyə hansı xüsusiyyətiylə üstün olduğu bəlli deyildir. Əgər İslam ümməti bu dörd şəxsin fitvalarının kənarına çıxmamağa məcbur edilirsə, böyük bir durğunluq meydana gəlir. Belə bir vəziyyətdə inkişaf və irəliləyiş heç bir şəkildə bu ümmət üçün mümkün ola bilməz. Buna əlavə olaraq İslam dininin bir xüsusiyyəti də bütün zamanlarda mədəniyyət istiqamətində inkişaf etməsidir. Bu inkişaf və tərəqqi hər dövrdə İslamın ümumi əhatəsini qorumaq şərtiylə bir qrup ictihad əhlinin varlığını çətinləşdirir.

Bir çox yeni məsələlər var ki, bu mövzularda ölmüş bir müctehidə təqlid etmək mümkün deyildir. Bu cür vəziyyətlərdə diri bir müctehidə müraciət edib onun fitvasına görə əməl etmək məcburiyyətindəyik.

Siz əhli-sünnət üləması arasında sonradan elmi dərəcəsi çox yüksək olan müctehidlər yetişdi. Bu şəxslər elmi olaraq o dörd nəfərdən daha yüksək məqama sahibdirlər. Mən ictihad məqamının hansı dəlilə əsaslanaraq istisnasız bir şəkildə bu dörd nəfərə xas edildiyi və digər insanların elmi haqlarının əllərindən alındığını bilmirəm! Amma şiə cəmiyyətində bütün müctehidlər İmam Zamanın zühuruna qədər ictihad haqqına sahibdirlər. Biz təqlidə ilk başlayan birinin ölüyə təqlid etməsini, əsla, caiz bilmirik.

# DÖRD MƏZHƏBİ TƏTİB ETMƏYİN DƏLİLİ YOXDUR

Çox təəccüblüdür; siz həzrət Peyğəmbərin (s) əmriylə (bunun dəlilləri öz kitablarınız da açıq bir şəkildə nəql edilmişdir) O həzrətin soyundan gələn 12 İmamı təqib edən şiəni bidətçi və ölüpərəst olaraq bilirsiniz. Hansı dəlillərə əsaslanaraq bütün müsəlmanları üsulda Əşəri və ya Mötəziliyə, füruda isə dörd məzhəbdən birini təqib etməyə məcbur etdiyiniz məlum deyildir!

Əgər bir nəfər sizin o dəlilsiz iddialarınızı qəbul etməyərək Əşəri, ya da Mötəziləni əqaiddə və dörd məzhəbdən birini də füruda təqib etməzsə, siz onu Rafizi, müşrik və qanını halal bilirsiniz! Əgər bu gün bir nəfər; «Həzrət Peyğəmbərdən (s) Əbul-Həsən Əşərinin və ya Əbu-Hənifənin, Malik İbn Ənəsin, Məhəmməd ibn İdrisin Şafeinin və Əhməd ibn Hənbəlin təqib edilməsinin vacibliyinə dair hər hansı bir xəbər bizə yetişməmişdir, onlar sadəcə müctehid və fəqihdilər və ictihadı da onlara xas etmək bidətdir» deyərsə, nə cavab verərsiniz?!».

**Hafiz:** «Dörd məzhəb imamı fəqihlik məqamına elm və ictihadın yetişdiklərinə görə, əmanət və ədalət əhli, təqva, vərə və zöhd sahibi olduqlarından onları təqib etmək bizim üçün vacibdir».

**Dəvətçi:** «Xüsusən sizin söylədikləriniz, qiyamət gününə qədər ictihadın bu şəxslərə xas edilməsinə və xalqın da onları təqib etməyə məcbur edilməsinə dəlil ola bilməz. Yuxarıda sadalanan xüsusiyyətlərin bütün alimlərinizdə olmasının vacibliyinə inanırsınız. İctihadlı bu dörd nəfərə məxsus etdiyiniz sonradan gələn alimlərə tohindir. Bir və ya bir neçə şəxsi təqib etməyə müsəlmanların məcbur edilməsi, həzrət Peyğəmbərdən (s) qəti bir əmr gəldiyi təqdirdə qəbul edilə bilərdi. Həzrət Peyğəmbərdən sizin dörd imamınız haqqında belə bir əmr olmamışdır. Vəziyyət belə olduğu halda siz məzhəblərin sayını nə üçün dörd ilə məhdudlaşdırıb və sadəcə onlardan birinin təqibçisi olmağı haqqın ölçüsü sayırsınız?

# BU MARAQLI HADİSƏ İNSAFLI ELM ƏHLİNİN DİQQƏTİN CƏLB EDƏR

Çox gülüncdür ki, bir neçə gecə əvvəl şiənin Rəsulallahın (s) dövründə olmayan, Osmanın dövründə meydana gələn siyasi bir firqə olduğunu və təqlid edilməsinin caiz olmadığını söylədiniz. Bunun belə olmadığını – şiə məzhəbinin Rəsuli-əkrəmin (s) mübarək əmriylə öz dövründə qurulduğunu iki gün əvvəlki məclisdə əqli və nəqli dəlillərlə isbat etdik. Bu məzhəbin birinci imamı və rəisi olan həzrət Əli ibn Əbu Talibi (ə) həzrət Peyğəmbərimiz (s) bilavasitə özü böyütmüş və elmləri də bilvasitə özü ona öyrətmişdir.

Yenə mötəbər kitablarınızda Peyğəmbərin (s) həzrət Əlini (ə) elmin qapısı olaraq vəsf etdiyi, Ona edilən itaətin özünə edilən itaət və Ona edilən müxalifətin özünə edilən müxalifət olduğunu 70 min nəfərlik bir cəmiyyətin hüzurunda açıqladığı və sonra da Onu özündən sonrakı xəlifə və ima olaraq tanıtdığı və bütün müsəlmanlara, hətta Ömər və Əbu Bəkirə belə Ona beyət etmələrini əmr etdiyi nəql olunmuşdur!

Dörd məzhəbiniz – Hənəfi, Maliki, Şafei, Hənbəli – hansı təməl üzərində qurulmuş və dörd imamınızdan biri Rəsulallahla (s) görüşmüşdür?! Həzrət Peyğəmbər (s), onlardan hansı biri haqqında bir göstəriş vermiş və ya tövsiyə etmişdir ki, xalq kor-koranə onları təqib etməyə məcbur olsun?! Özünüz də dəlilsiz bir şəkildə onları təqlid edirsiniz. Onların mütləq imamətlərinə dair heç bir dəlil yoxdur!

Onlar haqqında söylənilə biləcək tək şeyi siz də buyurdunuz: alim fəqih, zahid və təqva əhli idilər və onların dövründə yaşayan xalqın da onları təqlid etmələri lazım idi. Bu, əsla, bütün müsəlmanların, Qiyamət gününə qədər onları təqlid etmək məcburiyyətində olmaları mənasına gəlməz!

Bunlara əlavə olaraq, yuxarıda zikr edilən sifətlər, həzrət Peyğəmbərdən gələn qəti dəlillərlə birlikdə Onun pak Əhli-beytində cəm olduğu halda Onları təqib etmək daha doğrudur, yoxsa heç bir xəbərin yetişmədiyi şəxslərmi?

Görəsən, Peyğəmbərin (s) dövründən onda heç bir əlamətin olmadığı, heç bir məzhəb imamı haqqında Rəsulallahdan hər hansı bir xəbərin bizə yetişmədiyi və Ondan bir əsr sonra meydana gələn məzhəblər, siyasi məqsədlərə görədir? Yoxsa təməlləri Rəsulallah (s) tərəfindən qoyulan, ilk imamı bilavasitə O həzrət tərəfindən yetişdirilən, digər on bir imamı haqqında bir-bir adlarıyla birlikdə Peyğəmbərdən düsturların yetişdiyi və hədislərdə ONları Qurana bərabər edərək, «Səqəleyn» hədisində «***Quran və Əhli-beytə bağlanan xilas olmuşdur; Onlardan ayrılan isə həlak olmuşdur***» deyə buyurduğu, «Səfinə» hədisində də:

«***Onlardan (Əhli-beytdən) uzaqlaşan həlak olmuşdur***» deyə bildirdiyi məzhəbimi siyasi və qondarma bilməliyik?!

İbni Həcər «Səvaiq» adlı kitabının 135-ci səhifəsindəki «Vəsiyyətun-nəbi» bölümündə həzrət Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişdir:

«***Quran və Əhli-beytim sizin aranızda mənim əmanətimdir. Kim birlikdə ikisinə də sarılırsa heç bir zaman yolunu azmaz***».

İbni Həcər deyir: «Bu hədisi təyid edən başqa bir hədis də vardır; o da Rəsulallahın buyurduğu bu hədisdir:

«***Quran və Əhli-beytdən nə qabağa keçin və nə də geriyə qalın; yoxsa həlak olarsınız. Onlara bir şey öyrətmək fikrinə düşməyin; çünki onlar sizdən daha alimdirlər***».

İbni Həcər bu hədisləri nəql etdikdən sonra nəzərini belə bildirir: «**Bu hədislər Peyğəmbərin Əhli-beytinin elmi dərəcəsi və dini vəzifəsinin başqalarına nisbətdə onların birincilik haqqına sahib olduqlarına dəlildir**».

Maraqlısı budur ki, İbn Həcərin özü, Əhli-beytin digərlərinə nisbətdə dini vəzifə və elmi məsələlərdə birincilik haqqına sahib olmalarını etiraf etməsinə baxmayaraq, üsulda Əbül-Həsən Əşəriyə və füruda isə dörd məzhəb imamından birinə təqlid edib! Bunun səbəbi, təəssüb və inadkarlıqdır! Əgər sizin buyurduğunuz kimi imam və fəqihləriniz onlara itaət edilə bilən elm, təqva, vərə və ədalət əhlidirlərsə, o zaman nə səbəbdən onlardan bəziləri digərlərini fasiqlik və küfrlə ittiham etmişlər?!».

**Hafiz:** «Çox insafsızlıq edirsiniz və ağzınıza gələni deyirsiniz. Hətta bizim alimlərimizə iftira edərək, onların bir-birlərini mürtədlik, fasiqlik və küfrlə ittiham etmək dərəcəsinə gəldiklərini iddia etdiniz. Bu söylədikləriniz tam bir yalandır! Əgər əhli-sünnət üləması haqqında bir qrup tənqidlər edilmişsə də, şiə üləması tərəfindən olmuşdur. Bizim üləmamız bir-birləri haqqında öz məqamlarına layiq olan vəsf və təzimdən başqa bir bəyanda olmamışlar!».

**Dəvətçi:** «cənabali, siz ya öz alimlərinizin mötəbər kitablarında yazılanlardan xəbərsizsiniz, ya da bilərəkdən özünüzü belə göstərirsiniz. Yəni bilirsiniz; amma aldatmağa çalışırsınız. Böyük alimlərinizdən bir çoxu, bir-birlərinin kitablarına tənqidlər yazmışlar. Hətta dörd məzhəb imalarınızdan bəziləri də bir-birlərini fasiqlik və küfrdə ittiham etmişlər».

**Hafiz:** «Bu halda buyurun. Söylədikləriniz, hansı alimlərin hansı kitablarında yazılmışdır. Əgər yadınızda olan varsa bəyan edin».

**Dəvətçi:** «Əbu Hənifə və İbn Həzmin əshabı (təqibçilir) və daha neçəsi, ardıcıl olaraq ima Malik və imam Məhəmməd ibn İdris Şafeinin toxunmuş və eyblərini söyləmişlər. Eyni şəkildə imam Şafeinin əshabından olan imamul-Hərəmeyn, ima Qəzali və digərləri, Əbu Hənifə və Malikin eyblərini zikr etmişlər. İndi sizdən soruşuram: «İmam Şafei və Əbu Hamid ibn Məhəmməd Qəzali və Carullah Zəməxşəri necə insanlardır?»

**Hafiz:** «Tanınmış alim və fəqihdirlər, eyni zamanda camaatın imamlarındandırlar».

## ƏHLİ-TƏSƏNNÜN ALİMLƏRİ VƏ İMAMLARININ ƏBU HƏNİFƏNİ RƏDD ETMƏSİ

**Dəvətçi:** «İmam Şafei Əbu Hənifə haqqında belə söyləyib: «Müsəlmanlar arasında Əbu Hənifədən daha uğursuz bir insan dünyaya gəlməmişdir».

Yenə başqa bir yerdə belə deyir: «Əbu Hənifənin əshabından olan bəzi şəxslərin kitablarına baxdım və onların içərisində 130 səhifədə Allahın kitabına və Peyğəmbərin sünnətinə ziddiyyət gördüm».

Əbu Hamid Qəzali «Mənxulun fi Elmil Üsul» adlı kitabında belə deyir: «Əbu Hənifə şəriətin altını üstünə çevirərək özünü pərişan etdi. Şəriətin yolunu dəyişdirdi. Şəriətin bütün qanunlarını, icad etdiyi bir qrup əsaslarla (qaydalarla) viran etdi. Hər kəs belə bir işi qəsdən və nə etdiyini bildiyi halda halal bilərək edər və etdiyi işi də halal bilirsə kafirdir! Hər kəs belə bir işi halal bilmədən edərsə fasiqdir». (Əbu Hənifə bu böyük alimin sözünə görə ya kafirdir, ya da fasiq!)

Qəzali bu mövzuda Əbu Hənifəyə aid və onu fisqlə günahlandıran bir neçə söz də yazmışdır. Amma mən onları nəql etmək istəmirəm.

Böyük alimlərinizdən olan «Kəşşaf Təfsiri»nin müəllifi Carullah Zəməxşəri «Rəbiul-əbrar» kitabında Yusif ibn Əbsatdan belə nəql edir: «Əbu Hənifə həzrət Peyğəmbərin hədisləriylə ziddiyyətli 410-dan çox hədis nəql etmişdir».

Yenə Əbu Yusif deyir: «Əbu Hənifə belə buyurdu: «Peyğəmbər məni görsəydi, söylədiklərimin çoxuna tabe olardı!»

Əbu Hənifənin əleyhinə yazılan bir çox sözlər sizin böyük alimlərinizin kitablarında mövcuddur. Əbu Hənifə və ya digər üç məzhəb imamları haqqında Qəzalinin «Mənxul», Şafeinin «Nuqətuş-Şərifə», Zəməxşərinin «Rəbiul-əbrar» və İbn Covzinin «Müntəzəm» kitablarına müraciət edə bilərsiniz. Hətta Qəzali «Mənxul» kitabında daha çox deyir:

«Əbu Hənifənin sözlərində bir çox xəta vardır. O, hədis, lüğət və nəhv elmlərini də bilmirdi.

«Əbu Hənifə (Qurandan sonra dinin əsas və təməli olan) hədis elmini bilmədiyinə görə qiyas edirdi. Qiyasla ilk əməl edən şeytandır». (kim qiyasla əməl edərsə, şeytanla məşhur olacaqdır).

İbni Covzi «Müntəzəm» kitabında deyir: «**Hər kəs Əbu Hənifənin xətaları mövzusunda ittifaq etmişdir. Amma onu xətalarına görə itdihamlandıranlar üç qrupa bölünür. Bir qrup onu Üsuli-əqaiddə sabit bir nəzərə, başqa qrup hədis elmində güclü bir hafizəyə sahib olmadığına görə itdiham edir. Digər bir qrup isə öz rəyi və qiyas ilə əməl etdiyinə və onun bəzi rəylərinin səhih hədislərin əksinə olduğu üçündir deyə itdiham etişdir**».

Sizin bu imamlarınız haqqında öz alimlərinizin diliylə və qələmiylə bu cür itdihamları çoxdur. Amma bu anda onları söyləməyin vaxtı deyil. Əslində, mən bu mövzuya toxunmaq istəmirdim. Amma siz mənim vğzıma gələni söylədiyii və sünni üləma və imamlarına istinad edilən itdihamların sadəcə şiə üləması tərəfindən irəli sürüldüyünü söylədikdən sonra etdiyiniz bu tənqidin yersiz olduğu üçün bu mövzuya toxundum. Tənqidləriniz məntiqsizdir! Mənim cavabımsa elm, əqil və məntiqlə uyğun olmaqla bərabər, təəssübdən də uzaqdır!

Şiə üləmasının sizin məzhəb imaları haqqında etdiyi tənqidlər, öz alimlərinizin etdiyinindən fərqli deyil! Amma şiə üləması, 12 İmamımızın (ə) müqəddəs məqamları haqqında, üləmanız arasında olan ixtilafların əksinə olaraq ən kiçik bir ixtilafları belə yoxdur. Çünki İmamlarımızın hamısını eyni məktəbin yetirmələri bilirik və onların hamısına yetişən ilahi feyzlər eynidir! Onların hamısı Xatəmül-ənbiyaya (s) nazil olan dinin əmrləriylə əməl etmişlər. Onlar İslam haqqında özlərinə xas nəzər və fikirlərə sahib deyillər. Çünki Onlar İslamı həzrət Peyğəmbərdən (s) öyrənmişlər. Buna görə də ONların arasında heç bir ixtilaf mövcud deyildi. Çünki Onlar lüğətdə rəhbər mənasında olan imamlar deyil, Rəsulallah (s) tərəfindən təyin edilən həqiqi imamlardır.

## İMAMƏT ŞİƏ ƏQİDƏSİNƏ GÖRƏ ÜLVİ BİR İLAHİ MƏQAMDIR

İmamət, üləmanın elmi – kəlam istilahlarında bəyan etdikləri kimi – ilahi bir məqamdır ki, o da üsuliddindəndir. Əqidəmizdə imamət ilahi bir məqam olaraq Rəsulallah (s) tərəfindən irəli sürülən, din və dünya işlərində ona itaəti vacib olan idarəçilikdir».

**Şeyx:** «İmamətin üsuliddindən olduğuna dair qəti dəlillər gətirə bilsəydiniz yaxşı olardı. Çünki böyük İslam alimləri İmaməti üsulu dindən deyil, füruiddindən saymışlar və şiə üləması dəlilsiz bir şəkildə imaməti üsuliddinin bir hissəsi bilirlər».

**Dəvətçi:** «Bu bəyan sadəcə şiəyə aid deyil. Böyük alimlərinizdən bəziləri də imamətin üsuliddindən olduğu inancına sahibdirlər. Məsələn sizin böyük və tanınmış müfəssirlərinizdən Qazı Beyzəvi «Minhaculüsul» adlı kitabının «Əxbar» bəhsi bölümündə açıq bir şəkildə belə bəyan edir: «İmamət, üsuliddinin ən önəmli məsələlərindəndir və bunun rəddi küfr və bidətə səbəb olar».

Molla Əli Kuşçi «Şərhi-Təcrid» kitabının «İmamət» bölümündə belə deyir: «İmamət peyğəmbərdən xilafət yoluyla, din və dünya işləri xüsusunda ümumi bir riyasətdir (idarəçilik məqamıdır)».

Yenə sizin ən təəssübkeş alimlərinizdən Qazı Quzbəhan imamətin Xatəmül-ənbiyanın (s) xəlifəliyi ünvanıyla ümmətin idarəçiliyi, Rəsulallahın imamət və xilafət məqamı olduğunu bu şəkildə bəyan edir: «İmamət, Əşəriyə görə, dinin yaşadılası və İslam millətinin qorunması xüsusunda Rəsulallahın (s) xilafətidir; belə ki, bütün ümmətin ona itaət etməsi vacibdir».

Əgər imamət füruiddindən olsaydı Rəsuli-əkrəm (s) «***İmamını tanımadan ölən cahil kimi ölür***» buyurmazdı.

Sizin böyük alimlərinizdən Həmidi «Əl-cəmu bəynəs-Səhiheyn» adlı kitabında, molla Səid Təftəzani «Əqaidi Nəsəfi»nin şərhində və bir çoxları həzrət Peyğəmbərdən (s) bu hədisi nəql etmişlər:

«***Kim zamanının imamını tanımadan ölərsə, cahilliyə ölümüylə ölmüşdür***».

Dinin cüzi məsələlərindən birini bilməmək, cahiliyyə ölümüylə ölməyə səbəb olmaz. Çünki, Beyzəvi; «İmamətə müxalifət etmək küfr və bidətə səbəb olar» deyir.

Nəticə etibarıyla imamət üsulidindən olub, nübuvvət məqamının tamamlayıcısıdır, buna görə imamətin lüğəti mənasıyla istilahi mənası arasında çox böyük fərq vardır. Siz ki, öz alimlərinizi ima bilirsiniz. Məsələn: ima Əzəm, imam Malik, imam Şafei, ima Əhməd ibn Hənbəl, imam Fəxri Razi, imam Sələbi, imam Qəzali və digərləri. Burada qeyd olunan «imam» kəlmələri imamətin lüğəti mənasıdır və biz də «imam» kəlməsini bu mənada da istifadə edirik. «Camaat imamı» və ya «cümə imamı» təbirləri buna bir misaldır.

Əgər imam bu məna ilə istifadə olunarsa, yüzlərcə imamın eyni zamanda yaşaması mümkündür. Amma imam, əvvəldə ərz etdiyimiz kimi, peyğəmbərdən sonra ümmətin ümumi başçısı mənasındadır. Hər zamanda sadəcə bir nəfər imam (başçı) ola bilər və bu ima, gözəl bütün əxlaqi sifətlərin yanında hər kəsdən daha alim, daha cəsur, daha təqvalı və ən önəmlisi məsum olmalıdır. Qiyamət gününə qədər yer üzü heç bir zaman belə bir İmamın vücudundan məhrum qalmayacaqdır.

Aydındır ki, bu şəkildə insanlığın bütün kamalları vücudunda cəm olmuş bir imamın məqamı, mənəvi məqamların ən üstündür. Belə bir imam Allah-Təala tərəfindən müəyyən edilməli və peyğəmbər tərəfindən də xalqa təbliğ edilməlidir. Bu xüsusiyyətə sahib olan bir şəxsin (imamın) məqamı bütün məxluqatdan, hətta peyğəmbərlərdən daha böyük və ucadır».

**Hafiz:** «Bir tərəfdən ğulatı qınayır, digər tərəfdən də imamlar haqqında ğuluv edirsiniz; ONların məqamını peyğəmbərlərdən üstün bilirsiniz. Həm əqli dəlillər, həm də Qurani-kərimdə aydın bir şəkildə ənbiyanın məqamını ən yüksək məqam olaraq tanıtmışdır və vacib ilə mümkün arasındakı ən yüksək məqam ənbiyanın məqamıdır. Sizin bu iddianız dəlilsiz bir iddia olduğuna görə qəbul edilməsi mümkün deyildir!».

## İMAMƏT MƏQAMI NÜBUVVƏTİ-AMMƏDƏN DAHA ÜSTÜNDÜR

**Dəvətçi:** «İddianın dəlilini soruşmadan, mənim dəlilsiz danışdığımı buyurdunuz. Ən böyük dəlil Quranın özüdür. «Bəqər» surəsində Allahın xəlili olan həzrət İbrahimin qissəsində üç böyük imtahandan (can, mal, övlad) sonra (bu bütün təfsirlərdə qəbul edilmiş və isbatlanmışdır) Allah-Təala bu böyük məqamı Ona lütf etmişdir. Allah-Təala həzrət İbrahimə nübuvvət, risalət, ulul-əzmlik və xəlillik məqamından daha üstün olan bu məqamı vermişdir. Əgər bu məqam onlardan daha üstün olmasaydı bu məqamın ucalıq ünvanıyla verilməsinin mənası olmazdı! Allah-Təala «Bəqərə» surəsinin 124-cü ayəsində Rəsuli-əkrəmə (s) belə xəbər verir:

*«Rəbbi İbrahimi bir neçə sözlə imtahana çəkdi. O da bunları yerinə yetirdikdə Allah-Təala ona buyurdu: «Mən səni insanlara imam etdim». İbrahim soruşdu: «Mənim nəslimdən necə?» Allah buyurdu: «Mənim əhdim zülmkarlara şamil olmaz»*.

Bu ayeyi-şərifdən bir qrup nəticələr ortaya çıxır; onlardan biri də imamət məqamının isbatıdır. Bu məqam nübuvvət məqamından daha üstündür. Çünki Allah-Təala imamət məqamını həzrət İbrahimə (ə) nübuvvət məqamından sonra verdi. Bu da imamət məqamının nübuvvət məqamından üstün olmasıdır».

**Hafiz:** «Sözlərinizə görə, imam olaraq qəbul etdiyiniz Əlinin (k.v) məqamı sonuncu Peyğəmbərdən (s) daha üstündür. Bunun isə ğulatın əqidəsi olduğunu özünüz söyləmişdiniz».

**Dəvətçi:** «Nübuvvətdən qəsdimiz sizin təbir etdiyiniz qisim deyildir. Özünüzdə də bilirsiniz ki, «nübuvvəti-ammə» (ümumi nübuvvət) ilə «nübuvvəti-xassə» məqamı nübuvvəti-amməmdən üstündür. Amma nübuvvəti-xasdan aşağıdır. Peyğəmbərimizin uca məqamı da nübuvvəti-xas məqamıydı».

**Nəvvab:** «Söhbətə müdaxilə etdiyimi üçün məni bağışlayın. Amma nə edim unutqan yaddaşım var. Buna görə cəsarət edirəm. Deyə bilərsinizmi, bütün peyğəmbərlər Allah tərəfindən göndərilmiş və eyni məqama sahib insanlar deyilmi? Çünki Quran bu mövzuda belə buyurur:

*«Biz onun peyğəmbərləri arasında fərq qoymuruq»*[1].

Belə isə siz nə səbəbdən nübuvvəti ammə və xassə kimi iki qismə ayırdınız?».

**Dəvətçi:** «Sizin dəlil olaraq gətirdiyiniz ayə öz yerində doğrudur. Bütün peyğəmbərlərin peyğəmbərliklərindəki hədəf xalqı tərbiyələndirmələri və onları məbdə və məada dəvət etmələridir. Bu baxımdan bütün peyğəmbərlər bərabərdirlər. Amma fəzilət, kamal, peyğəmbərlik etmək qaydaları, dərəcə və rütbələri baxımından bir-birindən fərqlidirlər.

[1] «Bəqərə» surəsi, ayə: 285

# PEYĞƏMBƏRLƏRİN MƏRTƏBƏLƏRİNDƏKİ FƏRQLİLİK

Görəsən, min nəfər üçün peyğəmbərlik etməyə seçilən bir peyğəmbərlə, 30 min nəfər, ya onlardan çox adama və yaxud bütün bəşərə peyğəmbərlik etmək üçün seçilən peyğəmbər birdirmi? Misal olaraq deyim ki, birinci sinif şagirdlərinə dərs deyən müəllimlə altıncı sinifə dərs deyən və ya lisseydə dərs verən bir müəllimlə universitet professoru birdirlərmi? Ümumilikdə təhsil nazirliyinin vəzifəsi cəmiyyəti təlim-tərbiyə etməkdir. Bu baxımından baxsanız hamısı birdir. Amma bilik və elm baxımından baxsanız qətiyyən eyni deyillər. Hər biri sahib olduğu elm, fəzilət və çalışdıqları vəzifə etibariylə bir-birindən fərqli dərəcələrə sahibdirlər. Peyğəmbərlər də dəvətetmə məqamı baxımından eynidir, lakin məqam və elm baxımından fərqlidir. Eyni surənin başqa bir ayəsində Allah-Təala belə buyurur:

«***O peyğəmbərlərdən bəzisini başqalarından üstün etdik. Onların arasında Allahın özüylə danışdığı və dərəcələri yüksək olanlar var***»[1].

Sizin böyük alim və fazil müfəssirlərinizdən olan Cərullah Zəməxşəri «Kəşşaf» təfsirində belə deyir: «Ayədəki bəzi peyğəmbərdən qəsd, bizim Peyğəmbərimizdir (s). Sahib olduğu fəzilət və xüsusiyyətləri digər peyğəmbərlərə nisbətən çox yüksəkdir; bunların ən önəmlisi «Xatəmiyyət» məqamıdır».

**Nəvvab:** «Bizlərə bu qaranlıq olan məsələni açıb, izah etdiyiniz üçün çox şad olduq. Bir az mövzudan kənar olmasına baxmayaraq, mən digər qardaşların da izniylə sizdən bir məsələni soruşmaq istəyirəm. Nübuvvəti-xassənin xüsusiyyətlərini qısa və sadə bir şəkildə bizə bəyan edərsinizmi? Uzun illərdir bu mövzu haqqında düşünmüşəm, bəzi qaranlıq nöqtələri üləmadan soruşmaq istəmişəm. Amma işlərin çoxluğu və bəzi başqa səbəblərdən fürsət tapmamışam. Əlimə düşən bu gözəl fürsətdən istifadə etmək istəyirəm».

**Dəvətçi:** «Nübuvvəti-xassənin xüsusiyyətləri və bu babdakı dəlillər olduqca çoxdur. Görəsən, necə oldu ki, bütün ənbiyanın arasında kamil bir şəxs nübuvvəti-xassə məqamına sahib oldu? Suala veriləcək cavablar çoxdur. Amma bu məclis

---

[1] «Bəqərə» surəsi, ayə: 253

pak Müsəlmanlar tərəfindən nübuvvəti-xassə məqamının isbatı üçün təşkil olunmamışdır. Əgər bu mövzu haqqında danışsaq, əsl mövzumuz olan imamət məsələsi qalacaq, vaxtımız da çox azdır. Amma sizin istəyinizi, qismən də olsa, yerinə yetirmək üçün «tam əldə edilməsi mümkün olmayan şeyi, bütünlüklə tərk etmək olmaz» sözünə görə, qısa bir şəkildə və lazım olduğu qədər mövzuya toxunacağam.

## NÜBUVVƏTİ-XASSƏNİN XÜSUSİYYƏTLƏRİ

Əgər insanın yaradılışına bir az diqqət edilərsə, bu məqama yetişmək yolu aydın olar. Çünki Allah-Təala bəşəriyyətin kamalını nəfsin kamalında qərar vermişdir. Nəfsin kamalı isə ancaq nəfs təzkiyəsiylə mümkündür. Nəfs təzkiyəsi də, insaniyyət məqamının yüksək nöqtəsinə yetişmək üçün ancaq ağlın rəhbərliyi istiqamətində elm və əməl qanadlarının pərvazlanmasıyla mümkün ola bilər. Müvəhhidlərin mövlası Əmirəl-möminin həzrət Əli (ə) özünə nisbət edilən bir cümlədə belə buyurur:

«**İnsan (cisminin nəzərdə tutaraq) natiq bir nəfsə sahib olaraq yaradıldı (o insanın həqiqətidir). Əgər bu nəfs elm və əməllə paklanırsa, xilqətinin əsl başlanğıcı olan bir qrup ülvi cövhərlərə bənzəyəcəkdir. İnsan əgər ədalət məqamına yetişib və cismaniyyət maddələrindən uzaqlaşırsa, uca varlıqların bənzəri olar. O zaman insan heyvaniyyət aləmindən çıxıb, həqiqi məqamı olan insaniyyət məqamına nail olar**».

İnsan cismani vücudun xaricində natiq bir nəfsə sahibdir; insanı digər varlıqlardan üstün edən də bu nəfsdir. Bir şərtlə ki, insanın özünü təzkiyə etsin və o, natiq olan nəfsini elm və əməllə qüvvətləndirsin.

İnsandakı elm və əməl quşlardakı iki qanad kimidir. Quşlar qanadlarını nə qədər gücləndirsə, o qədər yüksəyə uçma şansına sahib olurlar. İnsan da eyni şəkildə; hər nə qədər elm və əməlini gücləndirsə, nəfsi kamallara da eyni dərəcədə yetişmiş olur. Şirin kəlamı ilə bizim Şirazın söz ustadı farsın fəxri sayılan Sədi bir şerində necə də gözəl söyləmişdir:

**Sən sadəcə quşun uçmasını görmüsən.**
**Şəhvət bağını ayağından açsan,**
**Onda insanın da uçmasını görərsən.**

Belə isə heyvanlıq aləmindən çıxıb, insanlığın uca dərəcəsinə yetişmək tamamən nəfsin kamalına bağlıdır. Hər kəs nəfsini kamilləşdirmək yolunda elmi və əməli gücləri özündə toplayıb onların tam xüsusiyyətinə yetişərsə, nübuvvət məqamının ən kiçik mərtəbəsinə yetişmiş olar. Belə bir adam nə zaman Haqq-Təalanın xüsusi diqqətinin məzhəri olarsa, o zaman ona nübuvvət libası geydirilir.

Əlbəttə, nübuvvət də (daha əvvəl nübuvvət bəhsində geniş bir şəkildə deyildiyi kimi) fərqli mərtəbələrə sahibdir. Nəbi ölçlü xüsusiyyətə şamil olan elə bir mərtəbəyə yetişir ki, o mərtəbə imkan aləmində yetişə biləcək və təsəvvür edə biləcək ən yüksək mərtəbədir. Hükəma (Hikmət sahibləri) bu məqama ilk səbəb və ilk qəlbdən ibarət olan «ilk ağıl» adını veriblər.

İmkani-vücud mərtəbələrində o mərtəbədən daha yüksək bir məqam yoxdur. Bax, o məqam Xatəmul-ənbiyanın (s) vücududur; Onun məqam və mənziləti, məqami-vacibdən (Allahın məqaından) aşağı və imkan aləmindəki bütün məqamlardan üstündür. Peyğəmbərimiz (s) bu mərtəbəyə nail olduqda, peyğəmbərlik Onun mübarək vücuduyla sona yetişmiş oldu.

İmamət məqamı, xatəmiyət məqamından bir dərəcə aşağı və nübuvvət məqamının digər bütün dərəcələrindən də yüksək bir məqamdır. Əmirəl-möminin həzrət Əli (ə) həm nübuvvətin bütün dərəcələrinə sahib olduğundan və həm də Xatəmul-Ənbiya (s) ilə nəfs birliyinə sahib olduğu üçün imamət məqamına mənsub edilmiş və bütün keçmiş peyğəmbərlərdən də üstün olmuşdur».

(Bu arada müəzzinin səsi eşidildi, ağalar qalxıb namaza getdilər. Döndükdən, çay içildikdən sonra ilk olaraq söhbətə Hafiz başladı.)

**Hafiz:** «Söhbətlərinizdə davamlı olaraq məsələləri çətinləşdirir və bir mövzunun cavablarını həll etmədən, yeni bir mövzu qarşıya çıxarırsınız».

**Dəvətçi:** «Məncə, anlaşılması çətin olan bir məsələmiz qalmadı. Amma sizin nəzərinizdə belə bir məsələ varsa, buyurun, biz də cavab verək».

**Hafiz:** «Sonuncu açıqlamanızda izah edilməsi mümkün olmayan bir neçə cümlə buyurdunuz. Əvvəla; Əli ibn Əbi Talibin (k.v) nübuvvət məqamına sahib olduğunu buyurdunuz; sonra peyğəmbərlərin nəfs birliyinə sahib olduğunu söylədiniz və sonra da Əlinin bütün peyğəmbərlərdən üstün olduğunu buyurdunuz. Bu iddialırınızı məcburən qəbul edək, yoxsa bu iddiaları isbatlayan dəlilləriniz vardır?! Əgər dəliliniz yoxdursa, qəbul edilməsi mümkün deyildir! Əgər dəliliniz varsa, bəyan edin».

**Dəvətçi:** «Bəyanlarımın müşkül, qarışıq və həll edilməsi qeyri-mümkün olduğunu söylədiniz. Bu sizin və sizin kimi həqiqətlər üzərində dayanmaq istəməyənlərin düşüncəsidir! Yoxsa tədqiqatçı və düşünən insaflı üləmanın nəzərində həqiqət aydındır. Bəyanlarıma gətirdiyiniz iradlara gəlincə, qaçış yollarınızın bağlanması və «bəyanınız müşkül, qarışıq və həll edilməsi qeyri-mümkündür» dediyiniz üçün indi onlara bir-bir cavab verərəm.

## HƏZRƏT ƏLİNİN NÜBUVVƏT MƏQAMINA «MƏNZİLƏT HƏDİSİ»NİN DƏLİL OLMASI

Həzrət Əlinin (ə) nübuvvət məqamına sahib olduğuna dair ilk dəlil «Mənzilət» hədisidir. Bu hədis həm sizin, həm də bizim qaynaqlarımızda bir neçə kəlmə fərqliliklə mütəvatir olaraq nəql edilmişdir. Hədisə görə Peyğəmbərimiz (s) dəfələrlə müxtəlif yerlərdə həzrət Əli (ə) haqqında belə buyurmuşdur:

«***Görəsən, mənə nisbətdə Harunun Musaya olan mənzilətində (dərəcəsində) olmağa – bu fərqlə ki, məndən sonra peyğəmbərlik yoxdur – razı deyilsənmi?***».

Bəzən də ümmətə belə buyurmuşdu:

«***Əli mənə nisbətdə, Harunun Musaya olan mənzilətindədir***».

**Hafiz:** «Bu hədisin doğruluğu bəlli deyildir! Çünki xəbəri-vahiddir; (yəni bir nəfər tərəfindən nəql edilmişdir) və xəbəri-vahidə də etibar edilməz!.

**Dəvətçi:** «Hədisin doğruluğuna dair söylədikləriniz ya bu mövzu ilə bağlı kitabları az oxumağınızdan qaynaqlanır və ya bilərəkdən xəta edir, ağıl və məntiq qarşısında təslim olmaq istəmirsiniz. Məlumunuz olsun ki, hədisin doğruluğu hər kəs tərəfindən qəbul edilir. Bu hədisin inkarı və ya xəbəri-vahid olduğunu söyləməyinizin səbəbi, ərz etdiyim kimi ya hədis kitabları haqqındakı məlumatın azlığıdır, ya da inadkarlıqdır. Amma ümid edirəm ki, bizim məclisimizdə inadkarlıq olmayacaq.

## ƏHLİ-TƏSƏNNÜNÜN YOLU İLƏ «MƏNZİLƏT HƏDİSİ»NİN SƏNƏDLƏRİ

Mövzunun aydınlaşması və məclisdə iştirak edənlərin və etməyənlərin bu mövzuya olan bəsirətlərinin artması üçün zehnimin imkan verdiyi qədər sizin mötəbər hədis kitablarınızdan istifadə edərək, məsələni izah etməyə çalışacağam.

Bu hədis xəbəri-vahid olmadığı kimi Siyuti, Hakim Nişapuri və sair bir çox tanınmış alimlərinizin də müxtəlif tarixi sənədlərlə isbatladığı mütəvatir bir hədisdir.

1. Əbu Əbdullah Buxari «məğazi»nin 54-cü səhifəsində «Təbuk Qəzvəsi» bölümündə, «Bədul-Xulq» kitabının 135-ci səhifəsində «Mənaqibi-Əli» (ə) qismində;
2. Müslim ibn Həccac «Səhih» kitabının II cildinin 236-237-ci səhifələrində (Misir nəşri h.1290), «Fəzlüs-səhabə» kitabının «Fəzaili-Əli (ə)» babında;
3. İmam Əhməd ibn Hənbəl «Müsnəd» kitabının I cildinin 98, 118 və 119-cu səhifələrində «Vəch təsmiyəi-Həsənəyn» bölümündə, yenə eyni kitabın 5-ci cüzünün 31-ci səhifəsinin haşiyəsində;
4. Əbu Əbdürrəhman Həsai «Xəsaisul-Ələviyyə» kitabının 19-cu səhifəsində 18 hədis nəql etmişdir;
5. Məhəmməd ibn Surəti Tirmizi «Came» kitabında;
6. Hafiz İbn Həcər Əsqalani «İsabə» kitabının II cildinin 507-ci səhifəsində;

7. İbn Həcər Məkki «Səvaiqi-muhriqə»nin 9-cu babının 30-cu və 74-ci səhifələrində;
8. Hakim Əbu Əbdullah Məhəmməd ibn Əbdullah Nişapuri «Müstədrək» kitabının III cildinin 109-cu səhifəsində;
9. Cəlaləddin Siyuti «Tarixi-Xulafə» kitabının 65-ci səhifəsində;
10. İbn Əbdürəbbih «Əqdul-Fərid»in II cildinin 194-cü səhifəsində;
11. İbn Əbdülbirr «İstiab» kitabının II cildinin 473-cü səhifəsində, Məhəmməd ibn Səd Katibi Vaqidi «Təbaqatul-Kubra» kitabında;
12. İma Fəxri Razi «Məfatihul-Ğuyb» adlı təfsirində;
13. Məhəmməd ibn Cərir Təbəri «Təfsiri-Təbəri» və «Tarixi-Təbəri» kitablarında;
14. Seyid Mömin Şəblənci «Nurul-Əbsar»ın 68-ci səhifəsində;
15. Kəmaləddin Əbu Salim Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-Süul»un 17-ci səhifəsində;
16. Mir Seyid Əli ibn Şəhabuddin Həmədani «Məvəddətul-Qurba» kitabının 7-ci Məvəddəsinin sonlarında;
17. İbn Sabbağ adıyla məşhur olan Nuruddin Əli ibn Məhəmməd Maliki Məkki «Fusulul-Mühimə» kitabının 23 və 125-ci səhifələrində;
18. Əli ibn Bürhanəddin Şafei «Sirətul-Hələbiyyə» kitabının II cildinin 26-səhifəsində;
19. Əli ibn Hüseyn Məsudi «Murəvvicuz-Zəhəb» kitabının 2-ci cildinin 49-cu səhifəsində;
20. Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddə» kitabının 9 və 17-ci, xüsusilə 6-cı və 18-ci bablarında Buxari, Tirmizi, Müslim, Əhməd, İbn Maccə, İbn Məğəzəli, Xarəzmi və Həuyinidən 18 xəbər nəql etmişdir;
21. Mövla Əli Mutdaqi «Kənzul-Ummal» kitabının VI cildinin 152 və 153-cü səhifələrində;
22. Əhməd ibn Əli Xətib Bağdadi «Tarixi-Bağdad» kitabında;
23. İbn Məğəzəli Şafei «Mənaqib» kitabında;
24. Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib» kitabında;

25.İbn Əsir Cəzri Əli ibn Məhəmməd «Usdul-Ğabə» kitabında;

26.İbn Kəsir Dəməşqi «Tarix» kitabında;

27.Əlaüddövlə Əhməd ibn Məhəmməd «Urvətul-Vusqa» kitabında;

28.İbn Əsir Mübarək ibn Məhəmmədi Şəybani «Camiul-usul fi əhadisir-Rəsul» kitabında;

29.İbn Həcər Əsqəlani «Təzhibut-Təhzib» kitabında;

30.Əbülqsim Hüseyn ibn Məhəmməd (Rəğibi İsfahani) «Muhazirətul-udəba» kitabının II cildinin 212-ci səhifəsində.

Bunlardan əlavə, sizin bir çox alimləriniz sözügedən hədisi həzrət Peyğəmbərin (s) əshabından müxtəlif ibarələrlə nəql etmişlər.

Səhabələr bunlardır:

1. Xəlifə Ömər ibn Xəttab; 2. Səd ibn Əbi Vəqqas; 3. Əbdullah ibn Əbbas (Hibri Ümət); 4. Əbdullah ibn Məsud; 5. Cabir ibn Əbdullah Ənsari; 6. Əbu Hüreyrə; 7. Əbu Səidi Xidri; 8. Cabir ibn Səmərə; 9. Malik ibn Huveyrəs; 10. Burra ibn Azib; 11. Zeyd ibn Ərqə; 12. Əbu Rafi; 13. Əbdullah ibn Əbi Ovf; 14. Əbi Sureyhə; 15. Həziyfə ibn Əsid; 16. Ənəs ibn Malik; 17. Əbu Bure2ydə Əsləmi; 18. Əbu Əyyub Ənsari; 19. Səid ibn Museyib; 20. Həbib ibn Əbi Sabit; 21. Şərhəbil ibn Səd; 22. Ümmü Sələmə (Peyğəmbərin (s) xanımı); 23. Əsma binti Umeys (Əbu Bəkrin xanımı); 24. Aqil ibn Əbi Talib; 25. Muaviyə ibn Əbu Süfyan.

Səhabələrdən digərləri də vardır ki, nə bu məclisin vaxtı və nə də mənim zehnimin bu səhabələrin hamısının adını saymağa səbrim yoxdur. Xülasə onların hamısı cüzi bir fərqlə Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql etmişlər:

«***Ya Əli! Sən mənə nisbətdə Harunun Musaya olan mənziləti kimisən; bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur***».

Görəsən, sizcə, bu qədər əhli-sünnət üləmasının (onların çox az bir qisminin adlarını zikr etdim) bu hədisi həzrət Peyğəmbərin (s) səhabələrindən bir çoxuna istinad edərək nəql etmələri hədisin mütəvatir olduğuna dair dəlil deyilmi?! Görəsən, bu anda bu hədisin xəbəri-vahid olduğunu söyləməklə xəta etdiyinizi və mütəvatir hədislərdən olduğunu qəbul edirsinizmi?! Çünki mühəqqiq alimləriniz də bu hədisin mütəvatir olduğunu iddia etmişlər.

Məsələn; Cəlaləddin Siyuti «Risalətul-Əzharil-Mütənasirəti fi Əhədisil-Mütəvatirə» və «İzalətul-Xifa və Qurrətul-Əyneyn» kitablarında bu hədisin mütəvatir olduğunu təsdiq etmişdir.

Bu hədisin sənədinin səhihliyi haqqında adətiniz üzrə şəkk etdiyiniz üçün böyük alimlərinizdən olan Məhəmməd ibn Yusif Gənci Şafeinin «Kifayətut-Talib fi Mənaqibi Əli ibn Əbi Talib» kitabının VII bölümünə müraciət etməniz yaxşı olar. O, həzrət Əlinin (ə) digər üstünlüyünü də bildirən altı hədis nəql etdikdən sonra 149-cu səhifədə öz nəzərini bildirməklə həqiqətləri bəyan etmişdir. Əgər sözlərimizi qəbul etmirsinizsə, bu Şafei aliminin sözləri Höccəti sizə tamamlayır. O, belə yazır: «Bu hədis səhihliyinə görə böyük alimlərin ittifaq etdiyi hədislərdəndir».

Böyük alim və hafizlərdən Əbu Əbdullah Buxari «Səhihi-Buxari», Müslim ibn Həccac «Səhihi-Müslim», Əbu Davud «Sünnəni-Əbu Davud», Əbu İsa Tirmizi «Came»sində, Əbu Əbdürrəhman Nəsai «Sünəni-Nəsai» və İbn Maccə Qəzvini «Sünəni-İbn Maccə» kitabında bu hədisi nəql etmiş və bütün bu alimlər məzkur hədisin səhihliyi haqqında ittifaq etmişlər. Hakim Nişaburi də «Bu, təvatür həddinə yetişən bir hədisdir» demişdir.

Belə güman edirəm ki, bu hədisin səhihliyi və mütəvatir olduğuna dair olan şübhələri aradan aparmaq üçün əlavə dəlil gətirməyə ehtiyac yoxdur».

**Hafiz:** «Gətirdiyiniz bu səhih və etibarlı dəlillər qarşısında təslim oluram. Mən o qədər imansız və inadkar deyiləm. Amma böyük alim və mütəkəllim olan Əbul-Həsən Amudi dəlillərlə bu hədisi rədd etmişdir. Lütfən, bunun üzərində bir az düşünün».

**Dəvətçi:** «Sizin kimi insaflı bir alimin əhli-sünnətin ümumisinin qəbul etdiyi böyük alimlərdən gətirdiyim dəlillər qarşısında Amudi kimi şərli, əqidəsiz və namazı tərk edən birinin sözlərinə diqqət etməsi, həqiqətən, məni təəccübləndirir».

**Şeyx:** «Bəşər əqidəsini bildirməkdə azaddır və bir nəfər əqidəsini bildirərsə onu ittiham etmək doğru deyildir! Hələ sizin kimi əxlaqlı bir alimin məntiqli cavab vermək əvəzinə, bir fəqihi pis sözlərlə ittiham etməsi çox çirkin bir şeydir!».

**Dəvətçi:** «Yanlış buyurdunuz. Mənim heç kimə bir pisliyim yoxdur, Amudiylə də eyni dövrdə yaşamamışam. Amma onun yanlış əqidə sahibi olduğunu sizin böyük alimləriniz nəql etmişlər».

**Şeyx:** «Alimlərimiz nə vaxt onun azğın əqidəyə sahib olduğunu demişlər?!».

## AMUDİNİN TƏRCÜMEYİ-HALI

**Dəvətçi:** «İbni Həcər Əsqəlani «Lisanul-Mizan» kitablarında yazır: «Bir çox kitabı olan Seyf Amudi Mütəkəlli Əli ibn Əbu Əli azğın əqidəsinə görə Dəməşqdən sürgün edilmişdir. Namazı tərk etdiyi də doğrudur».

Yenə sizin böyük alimlərinizdən olan Zəhəbi «Mizanul-Etidal» kitablarında eyni hadisəni nəql etmiş və öz nəzərini belə bildirişdir: «Amudinin bidətçi olduğu qətidir».

Bir az dəqiq baxsanız, anlayacaqsınız ki, əgər Amudi bidət əhli, azğın əqidəli və imansız bir şəxs olmasaydı, heç bir zaman təbiətinin azğınlığını və pis düşüncələrini bəlli etdirməzdi. O, Rəsulallahın (s) bir çox səhabəsinə, hətta (Hədis ravilərindən sayılan) Ömər ibn Xəttaba və bir çox siqə olan böyük alimlərinizə qarşı çıxmışdır.

Hər şeydən daha təəccüblü budur ki, şiəni «Səhih»lərinizdəki hədisləri qəbul etmədiyi üçün qınayırsınız. (Halbuki, vəziyyət belə deyildir, əgər hədislər səhih sənədlərə sahib olarsa, kitablarınızda nəql edilmiş olsa belə, qəbul edirik.) Amma Müslim, Buxari və digər «Səhih» sahiblərinin kitablarında nəql etdikləri hədisləri Amudi açıq bir şəkildə rədd edir, lakin yenə də ona yaxşı gözlə baxırsınız!

Əgər yanınızda Amudinin heç bir eybi olmasa belə, sırf Səhihlərə müxalif olaraq nəzərini izhar etməsi – həqiqətdə Ömər, Müslim və Buxarinin yalan sayması – onun tanınması üçün yetərli bir səbəbdir!

Əgər bu hədis haqqında daha ətraflı məlumata sahib olmaq, onun bütün dəlil və böyük alimlərinizdən olan sənədlərini görmək, bu mövzu haqqında aydınlığa çıxmaq, Amudi kimilərə pis dua etmək və həqiqətin sizə aşkar olmasını istəyirsinizsə, ali, adil, zahid, mühəqqiq, hədis və rəvayətlərin tədqiqatçısı olan

mərhum Əllamə Mir Seyid Həmid Hüseyn Dehləvinin «Əbəkatul-Ənvar» kitabının bütün cildlərini, xüsusilə «Mənzilət» hədisiylə əlaqəli cildini oxuyun və bu böyük şiə aliminin bəhs edilən hədisi öz qaynaqlarınızdan dəlilləriylə birlikdə necə əldə etdiyini görün».

**Hafiz:** «Buyurdunuz ki, bu hədisi nəql edənlərdən biri də Ömər ibn Xəttabdır (r.z). Mümkünsə, sənədini də söyləyin».

## ÖMƏR İBN XƏTTABDAN «MƏNZİLƏT HƏDİSİ»

**Dəvətçi:** «Əbu Bəkr Məhəmməd ibn Cəfər əl-Mütəyri və Əbul-Leysi Nəsr ibn Məhəmməd əs-Səmərqəndi əl-Hənəfi «Məcalis», Məhəmməd ibn Əbdurrahman Zəhəbi «Riyazun-Nəzrə», Mövla Əli Müttəqi «Kənzul-Ummal» da, İbn Səbbağ Maliki «Fusulul-muhimmə» kitabının 125-ci səhifəsində «Xəsais»dən nəql edərək, İmamul-Hərəm «Zəxairul-Uqba», Şeyx Süleyman Bəlxi əl-Hənəfi «Yənabiul-Məvəddə» və İbn Əbil-Hədid «Şərhi Nəhcul-bəlağə» kitabının III cildinin 258-ci səhifəsində «Nəqzul-Osmaniyyə»dən və Şeyx Əbu Cəfər İsqafi bir neçə əkəlmə fərqiylə İbn Abbasdan (Hibri-ümmətdən) belə dediyini nəql etmişlər:

Bir gün Ömər ibn Xəttab belə dedi: «Əlinin adını (yəni onun ğeybətini etməyi) buraxın. Çünki mən Peyğəmbərdən «***Əlidə üç xüsusiyyət vardır***» buyurduğunu eşitdim; əgər onlardan biri mən Ömərdə olsaydı, günəşin, üzərinə doğduğu hər şeydən mənim üçün daha sevimliydi».

Sonra sözünə belə davam etdi: «Mən, Əbu Bəkr, Əbu Ubeydə ibn Cərrah və Rəsulallahın əshabından bir qrup şəxs O həzrətin hüzurunda idik. Rəsulallah da Əli ibn Əbu Talibə söykənibö oturmuşdu. Əlinin çiyninə vuraraq belə buyurdu:

«***Ya Əli! Sən iman gətirmə baxımından möminlərin ilkisən, İslam baxımından da müsəlmanların ilkisən***».

Sonra belə buyurdu:

«***Ya Əli! Sən mənə nisbətdə Harunun Musaya olan mənziləti kimisən; sənə düşmən olduğu halda məni sevdiyini söyləyən yalan söyləmişdir***».

Sizin məzhəbinizdə xəlifə Ömərin sözünü rədd etmək caizdirmi?! Əgər caiz deyilsə, o zaman nə səbəbdən Audi kimi halı hər kəsə məlum olan birinin sözlərini nəzərə alırsınız?!

## XƏBƏRİ-VAHŞİDİN ƏHLİ-SÜNNƏT MƏZHƏBİNDƏKİ HÖKMÜ

Bu mövzu ilə əlaqədar bir sualınız cavabsız qaldı. Buyurdunuz ki, bu sözü söyləsək, əlimizdəki olan rical elminin ölçülərinə görə doğrudur. AMma bunu sizin söyləməyiniz, həqiqətən, təəccüblüdür. Çünki məzhəbinizdə xəbəri-vahidin höcciyyəti sabitdir. Bundan əlavə, mühəqqiq alimləriniz xəbəri-vahidi inkar edənin kafir və ya fasiq olduğunu söyləmişlər. Məsələn: Məlikul-üləma Şəhabuddin Dövlət Abadi «Hidayətüs-Süəda»da belə demişdir:

«Kim xəbəri-vazid və qiyası inkar edər və onların höccət olmadığını söyləyərsə kafir olar. Amma əgər bir adam «Bu xəbəri-vahid səhih və bu qiyas sabit deyildir» söyləyərsə, kafir olmaz; amma fasiq olar».

**Hafiz:** «Gözəl bəyanınız və əhli-sünnət kitabları haqqındakı geniş məlumatınıza görə çox şad oldum. Bizə şiə alimlərinin əhli-sünnət kitablarını oxumaq üçün əllərinə almaq istədikləri zaman, əlləri bu kitablara dəyməsin deyə, əlcəklə, maqqaşla və ya bir bez parçasıyla tutulmalıdır söyləyirlər».

**Dəvətçi:** «Bu sözlərin doğruluğuna dair heç bir dəliliniz yoxdur. Bunlar, qərbin və yerli şeytanların suyu bulandıraraq müsəlmanlar arasındakı ixtilafdan öz məqsədlərinə istifadə etmək üçün gizli əllər vasitəsiylə icad etdikləri sözlərdir. Bu mövzuda sizin və bizim vəzifəmiz davamlı olaraq xalqı oyatmaqdır.

Qurani-kərim «Hücurət» surəsinin 6-cı ayəsində müsəlmanlara belə xatırladır:

«***Ey insanlar! Sizə fasiq (yoldan çıxmış) bir adam bir xəbər gətirsə, onun doğruluğun araşdırın. Yoxsa bilməyərək bir cəmiyyətə qarşı pislik edər, sonra da etdiyinizdən peşman olarsınız***».

Biz alimlər bundan qafil olmamalıyıq. Əgər Allahın bu göstərişi ağalar üçün bir meyar olsaydı, eşitdikləri iddialar onlarda təsir buraxmaz və bu gün peşmanlığa səbəb olmazdı.

Biz kafir, müşrük və mürtədlərin kitablarını əlcəksiz əlimizə alıb oxuduğumuz halda, necə olur müsəlman qardaşlarımızın kitablarına həqarət gözüylə baxaq? Buyurduğunuz əksinə olaraq böyük alimlərinizin mötəbər kitablarını dəqiq bir şəkildə oxuyur və səhih sənədlərə sahib olan hədisləri də qəbul edirik. Elmi və məntiqi ixtilafların məzhəb və etiqadla hər hansı bir bağlantısı yoxdur.

Görəsən, şiə tələbələrinin Sərf, Nəhv, Məani, Bəyan, Məntiq, Lüğət, Təfsir və Kəlamda alimlərinizin yazdığı kitablardan istifadə etdiklərindən xəbəriniz yoxdurmu? Bu halda necə ola bilər ki, onlar kitabları hər hansı bir vəsiləylə yerdən qaldırsınlar?!

Əlbəttə, sizin nəql edilmiş hədislərinizin sənədində yer alan bəzi ravileriniz qəbul olunmazdırlar, onların sözlərinə etina edilməz. Ənəs, Əbu Hüneyrə, Səmurə və digərləri ki, daha əvvəl də ərz etmişdim. Çünki sizin alimlərinizdən bəziləri də onları rədd edirlər; Əbu Hənifə də bunlardan biridir. Biz də yuxarıda adı zikr edilən şəxslərdən nəql etmiş hədisləri qəbul etmir və rədd edirik. Bunların xaricində mühəqqiq alimləriniz tərəfindən yazılmış elmi kitabları diqqətlə oxuyuruq. Xüsusilə həzrət Peyğəmbər (s) və Əhli-beytin (ə) həyatları üzərində araşdırdığım ən çox oxuduğum və qaynaq kimi əsas götürdüyüm sizin kitablarınız olmuşdur.

Şəxsi kitabxanamda 200 cild əhli-sünnət alimlərinin təfsir, hədis və tarix kitabları çap olunmuş və ya xətti şəkildə mövcuddur və mən araşdırmalarımda bunlardan istifadə edirəm. Amma bizim üləmamız sərraf kimidir və bu kitablardakı doğru və yanlışları bir-birindən ayırırlar; Fəxri Razilərin, İbn Həcərlərin, Ruzbəhanların, Amudilərin və İbn Teymiyyələrin şübhə və səhvlərinə aldanmır və onların yanlış fikirlərinin təsiri altına düşmürlər.

Səmimi qəbul edin ki, mənim Peyğəmbərin (s) Əhli-beytinə (ə) və məsum İmamların (ə) məqamına olan yaxın dərəcədə mərifətim daha çox mötəbər kitablarınızı oxumağım sayəsində olmuşdur».

**Hafiz:** «Mövzudan çox uzaqlaşdıq. Lütfən Mənzilət hədisinin Həzrət Əlinin nübuvvət məqamına necə dəlalət etdiyini və Onun (k.v) hansı yolla nübuvvət məqamına sahib olduğunu açıqlayın».

**Dəvətçi:** «Bizə mütəvatir olaraq yetişən bu hədisi-şərifdən, Əmirəl-möminin həzrət Əli (ə) üçün üç xüsusiyyət sabitdir:

Birinci məna və həqiqətdə O, həzrət üçün olan nübuvvət məqamı.

İkinci, həzrət Peyğəmbərdən (s) sonra zahiri xilafət və rəhbərlik məqamının O həzrətə yetişməsi.

Üçüncü, həzrət Əlinin (ə) bütün əshabdan və digər insanlardan üstün olması.

Çünki həzrət Peyğəmbər (s) mənzilət hədisiylə imam Əlinin (ə) həzrət Harunun (ə) mənzilətinə sahib olduğunu açıqlamışdır. Harun (ə) da nübuvvət və həzrət Musanın (ə) xəlifəsi olmaq məqamına sahib olmaqla bəni-İsraildən üstündür».

**Nəvvab:** Qibləsahib! Bağışlayın; Həzrət Musanın (ə) qardaşı Harun (ə) nəbi idimi?».

**Dəvətçi:** «Bəli, həzrət Harun (ə) nübuvvət məqamına sahib idi».

**Nəvvab:** «Qəribədir, ən indiyə qədər eşitməmişdim. Görəsən, Quranda da bunu təsdiqləyən bir ayə varmı?».

**Dəvətçi:** «Bəli, bir neçə ayədə Allah-Təala O həzrətin nəbiliyini açıqlamışdır».

**Nəvvab:** «Mümkünsə, o ayələri, feyizlərindən istifadə etməyimiz üçün oxuyun».

**Dəvətçi:** «Nisa» surəsinin 163-cü ayəsində belə buyurur:

«***Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik. İbrahimə, İsmailə, İshaqa, Yəquba və nəslindən olanlara, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy etdik. Biz Davuda da Zəburu verdik***».

«Məryəm» surəsinin 52 və 53-cü ayəsində də belə buyurur:

«***Biz Musanı Tur dağının sağ tərəfindən çağırdıq və onunla danışmaq üçün özümüzə yaxınlaşdırdıq. Və öz mərhəmətimizdən qardaşı Harunu da bir peyğəmbər olaraq ona bəxş etdik***».

**Hafiz:** «Sizin bu dəlillərinizə görə həm Məhəmməd (s) və həm də Əli peyğəmbər olaraq xalqa göndərilmişlər?!».

**Dəvətçi:** «Bəyan etdiyiniz şəkildə söyləmədim Özünüz də peyğəmbərlərin sayı haqqında ixtilaf olduğunu bilirsiniz. Peyğəmbərlərin 120 min və ya daha çox olduğu belə yazılmışdır. Amma onların hamısı dövrlərinin kitab və əhkam sahibi olan peyğəmbərə tabe idilər. Onlardan sadəcə beş nəfəri ulul-əzim idi:; həzrət Nuh, həzrət İbrahim, həzrət Musa, həzrət İsa və məqamı hamısından daha yüksək olan həzrət Xatəmul-ənbiya Məhəməd Mustafadır (s) ki, o məqam da xatəmiyyət məqamıdır.

## HƏZRƏT HARUNUN (Ə) MƏNZİLƏTİNİN İMAM ƏLİ (Ə) ÜÇÜN OLDUĞUNUN İSBATI

Həzrət Harun digər bir çox peyğəmbərlər kimi müstəqil bir nübuvvətə sahib deyildi; qardaşı həzrət Musanın şəriətinə tabe idi. Həzrət Əli də nübuvvət məqamına sahib idi. Amma müstəqil deyildi, həzrət Məhəmmədin (s) şəriətinə tabe idi. Həzrət Peyğəmbər (s) bu hədis (Mənzilət) vəsiləsiylə ümmətə anlatmaq istədi ki, həzrət Harun necə nübuvvət məqamına sahib və zamanının ulul-əzim peyğəmbəri olan həzrət Musaya tabe idisə, həzrət Əlidə (ə) imamət mərtəbəsiylə bərabər nübuvvət məqamına sahibdi. Amma peyğəmbərimizin (s) şəriətinə tabe idi. Bunun özü, həzrət Əli (ə) üçün ülvü bir xüsusiyyətdir.

İbni Əbil-Hədid «Nəhcul-bəlağənin şərhi» kitabında məzkur hədisi nəql etdikdən sonra söyləyir: «Həzrət Peyğəmbər (s) bu hədis və bəyanıyla Harunun Musaya (ə) nisbətdə sahib olduğu bütün mərtəbələrə həzrət Əlinin (ə) də sahib olduğunu isbatlamışdır. Əgər həzrət Peyğəmbərdən (s) sonra peyğəmbərlik davam etmiş olsaydı, həzrət Əli də (ə) peyğəmbər olardı. Peyğəmbərin (s) «***Doğrumu, məndən sonra peyğəmbər yoxdur***» cümləsi əgər O həzrətdən (s) sonra bir peyğəmbər olsaydı, həzrət Əlinin (ə) o məqamda olacağını bizə anladır. Bax, buna görə peyğəmbərlik istisna edilmişdir. Həzrət Harunun nübuvvət xaricindəki sahib olduğu bütün məqamlar həzrət Əlidə (ə) də sabitdir».

Məhəmməd ibn Təlhə Şafei də «Mətalibus-Süul» kitabının 19-cu səhifəsində Harunun mənziləti haqqındakı əsrarı kəşf etdikdən və bir qrup açıqlamalar etdikdən sonra nəzərini belə bildirir: «Xulasə, Harunun Musaya nisbətdə mənziləti bu idi: Harun Musanın qardaşı, vəziri, köməkçisi, nübuvvətdə ortağı və Musanın (ç) qövmünün xəlifəsiydi». Həzrət Peyğəmbər (s) də mənzilət hadisiylə, nübuvvətin xaricindəki Harunun (ə) Musaya (ə) nisbətlə sahib olduğu bütün xüsusiyyətləri həzrət Əli (ə) üçün qərar vermişdir. Çünki nübuvvətin xaricindəki xüsusiyyətlərin hamısı, yəni həzrət Peyğəmbərin (s) qardaşlığı, vəzirliyi, köməkçi olması və özündən sonra ümmətə xəlifəliyi həzrət Əli (ə) üçün sabitdir. Mənzilət hədisi, məntiq və məfhum baxımından bu xüsusiyyətlərin həzrət Əli (ə) üçün sabit olduğuna dəlalət etməkdədir. Bu hədisin səhih olduğuna ittifaq etmişdilər».

Bənzər sözləri İbn Səbbağ «Füsulul-muhimmə» kitabının 29-cu səhifəsində və digər böyük alimləriniz də bu mənada söz söyləmişlər. Lakin vaxtın azlığı onları hamısını bir-bir zikr etməyə izn vermir».

**Hafiz:** «Güman edirəm, bu istisna əsl nübuvvət yox, nübuvvətin olmadığının dəlilidir».

**Dəvətçi:** «Bu qədər açıq və aşkar olan bu məsələni ata-babalara tabe olaraq rədd etməklə çox lütfsüzlük edirsiniz. Şafeidən sizə nəql etdiyim sözə yaxşı diqqət etmədiniz deyəsən. O belə söyləyir: «**Nübuvvətin xaricindəki digər xüsusiyyətlərin hamısı həzrət Əli üçün sabitdir**».

Bu söz həzrət Əlidə nübuvvət məqamının olmadığını deyil, sadəcə istisna edildiyini bildirir. Ayrıca onun O, hədisin axırında nübuvvəti «Məndən sonra peyğəmbər gəlməz» sözü ilə istisna etdi. İstisnaha kəlməsindəki ha nübuvvətə dönür.

Bu növ sözlər üləmanızın kitablarında çoxdur; onların hamısı nübuvvətin istisna edildiyinə dəlalət edir, nübuvvətin olmadığına deyil! Nübuvvətin olmadığına qail olanların nəzərləri, inad və təəssübdən başqa bir şey deyildir! Din xüsusunda təəssübdən Allaha sığınıram».

**Hafiz:** «Güman edirəm, «Əgər Peyğəmbərimiz son peyğəmbər olmasaydı və ONdan sonra da bir peyğəmbər gəlməli olsaydı, həzrət Əli o məqama sahib olardı» iddiasını sizə məxsusdur; heç kəs belə bir şey söyləməmişdir!».

**Dəvətçi:** «Bu iddia mənə və ya şiə alimlərinə xas olan bir iddia deyil. Böyük alimlərinizdən bir çoxu da eyni mənada söz söyləmişlər».

**Hafiz:** «Alimlərimizdən hansı biri belə bir iddiada olmuşdur? Əgər zehninizdə varsa, buyurun».

**Dəvətçi:** «Molla Əli ibn Sultan Məhəmməd Hərəvi Qari; böyük alimlərinizdən olub əhli-sünnətin rical üləmasına görə da etibarlı bir şəxsdir. Onun ölüm xəbəri Misirə yetişdikdə misirli alimlər dörd mindən çox insanın qarşısında onun üçün meyit namazı qıldılar. O, bir çox kitablar yazmışdır. «Mişqat»a şərh olaraq yazdığı «Mirqat» kitabında mənzilət hədisini şərh edərkən deyir: «**Bu hədisdə əgər həzrət Xatəul-Ənbiyadan sonra bir peyğəmbər gəlməli olsaydı, onun həzrət Əli olacağına aydın bir işarə vardır**».

Eyni düşüncəyə sahib olan böyük alimlərinizdən biri də məşhur Əllamə Cəlaləddin Siyutidir. O «Bəğyətul-vuaaz fi Təbəqatil-Huffaz» kitabının axırında Cabir ibn Əbdullah Ənsariyə qədər ravilər silsiləsini zikr edərək, ondan belə nəql edir: Həzrət Peyğəmbər (s) Əmirəl-möminin Əliyə belə buyurdu:

«***Ya Əli! Mənə nisbətdə, Harunun Musaya nisbətdə olan mənziləti (dərəcəsi) kimi olaq istəyirsən? Bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur; əgər olsaydı, o, sən olardın***».

Yenə Şafei fəqihi olan Mirseyid Əli Həmədani, «Məvəddətul-qurba»nın 6-cı məvəddətinin ikinci hədisində Ənəs ibn Malikdən həzrət Peyğəmbər in belə buyurduğunu nəql edir:

«***Allah-Təala məni peyğəmbərliyə seçdi və məni bütün peyğəmbərlərdən də üstün etdi. Əmim oğlu Əlini də mənim vəsim edərək arxamı gücləndirdi. Çünki Musanın arxasını da qardaşı Harun vasitəsiylə gücləndirdi. O, (Əli) mənim xəlifəm və vəzirimdir; əgər məndən sonra peyğəmbər olsaydı, şübhəsiz, o, peyğəmbər olardı; lakin məndən sonra peyğəmbər yoxdur***».

Göründüyü kimi «həzrət Əlinin (ə) nübuvvət məqamına sahib olduğu» sözü sadəcə bizə aid deyil! Öz üləmanızın də təsdiqiylə bilavasitə həzrət Əli (ə) nübuvvət məqamına sahibdir və bu məsələ sizin bu qədər təəccüblənməyinizə səbəb ola bilən qədər qarışıq və eşidilməmiş bir məsələ də deyildir!

Həzrət Harunun (ə) mənzilət və mərtəbələrindən, sadəcə nübuvvət məqamı müttəsil istisna ilə müstəsna olmuşdur. Amma onun xaricindəki mənzilət və mərtəbələr, sizin öz üləmanızın da etirafıyla, həzrət Əli (ə) üçün əbədi və sabitdir. Bu mənzilət və məqamlardan ən üstünü də xilafət və üstünlük məqamıdır. Allah-təala həzrət Harunun xilafəti haqqında açıq bir şəkildə «Əraf» surəsinin 142-ci ayəsində belə buyurur:

«***Musa qardaşı Haruna dedi: «Qövmün içində mənim xəlifəm ol (yerimə keç), onları islah et və fitnə fəsad törədənşlərə uyma!***».

**Hafiz:** «Keçən ayələrdə həzrət Harunun, qardaşı həzrət Musa ilə nübuvvət məqamına ortaq olduğunu söylədiniz. O halda necə oldu ki, onu öz xəlifəsi etdi? O, peyğəmbərin ortağının məqamı, özünə xəlifə və vəsi olmaqdan çox ucadır. Əgər ortağı xəlifə (öz yerində oturacaq olan) edərsə, onu məqam və mərtəbəsindən aşağı salmış olur. Çünki nübuvvət məqamı xilafət məqamından daha ucadır».

**Dəvətçi:** «Möhtərəm ağalardan bəziləri diqqət etmədiklərinə görə xətaya düşdülər. Əgər bir az diqqət etsəydiniz, cavabıma ehtiyac olmadan cavabı özünüz tapıb anlayardınız ki, həzrət Musanın (əla nəbiyyina və alihi və əleyhis-səlam) nübuvvəti əsl və həzrət Harunun (ə) nübuvvəti isə ona tabe idi; onun xəlifəsi kimiydi. Buna da diqqət edilməsi lazımdır ki, həzrət Harun təbliğ işlərində, qardaşı həzrət Musa ilə eyni məqama sahib idi. «Taha» surəsinin 25-ci ayəsindən 33-cü ayəsinə qədər olan qismində anlaşılır:

«***Dedi ki, Rəbbim, mənim köksümü aç, işimi asanlaşdır. Dilimdən düyünü aç ki, söyləyəcəklərimi anlasınlar. Ailəmdən mənə bir yardımçı ver; qardaşım Harunu! Onunla arxamı qüvvətləndir, onu, işimdə ortaq et. Belə səni təsbih edərəm***».

Bax, buna görə sadəcə imam Əli (ə) nübuvvəti-xassə xaricində bütün kamal mərtəbələrində həzrət Peyğəmbərlə ortaq və eyni məqama sahibdir».

**Hafiz:** «Heyrətimiz getdikcə artır. Görürük ki, həzrət Əlinin (k.v) məqamı mövzusunda ağıl sahiblərinin ağlını heyrətə gətirəcək qədər ğuluv edirsiniz. Bunlardan biri də «Əli (k.v), Rəsulallahın (s) sahib olduğu bütün sifət və xüsusiyyətlərə sahibdir» sözünü söyləməyinizdir.

**Dəvətçi:** Əvvəla, bu növ sözlər ğuluv deyil, əslində, həqiqətin özüdür. Çünki əqli qaydalara görə həzrət Peyğəmbərin (s) xəlifəsinin bütün sifətləriylə Ona (s) bənzəməsi lazımdır.

İkincisi, yalnız bir belə bir iddiada deyilik; sizin böyük alimlərinizdən bəziləri də öz mötəbər kitablarında bu fikri təsdiqləyirlər.

## HƏZRƏT ƏLİNİN (Ə) PEYĞƏMBƏRİN (S) BÜTÜN SİFƏTLƏRİNƏ SAHİB OLMASI

İmam Sələbi «Təfsir» və böyük alimlərinizdən olan Seyid Əhməd Şahabuddin «Tovzihud-dəlail əla Tərcihil-fəzail» adlı kitabında bu mənaya işarə edərək belə deyir: «**Mövlamız Əmirəl-mömінin Əli həzrət Peyğəmbərin (s) bir çox uca sifət, fel, adət, ibadət və əhvalında o həzrətə bənzəmişdir. Bu məna, səhih hədis və açıq ifadələrlə həzrət Əli üçün qətiləşmişdir. Bunun heç bir dəlil və höccətə ehtiyacı yoxdur. Bəzi alimlər, həzrət Peyğəmbərin (s) sahib olduğu bir qrup gözəl sifətləri, həzrət Əli üçün də saymışlar**».

Məsələn: imam Əli (ə) ilə həzrət Peyğəmbər (s) nisbətdə bir-birinin mislidir. İma Əli (ə) təharətdə (məsumluqda) – həzrət Peyğəmbər (s), həzrət Əli (ə) həzrət Fatimə (ə.s), həzrət Həsən (ə), və həzrət Hüseyn (ə) haqqında nazil ola Təthir ayəsindən[1] məlum olduğu kimi də həzrət Peyğəmbərlə (s) eynidir.

«Maidə» surəsinin 55-ci ayəsindəki – «***Sizin vəliniz (rəhbəriniz) ancaq Allah, Onun Rəsulu, namaz qılan və rüku halında zəkat verən möminlərdir***» dərin mənasında aydın görünür ki, Vilayət ayəsində də imam Əli (ə) həzrət Peyğəmbərin

---

[1] Təthir ayəsinin dərin mənası: «Ey Əhli-beyt!, həqiqətən, Allah, ancaq sizdən ricsi (günah və çirkinliyi) aradan aparmaq və sizi pak etmək istər». (Əhzab» surəsi, ayə: 33)

(s) ümmət üzərində sahib olduğu vilayət məqamına sahibdir. Bu ayənin, həzrət Əli (ə) haqqında olduğuna dair hər iki firqə ittifaq etmişlər.

İmam Əli «Bəraət» (Tövbə) surəsinə görə də təbliğ və risalət məqamında həzrət Peyğəmbərlə (s) eyni məqama sahibdir. Çünki Rəsulallah (s) «Bəraət» surəsinin ayələrini həcc mövsümündə Məkkə əhlinə oxuması üçün Əbu Bəkrə verdi. Amma (bu kitabda da yazıldığı kimi) Cəbrayıl həzrət Peyğəmbərin (s) hüzuruna gələrək, bu risaləti ya özü və ya özündən olan bir nəfərdən başqasının etməyəcəyini bildirdi. Həzrət Peyğəmbər (s) də Allahın əmriylə «Bəraət» surəsini Əbu Bəkrdən alıb həcc mövsümündə oxuması üçün imam Əliyə (ə) verdi.

Həzrət Peyğəmbərin (s) Qədiri-Xumda buyurduğu «***Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır***» hədisinə görə də, (Necə ki, bu hədisin şərhi bu kitabda gələcək) imam Əli (ə) həzrət Rəsuli-əkrəmin (s) ümmətin ağası məqamına sahibdir.

İmam Əli (ə) «Ali-imran» surəsindəki Mübahilə ayəsinə görə də, həzrət Peyğəmbərlə (s) nəfs birliyi (ittihadi nəfs) məqamına sahibdir. Bu səbəbdən Allah-Təala mübahilə ayəsində (bu kitabda şərh ilə zikr edildiyi kimi, hər iki məzhəbin fikrinə görə) həzrət Əlini (ə) Rəsulallahın (s) nəfsi dərəcəsində qərar vermişdir.

İmam Əli (ə) evinin qapısının məscidə açılması yönündən də həzrət Peyğəmbərlə (s) eyni məqama sahibdir (Bilindiyi kimi, Rəsulallahla (s) həzrət Əlinin (ə) qapısı istisna olmaqla, qapıları məscidə açılan bütün evlərin qapıları həzrət Peyğəmbərin (s) əmriylə bağlanmışdı).

İmam Əli (ə) məscidə cənabətli daxil ola bilməklə əlaqəli özünə verilən izndə də həzrət Peyğəmbərlə (s) eyni məqama sahibdir».

Bu arada əhli-sünnət qardaşlarımız arasında yavaşca bəzi sözlər söylənməyə başladı. Nə olduğunu soruşduqda belə cavab verdilər:

**Nəvvab:** «Keçən cümə, namaz qılmaq üçün məscidə getdik. Hafiz, təsadüfən sizin Peyğəmbərin (s) məscidinə açılan qapıyla əlaqəli nəql etdiyiniz hədisi nəql etdi və bu qapının Əbu Bəkrin qapısı olduğunu söylədi. Bu qapının həzrət Əlinin qapısı olduğunu söyləməyiniz, məclisdə olanların heyrətinə səbəb oldu. Elə

danışdığınız mövzuyla əlaqəli olduğu üçün bu məsələni izah etməyinizi rica edirik».

**Dəvətçi:** «(Hafizə tərəf dönərək) Belə bir bəyan etdinizmi?»

**Hafiz:** «Bəli! Çünki böyük və adil səhabə Əbu Hüreyrədən (r.z) nəql edilən səhih hədislərdə Peyğəmbəri-əkrəm (s) məscidə açılan bütün qapıların bağlanmasını əmr etmiş və Əbu Bəkrin qapısını istisna edərək, belə buyurmuşdur:

«***Əbu-Bəkr məndəndir; mən də Əbu Bəkrdənəm***».

**Dəvətçi:** «Böyük ehtimalla möhtərəm ağalar da mütləq bilirlər ki, Əməvilər, Əmirəl-möminin həzrət Əlinin (ə) xüsusiyyətlərindən sayılan hər fəzilətin qarşısında Müaviyənin süfrəsinin qazan dibi yalayanlarından olan Əbu Hüreyrə, Müğəyrə, Əmr ibn As və başqa şəxslər vasitəsiylə, başqaları haqqında hədis uydurmaq üçün böyük səy göstərmişlər. Bəkrilər də Əbu Bəkrə olan ifrat əlaqələrinə görə bu yalan hədisləri daha da dəstəkləmişlər.

Bu səbəbdən İbn Əbil Hədid «Şərhi Nəhcul-bəlağə» kitabının I və xüsusilə III cildinin 17-ci səhifəsində bu vaqiələri geniş bir şəkildə nəql edir: **Əbu Bəkrin qapısından başqa məscidə açılan bütün qapıların bağlanması hədisi, səhih hədislərin müqabilində duran hədisdir**».

Aydındır ki, bu uydurulmuş hədis şiə və əhli-sünnət alimləri yoluyla, təvatürlə nəql edilən bu səhih hədis: «***Peyğəmbəri-əkrəm (s), həzrət Əlinin qapısından başqa məscidə açılan digər bütün qapıları Allahın əmriylə bağlatdırdı***»qarşısındadır.

**Nəvvab:** «Hafiz ağa bu hədisi Əbu Bəkrik fəzilətləri sırasında saydığı halda, siz həzrət Əlinin fəzilətlərindən biri olduğunu söyləyirsiniz. Əgər mümkünsə, dinləyicilərin həqiqəti müəyyən edə bilməsi üçün bizim mötəbər (səhih) kitablarımızdan sənədlərlə iddanızın doğruluğuna dair dəlil gətirin».

# PEYĞƏMBƏRİN (S) ƏMRİYLƏ ƏLİNİN (Ə) QAPISINDAN BAŞQA MƏSCİDƏ AÇILAN DİGƏR QAPILARIN BAĞLADILMASI

**Dəvətçi:** «İmam Əhməd ibn Hənbəl «Müsnəd» kitabının I cildinin 175-ci səhifəsi, II cildinin 26-cı səhifəsi və IV cildinin 369-cu, Əbu-Əbdurrəhman Nəsai «Sünəni-Nəsai»də və «Xəsaisul-Ələviyyə» kitabının 13-cü və 14-cü və Hakim Nişapuri «Müstədrək» kitabının III cildinin 117 və 125-ci səhifələrində, Səbt ibn Covzi, Tirmizi və Əhməd vasitəsilə bu hədisi isbatladığı «Təzkirə» kitabının 24 və 25-ci, İbn Əsir Cəzri «Əsnəl-Mətalib»in 12-ci, İbn Həcər Məkki «Səvaiq»in 76-cı, İbn Həcər Əsqəlani «Fəthul-Bari»nin VII cildinin 12-ci, Təbərani «Əvsət», Xətibi Bağdadi «Tarix» kitabının VII cildinin 205-ci, İbn Kəsir «Tarix» kitabının VII cildinin 342-ci, Müttəqi Hindi «Kənzul-ümmal»ın VI cildinin 408-ci, Heysəmi «Məcməuz-Zəvaid» kitabının 9-cu cildinin 115-ci, Muhibbuddin Təbəri «Riyaz» kitabının II cildinin 192-ci, İbn Əbil Hədid «Şərhi Nəhcul-bəlağə»nin II cildinin 451-ci, Hafiz Əbu Nəim «Fəzailus-Səhabə»də «Hilyətul-Övliya»nın IV cildinin, 153-cü və Cəlaləddin Siyuti «Tarixul-xüləfa»nın 116-cı və «Cəmul-cəvami», «Xəsaisul-kubra» və «Ləalil-Məsnuə»nin I cildinin 181-ci səhifəsində, xətibi Xarəzmi «Mənaqib»də, Həmvinin «Fəraid»də, İbn Məğazəli «Mənaqib»də, Mənavi Misri «Kunuzud-Dəqaiq»də, Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddə»nin 87-ci (zikr olunmuş kitabın 17ci babını bu mövzuya ayırmışdır), Şəhabuddin Qəstəlani «İrşadus-Sari»nin 6-cı cildinin 81-ci, Hələbi «Sirətul-Hələbiyyə»nin III cildinin 374-ci və Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-Süul»un 17-ci səhifəsində mövcud olan hədisi müxtəlif deyilişlə nəql etmişlər.

Xülasə, əhli-sünnət alimlərinin ümumisi Ömər ibn Xəttab, Əbdullah ibn Abbas, Əbdullah ibn Ömər, Zeyd ibn Ərqəm, Bərra ibn Azib, Əbu Səid Xidri, Əbu Hazim Əşcəi, Səd ibn Əbi Vəqqas və Cabir ibn Əbdullah Ənsari kimi əshabın qabaqcıllarından cüzi fərqlə həzrət Peyğəmbərin (s) imam Əlinin (ə) qapısından başqa məscidə açılan bütün qapıların bağlanmasını əmr etdiyini nəql etmişlər.

Xüsusən, əhli-sünnətin böyük alimlərindən bir çoxu Əməvi, Bəkri tərəfindən aldadılmış kəslər üçün bu mövzuyla əlaqəli geniş açıqlamalar vermişlər. Məsələn: Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayətut-Talib» kitabının 50-ci babını bütünlüklə bu mövzuya həsr etmişdir. Mövzuya aid müsnəd hədisləri nəql etdikdən sonra «Haza Hədisun Alun» (Bu çox dəyərli hədisdir) ünvanıyla açıqlamalar verərək belə demişdir: «Rəsulallah (s), məscidə açılan qapıların bağlanmasını və məsciddə cənabətli və ya heyizli gəlib durmağın qadağan olduğunu buyurduqdan sonra həzrət Əlinin (ə) qapısını istisna edərək, belə buyurmuşdur:

«***Əlinin (ə) qapısından başqa məscidə açılan bütün qapıları bağlayın***».

Daha sonra belə deyir: «Cənabətli halda məscidə girməyi və orada durmağın mübah olması, sadəcə həzrət Əliyə (ə) məxsusdur. Amma bu, digər insanların məscidə cünublu halda və ya heyzli girib-çıxa biləcəklərinə dəlil ola bilməz. Həzrət Peyğəmbərin (s) bu cür fərqləndirməyi və həzrət Əli (ə), həzrət Fatimə (ə.s) və onların övladlarının tanıtmasının səbəbi onları pak bilməsinə görədir. Onsuz da «Təthir ayəsi» onların hər cür çirkinlik və günahdan münəzzəh olduğunu açıq bir şəkildə bildirmişdir.

Möhtərəm Hafiz ağa, bu Şafei aliminin verdiyi geniş açıqlamaları da nəzərə alaraq, Əbu Bəkr haqqındakı nəql etdikləri hədisi bunlar ilə müqayisə etsinlər. Bizim bu qədər etibarlı sənədlərimizə baxmayaraq, əgər Əbu Bəkrin təharəti (bütün çirkinliklərdən təmiz olması) haqqında bir dəlilləri varsa, buyurub, nəql etsinlər!

Bunu da əlavə edək ki, Buxari və Müslim öz «Səhih»lərində bu mövzuya işarə edərək, cünublu halda kimsənin məscidə girmə və məsciddə durma haqqına sahib olmadığını söyləyib, Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edirlər:

«***Mən və Əlidən başqa məsciddə cünub olmaq kimsəyə layiq deyildir***».

Bu növ hədislər, həzrət Əli (ə) və həzrət Peyğəmbərin (s) qapısından başqa bütün qapıların bağlandığını isbatlamaqdadır. Əgər bu iki qapıdan başqa hər hansı bir qapı açıq qalmış olsaydı, başqalarının da məscidə cənabətli girmələri caiz olardı. Peyğəmbərimiz (s) açıq bir şəkildə, özü və həzrət Əlidən (ə) başqa heç kimin məscidə cənabətli daxil ola bilməyəcəyini buyurur.

Bu hədis (Buxari və Müslim də onu nəql etmişlər) Əmavi, Bəkri və digər qrupların, açıq qapının digər bir şəxsə aid olduğu xüsusundakı iddialarının rəddi üçün qəti bir dəlildir.

Bu qəti və aşkardır ki, evin qapısının məscidə açıq qoyulması izni həzrət Əlinin (ə) xüsusiyyətlərindəndir. Əgər izn versəniz, bu mövzudakı sözlərimi II xəlifədən sizə söyləyəcəyim bir hədislə bitirim. Hakim bu hədisi «Müstədrək»in III cildinin 125-ci səhifəsində, Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddə»nin 56-cı bölümünün 210-cu səhifəsində (Zəxairul-Uğba»dan nəql edərək), İmamul-Hərəm «Müsnədi Əhməd ibn Hənbəl»dən, Xətib Xarəzmi «Minaqib»in 261-ci səhifəsində, İbn Həcər «Səvaiq»in 76-cı səhifəsində, Siyuti «Tarixul-Xüləfa»da və İbn Əsir Cəzri «Əsnəl-Mətalib» kitabında və başqa şəxslər, az bir fərqlə, Ömərin belə dediyini nəql etmişlər: «Şübhəsiz, Əli ibn Əbu Talibə üç xüsusiyyət verilmişdir. Əgər onlardan biri mənə verilmiş olsaydı, mənim üçün qırmızı tüklü heyvanlardan daha xeyirliydi. O, xüsusiyyətlər bunlardır:

1. Peyğəmbər (s), onu öz qızıyla evləndirdi;
2. Peyğəmbər (s), onun qapısından başqa məscidə açılan bütün qapıları bağladı və o, Rəsulallah ilə birlikdə məsciddə oturdu və Peyğəmbərə məsciddə halal olan hər şey ona da halal oldu;
3. Peyğəmbər (s) Xeybər günündə İslam bayrağını ona verdi».

Güman edirəm, burada bu məsələ Nəvvab və digər əziz qardaşlarımıza heç bir qaranlıq qalmadan aydın oldu. Hafiz də tamamən rahat oldu.

Təkrar əvvələ – Seyid Şəhabuddinin dediyi sözlərin ardına qayıdaq. O, araşdırmasının son qismində belə deyir: «Kim həzrət Əlinin əhvalı haqqında bir az araşdırma apararsa, bir çox xüsusi sifət, zahiri hallar və xarici görünüş sifətlərində Rəsulallaha (s) son dərəcədə bənzədiyini görəcəkdir. Həzrət Əlidən başqa heç kim bu xüsusiyyətlərə sahib olma iftixarına sahib deyil».

Bu söylədiklərim üləmanızın Əmirəl-möminin həzrət Əlinin (ə) məxsus fəzilətləri haqqındakı etiraflarından sadəcə bir nümunə idi. Bilin ki, mən, əsla, O həzrətin (ə) məqamı haqqında ğuluva yol vermir və ağılsızcasına iddialar da

etmirəm. Şiə camaatı əvvəldən günümüzədək, əsla, dəlilsiz bir iddia da etməmişdir; bizim dəlillərinizin əsl qaynaqları mötəbər kitablarınızda yer alır.

Amma təəssüf etdiyim nöqtə budur ki, keçmişdən qalma bir adət üzrə, hər şeydən xəbərsiz, avam xalqın arasında oturduqda, öz məqamınızı qorumaq üçün, qürurla danışır, böhtan və iftira deyib, məsələləri xalqa yanlış çatdırırsınız.

Zikr edilən bu müqəddimədən imam Əlinin (ə) Harunun (ə) həzrət Musaya (ə) olan nisbəti kimi bütün istiqamətlərdə Peyğəmbərin (s) misli və ortağı olduğu sabit oldu. Həzrət Musa, qardaşı Harunu bəni-İsrail arasında hər kəsdən daha layiq və daha üstün bildiyi üçün Allaha dua edərək, onu özünə ortaq və vəzir etməsini istədi. Həzrət Peyğəmbər (s) də ümməti arasında bu məqama imam Əlidən (ə) daha layiq bir kimsə görmədi və Allahdan, Harunu (ə) necə Musaya (ə) vəzir və ortaq etdisə, Əlini (ə) də özünə ortaq etməsini istədi».

**Nəvvab:** «Qibləsahib! Görəsən, bu mövzuyla əlaqədar hədis varmı?».

**Dəvətçi:** «Əlbəttə, şiədən əlavə, mötəbər kitablarınızda da bu mövzuda əlaqədar hədislər vardır».

**Nəvvab:** «Əgər mümkünsə, o hədislərdən bəzilərini söyləyin, çox razı qalarıq».

**Dəvətçi:** «Ağaların (Üləmayə işarə edərək) buna istəyi olarsa, mən hazıram».

**Hafiz:** «Heç bir maneə yoxdur. Çünki hədis nəql etmək və onu dinləmək ibadətdir».

## PEYĞƏMBƏRİN (S) ALLAH-TƏALADAN HƏZRƏT ƏLİNİ (Ə) ÖZÜ ÜÇÜN VƏZİR İSTƏMƏSİ

**Dəvətçi:** «Şafei fəqihi olan İbn Məğəzəli «Mənaqib»də, Cəlaluddin Süyyuti «Dürrül-Mənsur» təfsirində və hədis əshabının imamı Əhməd Sələbi «Kəşful-bəyan» təfsirində, Səbt ibn Covzi «Təzkireyi – xəvassul – ümə» də «Vilayət ayəsi»nin bəhsində və yenə eyni kitabın 14-cü səhifəsində Əbuzər Ğəffari və Əsma binti Umeysin (Əbu Bəkrin xanımı) belə söylədiklərini nəql edir: «Bir gün əsr namazını məsciddə qıldıq və Rəsulallah (s) da orada idi. Bir dilənçi gəlib yardım

istədi və heç kim ona bir şey vermədi. Bu aradan namazda rüku halında olan həzrət Əli (ə) barmağındakı üzüyə işarə etdi və dilənçi də üzüyü Əlinin (ə) barmağından çıxartdı. Peyğəmbər (s) bu mənzərəni gördükdə, mübarək başını göy üzünə doğru qaldırıb belə ərz etdi: «***Allahım! Qardaşım Musa Səndən istədikdə belə dedi: «Rəbbim mənim köksümü genişlət, (risalətin təbliğində) işimi asan et… və qardaşım Harunu işlərimdə ortaq et». O zaman Musaya bu ayə nazil oldu: «Biz sənin istəyini qəbul etdik və qardaşın Harunu sənə vəzir edərək, sənin arxanı gücləndirəcəyik. Sizə bu aləmdə kimsənin yetişə bilməyəcəyi bir qüdrət və hökümət verəcəyik***».

Bundan sonra Peyğəmbərimiz (s) belə ərz etdi: «***Allahım! Mən sənin seçilmiş və peyğəmbərin olan Məhəmmədəm; belə isə köksümü genişlət, işlərimi asanlaşdır və Əhli-beytimdən Əlini mənə vəzir et, arxamı gücləndir***».

Əbuzər deyir: «Allaha and olsun, Peyğəmbərin (s) duası tamam olmadan Cəbrayıl nazil olaraq «***Sizin vəliniz Allah, Rəsulu və namaz qılıb rüku halında ikən zəkat verən möminlərdir***» ayəsini oxudu.

Göründüyü kimi, həzrət Peyğəmbərin (s) duası qəbul olmuş və imam Əli (ə) də (Harun Musaya vəzir olduğu kimi) O həzrətə vəzir təyin edilmişdir.

Məhəməd ibn Təlhə Şafei «Mətalibus-Süul» kitabının 19-cu səhifəsində geniş açıqlamalarla bu mənaya toxunmuşdur.

Hafiz Əbu Nəim İsfahani 2Mənqəbətul-Mütəhhirin» kitabında, Şeyx Əli Cəfri «Kənzul-Bərahin»də, İmam Əhməd ibn Hənbəl «Müsnəd»ində, Seyid Şəhabuddin «Tovzihud-Dəlail»ində və Cəlaləddin Süyyuti «Dürrül-Mənsur» kitabında və digər bir çox əhli-sünnət üləması – ki, vaxt az olduğundan onların adını zikr etmirəm – öz təsnif və təliflərində bu hədisi nəql etmişlər. Bəziləri bu hədisi Əsma binti Ümeysdən (Əbu Bəkrin xanımı), bəziləri də səhabələrdən ki, axırı (Hibri – ümmət) İbni Abbasla sona çatır, nəql etmişlər.

İbni Abbas deyir: «Peyğəmbər (s) mənim və Əlinin əlini tutduqdan sonra dörd rükət namaz qılıb, əllərini göy üzünə doğru açaraq, belə ərz etdi:

«***Allahım! Musa ibn İmran (qardaşı Harunun vəzirliyi, nübuvvət işində ortaq olması və risaləti təbliğ etməsi üçün) səndən istədisə. Allahım! Mən***

***Məhəmməd də Səndən istəyirəm ki, köksünü genişlədəsən, işlərimi asanlaşdırasan, sözümü anlaya bilmələri üçün dilimin düyününü açasan, əhlimdən Əli ibn Əbu Talibi mənə vəzir edəsən, Onun vasitəsiylə arxamı gücləndirəsən və Onu işlərimdə mənə ortaq edəsən***».

Bu əsnada bir nidaçının belə dediyini eşitdim: «***Ya Əhməd! İstədiyin şeyi sənə verdik***». O zaman Rəsuli-əkrəm (s) həzrət Əlinin (ə) əllərini tutaraq ona belə buyurdu:

«***Əllərini göy üzünə qaldır və Rəbbindən sənə bir şey verməsi üçün istə ondan***». Həzrət Əli (ə) əllərini göy üzünə doğru qaldıraraq, belə ərz etdi: «***Allahım, öz qatında mənim üçün bir əhd et və mənim üçün məhəbbət icad et***». Bu vaxt Cəbrayıl nazil olaraq «Məryəm» surəsinin 96-cı ayəsini gətirdi:

«***İman gətirənlər və saleh əməllər edənlər isə... Allah onlar üçün bir sevgi (məhəbbət) yaradacaqdır***».

Əshab bu hadisədən heyrətə gəldi. Rəsuli-əkrəm (s) buyurdu: «***Nə üçün heyrətləndiniz, Quran dörd qismdir; ondan dörddə biri biz Əhli-beyt haqqındadır, dörddə biri halallar və dörddə biri haramlar haqqındadır. Digər dörddə biri isə fərz və əhkam haqqındadır. Allaha and olsun ki, Quranın kəramətləri də Əli haqqında nazil olmuşdur***».

**Şeyx:** «Hədisin səhih olması onun sadəcə Əli (k.v) haqqında olmasına dəlalət etməz. Bu hədis iki şəni uca xəlifə olan Əbu Bəkr və Ömər haqqında da söylənmiş ola bilər. Quzat ibn Suveyd İbn Əbu Məlikdən o da İbn Abbasdan Rəsulallahın belə buyurduğunu nəql etmişdir: «Əbu Bəkr və Ömər mənə nisbətdə Harunun Musaya olan mənziləti (məqamı) kimidir».

**Dəvətçi:** «Hörmətli ağalar, əgər bir az ravilərin ricalına müraciət etmiş olsaydınız, özünüzü bu qədər zəhmətə salmazdınız. Bəzən Amudi, bəzən də yalançı Quzat kimi kəslərin sözləriylə dəlil gətirirsiniz. Böyük alimləriniz onun nəql etdiyi hədisləri zəif bilərək, rədd etmişlər. Xüsusilə, Əllamə Zəhəbi «Mizanul-Etidal» kitabında Quzat ibn Suveyd və Əmmar ibn Harunun tərcümeyi-halında bu hədisi rədd etmiş və onun yalan olduğunu söyləmişdir. Elə bu səbəbdən Quzat ibn

Suveyd öz alimləriniz tərəfindən rədd edildiyinə görə ondan nəql edilən hədislər də rədd edilmiş deməkdir.

Şiənin bu hədisi təvatürlə nəql etməsinə baxmayaraq, böyük alimlərinizdən nəql etdiyim ravilər silsiləsini Quzatın nəql etdiyi rəvayəti yan-yana qoyaraq müqayisə edin və sonra hansının daha doğru olduğuna vicdanınızla qərar verin».

Söz buraya yetişəndə ağalar saatlarına baxaraq «Başımız söhbətə qatışdı, saatdan qafil olduq; Artıq gecə yarısıdır. Bu mövzunu burada saxlayaq, sabah qaldığımız yerdən davam edərik» deyib, vidalaşaraq getdilər.

# BEŞİNCİ GECƏ

27 rəcəb, çərşənbə axşamının gecəsi, 1345-ci il (1924)

Axşamın ilk saatlarında məclisdə iştirak etmək üçün çox sayda camaat toplaşdı. Hal-əhval tutub, çay içildikdən sonra Hafiz sözə başladı.

**Hafiz:** «Bu gün, dünənki gecə dediyiniz sözlərin üzərində yaxşı-yaxşı düşündüm. Sonra bu nəticəyə gəldim: maşallah, güclü danışma qabiliyyətiniz var. Sehirli bəyanınızla, gözəl bəlağətinizlə və mövzunu incələyib açıqlamaqla, Rəsulallahın mənzilət (s) hədisini buyurmanızdan məqsədiniz həzrət Əlinin (ə) Peyğəmbəri-əkrəmdən (s) sonra xəlifə olduğunu isbat etməkdir. Halbuki, hədisin xüsusi bir tərəfi olub və Təbuk döyüşündə söylənişdir. Hədisin ümumilikdə hər zaman keçərli olacağına dair hər hansı bir dəlilimiz yoxdur».

## «MƏNZİLƏT» KƏLMƏSİ ÜMUMİYYƏT İFADƏ EDİR

**Dəvətçi:** «Bu sözü başqası söyləsəydi, təəccüb etməzdim. Amma sizin kimi bir alimin belə danışması, həqiqətən, çox təəccüblüdür. Çünki ərəb ədəbiyyatını və onun qanunlarını bilirsiniz. Nə üçün belə danışırsınız, anlamıram. Ərəb dilinin qanunlarına görə istisna və özündən istisna olunmuş kəlmə (müstəsna minhunun) hər yerdə ümumiliyi ifadə etdiyini çox yaxşı bilirsiniz. Bu hədisi-şərifdə «mənzilət» kəlməsinin xüsusilə ələmə (məxsus ada) izafə olması qətiyyətlə ümumiyyəti əlamətləndirir.

Ayrıca, üsul elminin alimləri ismi-cinsi-izafini, xüsusilə də əlif və lam ilə olarsa, ümumiyyəti ifadə etdiyini söyləyirlər. Hədisdə də «mənzilət» kəlməsinin ismi-cinsi-izafi olması ümumiyyəti bildirir.

Hər nə qədər bəzi alimləri bizim qəbul etdiyimiz nəzəri, yəni «bir kəlmə mərifəyə (tanınmış, bəlli, bilinənə) izafə olduğu zaman ümumi ifadə edər» nəzərini mənimsəmişlər. Burada mərifənin ələmə (məxsus ada) və ya zəmirə (əvəzliyə) izafə olması arasında hər hansı bir fərq yoxdur. İstisnanın varlığı, ümumə dəlalət etməyin şərti deyildir. Əksinə, istisnanın səhih olması ümum üçün yetərlidir.

Buna görə «***Sənin mənə olan mənzilətin, Harunun Musaya olan mənziləti kimidir; amma məndən sonra nəbi yoxdur***» hədisi ümuma dəlalət edir. «*Məndən sonra nəbi yoxdur*» cümləsi mənaya həml edilmişdir. O məna da «nübuvvət»dir. Mənaya həmletmə qanunu məşhur bir qanun olub, çox istifadə edilir. Fəsih və bəlağətli kəslərin şer və yazılarında bu qanun çox istifadə olunmuşdur».

**Hafiz:** «Bir az daha diqqət etsəniz, «***Məndən sonra nəbi yoxdur***» cümləsinin xəbəri-cümlə olduğunu görəcəyinizi güman edirəm. Onu Harunun mənzilətindən istisna edə bilməzsiniz. Bundan başqa nə üçün sərhəddən çıxıb, mənaya həml edirsiniz və nə üçün «nübuvvət» kələsini çıxardırsınız?».

**Dəvətçi:** «Münaqişəyə yol verirsiniz! Sizin kimi şərif bir insanın münaqişə yoluna keçməsi, doğrusu, yaxşı qəbul edilmir. Əgər əvvəlki cümlələrin üzərində bir az düşünsəniz, xəbəri-cümlənin cavabının orada verildiyini görərsiniz.

«Nə üçün mənaya həml etdiniz və nə üçün zahiri kəlməylə həqiqəti açıqlamadınız?» sözünüzə gəlincə, bunun cavabını siz daha yaxşı bilirsiniz, amma özünüzü bilməməzliyə vurursunuz. Məgər bəyan elminin alimlərin cümləni gözəlləşdirmək üçün bəzi kəlmələr həzf etdiklərini (cümlədə istifadə etmədiklərini) bilmirsiniz?! Qurani-kərimin ayələrində, fəsahət və bəlağətli kəslərin sözlərində bunun bir çox misalına rastaşmışıq.

Bundan başqa, əgər hədislərdə «nübuvvət» kəlməsi olmasaydı, belə bir sualı verə bilərdiniz. Halbuki, Peyğəmbəri-əkrəm (s) bu məqamın həzrət Əlinin (ə) olduğunu isbatlamaq üçün bir neçə dəfə «nübuvvət» kəlməsini açıq şəkildə istifadə etmiş, onu cümlədə gətirmişdir. Rəsulallah (s) bəzən «nübuvvət» kəlməsini gətirməyərək (innəhu la nəbiyyə bədi), bəzən də onu gətirərək (illən nübuvvətə) həqiqəti isbat etmişdir. Bu da cümləyə ayrı bir gözəllik gətirir.

Əhli-sünnətin böyük alimləri nübuvvət kəlməsinin həm olduğu, həm də olmadığı bir çox hədis nəql etmişlər. Onların bəzilərini zikr edirəm ki, höccəti tamamlayam:

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talibin»in 70-ci babında, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddət»in VI babında, İbn Əsir «Tarix» kitabında, Aişə binti Səddən, o atasından, o da Rəsulallahdan (s), Səbt ibn Covzi

«Təzkirə»nin 12-ci səhifəsində «Müsnədi imam Əhməd» kitabından Müslim və daha başqalarından. İmam Əhməd ibn Hənbəl «Mənaqib»də, Əbu Əbdürrəhman Əhməd ibn Şuəyb Nəsai («Səhihi-Sittə»nin müəlliflərindən biri) «Xəsaisul-Ələviyyə»də dörd hədisi öz sənədiylə əsaslandıraraq Səd ibn Əbi Vəqqasdan və Aişədən, o da babasından, Xətib Xarəzmi «Mənaqib» kitabında Cabir ibn Əbdullah Ənsaridən belə nəql edirlər: «Rəsulallah (s) həzrət Əliyə buyurdu:

«***Görəsən, mənə nisbətdə, nübuvvətdən xaric, Harunun Musaya olan mənziləti kimi olmaya razı deyilsən?***»

Mirseyid Əli Həmədani «Məvəddətul-qurba»nın 6-cı məvəddəsində Ənəs ibn Malikdən nəql etdiyi hədisin sonunda (dünən axşam bu hədisi söyləmişdim) Rəsulallahın (s) belə buyurduğunu nəql edir:

«***Əgər məndən sonra nəbi (peyğəmbər) olsaydı, mütləq Əli peyğəmbər olardı. Amma məndən sonra nübuvvət (peyğəmbərlik) yoxdur***».

Bu qədər dəlilin yetərli olacağını düşünürəm. Ağalar kimsəni çaşdırmağa cəhd etməsinlər. Bilsinlər ki, müstəsna (istisna edilən) nübuvvətin olmaması deyil, nübuvvətdir. Bu hədisdə izah edilənlərə diqqət yetirin: Həzrət Musa Kəlimullah (ə) ümmətindən 40 gün ayrıldıqda onları öz başlarına buraxmadı. Bəni-İsrailin ən fəzilətlisi olan həzrət Harunu öz yerinə xəlifə və vəsi olaraq seçib getdi. O, bu vəsiləylə nübuvvətə hər hansı bir zərərin kəlməsinin qarşısını almaq istəyirdi. Vəziyyət belə olduğu halda şəriəti kamil, qanunları da Qiyamətə qədər olan Xatəmül-ənbiyanın (s) cahil insanları öz başlarına buraxmaması və müqəddəs şəriəti istədiklərinə uyacaq, rəy və qiyasa görə əməl edəcək və şəriəti bölüb-parçalayaraq Hənif və saf ümməti 73 firqəyə böləcək insanların ixtiyarına buraxmaması daha uyğundur! Onun üçün şərafətli hədisi «***Əlinin mənə nisbət olan mənziləti (məqamı), Harunun Musaya olan mənziləti (məqamı) kimidir***» deyə buyurur. Yəni bu hədis imam Əlinin (ə) Həzrtə Harunun (ə) sahib olduğu bütün məqamlara sahib olduğunu isbat edir.

Həzrət Əlinin (ə) bütün səhabə və ümmətdən daha üstün olduğunu əsaslandıran dəlillərdən biri də Onun xəlifə təyin edilməsidir. Yəni həzrət Harun

(ə) həzrət Musanın (ə) yerində necə onun xəlifəsi idisə, imam Əli də (ə) həzrət Peyğəmbəri-əkrəmin (s) yerində Onun xəlifəsidir».

**Hafiz:** «Bu hədisin əzəməti haqqında söylədikləriniz təbii ki, təsəvvür ediləndən daha üstündür. Amma belə sanıram ki, bir az dərindən düşünsəniz, hədisdə ümumiyyətin olmadığını görəcəksiniz. Çünki bu sadəcə Təbuq döyüşünə məxsusdur. Rəsulallah (s) sadəcə qısa bir müddət üçün həzrət Əlini (k.v.) xəlifə olaraq seçmişdir».

## MƏNZİLƏT HƏDİSİ TƏBUKDAN ƏLAVƏ DƏFƏLƏRLƏ SÖYLƏNMİŞDİR

**Dəvətçi:** «Hədis sadəcə Təbuq döyüşündə söylənmiş olsaydı, sözünüz doğru olardı. Ancaq bu hədis dəfələrlə və bir çox yerdə Rəsulallah (s) tərəfindən buyurulmuşdur.

Məsələn, «Qardaşlıq əqdi»ni ilk dəfə Məkkədə, ikinci dəfə də Mədinədə mühacirlər və ənsar arasında oxuduqda həzrət Rəsulallah (s) imam Əlini (ə) özünə qardaş seçmiş və belə buyurmuşdu:

«***Sənin mənə nisbətdə olan məqamın, Harunun Musaya olan məqamı kimidir. Bu fərqlə ki, məndən sonra nəbi yoxdur***».

**Hafiz:** «Çox qəribədir! İndiyə qədər eşidib gördüyüm şey mənzilət hədisinin sadəcə Təbuk döyüşündə söyləndiyidir. Peyğəmbər (s) oraya səfər etdikdə, həzrət Əlini öz yerinə təyin etmişdir. Əli səfərə gedə bilmədiyinə görə kədərləndi. Həzrət Peyğəmbər (s) onun narahatlığını aradan aparmaq üçün bu sözləri buyurdu. Açıqlamalarınızda xəta etdiyinizi sanıram».

**Dəvətçi:** Xeyr, xəta etmədim, əksinə buna yəqinim vardır. Şiə alimlərinin bu barədə birliyindən əlavə, sizin bir çox alimlərinizin etibarlı və mötəbər kitablarında da bunlar nəql edilmişdir. Məsələn: Məsudi (həm sünnilərin qəbul etdiyi bir şəxs, həm də şiələrin) «Murəvvicuz-Zəhəb»in II cildinin 49-cu səhifəsində, Hələbi «Siratul0Hələbiyyə»nin 26 və 120-ci səhifələrində, imam Əbu Əbdürrəhman Nəsai «Xasaisul-Ələviyyə»nin 19-cü səşifəsində, Səbt ibn Covzi «Təzkirə»nin 13 və 14-

cü səhifələrində, Süleyman bəlxi Hənəfi «Yənabiul-Məvəddət» kitabının 9 və 17-ci bablarında imam Əhməd ibn Hənbəlin «Müsnəd»indən nəql etmişlər. Eləcə də Əbdullah ibn Əhmd «Zəvaidu Müsnəd»də və Xarəzmi «Mənaqib» kitabında bu hədisi nəql etmişlər. Hətta Rəsulallahın (s) bu hədisi «Qardaşlıq əqdi»nindən əlavə də bir çox yerdə buyurduğunu söyləyirlər. Məclisin vaxtını çox almamaq üçün onları nəql etmirəm.

Sizlər də təsdiq edərsiniz ki, bu şərafətli hədisin məxsus bir tərəfi yoxdur. Əksinə, onun ümumiyyəti açıq aydındır. Rəsuli-əkrəm (s) hər fürsətdə, lazımlı bildiyi hər yerdə həzrət Əlinin (ə) özündən sonra xəlifə olduğunu bu cümlələrlə elan edirdi:

«***Əlinin mənə nisbətdə olan mənziləti, Harunun Musaya olan mənziləti kimidir; bu fərqlə ki, məndən sonra nəbi yoxdur***».

**Hafiz:** «Yaxşı, necə olur Rəsulallahın səhabələri bu hədisin ümumiyyətini bilmələri və Əlini xəlifə olaraq qəbul etmələrinə baxmayaraq, yenə də ona qarşı çıxıb, başqasını xəlifə seçərək, ona beyət etdilər?!».

## MUSANIN (Ə), QARDAŞI HARUNU (Ə) YERİNƏ XƏLİFƏ SEÇƏSİ VƏ SAMİRİNİN BƏNİ-İSRAİLİ BUĞAYA SİTAYİŞ ETMƏKLƏ ALDATMASI

**Dəvətçi:** «Bu mövzuda sizə verə biləcəyim bir çox mətləblərə cavab vardır. Onlardan mövzuya ən uyğun olanı həzrət Harunun (ə) hadisəsidir. Qurani-kərimin də açıq buyurduğu kimi həzrət Musa Kəlimullah, qardaşı həzrət Harunu özünə xəlifə seçdi. «Bəni-İsraili (bəzi xəbərlərə görə 70 min nəfər idilər) toplayaraq həzrət Harunun əmrlərinə itaət etmələrini söylədi. Sonra Rəbinin müsafiri olmaq üçün Tur dağına getdi. Heç bir ay keçməmişdi ki, Samiri fitnəsi baş verdi. Bəni-İsrailin arasında ayrılıq və ixtilaf düşdü. Samiri qızıldan bir buğa düzəldərək, bəni-İsraili həzrət Musanın (ə) xəlifəsi olan Harunun (ə) ətrafından ayırıb, öz Ətrafına toplamağa başladı. Qısa bir müddətdə o 70 min nəfəri həzrət Haruna qarşı çıxararaq, üsyan etdi. Halbuki, bəni-İsrail Musanın (ə) Harunu (ə) yerinə xəlifə

seçdiyini qulaqlarıyla eşitmişdilər. Amma onlar Samiriyə aldanaraq qızıldan düzəldilmiş buğaya tapındılar. Harun (ə) hər nə qədər onların bu çirkin işinə mane olmağa çalışdısa, heç bir fayda vermədi. Hətta onu öldürmək belə qərarına gəldilər. Bu səbəbdən «Əraf» surəsinin 150-ci ayəsində bu hadisəyə toxunulmuşdur. Harun (ə), qardaşı həzrət Musa Tur dağından qayıtdıqdan dərdli halda belə dedi:

«***Anam oğlu, bu cəmiyyət məni zəiflətdi, aciz etdi və haradasa məni öldürməkdə istəyirdilər!***»

Allah eşqinə, təəssübünüzdən bir az uzaqlaşıb, insafla söyləyin. Bəni-İsrailin həzrət Musanın (ə) əmrlərinə qarşı çıxmaları, haqq xəlifəsi Harunu (ə) yalnız qoymaları və hoqqabaz Samirinin hiləsiylə buğaya tapınmaları Harunun (ə) xəlifəliyinin batil olduğunu, Samiri və buğasının da haqq olduğunumu göstərir?!

Bəni-İsrail cahillərinin həva-həvəslərinə uyaraq etdikləri bu iş üçün «Harunun xəlifəliyi haqq olsaydı, onlar həzrət Musanın (ə) ağzından bunu eşidib onu, əsla, yalnız buraxmaz, Samirinin və buğanın arxasınca getməzdilər» deyə bilərsinizmi?! Belə olmadığını, həqiqətən, bilirsiniz! Həzrət Harun (ə), Qurani-kərimin hökmüylə həzrət Musanın (ə) xəlifəsi idi. Bəni-İsrail bunu həzrət Musanın (ə) öz ağzından eşitmişdilər. Amma həzrət Musa (ə) olmadıqda, fürsət hoqqabaz Samirinin əlinə düşən kimi bir buğa düzəltdi və etdiyi işin nə olduğunu bildiyi halda, qəsdən bəni-İsraili yoldan azdırdı. Onlar da Harunun (ə) Musanın (ə) xəlifəsi olduğunu bildikləri halda ya anlamamazdıqdan, ya da başqa səbəbə görə Samirinin arxasınca gedib, həzrət Harunu tək qoydular.

## ƏMİRƏL-MÖMİNİN (Ə) VƏZİYYƏTİNİN HARUNUN (Ə) VƏZİYYƏTİNƏ BƏNZƏMƏSİ

Rəsulallahın (s) vəfatından sonra əshab Peyğəmbərin ağzından dəfələrlə açıq-aydın özündən sonra həzrət Əlinin (ə) xəlifə olduğunu eşitdiklərinə baxmayaraq, Onu yalqız qoydular. Kimi həva-həvəslərinə uyaraq, kimi məqam sevgisi, kimisi də bəni-Haşimə olan düşmənçiliyinə görə həzrət Əlidən üz çevirdilər. Ayrıca həzrət Əliyə (ə) qarşı şəxsi həsəd, kin və nifrət edən bir qrup da onun əleyhinə

xüsusi bir təşkilat qurmuşdu. Ğəzzali «Sirrul-aləmin» kitabının 4-cü məqaləsində bu mövzuya toxunur: «Haqqa arxa çevirib, cahiliyyət dövrünə döndülər»[1].

Bu tərəfdən həzrət Harun (ə) ilə həzrət Əlinin (ə) vəziyyətləri arasında tam bir oxşarlıq vardır. Tədqiqatçı alim və tarixçilərinizdən Diynəvəri ləqəbiylə tanınan qazı Əbu Məhəmməd Əbdullah ibn Müslim ibn Qutəybə Bahili Diynəvəri «Əl-İmamət vəs-siyasət» adlı əsərinin I cildinin 14cü səhifəsində Səqifə hadisəsini geniş şəkildə yazdıqdan sonra belə deyir: «Əlinin evinə od vurub, onu təzyiq və təkidlə məscidə gətirərək «Beyət et, yoxsa boynunu vurarıq» dedilər. Həzrət Əli də bu hadisədən sonra Rəsulallahın qəbrinin üstünə gedib orada həzrət Harunun Musaya (ə) dediyi sözləri söylədi. Allah-təala bu sözləri Quranda zikr etmişdir:

«***Bu cəmiyyət məni zəiflətdi(aciz qoydu) və haradasa, məni öldürməkdə istəyirdilər***».

Rəsulallah (s) Əlini (ə) həzrət Haruna bənzətməklə, sanki ümmətinə bunu anlatmaq istəyirdi: həzrət Musanın bəni-İsrailin arasında olmadığı müddətdə Haruna etdiyini mənim vəfatımdan sonra siz Əliyə (ə) edəcəksiniz.

Bu baxımdan, həzrət Əli (ə) bu mənanı isbatlamaq üçün ümmətin təzyiqini və oyunbazların siyasətlərini görüncə, (artıq onu öldürməyə qədər irəli gəlmişdilər) həzrət Peyğəmbərin (s) mübarək qəbrinin yanına getdi. Orada Harunun həzrət Musaya söylədiyi, Allah-təalanın da Quranda nazil etdiyi sözləri söylədi».

(Məclisdə olanlar başlarını aşağı salmaqla bir müddət səssiz qaldılar.)

**Nəvvab:** «Qibləsahib! Əgər Əli ibn Əbu Talib xəlifə idisə, nə üçün həzrət Peyğəmbər (c) onu aşkar şəkildə xəlifə olaraq tanıtmamışdı, məqsədini işarə və mətnaltı mənada demişdi. Əgər aşkar şəkildə «***Əli mənim xəlifəmdir***» deyə buyursaydı, kimsənin şübhəsi qalmazdı».

**Dəvətçi:** «Daha öncə ərz etmişdim: Rəsuli-əkrəm (s) həqiqəti iki şəkildə bəyan etmişdi. Xəlifəliyi aşkar bəyan edən hədislər bir çox mötəbər kitablarınızda nəql edilmişdir. Amma üstörtülü deməyin lətafətliyi aşkar deməkdən daha çoxdur.

[1] Kitabın 9-cu gecəsində Ğazzalinin bu cümləsini Qədiri-Xum hədisinin əsnasında nəql etmişik. Həmin yerə müraciət edin.

Ədəbiyyatçılar deyirlər: «Mətinaltı məna, insanı məqsədə aşkardan daha yaxşı yetişdirir. Bu cür deyilən sözlərdə bir aləm məna yatır».

**Nəvvab:** «həqiqətin ortaya çıxması üçün bizim alimlərin kitablarında xəlifəliyi aşkar isbat edən hədislərin bu anda yadınızda olanı söyləyə bilərsinizmi? Çünki bizə xəlifəliyi aşkar bildirən heç bir hədisin olmadığını dəfələrlə söyləyiblər».

**Dəvətçi:** «Mötəbər kitablarınızda ağamız Əmirəl-mömininin (ə) xilafətini aşkar söyləyən bir çox hədislər vardır. Məclisin vaxtını nəzərə alaraq, zehnimdə həkk olanlara işarə edəcəyəm».

## İNZAR GÜNÜ PEYĞƏMBƏRİN (Ə) «HƏDİSSÜD-DAR HƏDİSİ» İLƏ HƏZRƏT ƏLİNİ (Ə) XİLAFƏTƏ TƏYİN ETMƏSİ

Hədislərin arasında ən əhəmiyyətlisi «Əd-Dar» hədisidir. Çünki Xatəmul-ənbiya (s) peyğəmbərliyini açıqladığı ilk gün imam Əlinin (ə) xəlifəliyini də aşkar elan etdi.

İmam Əhməd ibn Hənbəl (Hənbəlilərin imamı) «Müsnəd»in I cildinin 111, 159 və 333-cü səhifələrində, imam Sələbi də «Təfsir»ində «İnzar ayəsi»nin açıqlamasında, Sədrul-Əimmə Müvəffəq ibn Əhməd Xarəzmi «Mənaqib»də, Məhəmməd ibn Cərir Təbəri «İnzar ayəsi»nin təfsirində və «Tarixul-ümən vəl Məmlük»un II cildinin 217-ci səhifəsində müxtəlif yollarla, İbn Əbil Hədid Mötəzili «Şərhu Nəhcül-bəlağə»nin III cildinin 263-cü və 281-ci səhifələrində, Əbu Cəfər İsqafi «nəqzul-Osmaniyyə»dən nəql edərək, İbn Əsir «Kamil» in II cildinin 22-ci səhifəsində (mürsəl olaraq), Hafiz Əbu Nəim «Hilyətul-Övliya»da, Həmidi «Cəmun-Beynəs-Səhiheyn»də, Beyhəqi «Sünənun və Dəlailun»da, Əbulfida «Tarix»in I cildinin 116-cı səhifəsində, hələbi «Sirətul-Hələbiyyə»nin I cildinin 381-ci səhifəsində, imam Əbu Əbdürrəhan Nəsai «Xəsaisul-Ələviyyə»nin 6-cı səhifəsinin 65-ci hədisində, Hakim Əbu Əbdullah «Müstədrək»in 3-cü cildinin 132-ci səhifəsində, Şeyx Süleyman Bəlxi Hənəfi «Yənəbiul-Məvəddə»nin 31-ci babında Müsnədi Əhməd və «Təfsiri-Sələbi»dən nəql edərək, Məhəmməd ibn

Yusif Gənci Şafei «Kifayət-Talib» kitabının 51-ci babında və digər bir çox böyük alimləriniz az bir fərqliliklə belə nəql edirlər: «Şüəra» surəsinin 214-cü ayəsi, yəni «***Və ən yaxınlarını qorxut***» ayəsi nazil olduqda, Rəsuli-əkrəm (s) Qureyşdən olan qohumlarından 40 nəfəri, hörmətli əmisi Əbu Talibin (ə) evinə dəvət etdi. Onlar üçün qoyun ətindən bir budu və bir qədər çörəklə bir sa[1] süd hazırlamışdı. Onlar bu vəziyyətə gülərək, «Məhəmməd bir nəfərlik yemək belə hazırlamamışdır» dedilər (Çünki onların içində elələri var idi ki, təkbaşına bir dəvə balasını yeyirdi.)

Rəsuli-əkrəm (s): «***Yeyin, Allahın adı ilə***» buyurdu. Onlar yedikdən və doyduqdan sonra bir-birinə, «Məhəmməd-Rəsulallah (s) ayağa qalxıb, onlara bir xütbə oxudu. Sözü uzatmamaq üçün Peyğəmbərin dediklərindən sadəcə iddiamıza dəlil olan giriş hissəsini bildirəcəyəm. Rəsulallah (s) belə buyurdu:

«***Ey Əbdülmütəllib oğulları! Allah-təala mənim bütün insanlara və məxsusən sizlərə peyğəmbər olaraq göndərdi. Mən də sizi bu iki kəlməni(cümləni) söyləməyə dəvət edirəm. Belə ki, bu iki kəlmə dildə rahat və asan, ölçüdə ağır və dəyərlidir. Siz bu iki kəlməni söyləməklə ərəbə, əcəmə (ərəb olmayanlara) malik olacaqsınız. Onlar əmrinizdə olacaqlar. Bu iki kəlməylə Cənnətə girəcək və Cəhənnəmdən qurtulacaqsınız. O iki kəlmə Allahın birliyinə və mənim peyğəmbərliyimə şəhadət vermənizdir. Kim (ilk şəxs olaraq) bu dəvətimi qəbul edər və mənə yardımçı olarsa, o mənim qardaşım, məndən sonra vəzirim, varisim və xəlifəm olacaqdır***».

Rəsulallah (s) bu son cümləni üç dəfə təkrarladı. Hər üçündə də həzrət Əlidən başqa heç kim cavab vermədi. Həzrət Əli (ə) hər dəfə, «***Ey Allahın peyğəmbəri! Mən sənin yardımçın və yavərinəm***» - deyə cavab verdi. Bundan sonra Peyğəmbər (s) onu xəlifəliklə müjdələdi və ağzının mübarək suyunu onun ağzına sürtərək belə buyurdu:

«***Bu (Əli), mənim qardaşım, vəsim və aranızdakı xəlifəmdir***».

Bəzi kitablarda Rəsulallarhın (c) həzrət Əliyə (ə) xitab edərək belə buyurduğunu nəql edirlər:

«***Sən – ey Əli! Mənim vəsim və məndən sonra xəlifəmsən***».

---

[1] 3 kq tutumu olan ölçü qabı.

Şiə və sünni İslam alimlərinin, eləcə də İslam tarixi yazan başqa millətlərin tarixçiləri də, məzhəbi (yəni nə sünni, nə də şiə) təəssübləri olmadığından, bu hadisəni birmənalı şəkildə nəql etmişlər. Onlardan biri XVIII əsrin məşhur ingilis filosof və tarixçisi Tomas Karlildir. O, misirlilərin ərəb dilinə tərcümə etdiyi «Əl-ibtal və ibadətul-Mubtilə» adlı məşhur kitabında sözügedən mövzu haqqında belə yazır:

«Peyğəmbərin xütbəsindən sonra Əli ayağa qalxaraq, ona ima gətirdi. Beləcə, böyük xəlifəlik məqamı ona nəsib oldu».

Fransız professoru Cənab Misyo Pul Lehojor 1884-cü ildə Parisdə nəşr olunan «Xatəmul-nəbiyyinin həyatı» adlı kiçik həcmli kitabında ingilis Cocis Sal və şamlı Haşim Nəsrani 1891-ci ildə nəşr edilən «Məqalətul-İslam»ın 83 və 86-cı səhifələrində (İslama və müsəlmanlara qarşı müxalif olmalarına baxmayaraq), xüsusilə Mister Can Deyvun Port (ki, dəyərli müəllif və insaflı bir insan idi) dəyərli əsəri «Məhəmməd və Quran» adlı kitabının 20-ci səhifəsində bu mövzuyla əlaqəli, aydın bir nəzər və təmiz bir qəlblə belə yazır:

«Peyğəmbər hələ peyğəmbərliyinin əvvəlində Əlini özünə qardaş, vəzir və xəlifə seçmişdi».

## İMAM ƏLİNİN (Ə) XƏLİFƏLİYİNİ AÇIQ-AŞKAR ELAN EDƏN HƏDİSLƏR

Həzrət Peyğəmbər (s) bu şərafətli hədisdən başqa bir çox yer və zamanda da eyni mənaya toxunuşdur. Məsələn:

1. İmam Əhməd ibn Hənbəl «Müsnəd»də və Mirseyid Əli Həmədani Şafei «Məvəddətul-Qurba»nın 4-cü məvəddətinin sonunda Rəsulallahın (c) həzrət Əliyə belə buyurduğunu nəql edirlər:

«***Ya Əli! Sən xalqın üzərimdəki haqlarını ödəyəcəksən və sən mənim ümmətimə olan xəlifəmsən***».

2. İmam Əhməd «Müsnəd»də müxtəlif yol və ibarələrlə, Şafei fəqihi olan İbn əğazəli «Mənaqib»də və Sələbi «Təfsir»ində belə nəql edirlər: «Rəsuli-əkrəm (s) həzrət Əliyə buyurdu:

«***Ya Əli! Sən mənim qardaşım, vəsim, xəlifəm və borclarımı ödəyənsən***».

3. Əbülqasim Hüseyn ibn Məhəmməd (Rağib İsfahani) «Mühaziratul-Üdəba və Mühaviratuş-Şüəra vəl-büləğa» kitabının II cildinin 213-cü səhifəsində (Amirə Şərəfiyyə çapı, Seyid Hüseyn Əfəndi, 1326 h.q) Ənəs ibn Malikdən Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql etmişdir:

«***Şübhəsiz, mənim dostum, vəziri, xəlifəm və borcumu ödəyib, vədlərimə vəfalı olan, özümdən sonra qoyduğum ən xeyirli kəs Əli ibn Əbu Talibdir***».

4. Mirseyid Əli Həmədani Şafei «Məvəddətul-qurba»nın 6-cı məvəddətinin əvvəllərində II xəlifə Ömər ibn Xəttabdan belə nəql edir: «Həzrət Peyğəmbər əshab arasında Qardaşlıq əqdi oxuyarkən belə buyurdu:

«***Bu Əli dünya və axirətdə qardaşım, ailəm arasında xəlifəm, ümmətimin içində vəsim, elminin varisi və borcumu əda edəndir. Onun malı mənim, mənim malım isə onundur; onun mənfəəti mənim mənfəətim, zərəri isə mənim zərərimdir. Onu sevən məni sevmişdir, ona nifrət edən mənə nifrət etmişdir***».

5. Yenə 6-cı məvəddətdə Ənəs ibn Malikdən hədis nəql edir ki, daha öncə onu bildirmişdim. O, hədisin sonunda deyir: «Rəsuli-əkrəm (s) belə buyurdu:

«***O (Əli), mənim xəlifəm və vəzirimdir***».

6. Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayət-Talib» kitabında Əbuzər Ğəffaridən belə nəql edir: Peyğəmbər (s) buyurdu:

«***Üzü, əli, ayağı (səcdə yerləri) nurlu, əlində bayrağı olan ima və məndən sonrakı xəlifəm Əmirəl-möminin Əli Kövsər hovuzunda yanıma gələcəkdir***».

7. Beyhəqqi, Xətib Xarəzmi və İbn Məğazəli Şafei «Mənaqib» kitabında Rəsulallahın (s) həzrət Əliyə (ə) belə buyurduğunu nəql etmişlər:

«***Mən insanların arasından getdikdən sonra sən mənim xəlifəm və məndən sonra möminlərin vəlisisən***».

8. İmam Əbu Əbdürrəhman Nəsai Sihahi-Sittənin imamlarından biri «Xəsaisul-Ələviyyə» kitabının 23-cü hədisində İbni Abbasdan həzrət Əlinin (ə) fəzilətini geniş şəkildə nəql edir. Harunun mənzilətlərini zikr etdikdən sonra Rəsulallahın (s) həzrət Əliyə belə buyurduğunu nəql edir:

«***Sən mənim xəlifəmsən. Yəni məndən sonra hər möminin xəlifəsisən***».

Aydındır ki, bu cümlə və davamındakı cümləylə Harunun bütün mənzilət və dərəcələrini imam Əliyə (ə) verdikdən sonra O həzrətin əmrliyini açıq bəyan etdi.

«***Yəni sən – Ey Əli! Ümmətimə və məndən sonra hər möminə mənim xəlifəsən***».

Bu şərafətli hədisdə və eləcə də digər hədislərdə həzrət Peyğəmbərin (s) buyurduğu «min» kəlməsi ya «mini-bəyaniyyə»dir; yəni «***Mənim ölümümdən sonra…***» və ya «mini-ibtidaiyyə»dir; yəni «***Öldüyüm andan etibarən sən ümmətimin xəlifəsisən***».

Hər iki halda da imam Əlinin (ə) həzrət Peyğəmbərdən (s) sonra bütün ümmətə Allah və Rəsulun (s) xəlifəsi olduğu açıq-aydın əsaslandırılmış olur.

9. Xilqət hədisi: Bu hədis müxtəlif yollarla nəql edilmişdir. Məsələn: İmam Əhməd ibn Hənbəl «Müsnəd»də, Mirseyid Əli Həmədani Şafei «Məvəddətul-Qurba»da, İbn Məğazəli Şafei «Mənaqib»də və Deyləmi Firdovs» kitabında az bir fərqlə, səhih sənədlərlə həzrət Peyğəmbərin (s) belə buyurduğunu nəql etmişlər:

«***Allah-təala Adəmi yaratmazdan 14000 il əvvəl mən və Əli bir nurdan yaradıldıq. Allah-təala Adəmi yaratdıqdan sonra həmin nuru Onun sülbünə yerləşdirdi. Əbdülmüttəlibin sülbünə gələnə qədər beləcə bir nur idik. Əbdülmüttəlibin sülbündən ayrıldıqdan sonra nübuvvət mənə, xilafət də Əliyə vıerildi***».

10.Hafiz Əbu Cəfər Məhəmməd ibn Cərir Təbəri (Ö: 310 h) «Əl-Vilayə» adlı kitabında Rəsulallahın (s) «Qədiri Xum» xütbəsinin əvvəlində belə buyurduğunu nəql edir:

«***Cəbrayıl Rəbbim tərəfindən mənə burada qalxıb, bütün ağ dərili və zəncilərə bunu elan etməyimi əmr etdi: «Şübhəsiz ki, Əli ibn Əbu Talib mənim qardaşım, vəsim, xəlifəm və məndən sonra imamdır». (Sonra belə buyurdu) «Ey***

***insanlar! Şübhəsiz, Allah-təala Əlini sizlərə vəli və imam təyin etdi; Onun itaətini hər kəsə vacib etdi; hökmü keçərli, sözü isə caizdir (Allah tərəfindəndir). Kim ona müxalifət edərsə (qarşı çıxarsa) məlundur; kim də onu təsdiq edərsə rəhmətə nail olmuşdur***».

***11.*** Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddət»də Əhmədin «Mənaqib» kitabından, o da İbni Abbasdan belə bir rəvayət nəql edir ki, həzrət Əlinin (ə) bir çox məxsus fəzilətləri xilafət məqamını əhatə edir. Onların hər biri təkbaşına Onun xilafətini isbat etməyə kifayətdir, bu səbəbdən ağaların izniylə höccətin tamamlanması üçün hədisin hamısını nəzərinizə çatdırmaq istəyirəm.

Möhtərəm ağalar, bilin ki, Xatəmül-ənbiyanın (s) risalət məqamından sonra ən üstün məqam həzrət Əlinin (ə) məqam və dərəcəsidir. Xülasə, İbni Abbas Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edir:

«***Ya Əli! Sən Hovuzumun və bayrağımın sahibi qəlbimin həbibi, mənim vəsim, elmimin varisi və xəlifəsən. Sən məndən əvvəlki peyğəmbərlərin mirasının əmanətçisisən, Sən Allahın bütün insanlara höccətisən. Sən imanın rükunu və İslamın keşikçisisən. Sən qaranlığın məşəlisən, hidayətin nuru və dünya əhli üçün yüksəldilmiş nişanəsən.***

***Ya Əli! Kim sənə itaət edərsə qurtulmuşdur. Kim də səndən üz çevirərsə həlak olmuşdur. Aydın yol sənsən, sirati-müstəqim sənsən, (Allah yanında) üzləri ağarmışların rəhbəri və möminlərin sultanı sənsən. Mən kimin ağasıyamsa, sən də onun ağasısan. Mən bütün mömin kişi və qadınların ağasıyam. Səni ancaq halalzadə sevər və sənə yalnız haramzadə düşmən olar. Allah-təalanın hüzuruna merac etdiyimi və onunla danışdığım hər zaman mənə belə buyururdu: «Ya Məhəmməd! Əliyə məndən salam söylə və ona bildir ki, o, mənim dostlarımın imamı və mənə müti olanların nurudur». Bu kəramət və məqam sənə mübarək olsun ya Əli!***».

12. Xarəzm xətiblərinin ən üstün Xətibi Əbülüəyyəd Muvəffəquddin «Fəzaili-Əmirəl-möminin» (ə) adlı kitabının 240-cı səhifəsinin (1313 h.q tarixli nəşri) 19-cu bölümündə, sənədləriylə Rəsulallahın (s) belə buyurduğunu nəql edir.

«***Meracda Sidrətul-Müntəhaya yetişdikdə mənə belə xitab edildi: «Ey Məhəmməd! İnsanları imtahan etdinmi? Onların içərisində ən itaətkar kimi gördün?» Mən də cavabında «Əlini gördüm» dedim. Allah-təala buyurdu ki, doğru söylədin, ya Məhəmməd!. Sonra belə buyurdu: «Sənin hədəflərini insanlara çatdıracaq, Mənim Kitabımdan bəndələrimin bilmədiklərini onlara öyrədəcək bir xəlifə özünə seçdinmi?» Mən belə ərz etdim: «Ey Rəbbim! Sən kimi seçsən, mən də onu seçəcəyəm» Allah-təala buyurdu: «Əlini sənin üçün xəlifə və vəsi seçdim. Elm və helmimdən ona bağışladım. O, möminlərin həqiqi olan əmridir. Nə keçmişdə bir kəs onun məqamına yetişmiş və nə də gələcəkdə bir kəs onun məqamına yetişəcəkdir***».

Bu növ hədislər mötəbər kitablarınızda çoxdur. Mən onlardan ancaq zehnimdə olanlarını söylədim. Bu şəkildə cənab Hafiz bilsin ki, biz mövzunu qarışdırıb faydalanmırıq. Əksinə, həqiqətin elə özünü söyləyirik. Sizin insaflı böyük alimləriniz də bunu eynən təsdiq etmişlər. Onlardan biri Nəzzam Bəsridir. Səlahəddin Səfdi «Vafi bil-Vəfiyyat» kitabında əlif hərfində Mötəzili Həzzam ləqəbiylə tanınan İbrahim ibn Səyyar ibn Hani Bəsrinin tərcümeyi-halında onun belə dediyini nəql etmişdir: «Rəsulallah (s) Əlinin imamətinin (xəlifəliyini) açıq-ahkar elan etmişdir. Səhabələr də bunu çox yaxşı bilirdi. Lakin Ömər Əbu Bəkrin (r.z) xatiri üçün Əlinin imamətini gizli saxladı».

Təəssüflər olsun ki, biz Xatəmül-ənbiyanın (s) zamanında yaşamadıq. Bu gün haqq yolu tapmaq üçün Quranın ayələrinə və hər iki məzhəbin (şiə və sünni) qəbul etdiyi səhih hədislərə nəzər yetirmək məcburiyyətindəyik. Hər kim Qurani-kərimin ayələri və Rəsuli-əkrəmin (s) də mütəvatir hədisləriylə elmi uca fəzilətlərə sahib olduğuna görə digər insanlardan önə çəkilib üstün tanıdılmışsa, bizim də onu özümüzə rəhbər bilib, itaət etməyimiz vacibdir.

Mötəbər kitablarınızda qeyd olunan hədislərdə həzrət Əlinin imaməti xüsusunda «xilafət», «vilayət» və «vəsilik» (varislik) kəlmələri olduqca çoxdur. Bunlara əlavə olaraq deyim ki, keçən axşamlar bildirdiyim kimi, imam Əli (ə) nübuvvət istisna olmaqla digər bütün üstünlük və xüsusiyyətlərdə həzrət Peyğəmbər (s) ilə bərabər idi. Buna görə də ümmətin hamısından daha üstündür.

Quranın ayələri və bir çox mütəvatir hədislərə görə insanlar arasında heç kəs onun fəzilətlərinin onda birinə, hətta mində birinə belə yetişməyiblər.

Necə ki, Xətib Xarəzmi «Mənaqib»də Cumhurdan, Onlar da İbni Abbasdan nəql edərək, Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talib»də, Səbt ibn Covzi «Təzkirə»də, İbn Sabbağ Malik» «Fisulul-mühimmə»də, Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddət»də, Mirseyid Əli Həmədani «Məvəddətul-qurba»nın 5-ci Məvəddəsində II xəlifə Ömər ibn Xəttabdan az-çox fərqliliklə Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql etmişlər:

«***Əgər ağaclar qələm, dənizlər mürəkkəb, cinlər hesab edən və insanlar da yazıçı olarlarsa, yenə də Əli ibn Əbu Talibin fəzilətlərini saya bilməzlər***».

Buna görə də həzrət Əli (ə) xilafət məqamına və Rəsulallahın (s) vəsisi olmağa hər bir cəhətdən daha əvvəl və daha layiqdir.

## ŞEYX YENİDƏN SÖZƏ BAŞLADI

**Şeyx Əbdüssalam:** (Hafiz Məhəmməd Rəşidə tərəf dönərək) «İcazə verin bir az da mən danışım, bu aradan nəfəs alıb istirahət edin. (Sonra mənə tərəf baxaraq dedi:)

Qibləsahib! Biz, əsla, mövlamız Əlinin (k.v) fəzilətlərini inkar etmirik. Amma fəzilətləri onunla hüdudlandırmaq da ağlasığan deyil. Çünki Xuləfeyi-raşidin (r.z) Peyğəmbərin xas səhabələrindən olub, hər birisi fəzilət sahibi və bərabərdirlər. Siz bir tərəfli danışırsınız. Bu da məclisdə olanları və olmayanları çaşdıra bilər, vəziyyətin sizin buyurduğunuz şəkildə olduğunu zənn edə bilərlər. İzn verirsəniz, haqqın gizli qalmaması üçün onların fəzilətlərini anladan hədislərdən bəzilərini bildirərdim».

**Dəvətçi:** «Bizim insanlara məxsus bir baxışımız yoxdur. Biz sadəcə ağıl, məntiq və elmə tabeyik. Birtərəfli də danışmırıq! Quranın ayələri və hər iki məzhəbin (şiə və sünni) qəbul etdiyi səhih hədislər bizlərə məsələni birtərəfli göstərir. Səhabə mövzusuna gəlincə, Allah şahiddir ki, işin içində nə cahilcəsinə bir sevgi, nə də nifrət yoxdur. Təəssübə heç bir zaman qapılmadım və

qapılmayacam da, Möhtərəm ağalardan rica edirəm: mənim təəssübə qapıldığımı, ağıl, məntiq və dəlildən başqa bir söz söylədiyimi gördükdə, xatırladın. Bu səbəbdən çox şad olaram.

## HEÇ KİM SƏHABƏLƏRİN FƏZİLƏTLƏRİNİ İNKAR ETMİR, LAKİN ƏN FƏZİLƏTLİSİ SEÇİLMƏLİDİR

Əgər hər iki tərəfin (şiə və sünni) qəbul etdiyi hədisləri bəyan etsəniz, məmnuniyyətlə qəbul edərəm. Mən pak səhabələrin fəzilətlərini heç vaxt inkar etmərəm. Mütləq hər birinin öz yerində fəzilətləri vardır. Amma hər iki məzhəbin qəbul edib, qərar verdiyi, ümmətin ən fəzilətlisini (üstününü) tanıyıb bilmək lazımdır. Biz fazil (fəzilətli) üzərində danışmırıq. Çünki fəzilətlilər çoxdur. Rəsuli-əkrəmdən (s) sonra ümmətin ən fəzilətlisinin kim olduğunu tapmalıyıq ki, ağlın və nəqlin (ayə və hədislərin) hökmünə görə onu öndə bilib, arxasınca gedək».

**Şeyx:** «məqsədiniz əks tərəfi çaşdırmaqdır. Çünki sizin kitablarınızda xəlifələrin fəziləti haqqında istidlal ediləcək bir hədis yoxdur. Vəziyyət belə olduğu halda hər iki tərəfin qəbul etdiyi hədisləri dəlil gətirə bilərik?».

**Dəvətçi:** «Bu sizin probleminizdir. Nə üçün birinci gecə kitabları yaxşı oxumadan danışmağa başladınız? Yadınızdadırsa, bu təklifi birinci gecə cənab Hafiz (səlləməhullah) təqdim etdi və «İstidlallarımız, söhbətimiz ancaq Quran ayələri və hər iki tərəfin qəbul etdiyi hədislərdən olsun» buyurdu. Mən də mötəbər kitablarınızı yaxşı oxuduğum üçün təklifi qəbul etdim. Özünüzün və məclisdə iştirak edənlərin şəhadətiylə söhbətlərimizin əvvəlindən indiyə qədər bu şərtləşmədən kənara çıxmadım. İndiyə qədər sizin alimlərinizin mötəbər kitablarında nəql edilən səhih hədisləri və Quran ayələrini dəlil gətirdi. Bu söhbətlər davam etdiyi müddət ərzində, inşallah, bu vədimə əməl edəcəyəm.

Bu cür şərtləşdiyimiz zaman belə bir problemlə qarşılaşacağınızı düşünürdünüz sanki. Amma mən, şərtləşdiyimizi bəhanə edib, sizləri çətin vəziyyətdə qoymaq istəmirəm. Sizin üçün bir tərəfli səhih hədislərinizi, saxta və uydurma olmasa, əqli və nəqli dəlillərə (ayə və hədislərlə) uyğun olması şərtiylə

dinləməyə hazıram. Sonra oturub insafla, ədalətlə hökm verək. Əgər deyəcəkləriniz həzrət Əlinin (ə) fəzilətlərinin çoxluğu qarşısında dura bilərsə, qəbul edərəm».

**Şeyx:** «Xilafət mövzusunda nəql etdiyiniz hədislərdən əlavə Əbu Bəkrin xilafəti haqqında sizin qafil olduğunuz çox sayda hədislər vardır».

**Dəvətçi:** «Zəhəbi, Siyuti və İbn Əbil-Zədid kimi böyük alimlərinizin özləri demişlər ki, Əməvi və Bəkrilər Əbu Bəkrin fəzilətləri haqqında bir çox hədislər uydurmuşlar. Bunu nəzərə alaraq, o çox dediyiniz hədislərdən birini misal olaraq söyləyin, insaflı və təəssübsüz hakimlər hökm versinlər».

## ƏBU BƏKRİN FƏZİLƏTİ HAQQINDA HƏDİSİN NƏQL EDİLMƏSİ VƏ ONUN SAXTA OLDUĞUNA DAİR TUTARLI CAVAB

**Şeyx:** «Ömər ibn İbrahim ibn Xalid və İsa ibn Əli ibn Əbdullah ibn Abbasdan, o da atasından, o da babası Abbasdan bu mötəbər hədisi nəql edirlər: «Rəsulallah (s) o böyük şəxsə (Abbasa) belə buyurdu:

«***Ey əmi!, həqiqətən, Allah-təala Əbu Bəkri dininə xəlifəm etdi. Belə isə onu dinləyin və qurtuluşa yetişməyiniz üçün ona itaət edin!***»

**Dəvətçi:** «Əvvəl qərarımız bu idi ki, birtərəfli hədis şahid gətirməyək. İndi hədis təktərəfli olmasına baxmayaraq, mərdud (rədd edilmiş) olmasaydı, üzərində bəhs aparardıq».

**Şeyx:** «Necə mərduddur? Siz bütün məsələləri, sözlə həll edib düzəltmək istəyirsiniz?!».

**Dəvətçi:** «Yanılırsınız! Biz söz əhli deyil, əksinə əməl əhliyik. Əvvəla, bu hədisi təkcə biz rədd etmədik. Məlumunuz olsun: bunu ilk olaraq sizin böyük alimləriniz rədd etmişdir. Onlara görə bu hədisi nəql edən ravilər yalançı və saxtakardırlar. Bu səbəbdən «Mizanul-etidal» kitabında İbrahim ibn Xalidin tərcümeyi halında və Xətibi Bağdadi «Tarix» kitabında Ömər ibn İbrahimin

tərcümeyi-halında «O, kəzzabdır (çox yalan danışan)» yazmışlar». Bəs, yalançı şəxsin söylədiyi hədis batil, mərdud və qəbul edilən deyil».

**Şeyx:** «Səhih bir hədisdə, etibarlı səhabələrdən Əbu Hüreyrə (r.z) belə nəql edir: Cəbrayıl Peyğəmbərə (s) nazil olaraq belə ərz etdi: «Allah sənə salam göndərir və buyurur ki, ən Əbu Bəkrdən razıyam. Ondan soruş, görəsən, o da Məndən razıdırmı?».

**Dəvətçi:** «Bunu yaxşı bilmək lazımdır ki, hədisləri nəql edərkən, ağlın qınamasına məruz qalmamaq üçün çox diqqətli olmalıyıq. Ayrıca bu nöqtəni də xatırlatmaq istəyirəm ki, böyük alimlərinizdən İbn Həcər «İsabə» və İbn Əbdülbirr «İstiab» kitabında Əbu Hürəyrənin özündən Rəsulallahın (s) belə buyurduğunu nəql edirlər:

«***Mənim adıma yalan söyləyənlər çoxalıblar. Kim bilərək mənim adıma yalan söyləyərsə onun yeri Cəhənnəm atəşidir. Nə zaman məndən sizə bir hədis gəlirsə, onu Quranla uyğunlaşdırın». (Yəni Qurana uyğundursa, qəbul edin; uyğun gəlməzsə, rədd edin)***

Fəzri Razi «Təfsiri-kəğir» kitabının VI cildinin 371-ci səhifəsinin axırında hər iki məzhəbin qəbul etdiyi bir hədisi Rəsulallahdan (s) belə nəql edir:

«***Məndən sizə bir hədis nəql edildiyi zaman, onu Allahın kitabı ilə müqayisə edin. Əgər ona uyğun olsa, qəbul edin, əks təqdirdə, rədd edin***».

Böyük alimlərinizin kitablarında yazıldığı kimi Rəsulallahın (s) adına yalan hədis uyduranlardan biri də hədis nəql etdiyiniz bax bu Əbu Hüreyrədir. Hədər yerə ona etibarlı dediniz».

**Şeyx:** «Sizin kimi alim, mübəlliğ və Rəsulallahın nəslindən olan bir şəxsdən Onun (s) səhabələrini pisləməyi, doğrusu, gözləmirdik».

**Dəvətçi:** «Səhabə» kəlməsini istifadə etməklə məni qorxutmağa çalışmayın. Səhabə olmağı öz başına şərəf və fəzilət səbəbi bilmək xətadır. Rəsuli-əkrəmə (s) səhabə olmaq o zaman insana şərəf və fəzilət qazandırır ki, Peyğəmbərə (s) qarşı müti və itaətkar olsun. Amma əgər Peyğəmbərin (s) əmr və düsturlarına zidd hərəkət edər, nəfsi-həvasına tabe olarsa, o insan rədd edilmiş, hətta məlun və dərd götürən bir əzaba layiq olar.

Quranın şəhadət verdiyi, fəsadlarına görə Cəhənnəmə düşəcək münafiqlər, görəsən, Rəsulallahın (s) səhabələrindən deyildilərmi? Bəli, münafiqlər lənətlənmiş və atəş əhlidir. Əbu Hüreyrənində o rədd edilmiş məlunlardan olub, Cəhənnəmlik olduğuna təəccüb etməyin».

**Şeyx:** «Tamamilə onun rədd edilmiş olduğu bəlli deyildir. Bəzilərinin onu rədd etdiyini fərz etsək belə, bu onun cəhənnəm əhli olduğuna dəlil ola bilməz! Məgər hər rədd edilən (mərdud) məlun və cəhənnəm əhlimi olur? Quranın açıq hökmü və Peyğəmbərin (s) sözüylə lənətlənmiş insan ancaq məlun olar».

## ƏBU HÜREYRƏNİN KİMLİYİ VƏ PİSLƏNİLMƏSİ

**Dəvətçi:** «Əbu Hüreyrənin rədd edildiyinə dair günəşdən daha aydın dəlillər vardır. Bunu böyük alimləriniz də təsdiq etmişlər ki, onun mərdud olduğuna dair dəlillərdən biri, Rəsulallahın (s) diliylə lənətlənmiş Müaviyə ibn Əbu Süfyanın, münafiqlərin və iki üzlülərin yanında yer almasıdır. Çünki Süffeyndə namazlarını Əmirəl-möminin həzrət Əlinin (ə) arxasında qıldığı halda, Müaviyənin yağlı süfrəsinin başından da əksik olmurdu. Zəməxşəri «Rəbiul-Əbrar», İbn Əbil Hədid «Şərhi Nəhcül-bəlağə» kitabında və digərləri belə nəql edirlər: «Ondan bu iki fərqli hərəkətinin səbəbi soruşulduğu zaman deyirdi: «**Müaviyənin muzəyrəsi**[1] **və yeməyi daha yağlıdır, Əlinin arxasında namaz qılmaq isə əfzəldir**». Bu səbəbdən Əbu Hüreyrə «Şeyxul-Muzəyrə» ləqəbiylə məşhur olmuşdur.

## HƏZRƏT ƏLİ QURAN VƏ HAQDAN AYRILMAZ

Halbuki şiə alimlərindən əlavə, sizin alimləriniz də, misal olaraq; Şeyxul-İslam Həmvini «Fəraid»in 37-ci babında, Xarəzmi «Mənaqib»də, Təbərani «Ovsət»də, Gənci Şafei «Kifayət-Talib»də, İbn Quteybə «əl-imamət vəs-Siyasət»in I cildinin 68-ci səhifəsində, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Süleyman Bəlxi «Yənabiul-məvəddət»də, Əbu Yəla «Müsnəd»də, Müttəqi Hindi

[1] Muzəyrə – Süddən düzəldilmiş bir cür yeməyin adıdır. Bu yemək Müaviyəyə məxsusdur.

«Kənzul-ummal»ın VI cildinin 157-ci səhifəsində, Səid ibn Mənsur «Sünən»də, Xətibi Bağdadi «Tarix»in 14-cü cildinin 321-ci səhifəsində, Hafiz ibn ərviyə «mənaqib»də, Səmani «Fəzailus-Səhabə»də, imam Fəxri Razi «Təfsir»in I cildinin 111-ci səhifəsində, Əbulqasim Hüseyn ibn məhəmməd (Rağibi İsfahani) «Muhaziratul-Üdəba» kitabının II cildinin 113-cü səhifəsində və s. alimləriniz Əbu Hüreyrənin özündən və digərlərindən Rəsuli-əkrəmin (s) belə buyurduğunu nəql edirlər:

«***Əli haqqilədir və haqq da Əliylə; Əli hardadırsa haqq da oradadır***».

Bu hədis, Əbu Hüreyrənin (bütün bunları bildiyi halda) həzrət Əlini (ə) buraxıb Müaviyənin ətrafında fırlanması, onun mərdud olduğunu göstərmirmi?!

Müaviyənn pis əməl və zalımlığını görüb susan və dünyəvi mənfəətləri üçün qarnını doydurmaq və məqam sahibiliyinə görə o məlunun məclisində oturaraq ona yardımçı olan mərdud deyildirmi?!

Hakim Nişapuri «Müstədrək»in III cildinin 124-cü səhifəsində, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Təbərani «Ovsət»də Şafei Fəqihi İbn Məğazəli «Mənaqib»də, Müttəqi Hindi «Kənzul-Ummal»ın VI cildinin 153-cü səhifəsində, Şeyxul-İslam Həmvinin «Fəraid»də, İbn Həcər Məkki «Səvaiq»in 74 və 75-ci səhifələrində, Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddət»də, Cəlalətdin Siyuti «Tarixul-Xüləfa»nın 116-cı səhifəsində və imam Əbu Əbdürrəhman Nəsai «Xəsaisul-Ələviyyə» kitabında və daha başqa böyük alimləriniz Əbu Hüreyrədən Rəsulallahın (s) belə buyurduğunu nəql edirlər:

«***Əli Quranla və Quran da Əliylədir. Bunlar Hovuzun başında mənə qovuşana qədər, əsla, bir-birindən ayrılmazlar. Əli məndəndir, mən də Əlidənəm. Kim onun haqqında pis söz söyləyərsə, şübhəsiz, mənə aid olur və kim mənim haqqımda demişsə, şübhəsiz, Allaha aid edilmişdir***».

Açıq-aşkar minbərdə və cümə namazlarında həzrət Əliyə (ə), Həsənə (ə) və Hüseynə (ə) lənət oxunmasını görərkən susan, bütün bunlara etiraz etməyib, əksinə Müaviyə və başına yığışan lənət olunmuşlarla oturub duran və onların etdiyinə sevinən bir şəxs mərdud deyil, bəs nədir?!

Ara-bir hədis uydararaq onlara yardımçı olan, xalqı həzrət Əlinin (ə) əleyhinə qadıran və O həzrətə lənət deməyə təşviq edən bir şəxs mərdud deyilmi?!»

**Şeyx:** «Pak səhabənin hədis uydararaq, xalqı Əliyə lənət etməyə və pis söz söyləməyə təşviq etməsi iftiralarını qəbul etməyimiz mümkündürmü? Bu növ iftiralar şiələrin iftiralarından deyilmi?».

**Dəvətçi:** «Pak səhabələrin belə bir şeyi etmələri təbii ki, qəbul ediləsi deyil. Amma əgər səhabələrdən biri belə bir iş tutmuşsa, bu qətiyyətlə onun pak olmadığını göstərir və o, münafiq, mərdud və məlundur.

Allaha və Peyğəmbərə (s) səbəb edən (pis söz söyləyən) əminliklə mərdud, məlun və Cəhənnəmlikdir. Şiə alimlərinin ittifaq etdiyi, böyük alimlərinizin də nəql etdiyi bir çox hədisdə Rəsuli-əkrəm (s) belə buyurur:

«***Kim Əliyə səbb edərsə, mənə və mənim Allahıma səbb etmişdir***»

«Belə iftiralar şiələrin uydurmalarıdır» sözünə gəlincə, yanılırsınız. Bəzi bəzi alimləriniz kimi təsəvvür etməyin. Çünki sizin elə alimləriniz var ki, hədəflərinə yetişmək üçün şiələrə iftira atır, yalandan bəzi nisbətlər uydurur, həqiqətlərdən xəbəri olmayan insanları yoldan çıxarırlar. Qiyamətdən və Allahın məhkəməsindən də qorxmurlar».

**Şeyx:** «Əgər Rəsulallahın (s) uca səhabələrini hədis uydurmaqda ittihamlandırırsınızsa, xüsusi olaraq İslamın iftixarları olan əhli-sünnət vəl camaatın alimlərin ən böyük hünəri böyükləri pisləmək, onlara iftira atmaq və onları söyməkdir».

**Dəvətçi:** «Bu növ sözləri bizə nisbət verməklə haqsızlıq edirsiniz. 1400 ildir şiə və sünnilərin yazdıqları tarix kitabları söylədiklərinizin əksinə şəhadət verir.

## ŞİƏLƏRİN MÜXALİFLƏRİN QARŞISINDAKI MƏZLUMİYYƏTİ

İslamın başlancığından və Əməvilərin meydana çıxmasından bu günə qədər davamlı olaraq pak Əhli-beytin məsum İmamlarına (ə) və məzlum şiələrinə lənət etmək, söyək və iftira atmaq müsəlmanların siyasi oyunbazlarının etdiyi şeylərdir.

Həqiqətlərdən xəbəri olmayanları aldatmaq, təfriqə salmaq və müsəlmanlar arasında ixtilaf törətmək üçün, tanınmış alimləriniz mötəbər kitablarında məzlum şiələrə yüzlərlə iftira atmış və ağ yalanlar uydurmuşlar. Şiələrə rafizi, kafir, müşrik və azğın demiş və onları söyüb lənətləmişlər; rəhbərlərini də hər şeydən xəbərsiz pak qəlbli sünni qardaşların gözündən salmış və nifrət etdirmişlər».

**Şeyx:** «Hansı sünni alimi kitabında şiələrə iftira atıb, onlar haqqında yalan söyləmişdir? Bunu isbat edə bilmədiyiniz təqdirdə məhkum olunursunuz. Alimlərimiz nə yazıb söyləmişlərsə, həqiqəti söyləmişlər. Şiələr fasid inanc və əməllərini bir kənara qoysalar, bu cür işlər baş verməz».

## SÜNNİ ALİMLƏRİNİN ŞİƏLƏRƏ ATDIĞI BÖHTANLAR

**Dəvətçi:** «Böyük alimlərinizin şiələrə atdığı minlərlə iftira və yalanlardan zehnimdə olanlarını bu möhtərəm məclisdə həqiqətlərdən xəbərsiz insanların xəbərdar olması üçün bildirməyə məcbur qaldım. Hökm verməyi də müsəlmanların təmiz ruhu və aydın qəlblərinin ixtiyarına buraxıram.

## İBN ƏBDÜRRƏBİHİN ŞİƏLƏRƏ ATDIĞI İFTİRALAR

İftixarınızda olan ədəbi alimlərinizdən Şəhabuddin Əbu Ömər Əhməd ibn Məhəmməd ibn Əbdürrəbih Qirtəbi Əndulusi Maliki (328 h.q Qirtəbidə ölmüşdür) «İqdul-Fərid» kitabının I cildinin 269-cu səhifəsində imanlı və müvəhhid şiələrə «Ümmətin yəhudiləri» deyərək, sözünə belə davam edir: «Yəhudilər necə xristianlara düşməndirlərsə, şiələr də eyni şəkildə İslama düşməndirlər». O, bu şəkildə şiələrə bir çox iftiralar atmışdır. Məsələn deyir: «Şiələr, yəhudilər kimi üç talaqa inanmırlar və talaqdan sonra iddənin olmadığını söyləyirlər».

Məclisdə iştirak edən möhtərəm şiələr, hətta şiələrlə yaxın əlaqədə olan siz sünnilər, deyin görək İbn Əbdürrəbihin bu iftiraları gülməli dleyilmi?! Bütün fiqh kitablarımız və əməli risalələrimizdə (Tovzihul-məsaillərdə) üç talaqın hökmləri, talaqdan sonra iddə gözləməyin yolları geniş şəkildə bildirilmişdir. Şiələrin

talaqdakı əməlləri və talaqdan sonra iddə gözləmələri ədəbdən uzaq olan bu ədibin (İbn Əbdürrəbihin) yalanına ən böyük dəlildir.

Yenə belə deyir: «Şiələr, yəhudilər kimi Cəbrayıla düşməndirlər. Çünki o, vəhyi Əliyə gətirməliydi, Peyğəmbərə gətirmişdir!» (Məclisdə iştirak edən şiələrin gülməsi) Görürsünüz ki, şiələr belə uydurma, yalan sözləri eşitdikdə gülürlər, o ki, qaldı ona inanmış olsunlar.

O (İbn Əbdürrəbih), əgər Afrikada girdiyi qabığından siyrilib çıxsaydı və ya şiələrin yazdığı kitabları oxumaq zəhmətinə qatlansaydı, utanaraq belə bir iftira atmazdı. Bəlkə də həqiqətləri bilməyənləri bu cür qandırmaq və müsəlmanlar arasında ixtilaf salmaq üçün qəsdən belə etmişdir.

Biz şiələr həzrət Məhəmmədi Mustafa Xatəmul-ənbiyanı (s) haqq üzrə gəlmiş peyğəmbər bilir və deyirik ki, Ona nazil olan vəhydə, əsla, xəta və yanlışlıq üzündən olmamışdır. Biz Cəbaryıli-əminin (ə) məqamını o şəxsiyyətsiz adamın təsəvvür etdiyindən daha uca bilirik. Biz inanırıq ki, Cəbrayıl (İlahi vəhyin əmini) Əli ibn Əbu Talibi (ə) Xatəmul-ənbiyanın (s) xəlifəsi və varisi olaraq tanıtdırmışdır[1].

---

[1] Bir neçə il əvvəl bir qrup şiə Kazimeyndən Samirrəyə səfərə gedirdik. Bizim olduğumuz vaqonda bir neçə nəfər Mosuddan olan şəxslərdə var idi. Onlardan ikisi əhli-0sünnətin qazı və alimiydi. Yol boyu bizi lağa qoyur və iftira atırdılar. Mənim ərəb dilini bildiyimdən xəbərləri yox idi. İş bir yerə yetişdi ki, qazı belə danışmağa başladı: «Bu rafizilərin bir çoxf asid əxlaq və adətləri vardır. Təmamən bidətçi və müşrikdirlər. Onların bidətlərindən biri budur ki, namazın salamını verdikdən sonra əllərini üç dəfə havaya qaldırıb «Əmin xəyanət etdi» deyirlər». Yanındakılar soruşdular: «Əmin kimdir? Necə xəyanət etmişdir?» Şeyx (alim) belə cavab verdi: «Şiələr deyirlər ki, Peyğəmbər (s), Əli və Cəfər Hirada yatırdılar. Allah nübuvvət vəhyinin Əliyə aparılması üçün Cəbrayılı məmur etdi. Amma Cəbrayıl xəyanət edib, vəhyi Xatəmül-ənbiyaya verdi. Bu səbəbdən bütün şiələr Cəbrayıla düşməndirlər. Hər namazdan sonra üç dəfə «Əmin xəyanət etdi» deyirlər. Yəni vəhyi Əlinin yerinə Xatəmul-ənbiyaya verdi.

Mən artıq özümü saxlaya bilmədim. Şeyxə «Cənab Şeyx, yalan və iftira böyük günahlardandır, yoxsa kiçik günahlardan?» «Böyük günahlardandır» dedi. Dedim: «Belə isə bu ağ saqqalınla nə üçün iki günah edib şiələr haqqında insanları çaşdırırsan?». Utanaraq «Mən həqiqət nədirsə, onu söylədim» - deyə cavab verdi. Mosullulardan «Aranızda farsca bilən varmı» - deyə soruşduqda, bir neçəsi bildiklərini söylədilər. Bundan sonra bu hadisədən xəbəri olmayan şiələrdən on və ya on iki zəvvarı yaşlı və gəncləri tək-tək çağırıb belə solruşdum: «Siz namazın salaından sonra əllərinizi qulaqlarınızın dibinə qaldırıb nə deyirsiniz?» Onlar «Namazımızın qəbul olması üçün üç dəfə «Allahu Əkbər» deyirik» dedilər. Şeyxə dedim: «Utandınızmı Cənab Şeyx, yoxsa utanmadınız?» Şeyx «Onları sən öyrətdin» - deyə cavab verdi. Dedim: «Allahdan qorx! Yanınızda oturub, yerimdən tərpənmədiyimi görmədinizmi?». Sonra Mosullulara dönüb belə dedim: «Rica edirəm qalxın, başqa vaqonlara keçin və zəvvar olan şiələrdən özünüz soruşun. Farsca bilən bir-iki kişi durub getdilər. Döndükdən sonra Şeyxə «Bu yalanları söyləməkdən məqsədin nə idi? Şəhərli, kəndli kimdən soruşduqsa, dedilər ki, Allahu Əkbər deyirik. Hətta «Əmin xəyanət etdi» demirsinizmi?» - deyə soruşduqda «Biz indiyə qədər belə bir şey eşitmədik» deyə cavab verdilər». Gənclər təhsilli olduqları üçün Şeyxin əlindən çox əsəbiləşdilər.

Şeyx «Mən əvvəldə də söylədim ki, bunları kitablarda oxudum» dedi. Onlar «Bilmirdin ki, alim gərək araşdırmadan bir söz söyləməsin?» deyərək, Şeyxi qınadılar.

Bunlar sünni alimlərinin şiələrə atdıqları iftiralardan bir nümunədir. Bax, sünni qardaşlar bu şəkildə şiələri pisləyirlər.

Yenə belə deyir: «Şiələr, yəhudilər kimi Peyğəmbərin sünnətinə əməl etməzlər. Bir-birlərini gördüklərində «Səlamun əleykuun» əvəzinə, «Samun əleykum» (Ölüm olsun sənə) deyərlər». (şiələrin qəh-qəhəylə gülmələri)

Şiələrin bir-birinə və siz sünni qardaşlara olan davranışları onun yalanına ən böyük dəlildir. Bundan əlavə O, uydurduğu başqa bir sözdə deyir: «Şiələr, yəhudilər kimi müsəlmanların qanını və malını halal bilirlər».

Şiələrin əməllərini görürsünüz və onlara şahidsiniz. Biz, kafirlərin belə canını və malını halal bilmirik; o ki, qalsın müsəlmanların canını və malını.

Şiə məzhəbində qul haqqı və insanı öldürmək böyük günahlardan sayılır. Bütün bunlar, alimlərinizdən sadəcə birinin söylədiyi sözlər idi. Məclisin vaxtı onun belə yalan-palan sözlərini deməyə imkan vermədiyindən, bu qədəriylə kifayətlənirəm».

## İBNİ HƏZMİN İFTİRALARI

Böyük alimlərinizdən Əbu Məhəmməd Əli ibn Əhməd ibn Səid ibn Həzm Əndulusi (456 h.q. Bədiyə Ləbələdə ölmüşdür) «Əl-Fəslu fil-miləli vən-nihəl» adlı məşhur kitabında şiələrə misli olmayan yalan və iftiralar atmışdır. Xüsusilə kitabın I cildində yazır: «Şiələr, müsəlman deyil, əksinə kafir və yalançıdırlar. Onlar yəhudilik və xristianlıqdan qaynaqlanırlar».

Həmin kitabın 4-cü cildinin 182-ci səhifəsində belə deyir: «Şiələr 9 qadınla evlənməyi caiz bilirlər».

Bu yalançının iftiralarına ən böyük cavab, şiələrin əsrlər boyu yazdıqları dəlilli kitabları və elmi risalələridir. Onların hamısında 4 qadından çox daimi olaraq nikahlamanın hara olduğu yazılmışdır. Şiələrin irfan əhli, fəqih və alimləri bir kənarda dursun, çöldəki cahilləri belə bir əməlin olmadığını çox yaxşı bilirlər.

Əgər o kitabı oxusanız, şiələrə atdığı iftira, yalan, küfr və pis nisbətlərinə görə utanıb, yerə girərsiniz. Misal üçün bu qədər kifayət edər.

# İBNİ TEYMİYYƏNİN İFTİRALARI

Alimləriniz arasında ən həyasızı, bəlkə də ən dinsizi Əhməd ibn Əbdülhəlim Hənbəli, yəni İbn Teymiyyədir. (Ö.728 h.q.) Onun şiələrə, xüsusilə mövlamız Əmirəl-möminin həzrət Əliyə (ə) və Rəsulalların (s) pak itrətinə (Əhli-beytinə) qarşı böyük bir kin və düşmənçiliyi vardır. Onun «Minhacus-Sünnə» kitabını oxuyan hər kəs təəccüb edir. Elə şiddətli bir düşmənçiliyi vardı ki, mövlamız Əmirəl-möminin həzrət Əli (ə) və onun Əhli-beyti haqqındakı bütün açıq nəssləri (ayə və hədisləri) və uca fəzilətləri inkar edir. Məzlum şiələrə elə yalan və iftiralar atır ki, eşidənlərin ağlı çaşır. Əgər onların hamısını bir-bir desəm, məclis günlərlə uzanar. Sözü uzatmamaq üçün bir neçə misalla kifayətlənəcəyəm. Beləcə, Cənab Şeyx bilsin ki, yalan və iftira atmaq şiə alimlərinin deyil, bəzi sünni alimlərinin xüsusiyyətlərindəndir. Təəccüblüsü budur ki, şiələr haqqında söylədiyi yalanlardan sonra həqiqətlərdən xəbərləri olmayanları qandırmaq üçün I cildin 15-ci səhifəsində deyir: «Qiblə əhlindən heç biri şiələr qədər yalan söyləmir. Bu səbəbdən səhih kitabları yazanlar onlardan hədis nəql etməmişlər». X cildin 23-cü səhifəsində deyir: «Şiələr üsuliddinin dörd bəndən ibarət olduğuna inanırlar: tövhid, ədalət, nübuvvət, imamət».

Şiələrin kəlam kitabları hər kəsin əli çatan yerdədir. Keçən gecələrdə söylədiyim kimi, şiələr üsuliddinin üç bəndən ibarət olduğuna inanırlar: tövhid, nübuvvət və məad. Ədalət tövhidin, imamət də nübuvvətin bir hissəsidir.

I cildin 131-ci səhifəsində yazır: «Şiələr məscidlərə əhəmiyyət verməzlər. Məscidləri tamam boşdur. Nə cümə namazını məsciddə qılarlar, nə də camaat namazları vardır. Əgər bəzən namaz qılsalar da camaatla deyil, tək başına qılırlar». (şiələrin qəh-qəhəylə gülmələri)

Şeyx, siz və burada olan və olmayan sünni qardaşlar şiələrin məscidlərinin dolu olduğunu görmədimi?! Camaatla qılınan namazları görmədinizmi?! Şiələrin mərkəzi olan İran və İraqda – hər şəhərdə camaat namazlarının qılınması üçün bir çox böyük məscidləri yoxdurmu?! Hansı kəndə gedirsiniz gedin, orada bir məscidin olduğunu görəcəksiniz. Mübarək ramazan ayından əlavə, hər gün sübh,

axşam namazlarını camaatla məscidlərdə qılarlar. (Nümunə üçün verilən şəkillərə diqqət edin! Şəkil: 230-21-22)

Siz alimlər şiələrin fiqhi, istidlali kitablarına, alim olmayan sünni qardaşlar da şəriət məsələləri kitablarına baxsanız görəcəksiniz ki, məscidə getmək və camaatla namaz qılmaq haqqında nə qədər savab nəql edilmişdir. Məscidlərdə qılınan namazın savabının, evdə qılınan namazın savabından qat-qat çox olduğu yazılmışdır, bu səbəbdən şiələr imkanları olduğu qədər namazlarını məscidlərdə, camaatla qılmağa çalışırlar. Bu yalançı və şərəfsiz şəxsin şiələr haqqında necə yalanlar uydurduğunu bilməlisiniz.

Yenə eyn səhifədə deyir: «Şiələr digər müsəlmanlar kimi Həccə getməzlər. Onların həcci qəbirləri ziyarət etməkdir. Qəbirlərin ziyarətinin savabını, Allahın evini ziyarət etməyin savabından daha çox qəbul edirlər. Hətta qəbirlərin ziyarətinə getməyənlərə lənət edirlər». (şiələrin gülüşməsi)

Əgər şiələrin ibadətlə əlaqəli risalə və kitablarını açıb oxusanız, «Kiatbul-hacc və babul-hacc» adında bu ibadət üçün məxsus bölüm ayrıldığını görərsiniz. Şiələrin həccdə ediləsi əməllər üçün hər fəqih (müctehid) «Mənasiqi-Həcc» adlı kitab yazışdır; o kitablarda Məsum İmamlardan (ə) da Həcc mövzusunda hədislər nəql edilmişdir. O hədislərin bəzisində belə deyilir: «Maddi imkanı olduğu halda Allahın evini, Həcci tərk edən bir müsəlman (istər sünni olsun, istər şiə), İslamın xəttindən çıxmışdır; öldüyü zaman ona deyiləcək ki, necə ölmək istəyərsən; yəhudi, xristian, yoxsa məcusi kimi?»

Belə hökmlər qarşısında şiələrin Kəbəni ziyarət etməyi tərk etmələrini ağıl qəbul edərmi? Gedib İmamların (ə) qəbirlərini ziyarət edən dağ başında yaşayan cahil bir kəndçidən belə Həcc əməlinin harada yerinə yetirilməsinin vacib olduğunu soruşsanız, «Məkkəyi-müəzzəmdə» cavabını alarsınız.

Amma Allahdan xəbəri olmayan bu şəxs şiənin iftixarlarından olan Şeyx Müfid (r.ə) ləqəbiylə məşhur olan Şeyx Məhəmməd ibn Məhəmməd ibn Nöman Mufidə iftira ataraq belə deyir: «Onun «Mənasiqi-həccil-Məşahid» (Qəbirlərin ziyarətinin hökmü) adında bir kitabı vardır». Halbuki, Şeyx Mufidin «Mənasiquz-ziyarət» adında hər kəsin əlində olan bir kitabı vardır. Bu kitabda məsum

İmamların (ə) müqəddəs məzarları ziyarət edildiyi zaman digər ziyarətlər kimi, bu ziyarətə aid ədəb və qaydalar yazılmışdır. Kitabın əvvəlində yazır: «Müstəhəb ibadətlərdən biri də, Peyğəmbəri-əkrəm (s) və məsum İmamların (ə) müqəddəs qəbirlərini ziyarət etməkdir».

Allahdan xəbərsiz şəxsin yalanına ən böyük cavab, hər il minlərlə şiənin Allahın evinə gedib, Həcc əməllərini yerinə yetirmələridir. Şiələr Həccdən qayıtdıqdan sonra özlərinə «Hacı» deyilməsini iftixar bilirlər. İndi bu yalançı şəxsin nə qədər yalan düzəltmələrinə bir baxın!

1-ci cildin 11-ci səhifəsində belə deyir: «Şiələr itlərinin adını Əbu Bəkr və Ömər qoyaraq, ardıcıl şəkildə onlara lənət deyirlər (şiələrin gülüşməsi)

Şiələrə belə iftira atıb, onlar haqqında yalan söyləyən bu şəxsin inad, təəssüb və dinsizliyinə, doğrusu, insan təəccüb edir.

Halbuki, onun dediyinin əksinə olaraq şiələrin əhkam və hədis kitablarının hamısında itin nəcis olduğu və müsəlman şəxsi evində it olarsa, o evə Allahın rəhmətinin nazil olmayacağı yazılmışdır. Şiə müsəlmanların bir neçə yerdən başqa it saxlamağı qadağan edilmişdir. O bir neçə yerdə, bəzi məxsus şərtlərlə, bunlardır: Ovçuluqda, ev və heyvan sürülərini qorumaq üçün, həzrət Peyğəmbəri-əkrəmin (s) nəvəsi Seyyidüş-şühəda Əba Əbdillahil-Hüseynin (ə) Yezidə qarşı qiyamının səbəblərindən biri də onun itlərlə oynaması və evində it saxlaması idi.

Şiə və ya sünni müsəlmanlardan biri söylənən yerlərdən başqa evində it saxlarsa, biz onu dini xüsusda günahlandırar və ona etibarımız olmaz. Şiə inancına görə, bir it bir evdə sərbəst dolaşarsa, o ev nəcis olar. Bütün bunlar göz önündə olduğu halda, bir şiənin öz evində it saxlaması və bundan əlavə, Rəsulallahın (s) möhtərəm səhabələrindən bəzilərinin adlarını onlara qoyması və ya onlara lənət etməsi düşünülə bilməz! Yazıqlar olsun bu cür müsəlmanlara! İnad və təəssübdən Allaha sığınırıq.

Siz cahil də olsa, bir şiədən belə bir iş görsəniz göstərin, biz onda bu şəxsin söylədiklərinə təslim olarıq. Əgər göstərə bilməsəniz (əsla göstərə bilməzsiniz!) onda lənət edin belə təəssübkeş inadkar insanlara ki, onlar alim adlandıqları halda

təsir altında olan, həqiqətlərdən xəbərsiz insanları aldadır və müsəlmanlar arasına ixtilaf və düşmənçilik salırlar.

O, kitabının II cildində yazır: «Şiələr imam Zamanı (ə) gözlədikləri üçün Samirra sərdabəsi kimi bir çox yerlərdə gündüzləri bir at, qatır və ya başqa bir minik hazırlayıb «Miniyin hazırdır, hər kəs silahlı olaraq səni gözləyir. Artık qiyam et» - deyə imamları səsləyirlər. Əsasən ramazan ayının son günlərində qayıdıb, qiyam etməsi üçün onu çağırırlar. Elələri vardır ki, İmam (ə) gəldiyi zaman birdən namazda ola bilər deyə, onu görməmək və xidmətində ola bilməmək qorxusuna görə namazlarını tərk edirlər». (şiə və sünnilərin qəh-qəhəylə gülüşləri)

Çölün düzündə oturub söz uyduran bu adamın hədsiz-hesabsız və gülünc iftira və yalanlarından daha çox günümüzün misirli, suriyalı və s. alimlərin sözləri hamısından daha təəccüblüdür. Bu alimlər hər yerdə şiələrlə birgə həyat sürürlər. Xüsusilə əhalisinin hamısını əhli-sünnət qardaşları təşkil edən Samirra şəhərində yerin altındakı müqəddəsə sərdabın xidmətçilərinin belə hamısı sünnidirlər. Araşdırmadan İbn Teymiyyə kimi şəxslərin yalan sözlərinə, uyaraq, bu cür xurafat və uydurmaları öz kitablarında yazırlar[1].

Bunlar, əhli-sünnət alimlərinin şiə camaatına etdikləri xəyanətlərdən bəzi misallar idi. Əgər İbn Həcər Məkki, Cahiz və Qazı Ruzbəhan kimi şəxslərin sözlərinin sadəcə siyahısını anlatmağa başlasam, gərək bir neçə gecə vaxtınızı alam. Başqalarına rəhbərlik etmək istəyən belə alimlərin yalan və uydurma sözləri ilə vaxtınızı zay etmək istəmirəm.

## ŞƏHRİSTANİNİN XƏTALARI

Onların bir çox kitabları var, amma elmi tərəfdən müəllifləri hər hansı bir dəyərə sahib deyildir. Məsələn, Məhəmməd ibn Əbdülkərim Şəhristaninin (Ö: 548 h.q) «Miləl və nihəl» adlı kitabı məşhur olmasına baxmayaraq, əql və şəriətdən

---

[1] Misirli Əbdüllah Qəsimi «Əs-sira beynəl-İslam vəl-vəsəniyyə»də
Misirli Məhəmməd Sabit «Əl-covlə fi rubuil-şərqil-ədna»da,
Türkistanlı Musa Carullah Əl-vəşiə fi nəqdil-əqaidiş-şiə»də,
Misirli Əhməd Əmin «Fəcrul-İslam və zuhəl-İslam»da və s.ö alimlər İbn Teymiyyənin iddialarını yazmışlar.

uzaqdır, tədqiqatçı alimlərin gözündə isə heç bir dəyəri yoxdur. Bu kitabı açıb oxuduqda görürsən ki, şiələrə nə qədər iftiralar atmışdır. Həzrət Əliyə (ə) tapınmaq (sitayiş), tənəssüx (kopyalamaq) və təşbihdən (bənzətmək) tutmuş, ağlın və şəriətin qəbul etmədiyi və özlərinin belə xəbəri olmadığı bir çox cəfəngiyyatı şiələrə nisbət verir. Bu şəxsin həqiqətləri anlama idrakının olmadığı açıq-aydın bəllidir. Tarixi hadisələr haqqında da hər hansı bir məlumatı olmadığı aşkardır. Dünyanın bir guşəsində oturmuş kim nə demişsə, araşdırma aparmadan hamısını yazmış, adını da «Miləl və nihəl» (Millətlər və inanclar) qoymuşdur!

İnsan bu kitabın bəzi yerlərindəki yalanları gördükdə, başqa bölümlərdə yer alan sözlər də gözündən düşür. Oxucuların, kitabın mahiyyətini və müəllifin necə bir şəxsiyyətə sahib olduğunu bilmələri üçün sadəcə bir tarixi hadisəni misal olaraq xatırladacağam: İsna Əşəriyyə (yəni 12 imamlı şiələrin) haqqında fikir yürüdərkən belə yazır: «İmam Məhəmməd Təqidən sonra, məzarı Qumda olan imam Əli ibn Məhəmməd Nəqinin qızıldan düzəldilmiş böyük bir günbəzi olan geniş hərəmi vardır. Qacar şahlarından Qəsirəddin şah onu təmir etdirərək, ziynətləndirmək iftixarına nail olmuşdur».

Halbuki, həzrət Hadinin şərif məzarının Samirrədə – oğlu imam Həsən Əsgərinin yanında olduğunu hər kəs bilir. Daha kifayət edər, sözü çox uzatmaq istəmirəm. Bunlar minlərlə deyə biləcəyim misaldan biriydi.

Artıq Şeyx şiələr yalan söyləyir, iftira atır deməsin; sizin öz alimləriniz bu cür işlər edirlər. Əbu Hüreyrəyə həqarət etmədiyimin bilinməsi üçün əhli-sünnətin böyük alimlərinin onun iç üzü haqqında yazdıqlarından bəzilərini deyəcəyəm.

## ƏBU HÜREYRƏNİN VƏZİYYƏTİ

İbn Əbil Hədid Mötəzili «Şərhi Nəhcül-öəlağə» kitabının I cildinin 358-ci səhifəsində və 4-cü cildində öz usdad və şeyxi imam Əbu Cəfər İsqafidən belə nəql edir: «Müaviyə ibn Əbu Süfyan səhabə və tabeindən bir qrupu toplayıb, onlardan həzrət Əlini pisləyən hədislər uydurmalarını və bunları xalqın arasında yaymalarını

istədi. Onlar da bu işlə məşğul olmağa başladılar. Əbu Hüreyrə, Əmr ibn As və Muğeyrə ibn Şöbə həzrət Əlini (ə) pisləyən, hədisləri uyduran kəslərdəndilər».

Bu hadisəni 359-cu səhifəyə qədər geniş şəkildə bəyan etdikdən sonra, eyni səhifədə Əməşdən belə rəvayət edir: «Əbu Hüreyrə Müaviyə ilə bərabər Kufə məscidinə gəldi, Camaatın ona böyük bir diqqət göstərdiyini gördükdə ayağa qalxıb, Cəhənnəm atəşini satın alacağımı güman edirsiniz? Peyğəmbərdən eşitdiyimi məndən eşidin: «Hər peyğəmbərin bir hərəmi vardır; mənim hərəmim də Mədinədir. Kim orada bir hadisə törətsə Allahın, mələklərin və bütün insanların lənəti olsun ona».

Allahı şahid tuturam ki, Əli Mədinədə qanlı hadisə törətdi».

O, bu sözüylə xalqı həzrət Əliyə lənət etməyə dəvət etdi».

Müaviyə bunu (yəni Əbu Hüreyrənin həzrət Əlinin (ə) xilafət mərkəzində cürət edib, ona belə bir xidmət göstərdiyini) eşitdikdən sonra ona çoxlu hədiyyələr verdi və Mədinənin valisi etdi. Bunlar, onun mərdud olduğuna dəlil deyilmi? Müaviyənin xoşuna gəlməsi üçün, Xüləfeyi-Raşidindən, hətta onların ən fəzilətlisi, ən kamili və ən şərəflisi olan biri haqqında belə danışan adam, bir neçə gün Rəsulallahın (s) səhabəsi olduğuna görə tərifə layiqdir?»

**Şeyx:** «Onun məlun və mərdud olduğuna dair şiələrin əlində nə kimi dəlillər vardır?»

**Dəvətçi:** «Əldə bir çox dəlil vardır. Bu dəlillərdən biri budur: Kim həzrət Peyğəmbərə (s) səbb (söyüş) edərsə, o, hər iki məzhəbə (şiə və sünni) görə məlun, mərdud və Cəhənnəm əhlidir. Əvvəldə bildirdiyim kimi, böyük alimlərinizin də nəql etdiyi hədislərdə Rəsulallah (s) belə buyurmuşdur:

«***Kim Əliyə səbb edərsə, mənə səbb etmişdir; kim mənə səbb edərsə, Allaha səbb etmişdir***»

Əbu Hüreyrə müvəhhidlərin ağası Əmirəl-öminin həzrət Əliyə (ə) səbb və lənət edənlərdən biridir. O, saxta hədislər uydurараq, xalqı həzrət Əliyə (ə) səbb etməyə çağırırdı!

# ӘBU HÜREYRӘNİN BUSR İBN ӘRTATLA MÜSӘLMANLAR HAQQINDAKI ZÜL VӘ QӘTLİAMLARI

Bir başqa dəlil budur: Təbəri, İbn Əsir, İbn Əbil Hədid, Əllamə Səmhudi, İbn Xəldun, İbn Hələqan və s. tarixçiləriniz belə yazır:

Müaviyə ibn Əbu Süfyan, qaniçən, zalım, qəlbi qəsavətli və alçaq Busr ibn Ərtatı yəmənliləri və ağamız Əmirəl-mömininin (ə) şiələrini qətl etməsi üçün 4 min şamlı döyüşçüylə bərabər Mədinə yolundan hücuma keçmək üçün göndərdi. Onlar Mədinə, Məkkə, Taif, Təbalə (Təhamə bölgəsində bir şəhər), Nəcran, Ərhab qəbiləsi (Həmədan qəbilələrindən biri), Səna və Hazarmovtda ağlagəlməz qətllər etdilər. Bəni-Haşim və Əmirəl-mömininin (ə) şiələrini, qoca-cavan bilmədən, qılıncdan keçirtdilər. Hətta Peyğəmbəri-əkrəin (s) əmisi Abbasın oğlu və Yəmən valisi Ubeydullahın iki uşağına belə rəhm etməyib, başlarını kəsdilər. O məlunun əmriylə öldürülənlərin sayının 30 mindən çox olmuşdur!

Əməvi və onların təqibçilərinin bu əməlləri insanı çox heyrətləndirmir; çünki onlar belə şeyləri ardıcıl olaraq edirdilər. İnsanı təəccübləndirən şey, başınızın üzərində tutduğunuz Əbu Hüreyrənin də, alçaq Busr ibn Ərtatla birlikdə bu səfərə çıxıb, onun faciəli qətllərini görməsi və orada iştirak etməsidir. Xüsusilə Cabir ibn Əbdullah Ənsari, Əbu Əyyub Ənsari və digər bir çox səhabələrin olduğu Mədinəyi-Münəvvərin müdafiəsiz və günahsız xalqına edilən zülmləri öz gözləriylə görürdü. Səhabələr qorxularından ya Mədinədən qaçmış və ya evlərdə gizlənmişdilər. Əbu Əyyub Ənsari kimi Rəsulallahın (s) xas səhabələrinin evləri yandırıldı. Əbu Hüreyrə bütün bunları gördüyü halda, səsini çıxartmadı, yeri gələndə bu zalımlara yardımçı da olurdu.

Mədinədəki qətllərdən sonra bu zalım oldu Məkkəyə doğru hərəkət edərkən Əbu Hüreyrə orada onların vəkili olaraq qaldı. Daha sonra müaviyə onun bu kimi xidmətləri və Busr ibn Ərtata etdiyi yardımları müqabilində onu Mədinəyə vali təyin etdi.

Allah eşqinə insafla söyləyin, bu dünyapərəst insan 3 il[1] Rsuli-əkrəmin (s) səhabəsi olmasına baxmayaraq, bu müddət ərzində necə ola bilər 5 min hədis nəql etsin? Hər iki məzhəbin qəbul etdiyi Əllamə Səmhudi «Tarixul-Mədinə»də, Əhməd ibn Hənbəli «Müsnəd»də, Səbt ibn Covzinin «Təzkirə»nin 163-cü səhifəsində qeyd olunan və başqa alimlərin Rəsuli-əkrəmdən (s) nəql etdikləri bu məşhur hədisi eşitmədinizmi?

«***Kim Mədinə xalqını zülmlə qorxudarsa, Allah da onu qorxudacaqdır. Allahın, mələklərin və bütün insanların lənəti olsun ona. Qiyamət günü Allah-təala, ondan heç bir şeyi qəbul etməyəcəkdir. Mənim Mədinəmi qorxudana Allahın lənəti olsun. Kim Mədinə əhalisiylə pis davranarsa, Allah-təala onu, qurğuşun əridiyi kimi odda əridəcəkdir***».

O, vəziyyətdən xəbərdar ikən Mədinəliləri qorxudub, bu cür zülmlər edən bir orduya necə qatıla bilər?! Bundan əlavə, saxta hədislər uyduraraq Rəsulallahın (s) vəsisi, haqq xəlifəsi və pak Əhli-beytinə qarşı çıxaraq, insanları belə bir şəxsə səbb etdirir ki, ona səbb etməyi Peyğəmbər (s) özünə səbb edilmiş sayır. İnsafla söyləyin, Rəsulallahın (s) adına yalan hədis uyduran belə bir kəsi Allah və Rəsulu (s) rədd etməzmi?».

**Şeyx:** «Rəsulallahın (s) ən etibarlı səhabəsinə dinsiz və hədis uyduran deyərək haqsızlıq edirsiniz».

## ƏBU HÜREYRƏNİN MƏRDUDLUĞU VƏ ÖMƏRİN ONU ŞALLAĞLAMASI

**Dəvətçi:** «Əgər bir haqsızlıq olduğunu düşünürsünüzsə, məlumunuz olsun ki, ilk dəfə yə haqsızlıq edən II xəlifə Ömər ibn Xəttab olmuşdur. İbn Əsir kimi

[1] İbn Sədin «Təbaqat»ində, İbn Həcərin «İsabə»sində və əhli-sünnətin digər alimlərinin mötəbər kitablarında Əbu Hüreyrənin Xeybərin fəthində müsəlman olduğu yazılmışdır. Buxarinin rəvayətinə görə («Səhihi-Buxari»nin fəthində müsəlman olduğu yazılmışdır. Buxarinin rəvayətinə görə («Səhihi-Öbuxari»nin «Əlamətun-nübuvvəti fil-İslam» babında), Əbu Hüreyrə Rəsulallahı (s) üç ildən çox görəmişdir. İbn Həcər «İsabə»də, Haki «Müstədrək»də, İbn Əbdülbir «İstiab»da və sairləri belə nəql edirlər: «**Əbu Hüreyrə hicri 57-ci ildə 78 yaşında Əqiq vadisində öldü. Cənazəsini Mədinəyə gətirib, Bəqi qəbiristanlığında dəfn etdilər**».

tarixçilər və İbn Əbil Hədid «Şərhi «Nəhcül-bəlağə» kitabının (Misir nəşri) III cildinin 104-cü səhifəsində hicri-qəməri 23-cü ilin hadisəsini belə nəql edirlər:

Hicri-qəməri 21-ci ildə xəlifə Ömər Əbu Hüreyrəni Bəhreynə vali təyin etdi. Ona Əbu Hüreyrənin orada özünə mal toplayıb bir sürü at aldığı xəbərini verdilər. Bu xəbəri alan xəlifə Ömər onu Hicri 23-cü ildə vəzifəsindən azad edib, geri çağırdı. Əbu Hüreyrə Ömər ibn Xəttabın yanına gəldikdə, xəlifə ona «Ey Allahın və Allahın kitabının düşməni! Allahın malınımı tapıb-talayırsan?» deyə qəzəbləndi. O da «Əsla, oğurluq etmədim, onlar xalqın mənə verdiyi hədiyyələrdir» deyə cavab verdi».

İbn Məsud «Təbəqat»ın IV cildinin 90-cı səhifəsində, İbn Həcər Əsnəlani «İsabə»də və İbn Əbdürrəbih «İqdul-Fərid» kitabının I cildində belə yazır:

Xəlifə Əbu Hüreyrəyə «Ey Allahın düşməni! Səni Bəhreynə vali göndərəndə ayağında ayaqqabın belə yox idi; indi 1600 dinara cins atlar aldığını eşitdim. Bunları haradan aldın?» deyə soruşdu. O da cavabında «Bunlar xalqın mənə verdiyi hədiyyələrdir. Onları dövriyyəyə buraxdım, əlimdəkilər də onlardan əldə etdiyim mənfəətlərdir» dedi. Ömər yerindən qalxıb onu o qədər şallağladı ki, kürəyindən qan axmağa başladı. Sonra Bəhreyndə mənimsədiklərindən 10000 dinar alıb, Beytul-ala verməlırini əmr etdi».

Ömər, sadəcə öz xəlifəliyi zamanında deyil, Rəsulallahın (s) zamanında da Əbu Hüreyrəni yerə yıxılana qədər döyüşdü. Bu hadisəni Müslim «Səhih» kitabının I cildinin 34-cü səhifəsində nəql etmişdir.

İbn Əbil Hədid «Şərhi-Nəhcül-bəlağə» kitabının I cildinin 360-cı səhifəsinin əvvəlində yazır: «Əbu Cəfər İskafi (Mötəzili şeyxi) deyir ki, şeyxlərimiz Əbu Hüreyrəni (əqli tərəfdən) nöqsanlı bilib, onun hədislərini qəbul etmirlər. Ömər onu qamçılayaraq dedi: «Hədis nəql etməkdə çox qabağa getdin. Sənin məqamın Peyğəmbərin adına yalan uydurmaqdan da artıqdır!».

İbn Əsakir «Tarixi-Kəbir»də və Müttəqi «Kənzul-ümmal» kitabının 239-cu səhifəsində belə nəql edir: «Xəlifə Ömər onu şallaqlayaraq döydü. Rəsulallahdan (s) hədis nəql edirsən. Yalan söyləməyə layiqsən (yəni sənin kimi şəxsiyyətsiz bir

kəs Peyğəmbərin adına yalan söyləyər ancaq) Peyğəmbərdən hədis nəql etməyi tərk etməlisən. Yoxsa səni ya Dəvsə[1] göndərərəm, ya da buzinələrin[2] yanına.

İbn Əbil Hədid «Şərhi-Nəhcül-bəlağə» kitabının I cildinin 360-cı səhifəsində (Misir nəşri) öz usdadı imam Əbu Cəfər İskafidən belə nəql edir: «Mövləl-müvəhhidin Əmirəl-möminin həzrət Əli (ə) belə buyurur:

«***Bilin ki! İnsanların ən yalançısı, Rəsulallahın (s) adına ən çox yalan söyləyən dəvslu Əbu Hüreyrədir***».

İbn Qütəybə «Təvilul-müxtəlifil-hədis»də, Hakim «Müstədrək»in III cildində, Zəhəbi ««Təlhisul-müstədrək»də və Müslim «Səhihi-Müslim» kitabının II cildinin «Fəzailu Əbu Hüreyrə» bölüündə deyirlər: Hüreyrə çox yalan söyləyir. O, Rəsulallahın adına bir çox yalan hədis uydurmuşdur».

Sözü çox uzatmaq istəmirəm. Əbu Hüreyrəni yalnız biz rədd etmərik. Xəlifə Ömər, ağamız Əmirəl-möminin, Ümmul-möminin Aişə, səhabə və tabein də onu rədd etmişdir. Mötəzilənin şeyx və alimləri və hənəfilərin ümumisi Əbu Hüreyrənin hədislərini qəbul etmir, batil bilərlər. Nəvəvi «Səhihi-Müslim» geniş şəkildə açıqlayır. Camaatınızın böyük rəhbəri imam Əzəm Əbu Hənifə belə deyir: «Rəsulallahın səhabələri ümumilikdə etibarlı və adil idilər. Ən onların hamısından sənədi kimə çatırsa-çatsın, hədis qəbul edirəm. Amma sənədləri Əbu Hüreyrəyə, Ənəs ibn Maliyə və Səmurət ibn Cundəbə çatan hədisləri qəbul etmirəm».

Elə isə Əbu Hüreyrəni tənqid etdiyimiz üçün bizə etiraz etməyin. Biz o Əbu Hüreyrəni tənqid edirik ki, II xəlifə, Ömər onu şallağlamış, Beytul-mal oğrusu və yalançı olduğunu elan etmişdi.

Biz o Əbu Hüreyrəni tənqid edirik ki, Ümmül-möminin Aişə, ima Əzəm Əbu Hənifə, səhabənin böyükləri, tabein və mötəzilənin şeyx və alimləri onu tənqid edərək, rədd etmişlər.

Xülasə, biz o Əbu Hüreyrəni tənqid edirik ki, quranın bərabəri olan müvəhhidlərin ağası Əmirəl-möminin həzrət Əli (ə) və Rəsulallahın (s) Əhli-beytindən (ə) olan məsum İmamlar (ə) onu mərdud və yalançı bilmişlər.

---

[1] Əbk Hüreyrənin Yəməndəki qəbiləsidir.
[2] Dağlarda yaşayan bir cür meymundur.

Biz o Əbu Hüreyrəni tənqid edirik ki, qarınqulu idi. Əmirəl-möminin həzrət Əlinin (ə) ən fəzilətli olduğunu bilməsinə baxmayaraq, Onu buraxıb, məlun Müaviyənin yağlı süfrəsini seçdi. S axta hədislər Uydurаraq, sizin də Xuləfeyi-raşidindən biri kimi qəbul etdiyiniz müttəqilərin imamı və müsəlmanların xəlifəsinə – həzrət Əliyə (ə) səbb və lənət oxunması üçün Müaviyəyə yardımçı oldu.

Bu qədər yetər; bundan çox məclisin vaxtını almaq istəmirəm. Mövzunu bir az çox uzatdığım üçün də üzr istəyirəm. «Haqsızlıq edirsiniz» dediyiniz üçün yalnız biz deyil, xəlifələr, səhabələr və böyük alimlərinizin də onu rədd etdiyini isbat etmək istədim. Dünya malı və məqamına yetişmək üçün Rəsulallahın (s) adına saxta hədis uyduran və onları səhih hədislərlə qarışdıran belə saxtakarların hədisinə etibar edilməz! Bu səbəbdən Rəsulallah (s) belə buyurmuşdur:

«***Məndən sizə bir hədis nəql edildikdə, onu Allahın kitabı ilə müqayisə edin***».

Əhəmiyyətli bir mövzu olduğu üçün, ağaların işa namazının vaxtından bir az keçmişdi. Söhbət bura yetişdikdə, onlar durub namaz qıldılar. Bir az söhbət edib, çay içdikdən sonra məclis yenidən rəsmiləşdi.

**Dəvətçi:** «İndiyə qədər söylədiklərimizi nəzərə alaraq siz və biz Rəsuli-əkrəmdən (s) nəql edilən hər hədisi Quranla müqayisə etmək məcburiyyətindəyik. Qurana uyğundursa qəbul olunmalı, əks təqdirdə rədd edilməlidir.

## UYDURULMUŞ «MƏN ƏBU BƏKRDƏN RAZIYAM, GÖRƏSƏN, O DA MƏNDƏN RAZIDIRMI?» HƏDİSİNİN CAVABI

Nəql etdiyiniz bu hədisi (hər nə qədər birtərəfli olsa da) quranla müqayisə etmək məcburiyyətindəyik. Əgər hər hansı bir maneə olmazsa, qəbul edəcəyik. Bəziləri bu hədisə belə cavab vermişlər: «Qaf» surəsinin 16-cı ayəsində Allah-təala belə buyurur:

«***And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə kimi vəsvəsə etdiyini bilirik və Biz ona şah damarından daha yaxınıq***».

«Şah damarı» deyilən istilah (termin) məşhur bir istilahdır. Bu misal yaxınlığın həddini, yəni nə dərəcə yaxın olduğunu bildirir. İzafə izafei-bəyaniyyədir, izafeyi-lai də ola bilər.

Ayəyi-şərif bu həqiqəti belə açıqlayır: Allah-təalanın insanlara olan elmi elə bir şəkildədir ki, insanın içində və qəlbində olan heç bir şey Ona gizli deyildir. Allah insanın içindən keçən hər şeyi bilir.

Allah-təala «Yunus» surəsinin 61-ci ayəsində belə buyurur:

«***[Ya Peyğəmbər!] Sən heç bir işdə olmazsan və Onun tərəfindən [nazil olmuş] Qurandan [bir ayə] oxumazsan və heç bir əməl etməzsiniz ki, siz ona başladıqda biz şahidiniz olmayaq. Yerdə və göydə zərrə qədər heç bir şey sənin Rəbbindən gizli qalmaz. Daha kiçik və daha böyük heç bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın***».

Bu ayələrin hökmünə və əqli dəlillərə görə heç bir hərəkət, iş və söz Allahdan gizli deyildir. Aləmlərin Rəbbi, Hüzuri elmi ilə bəndələrinin bütün iş, əməl və sözlərini bilir. Belə isə söylədiyiniz bu hədisi, yuxarıdakı iki və Qurandakı digər ayələrə əsaslanaraq necə izah edə bilərsiniz? Deyə bilərikmi ki, Əbu Bəkrin razı olub-olmadığını Allah bilmirdi, bunu bilmək üçün Allah-təala Əbu Bəkrdən soruşmaq məcburiyyətində qalmışdı?! Üstəlik deyim ki, Allah-təalanın rizası, insanların rizasıyla bağlıdır. Qul riza mənamına yetişmədiyi müddətdə, Allah-təala ondan razı olmaz. Yaxşı, necə olur ki, Allah-təala Əbu Bəkrdən razı olduğunu söylədiyi halda, Əbu Bəkrin riza məqamına yetişdiyini və Ondan razı olub-olmadığını bilmir?!».

## ƏBU BƏKR VƏ ÖMƏRİN FƏZİLƏTLƏRİ HAQQINDAKI UYDURULMUŞ HƏDİSLƏR VƏ ONLARIN RƏDD EDİLMƏSİ

**Şeyx:** «Rəsulallahın (s) belə buyurduğuna şübhə yoxdur:

«***Allah-təala xalqın hamısına ümumi olaraq, amma Əbu Bəkrə məxsus olaraq təcəlli edər***».

«***Allah-təala mənim sinəmə daxil etdiyi hər şeyi Əbu Bəkrin də köksünə daxil etmişdir***».

«***Yarışda iki at bərabər səviyyədə olduğu kimi mən və Əbu Bəkr də bir səviyyədəyik***».

«***Göy üzünün birinci qatında olan 80 min ələk Əbu Bəkr ilə Öməri sevənlər üçün istiğfar edərlər və ikinci qatında 80 min mələk də Əbu Bəkr və Ömərin düşmənlərinə lənət edərlər***».

«***Əbu Bəkr və Ömər əvvəlkilərin və sonrakıların ən xeyirlisidirlər***».

Ömər və Əbu Bəkrin məqamlarının əzəməti bu hədisdən daha yaxşı anlaşılır:

«***Allah məni öz nurundan, Əbu Bəkri mənim nurumdan, Öməri Əbu Bəkrin nurundan və ümmətimi də Ömərin nurundan yaratmışdır. Ömər Cənnət əhlinin çırağıdır***».

Xəlifələrin məqamı mövzusunda bizim mötəbər kitablarımızda mövcud olan bir çox hədis vardır. Həqiqətlərin ortaya çıxması üçün onlardan yalnız bir neçəsini misal olaraq bildirdim.

**Dəvətçi:** «Söylədiyiniz bu hədislərin özü, bilavasitə Peyğəmbərin (s) mübarək diliylə deyilmədiyini göstərir. Rəsulallah (s) heç bir vaxt bu növ sözləri söyləməzdi. Çünki birinci hədis Allahın cism olduğunu göstərir. Bu da küfr deməkdir. Allahın cism olduğuna inanmaq insanı küfrə salar.

İkinci hədis Əbu Bəkrin Rəsulallaha (s) nazil olan hər şeyə ortaq olduğunu söyləyir ki, belə bir şey də imkansızdır.

Üçüncü hədis də Peyğəmbərin (s) Əbu Bəkrdən heç bir üstünlüyü olmadığını göstərir.

Son iki hədis isə hər iki tərəfin qəbul etdiyi «***Məhəmməd və Ali Məhəmməd aləmlərin ən xeyirlisidir***» hədisləriylə (bu mövzuda daha bir çox hədis nəql edilmişdir) ziddiyyətlidir. Son hədis isə Qurani-kərimdəki «İnsan» (Dəhr) surəsinin 13-cü ayəsi – «***Orada taxtlara söykənəcəklər. Nə günəş [istisi] görəcəklər və nə də soyuq***» ilə ziddiyyətlidir. Cənnətdə günəş və ay yoxdur. Orada mövcud olan daş, ağac, divar, qapı qısaca desək, hər şey nurludur. Bu dünyada aydınlığa çıxmaq üçün işağa ehtiyac vardır, Cənnətdə yox.

Bu zahiri tənqidlərdən əlavə, rical və dirayə alimləriniz məsələn: Müqəddəsi «Təzkirətul-Mövzuat»da, Fiyruz Abadi Şafei «Səfərus-səadət»də, Həsən ibn Kəsir Zəhəbi «Mizanul-etidal»da, Əbu Bəkr Əhməd ibn Əli Xətib Bağdadi «Tarix»də, Əbul Fərəc ibn Covzi «Mövzuat»da və Cəlaləddin Siyuti «Əl-ləalil-Məsnuə fil-Əhədisil-Mövzuə» kitabında bu hədislərin uydurma olduğuna dair hökm vermişdir. Bu hədislərin hər biri haqqında belə demişlər: «**Ravi və sənəd baxımından bu hədislər mövzu və saxta hədislərdəndir. Çünki bunları nəql edənlərin içərisində yalançı və hədis uyduran kəslər vardır. Beləcə bu hədislərin, hə əqlən, həm də Quran ayələrinə görə batilliyi aydındır**».

**Şeyx:** «Yaxşı, bəs Rəsulallahın (s) buyurduğu bu hədisə nə deyirsiniz:

«***Əbu Bəkr və Ömər Cənnət qocalarının ağalarıdır***».

**Dəvətçi:** «Bu hədis haqqında da bir az düşünməli olsaq, dirayə və rical alimlərinizin bu hədisi uydurma olduğunu bildikləri, Rəsulallahın (s) belə bir söz buyurmasının imkansız olduğunu məhz hədisin özündən anlaşılır. Çünki hər kəs qoca bir insanın Cənnətdə olmayacağını bilir. Cənnətdə, dünyada olduğu kimi insanın cismani həyat mərhələsi olmadığına görə insanın səadət kamalına yetişə bilməsi üçün gənclikdən yaşlılığa doğru irələmə mövcud olmayacaqdır. Dediklərimi əsaslandıran bir çox hədis vardır. Bunlar sizin və bizim hədis kitablarımızda mövcuddur. Məsələn, bir gün Əşcəi qəbiləsindən olan yaşlı bir qadın Rəsulallahın (s) hüzuruna gəldikdə, Peyğəmbər (s) söhbət əsnasında ona belə buyurdu: «***Yaşlılar Cənnətə girməyəcəkdir***». O qadın kədərlənərək; «Ya Rəsulallah! Onda mən Cənnətə girəməyəcəyəm» deyib, həzrətin hüzurundan ayrıldı. Rəsulallah (s) da onun arxasınca bu xəbəri göndərdi: «***Ona söyləyin ki, o gün kimsə yaşlı olmayacaqdır. Çünki bütün yaşlılar gənc olaraq Cənnətə girəcəklər***».

Sonra bu ayən oxudu:

«***Şübhəsiz ki, Biz huri qadınları da gözəl bir biçimdə yaratdıq. Onları bakirə qızlar olaraq xəlq etdik. Ərlərini sevən həmyaşıdlar etdik***»[1]

---

[1] «Vaqiə» surəsi, ayə: 35-37.

Yenə sizin və bizim hədis kitablarımızda Rəsulallahın (s) belə buyurduğu nəql edilmişdir:

«***Cənnət əhli üzündə tük bitməmiş, qıvrım saçlı, ağ bədəndə və gözlərinə sürmə çəkilmiş bir halda 33 yaşlarında Cənnətə daxil olarlar***».

**Şeyx**: «Sözləriniz öz yerində doğrudur, amma bu hədis Cənnət əhli üçün müxəssisdir (təxsisedicidir)».

**Dəvətçi:** «Sözünüzü yaxşı anlaya bilmədim. Bu hədis nəyin müxəssisidir?! Yəni Allah sırf Əbu Bəkr və Ömər yaşlıların ağası olsunlar deyəmi bir qrup insanları yaşlı olaraq Cənnətə gətirəcəkdir?! Əgər Əbu Bəkr və Ömər Cənnətə düşməli olsalar, Allah-təala onları da gənc olaraq Cənnətə daxil edə bilər. Yoxsa sadəcə onlar ağa olsunlar deyə Allah bir qrup insanları yaşlı olaraq Cənnətə gətirməz!

Üstəlik, alimləriniz bu hədisi uydurma hədislərdən saymışlar. Rəsulallahın (s) bizim işimizi asanlaşdırmaq üçün təməl bir qanun qoyduğunu da bilirsiniz: «***Qurana uyğun olmayan bir hədisin qəbul edilmədiyi qanunudur***». Bizim rical və dirayə alimlərimiz də ya Rəsulallahdan (s), ya da məsum imalardan (ə) nəql olunan saxta hədisi O həzrətin (s) əmrinə – «***Hər vaxt məndən rəvayət nəql etsələr, onu Quranla uzlaşdırın. Əgər uyğun gələrsə qəbul, əks təqdirdə isə rədd edin***» əsasən rədd edib, qəbul etməmişlər.

Bir az əvvəl böyük alimlərinizdən bir çoxunun uydurma hədislər haqqında bir çox kitablar yazdıqlarını ərz etdim. Şeyx Məcduddin Məhəmməd ibn Yəqubi Fiyruz Abadi «Səfərus-səadat»ın 142-ci səhifəsində, Cəlaləddin Siyuti «çəl-LDəali»da, İbn Covzi «Mövzuat»da, Müqəddəsi «Təzkirətul-mövzuat»da, və Şeyx Məhəmməd ibn Dərviş (Huti Beyruti) «Əsnəl-Mətalib» kitabının 123-cü səhifəsində belə yazır: «Əbu Bəkr və Ömər Cənnət yaşlılarının ağalarıdır» hədisinin ravilərindən biri Yəhya ibn Ənbəsədir». Zəhəbi deyir: «Yəhya zəif ravilərdəndir». İbn Cani Dəccal deyir: «O özündən hədis uydurmuşdur».

Demək, bizimlə bərabər, sizin tədqiqatçı alimləriniz də bu hədisi qəbul etmirlər. Həqiqətən də, böyük bir ehtimala görə Bəkriyyun, ya da bəni-Üməyyə, Rəsulallahın (s) Əhli-beytini (ə) zəif etmək üçün həm sünnilərin, həm də şiələrin

qəbul etdiyi Əhli-beytin əzəmət və fəzilətini isbat edən hər cəhih hədisin qarşısında başqa bir hədis uydurmuşlar. Əbu Hüreyrə kimiləri də fasid bəni-Üməyyə xəlifələrinə yaltaqlıq etmək üçün bu işə daima əl-ayaq olmuşlar. Çünki onların Ali-Məhəmmədə (ə) qarşı böyük bir kin və nifrətləri var idi və bütün şiə alimlərindən əlavə, sizin böyük alimləriniz də bu hədisin saxta olmasını nəql etmişlər.»

**Nəvvab:** «Şiə və sünnilərin Əhli-beytin fəzilətinə aid qəbul etdikləri hansı səhih və sabit hədis qarşısında başqa bir hədis uydurmuşlar?».

## «HƏSƏN VƏ HÜSEYN (Ə) CƏNNƏT CAVANLARININ AĞALARIDIRLAR» HƏDİSİ

**Dəvətçi:** «O səhih hədislərdən biri Rəsulallahın (s) buyurduğu «***Həsən və Hüseyn Cənnət gənclərinin ağalarıdılar, ataları isə onlardan daha üstündür***» hədisidir. Bu hədisi Xətib Xərəzm «Mənaqib»də, Mir Seyid Əli Həmədani «Məvəddətul-qurba»nın 8-ci Məvəddəsində, imam Əbu Əbdürrəhman Nəsai «Xasaisi-Ələviyyə»də, İbn Sabbağ Malik «Fisulul-mühimmə»nin 159-cu səhifəsində, Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 54-cü babında Tirmizi, İbn Maccə və Əhməd ibn Hənbəldən, Səbt ibn Covzi «Təzkirə»nin 133-cü səhifəsində, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, Tirmizi «Sünən»də və Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talib»in 97-ci babında bu hədisi nəql etdikdən sonra belə deyir: «Hədis elminin imamı Əbulqasim Tabərani «Mucəmul-kəbir» kitabında imam Həsənin həyatını araşdırarkən bu şərafətli hədisi nəql edən səhabələrin çoxlarının adlarını yazmışdır. Məsələn: «Əmirəl-möminin Əli ibn Əbu Talib, II xəlifə Ömər ibn Xəttab, Hüzeyfə Yəməni, Əbu Səid Xidri, Cabir ibn Əbdullah Ənsari, Əbu Hüreyrə, Usamə ibn Zeyd və Əbdullah ibn Ömər».

Məhəməd ibn Yusif Gənci Şafei daha sonra belə deyir: «Rəsulallahın (s) buyurduğu; «***Həsən və Hüseyn Cənnət gənclərinin ağalarıdırlar, ataları isə onlardan daha üstündür***»[1] hədisi «Həsən» (qəbul edilən bir hədisdir. Bu hədisin sənədlərini bir-birinin yanına qoyduqda hədisin səhihliyi aydın olur. Hafiz Əbu

[1] Bəzi xəbərlərdə «daha fəzilətlidir» gəlmişdir.

Nəim İsfahani «Hilyə»də, İbn Əsakir «Tarixi-kəbir»in IV cildinin 206-cı səhifəsində, Hakim «Müstədrək»də, İbn Həcər Məkki «Səvaiq»in 82-ci səhifəsində, xülasə əhli-sünnətin böyük alimləri bu hədisin Rəsulallah (s) tərəfindən buyrulduğu barədə ittifaq etmişlər».

**Şeyx:** «Zənn edirəm, Rəsulallahın (s) buyurduğu bu hədisi – «***Əbu Bəkrin olduğu yerdə başqalarını ön görəmək yersizdir***» heç kim inkar edə bilməz! Bu hədis Əbu Bəkrin ümmətin digər şəxslərindən hər işdə qabaqcıllıq haqqına sahib olduğunu isbat edir».

**Dəvətçi:** «Anlaya bilmirəm, nə səbəbdən düşünlərdən nəql olunan hər hədisi qəbul edirsiniz. Əgər Rəsulallah (s) bu hədisi buyurmuş olsaydı, nə üçün dediyinə görə əməl etmədi? Nə üçün mübahilə hadisəsində Əbu Bəkrin yerinə həzrət Əlini (ə) özü ilə bərabər apardı? Nə üçün Təbuk səfərində Əbu Bəkr olduğu halda, həzrət Əlini (ə) xəlifə olaraq öz yerin qoydu? Məkkədə «Bəraət» surəsinin oxunması məsələsində nə üçün Əbu Bəkri kənarlaşdırıb, yerinə həzrət Əlini (ə) vəzifələndirdi? Nə üçün Məkkə fəth edildikdən sonra Kəbədəki bütləri yıxmaq üçün Əbu Bəkrin yerinə həzrət Əlini (ə) önə çəkib, hətta Hubəl bütünü yıxması üçün onu çiyninə qaldırdı? Əbu Bəkr olduğu halda nə üçün yəmənliləri İslama dəvət etməyə həzrət Əlini (ə) göndərdi? Hamısından əlavə, nə üçün özündən sonra xəlifə olası üçün Əbu Bəkrin yerinə həzrət Əlini (ə) vəsi təyin etdi?».

**Şeyx:** «Rəsulallahdan (s) bir çox səhih hədis nəql edilmişdir. Bunu qətiyyən inkar edə bilməzsiniz. Hədis belədir: Əmr ibn As deyir ki, bir gün Peyğəmbərdən (s) belə soruşdum: «Ya Nəbiyyəllah! Ailənizdəki qadınların içində ən çox sevdiyiniz kimdir?». Cavabında «Aişə» buyurdu. Sonra «Kişilərin içində ən çox sevdiyiniz kimdir?» soruşduqda «Aişənin atası» buyurdu. Əbu Bəkr Peyğəmbərin ən çox sevdiyi insan olduğuna görə ümmətin hamısına rəhbərlik etmək haqqı vardır. Bu da Əbu Bəkrin xəlifəliyi üçün qəti bir dəlildir!».

## ƏBU BƏKR VƏ AİŞƏ RƏSULALLAHIN (S) ƏN ÇOX SEVDİYİ İNSANLARDIRLAR» SÖZÜNÜN CAVABI

**Dəvətçi:** «Bu hədis Bəkrilərin uydurması olmasından əlavə, iki məzhəbin qəti olaraq qəbul etdiyi hədislərlə də ziddiyyətlidir. Bu səbəbdən bu hədisin mərdudluğu sabitdir. Bu hədisi iki baxımdan diqqətlə araşdırmaq lazımdır: Birincisi, Ümmül-möminin Aişə, digəri isə xəlifə Əbu Bəkr baxımından. «Aişənin Rəsulallahın (s) ən çox sevdiyi qadındır» sözü hər iki məzhəbin mötəbər kitablarında mövcud olan başqa səhih hədislərdə ziddiyyətlidir».

**Şeyx:** «Mümkünsə, onların hansı hədislər olduğunu söyləyin, biz də adilanə bir şəkildə hökm verək».

**Dəvətçi:** «Bu hədisin xilafına sizin öz alim və raviləriniz tərəfindən nəcib İmamların (ə) anası həzrət Fatimə (ə.s) haqqında bir çox hədis nəql edilmişdir.

## HƏZRƏT FATİMƏ (S) ALƏMDƏKİ QADINLARIN ƏN ÜSTÜNÜDÜR

Hafiz Əbu Bəkr Bəyhəqi yazdığı «Tarix» kitabında, Hafiz ibn Əbdülbirr «İstiab»da, Mirseyid Əli Həmədani «Məvəddətul-qurba»da və s. alimlər Rəsulallahın (s) belə buyurduğunu nəql edirlər:

«***Fatimə ümmətimin qadınlarının ən üstünüdür***» Əhməd ibn Hənbəl «Müsnəd» və Hafiz Əbu Bəkr Şirazi də «Nüzulul-Quran fi Əli» kitabında Məhəmməd Hənəfiyyədən, o da Əmirəl-möminin həzrət Əlidən (ə), İbn Əbdülbirr «İstiab»da, həzrət Fatimən (ə.s) və Ymmül-möminin həzrət Xəticənin (ə.s) həyatını Əbdülvaris ibn Süfyan və Əbu Hüreyrədən, yenə Ümmül-möminin həzrət Xəticənin (ə.s) həyatı haqqında Əbu Davuddan, o da Əbu Hüreyrə və Ənəs ibn Malikdən, şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 55-ci babında, Mirseyid Əli Həmədani «Məvəddətul-qurba»nın 13-cü Məvəddəsində və digər bir

çox etibarlı alimləriniz Ənəs ibn Malikdən Rəsulallahın (s) belə buyurduğunu nəql edirlər:

«***Aləmdəki qadınların ən üstünü dörd nəfərdir: İmran qızı Məryəm, Məzahim qızı Asiya, Xüveylid qızı Xaticə və Məhəməd qızı Fatimədir***».

Xətib «Tarixi-Bağdad» kitabında belə yazır: «Rəsulallah (s) bu dörd qadını aləmlərin ən yaxşı qadınları olaraq saydıqdan sonra Fatiməni həm dünyada, həm də axirətdə digər üçündən üstün etmişdir».

Məhəmməd ibn İsmayıl Buxari «Səhih» və imam Əhməd ibn Hənbəl «Müsnəd» kitabında Əbu Bəkrin qızı Aişədən Rəsulallahın (s) Fatiməyə (ə,s) belə buyurduğunu nəql edirlər:

«***Ey Fatimə! Sənə müjdələr olsun. Allah səni aləmdəki qadınların üzərinə ümumi olaraq və müsəlman qadınları üzərində də məxsus olaraq seçdi və səni pak etdi. İslam ən üstün dindir***».

Buxari «Səhih»in IV cildinin 64-cü səhifəsində, Müslim Səhihinin II cildinin «Fəzailu Fatimə» babında, həmidi «əl-Cəmu Beynəs-Səhiheyn»də, Abidi «əl-Cəmu Bəynə Sihahi-Sittə»də, İbn Əbdülbirr «İstiab»da həzrət Fatimənin (ə.s) həyatı haqqında qeyd edərkən, imam Əhməd «Müsnəd»in VI cildinin 282-ci səhifəsində, Məhəmməd ibn Sədi Katib «Təbakat»ın II cildində Rəsulallahın (s) xəstə olduğu vaxt yataqdaykən buyurduğu sözlərin içində və 8-ci cilddə həzrət Fatimənin (ə.s) həyatı haqqında uzun bir hədisi (məclisin vaxtı az olduğu üçün hamısını demirəm) Ümmül-möminin Aişədən Rəsulallahın (s) belə buyurduğunu nəql edirlər:

«***Ey Fatimə! Aləmdəki qadınların ağası olmağa razı deyilsənmi?***»

İbn Həcən Əsqəlani bu ibarəni həzrət Fatimənin (s.ə) həyatı haqqında yazarkən nəql etmişdir. Yenə Buxari və Müslim «Səhih»lərində, imam Sələbi «Təfsir»də, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, tabərani «ucəmul-Kəbir»də, Süleyman Bəlxi Hənəfi «Yənabiul-Məvəddə»nin 32-ci babında Hafiz Əbu Nəim İsfahaninin «Mənaqib», «Vasit» və «Hilyətul-övliya» kitablarından, həmvini «Fəraid»də, İbn Həcər Məkki «Səvait»də 14-cü ayəni açıqlayarkən Əhməddən, Məhəmməd ibn Təlhə Şafei «Mətalibi-Süul»un 8-ci səhifəsində, Təbəri «Təfsiri-

Təbəri»də, Vahidi «Əsbabun-Nüzul»da, İbn Məğazəli Şafei «Mənaqib»də, Muhibbuddin Təbəri «Riyaz»da, mömin Şəblənci «Nurul-Əbsar»da, Zəməxşəri «Təfsir»də, Siyuti «Dürrül-Mənsur»da, İbn sakir «Tarix»də, Əllamə Səmşudi «Tarixul-mədinə»də, Fazil Nişapuri və Qazı Beyzəvi «Təfsir» kitabında, imam Fəxri Razi «Təfsiri-Kəbir»də, Seyid Əbu Bəkr Şəhabuddin Ələvi «Rəşfətüs-Sadi min Bəhri Fəzaili Bənin-Nəbiyyil-Hadi»nin 22-23-cü səhifələrində «Təfsəri-Bəğəvi», Sələbi, «Sirei-Molla», «Mənaqibi-Əhməd», Tabəraninin «Kəbir» və «Ovsət» kitablarından, Şeyx Əbdullah ibn Məhəmməd ibn Əmir Şəbravi Şafei «Kitabul-ittihaf»ın 5-ci səhifəsində Hakim, tabərani və Əhməddən, Cəlaləddin Siyuti «İhyaul-meyyit»də İbn Munzir, İbn Əbi Hatəm və İbn Mərduyənin təfmirlərindən və Təbəraninin «Mucəmul-Kəbir» kitabından, İbn Hatəm və Hakimdən, qısaca desək böyük alimlərinizin ümumi (Əməvi tərəftarları və Əhli-beyt düşməni olan çox az bir qrupdan başqa) İbn Abbas və digərlərindən belə nəql edirlər:

«Şura» surəsinin 23-cü ayəsi – «***De: «Bunun əvəzində sizdən yaxınlarıma olan məhəbbətdən başqa heç bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, biz də onun savabını artırarıq***» nazil olduqda səhabələr belə dedilər: «Ya Rəsulallah! Allahın, sevməyi bizə vacib etdiyi yaxınların kimlərdir?» Rəsulallah (s) cavabında: «***Əli, Fatimə, Həsən və Hüseyndir***» buyurdu. Bəzi hədislərdə də Rəsulallahın (s) belə buyurduğu nəql edilir: «***Əli, Fatimə və onların iki oğludur***».

Bu kimi hədislər mötəbər kitablarınızda çoxdur. Amma vaxtın azlığı onların hamısını nəql etməyə imkan vermir.

## İMAM ŞAFEİNİN ƏHLİ-BEYT (Ə) SEVGİSİNİN VACİB OLDUĞUNA DAİR ETİRAFI

Alimləriniz bu mövzuya o qədər çox toxunmuşlar ki, hətta İbn Həcər kimi təəssübkeş biri belə «səvaiq» adlı kitabının 88-ci səhifəsində, Hafiz Cəmaləddin Zərəndi «Meracul-vusul»da, Şeyx Əbdullah Şəbrəvi «İttihaf» kitabının 29-cü səhifəsində, Məhəmməd ibn Əli Səbban (isirlidir) «İsafür-rağibin»in 119-cu

səhifəsində və başqa bir çox şəxslər dörd məzhəb imamlarından olan Məhəmməd ibn İdris Şafeinin belə dediyini nəql edirlər:

***Ey Rəsulallahın Əhli-beyti! Sizin sevginizi,***
***Allah tərəfindən nazir etdiyi Quranda vacib etmişdir.***
***Sizin şəninizin ucalığına bu yetər ki,***
***Sizə salavat göndərməyənin namazı qəbul olmaz.***

İndi insafla söyləyin, görəsən, yalnız bir tərəfin (Əhli-sünnətin) nəql etdiyi hədis, hər iki məzhəbin sayı qədər nəql etdikləri səhih hədislər qarşısında dura bilərmi?

Görəsən, Rəsulallahın (s) və Allah-təalanın Quranda sevməyi vacib bildiyi şəxsləri bir kənara qoyub, onun yerinə başqalarına əhəmiyyət verilməsini ağıl qəbul edirmi?! Görəsən, Rəsulallahın (s) xanımı və Ümmül-möminin olmaqdan başqa fəzilətinə dair heç bir dəlil olmayan Aişəni Allahın Quranda sevgisini vacib etdiyi, haqqında Təthir ayəsi nazil olan və yenə Quranın hökmüylə Mübahilə hadisəsinə qatılmaq iftixarına yetişən Fatimədən (ə.s) daha çox başqasının sevilməsi düşünülə bilərmi?! Ənbiya və övliyaların həvayi-nəfslərinə uymadıqlarını, Allahdan başqa heç kəsi göz önünə gətirmədiklərini çox yaxşı bilirsiniz. Xüsusilə Rəsuli-əkrəm (s) ancaq Allah üçün sevər və ancaq Allah üçün nifrət edərdi. Allahın sevmədiyini qətiyyən sevməz və Allahın düşməni olmayana düşmən olmazdı. O zaman Allahın, sevməyi vacib etdiyi həzrət Fatiməni (ə.s) bir kənara qoyub başqalarını ondan üstün bilərmi?!

Peyğəmbəri-əkrəm (s) həzrət Fatiməni (ə.s) Allah onu sevdiyi üçün sevirdi. Rəsulallah (s) Allahın aləmlərdəki qadınlardan üstün etdiyi və sevgisini vacib bildiyi bir kəsi qoyub, xanımlarından birinin onunla müqayisə edilməsini qəbul edərmi?

Ya hər iki məzhəbin qəbul və Qurani-kərimin də təyid etdiyi bu səhih hədisləri rədd edəcəksiniz, ya da ziddiyyətin aradan getməsi üçün söylədiyiniz hədislərin uydurma olduğunu qəbul edəcəksiniz.

«***Rəsulallah (s) yanında ən çox sevilən şəxs Əbu Bəkr idi***» hədisi də, böyük və etibarlı alimləriniz tərəfindən nəql edilən; «***Rəsulallah (s) yanında ən çox sevilən şəxs həzrət Əli idi***» hədisi ilə ziddiyyətlidir.

## HƏZRƏT ƏLİ (Ə) RƏSULALLAHIN (S) YANINDA ƏN ÇOX SEVİLƏN ŞƏXSDİR

Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə» kitabının 55-ci babında Tirmizidən Bureydənin belə dediyini nəql edir: «Peyğəmbər, ailəsində qadınlar arasında ən çox Fatiməni, kişilərdən isə ən çox Əlini sevirdi».

Məhəmməd ibn Yusif Gənci Şafei «Kifayəut-Talib» kitabının 91-ci babında müsnəd olaraq Ümmül-möminin Aişədən belə bir hədis nəql edir: «Allah-təala, Rəsulallahın Əli ibn Əbu Talibdən daha çox sevdiyi bir qul yaratmamışdır». Sonra belə davam edir: «Nəql etdiyim bu hədisi, İbn Həcər «Mənaqib»də, İbn Əsakir Dəməşqi də həzrət Əlinin tərcümeyi-halında qeyd etmişdir».

Mühyiddin və imamul-hərəm Əhməd ibn Əbdullah Şafei də «Zəxairul-üqba»da yenə Tirmizidən belə nəql edirlər:

**«Aişədən; «Rəsulallah insanlar içində ən çox kimi sevirdi?» soruşduqda; «Fatiməni» deyə cavab verdi. «Kişilərdən daha çox kimi sevirdi» dedikdə də; «Onun həyat yoldaşı Əli ibn Əbu Talibi» dedi».**

**Muxlis Zəhəbi və Hafiz Əbulqasim Dəməşqi Aişədən bu hədisi nəql etmişlər: «Rəsulallahın, Əli və Fatimədən daha çox sevdiyi bir kəsi görmədim».**

**Hafiz Xacəndi, Məazətul-Ğifariyyədən belə nəql edir: «Rəsulallah (s) Aişənin evindəykən onun hüzuruna getdim. Həzrət Əli də ordaydı. Rəsulallah (s) Aişəyə belə buyurdu:**

«***Həqiqətən, bu (Əli), ən çox sevdiyim və mənim yanımda ən dəyərli olan insandır. Onun haqqını tanı, onun dəyər və məqamını bil***».

Şeyx Əbdüllah ibn Məhəmməd ibn Amil Şəbrəvi Şafei (böyük alimlərinizdən sayılır) «İttihaf fi hubbil-əşraf» kitabının 9-cu səhifəsində, Süleyman Bəlxi

«Yənabiul-məvəddə»də və Məhəmməd ibn Təlhə Şafei «Mətalibis-Süul»un 6-cı səhifəsində Tirmizidən, o da Cumey ibn Umeyrdən belə nəql edirlər: «Bibimlə birlikdə Ümmül-möminin Aişənin yanına getdik. Mən ondan Rəsulallahın (s) ən çox sevdiyi insanların kimlər olduğunu soruşdum. Aişə də «Qadınlardan Fatimə və kişilərdən onun həyat yoldaşı Əli ibn Əbu Talib» deyə cavab verdi».

Eyni xəbəri Mirseyid Əli Həmədani Şafei «Məvəddətul-qurba» kitabının 11-ci Məvəddəsində sadəcə bu fərqlə Cumeylin belə dediyini nəql edir: «Bunu Xalamdan soruşdum, o da belə cavab verdi».

Xətib Xarəzmi «Mənaqib» kitabının VI fəslinin sonunda bu hədisi Cumey ibn Umeyrdən, o da Aişədən nəql edir.

İbn Həcər Məkki «Səvaiq» kitabının II fəslinin axırında həzrət Əlinin (ə) fəziləti haqqında qırx hədis nəql etdikdən sonra Tirmizidən, o da Aişənin belə dediyini nəql edir: «Fatimə qadınların, yoldaşı da kişilərin içində Rəsulallahın ən çox sevdiyi kisələrdir».

Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-süul» kitabının 7-ci səhifəsində bu mövzuda bir çox hədis nəql etdikdən sonra mövzu haqqında əqidəsini bu cümlə ilə aşkar edir: «Bütün bu səhih hədislər isbat edir ki, Rəsulallahın (s) qadınlar içində ən çox sevdiyi kəs Fatimədir. O Cənnətdəki, Mədinəli və bütün ümmətin qadınlarının ən üstünüdür».

Əqli və nəqli dəlillər həzrət Əli (ə) və həzrət Fatimənin (ə.s) Rəsullahın (s) ən çox sevdiyi insanlar olduğunu əsaslandırır.

Rəsulallahın (s) həzrət Əlini (ə) hər kəsdən daha çox sevdiyini və hər zaman Onu ön tutduğunu isbat edən hədislərin arasında ən əhəmiyyətlisi «Təyri Mişviy» (qızardılmış quş) adıyla məşhur olan hədisdir. Bu hədislə həzrət Əlinin (ə) ümmətin içində Rəsulallahın (s) ən çox sevdiyi kəs olduğu tamamən isbat edilir. Sözügedən hədis iki məzhəb arasında o qədər məşhurdur ki, onun kimlər tərəfindən rəvayət edildiyini söyləmək belə mənasızdır. Amma «Bu hədisi şiələr uydurmuşlar» deyənlərin əlinə bəhanə verməmək üçün yenə də onun yadımda olan sənədlərindən bəzilərini demək istəyirəm.

# «TƏYRİ-MÜŞVİY» HƏDİSİ

Buxari, Müslim, Tirmizi, Nəsai və Səcistani öz mötəbər «Səhih»lərində, imam Əhməd ibn Hənbəl «Müsnəd»də, İbn Əbil Hədid «Şərhi-Nəhcül-bəlağə»də, İbn Sabbağ Maliki «Füsulul-mühimmə»nin 21-ci səhifəsində, Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 8-ci babında Əhəd ibn Hənbəldən, Tirmizidən, Müvüffəq ibn Əhməddən, İbn Məğazəlidən və «Sünən Əbu Davud»dan, onlar da Peyğəmbərin köləsi Səfinədən, Ənəs ibn Malikdən və İbn Abbasdan bu hədisi nəql etdikdən sonra belə deyir: «Təyr hədisini 24 nəfər Ənəsdən nəql etmişdir». Xüsusilə Maliki «Fisulul-Muhimmə»də belə deyir: «Ənəs ibn Malik nəql etdiyi Təyr hədisi, səhih və doğru hədislərin içində ən səhih və sağlam olan hədisdir».

Səbt ibn Covzi «təzkirə»nin 23-cü səhifəsində (Fəzail Əhməd və Sünən Tirmizidən nəql edərək) və Məsudi «Murəvvicuz-Zəhəb»in II cildinin 49-cu səhifəsində hədisin axırında Peyğəmbərin (s) duası və onun qəbul olunmasına toxunmuşlar. İmam Əbu Əbdullah Əbdürrəhan Nəsai «Xəsaisul-Ələviyyə» adlı kitabının 9-cu hədisində və Hafiz ibn Uqdə və Məhəmməd ibn Cərir Təbəri bu hədisin mütəvatir olduğu və sənədləri haqqında yazdıqları məxsus kitablarında, səhabədən 35 nəfərin bu hədisi Ənəsdən nəql etdiklərini yazmışdılar. Hafiz Əbu Nəim də bu hədis haqqında qalın bir kitab yazmışdır.

Xülasə, böyük alimlərinizin hamısı öz mötəbər kitablarında bu hədisi nəql etmişlər. Əllamə, mühəqqiq, zahid, adil, usdad Seyid Mir Həmid Hüseyn Deləvi (sizlər onun elm, əməl və təqvasını daha yaxşı bilirsiniz) ki, Hindistandakı şöhrəti günəşdən daha parlaqdır, «Əbəqatul-ənvar» kitabının bir cildini «Təyri-Mişviy» hədisinə ayırmışdır. Orada əhli-sünnətin böyük alimlərinin etibarlı kitablarından bu hədisin bir çox sənədlərini toplamışdır. Mən bu hədisi neçə sənədlə nəql etdiyini indi xatırlamıram. Ancaq bu qədər bilirəm ki, bu hədisin sənədlərini oxuyarkən bu böyük seyidin belə kiçik bir hədisin mütavitir olduğunu əhli-sünnətin öz qaynaqlarından necə zəhmət çəkərək isbat etdiyini gördükdə, həqiqətən, çox təəccüb etdim. Xülasə həm sünnilərin, həm də şiələrin hər zaman və hər yerdə səhih olduğunu etiraf etdikləri o hədislərin hamısının əsası və nəticəsi budur: «Bir

qadın qızardılmış bir quşu Rəsulallahın (s) yeməsi üçün Ona hədiyyə etmişdir. Rəsulallah (s) onu yemədən öndə əllərini göyə qaldırıb ehtiyacsız olan Allaha belə dua etdi: «***Allahım! Sənə və mənə ən sevimli olan məxluqunu göndər, bu (qızardılmış) quşu mənimlə bərabər yesin***». Elə bu an həzrət Əli gəldi, Rəsulallahla (s) birlikdə quşu yedilər».

Malikin «Fisulul-muhimmə»də, Hafiz Nişapurunun «Tarix», «Kifayəut-Talib»də, «Müsnədi-Əhməd»də və əhli-sünnətin digər əhəmiyyətli kitablarında Ənəs ibn malikdən belə nəql etmişlər: «Rəsuli-əkrəm (s) bu dua ilə məşğul ikən Əli üç dəfə gəldi. Hər gəlişində onun üçün üzr gətirərək, onu geri qaytardım. Üçüncü gəlişində ayağıyla qapıya vurdu. **Rəsulallah (s) «*Onu içəri sal» buyurdu. Əli içəri girdikdə, Peyğəmbər (s) «Allah sənə rəhmət etsin, sənin mənim yanıma gəlməyinə mane olan şey nə idi?» - deyə soruşdu. Əli ərz etdi: «Üç dəfə qapıya qədər gəldim, bu üçüncü gəlişimdir*». Rəsulallah (s) mənə dönərək «Ənəs! Nə üçün Əlinin gəlməsinə mane oldun? Səni bu işə məcbur edən nə idi?» - deyə soruşdu. Mən də «Ya Rəsulallah! Doğrusunu istəsəniz, sizin duanızı eşitdikdə mənim qövmümdən birinin gəlməsini istədim» dedim.**

İndi sizlərdən soruşuram: görəsən, Allah-təala Rəsulunun (s) duasını qəbul etdi, yoxsa rədd etdi?».

**Şeyx:** «Cavab bəllidir. Çünki Allah-təala Quranda duaların qəbul ediləcəyinə dair vəd etmişdir. Rəsulallah da heç bir zaman yersiz dua etməyəcəyindən Allah-təala duasını qəbul etmişdir».

**Dəvətçi:** «Elə isə bilin ki, Allah-təala da yaratdıqları arasında ən çox sevdiyini seçib, onu Peyğəmbərinin (s) yanına göndərişdir. Ümmətin içində Allah və Peyğəmbərin (s) ən çox sevdiyi kəs Əli ibn Əbu Talibdir (ə). Böyük alimləriniz bu mənanı təsdiq etmişlər. Məsələn: Məhəmməd ibn Təlhə Şafei «Mətalibus-suul» kitabın V fəslinin I babının 15-ci səhifəsində «Rayət» (bayraq) və «Təyr» hədisləri sayəsində gözəl bəyanı və təhqiqiylə həzrət Əlinin (ə) ümmətin içində Allah və Peyğəmbərin (s) ən çox sevdiyi şəxs olduğunu və onun məqamının ucalığını isbat etmişdir. Şafei sözlərinə bunu da əlavə edərək deyir: «Peyğəmbəri-əkrəm (s) , müttəqilərin ən yüksək dərəcələri olan bu dəyərli məqam və uda sifəti (Allah və

Peyğəmbər (s) yanında sevimli olmağı) həzrət Əliyə (ə) nisbət verərək, onun ülvi məqamını xalqa billdirmək istədi».

Hicri 658-ci ildə Şamın Hafiz və mühəddisi olan Məhəmməd ibn Yusif Şafei «Kifayəut-talib fi Mənaqibi-Əli ibn Əbu Talib» kitabının 33-cü babında mötəbər sənədləriylə Ənəs və Səfinədən bu hədisi dörd yolla nəql etdikdən sonra deyir: «Məhamili Amali» kitabının 9-cu cüzündə bu hədisi nəql edilmişdir. Bu, həzrət Əlinin (ə) Allahın ən çox sevdiyi insan olduğunu isbat edən açıq bir dəlildir. Bu mənaya dəlalət edən dəlillərin ən güclüsü də, Allahın öz Rəsulunun (s) düasını qəbul edəcəyinə dair verdiyi vəddir. Peyğəmbəri-əkrəm (s) dua etdikdə Allah-təala duanı o an qəbul edərək, ən sevdiyi insanı Rəsulunun (s) yanına göndərdi. O insan Əlidən başqası deyildir.

Sonra belə davam edir: «Təyri Mişviy» hədisini Hakim Əbu Əbdüllah Hafiz Nişpuri 86 nəfərdən, onlar da Ənəsdən nəql etmişlər. Hafiz 86 nəfərin hamısının adını yazmışdır[1]«.

İndi insafla söyləyin. Söylədiyiniz hədis, xüsusilə ziddiyyətli olduğu halda Rayt və əzəmətli Təyr hədisiylə birdirmi?! Cavab qətiyyətlə «xeyr!»dir. Əhli-sünnətin böyük alimlərinin (çox az inadkar bir qrupundan başqa) hamısının nəql edib, səhihliyinə təsdiqlədiyi səhih hədisləri bir kənara qoyub, o təktərəfli hədisi qəbul etmək bir fayda verməz. Nəql etdiyiniz hədis tədqiqatçı hədis alimləri tərəfindən rədd edilmişdir».

**Şeyx:** «Çox qəribədir, söylədiyimiz hər şeyi qəbul etməməyi və israrla onları rədd etməyi qərara almısınız».

## HƏQİQƏTİN BƏYANI

**Dəvətçi:** «Şahidlərin huzurunda sizin kimi bir alimin mənə belə bir şeyi söyləməsi, həqiqətən də, məni kədərləndirdi. Nə zaman elm, əql və məntiqlə uyğun olan bir dəlil gətirdiniz, mən isə inadkarlıq edib, onu qəbul etmədim? Əgər zərrə

[1] Daha çox məlumat toplaman üçün «Kifayətut-talib»in 32-ci babına baza bilərsiniz.

qədər inad və təəssübüm və ya əhli-sünnət qardaşlarıma qarşı hər hansı bir düşmənçiliyim varsa, Allahın yardım və rəhməti məndən uzaq olsun.

Allahı şahid tuturam ki, indiyə qədər yəhudilərlə, xristianlarla, şindularla, bərahimələrlə, İrandakı əxlaqsız bəhailərlə, Hindistandakı qədyanilərlə azğın maddəçi və tabiətçilərlə bir çox münazirələrdə oldum və heç birində inadkarlıq etmədim. Hər yerdə və hər zaman Allahı nəzərdə tutdum. Hədəfim daima haqq və həqiqəti elm, əql, məntiq və insaf qanunlarına əsaslanaraq aşkar etmək olmuşdur. Kafir, mürtəd və nəcis insanlarla bəhs etdiyim zaman belə inadkarlıq etmədim; qaldı ki, eyni ümmət və şəriətdən olan, qibləsi və hökmlərinə tabe olduğumuz Peyğəmbəri (s) bir olan müsəlman qardaşlarıma qarşı inadkarlıq edim. Ancaq sizdə sakin olan bir xəta var ki, ancaq onu məntiq və insaf yoluyla aradan aparmaq lazımdır. Əlhəmdulillah ki, alimsiniz. Əgər bir az ata-babalarınızdan qalan adət və təəssüblərdən uzaqlaşıb insaf dairəsinə daxil olsanız, sağlam bir nəticə əldə edə bilərik».

**Şeyx:** «Lahurda bərahimə və hindularla etdiyiniz bəhsləri qəzet və jurnallardan oxuduq. Bu bizi, həqiqətən, çox sevindirdi. Hətta sizi görmədən qəlbimizdə bir məhəbbət oyandı. İnşallah, Allah-təala sizə və bizə müvəffəqiyyət verər, haqq və həqiqət aşkar olar.

Əgər bir hədisin səhihliyində hər hansı bir şübhə olarsa, sizin də buyurduğunuz kimi, onu Quranla müqayisə etmək lazımdır. Əgər Əbu Bəkrin (r.z) fəzilət və Xuləfeyi-raşidinin (r.z) xilafətlərinə aid hədislərə şübhə edirsinizsə, qurandan qaynaqlanan dəlillərə də şübhə edib, onları zədələməyə çalışacaqsınız?».

**Dəvətçi:** «Bu işdən Allaha sığınıram. Allah belə bir günü göstərməsin. Burada əhəmiyyətli bir nöqtəni xatırladacağam. Nə zaman bir firqə, bir qövm, ya da bir mürtədlə münazirə edirdimsə, onların hamısı özlərinin haqlı olduqlarını isbat etmək üçün Qurandan dəlil gətirirdilər. Çünki Qurani-məcidin ayələrini müxtəlif şəkillərdə təfsir etmək mümkündür. Xatəmül-ənbiya (s) insanların Quranı şəxsi mənfəətlərinə uyğun şəkildə yozmalarının qarşısını almaq üçün Quranı təkbaşına əmanət qoymadı. Rəsulallahın buyurduğu, hər iki məzhəb alimlərinin qəbul etdiyi «***Mən sizin aranızda iki dəyərli əmanət qoyuram; Allahın Kitabı və itrətimi***

***(Əhli-beytimi). Bu ikisinə də bağlansaz qurtulacaqsınız»*** (Bəzi hədislərdə isə «Onlara sarıldığınız müddətdə, əsla, azmazsınız» şəklində qeyd olunur) hədisdən anlaşılır ki, O həzrətin əmanət qoyduğu təkcə Quran deyildi. Onunla birlikdə Əhli-beytini (ə) də ümmətə əmanət qoymuşdu. Bunun üçün Quran ayələrinin nüzul səbəblərini, batini həqiqət və mənasının həqiqi bəyanedicisi olan Rəsulallahdan (s), ondan sonra isə Quranla bərabər olan Əhli-beytdən (ə) soruşmaq lazım gəlir. Çünki «Ənbiya» surəsinin 7-ci ayəsində Allah-təala belə buyurur:

«***Bilmirsinizsə, zikr əhlindən soruşun***».

## ZİKR ƏHLİ ALİM-MƏHƏMMƏDDİR (Ə)

«Zikr əhli»ndən məqsəd, Quranın bərabəri olan Əli (ə) və onun imam olan 11 məsum övladıdır. Şeyx Süleyman Bəlxi Hənəfi «Yənabiul-məvəddə»nin 39-cu babının 119-cu səhifəsində (İstambul nəşri), o da imam Sələbinin «Kəşful-bəyan» təfsiri və Cabir ibn Əbdullah Ənsaridən nəql edərək belə deyir: «Əli ibn Əbu Talib Ənsaridən nəql edərək belə deyir: «Əli ibn Əbu Talib «***Zikr əhli bizik***» buyurmuşdur. «Zikr» Quranın adlarından biridir. Əhli-beyt (ə) isə Quran əhlidir. Sizin və bizim alimlərimiz mötəbər kitablarında həzrət Əlinin (ə) belə buyurduğunu nəql edirlər:

«***Məni itirməmişdən əvvəl soruşun. Allahın kitabını soruşun məndən. Çünki ən bir ayə nazil olduğu zaman gecə, yoxsa gündüz, düzənlikdə, yoxsa mənədə nazil olduğunu bilirəm. Allaha and olsun, nazir olan ayələrin hamısının nüzul səbəblərini, harada nazil olduqlarını və kimə nazil olduqlarını, şübhəsiz, bilirəm. Çünki Rəbbim mənə fəsih bir dil və alıcı bir qəlb bağışlamışdır***».

Quranın ayələri dəlil olaraq göstərildiyi zaman, həqiqi anlamı və həqiqi müfəssirlərin bəyanıyla uyğun olmalıdır. Yoxsa hər kəs öz nəzər və zövqünə, inanc və fikrinə görə Quranın ayələrini təfsir edərsə, bu vəziyyət ixtilaf və ayrılıqdan başqa heç bir nəticə verməz.

Bu müqəddimədən sonra nəzərdə tutduğunuz o ayəni oxuyun. Əgər həqiqətə uyğun olarsa, onu cani-qəlbdən qəbul edib, başımızın üstünə qoyarıq».

# DÖRD XƏLİFƏNİN XİLAFƏTİ İLƏ ƏLAQƏLİ AYƏNİN NƏQLİ VƏ ONUN CAVABI

**Şeyx:** «Fəth» surəsinin 29-cu ayəsində Quran belə buyurur:

«***Məhəmməd Allahın Rəsuludur. Onunla bərabər olanlar kafirlərə qarşı çox sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan razılıq və lütf diləyən görərsən. Onların əlaməti, üzlərində olan səcdə nişanəsidir***».

Bu ayəyi-kərim bir tərəfdən Əbu Bəkrin (r.z) şərəf və fəzilətini isbat edərkən, bir tərəfdən də Xulafeyi-raşidinin (r.z) xilafətini bildirir. Şiə camaatının iddiasının əksinə olaraq, bu ayə Əlinin (ə) ilk xəlifə deyil, dördüncü xəlifə olduğunu bildirir».

**Dəvətçi:** «Ayəyi-kərimin zahirindən nə Xulafeyi-raşidinin xilafəti çıxır, nə də Əbu Bəkrin fəziləti. Buna bir açıqlama verin. İddia etdiyiniz anlam ayənin harasından anlaşılır?».

**Şeyx:** «Ayənin Əbu Bəkrin (r.z) şərəf və fəzilətinə dəlil olan tərəfi «***onunla bərabər olanlar***» cümləsidir. Bu cümlə onun fəzilətini isbat edir. Çünki Əbu Bəkr Leylətul-Ğarda Peyğəmbərlə (s) birlikdə idi.

Xulafei-raşidinin xilafətlərinə gəldikdə; bu ayədə aydın görülməkdədir. «***Onunla bərabər olanlar***»dan məqsəd, yuxarıda da söylədiyim kimi Əbu Bəkrdir. O, Hicrətdə Sovru-Leylətil-Hicrət məğarasında Rəsulallahla (s) bərabər idi. «***Kafirlərə qarşı sərtdirlər***»dən məqsəd, Öərdir (r.z). Çünki o kafirlərə qarşı çox şiddətliydi. «***ÖZ aralarında mərhəmətlidirlər***»-dən məqsəd də Osmandır (r.z). Çünki o çox mərhəmətliydi. «***Onların əlaməti, üzlərində olan səcdə nişanəsidir***» cümləsindən əqsəd də Əli ibn Əbu Talibdir (ə).

Ümid edirəm, haqqın bizimlə olduğunu qəbul edib onu, pak fikrinzlə təsdiq edərsiniz. Görürsünüz ki, Əli birinci xəlifə deyil, dördüncü xəlifədir. Çünki Allah-təala onu Quranda dördüncü mərtəbədə zikr etmişdir».

**Dəvətçi:** «Doğrusu, söhbətimizin yanlış və qərəzli olmaması üçün necə cavab verəcəyimi bilmirəm. Amma əgər insafla, təəssübsüz məsələyə baxalı olsanız, işin içində pis niyyət deyil, həqiqəti ortaya çıxarmağın olduğunu görəcəksiniz.

İndiyə qədər heç kim məzkur ayəni bu şəkildə təfsir etməmişdir. Hətta ən mötəbər təfsir kitablarınızda belə ayə belə təfsir edilməmişdir. Əgər bu ayə xəlifələr haqqında oslaydı, Əbu Bəkr Rəsuli-əkrəmin (s) vəfatından sonra həzrət Əli (ə), bəni-Haşim və ona qarşı çıxıb beyət etməyən digər böyük səhabələrin etirazlarına qarşı bu ayəni dəlil olaraq gətirib, hər kəsi susdura bilərdi. Deməк ki, buyurduğunuz sonradan çıxarılan və sahibinin də belə bir təfsirə razı olmadığı bir mənadır.

Təbəri, imam Sələbi, Fazil Nişapuri, cəlaluddin Siyuti, Qazı Zəməxşəri və imam Fəxri Razi kii digər böyük müfəssirlərinizin heç bir ayəni bu şəkildə təfsir etməmişlər. Nə zamandan bəri və kimlər tərəfindən bu şəkildə məna edildiyini bilmirəm. Üstəlik, ayədə iddianızın əksinə olaraq elmi, ədəbi və əməli maneələr vardır. Kim ayəni belə təfsir etmişsə, hədər yerə çalışmışdır. Belə təfsir edən kimsə, əhli-sünnətin böyük alimlərinin yazdığı təfsirlərin başında Rəsulallahdan (s) nəql etdikləri bu hədisə diqqət etməmişdir:

«***Kim Quranı öz rəyinə görə təfsir edərsə. Onun yeri cəhənnəmdir***».

Bunun təfsir deyil təvil olduğunu söyləsək, o zaman bilin ki, sizlər təvili qətiyyən qəbul etmirsiniz. Əlavə olaraq bu şərif ayə elm, ədəb və ibarət baxımından məqsədinizə əks nəticə verir».

**Şeyx:** «bu qədər aydın bir ayəni inkar edəcəyiniz güman etmirdim. Əgər, həqiqətən, bu ayənin qarşısında dəliliniz varsa, həqiqətin ortaya çıxması üçün buyurun».

**Nəvvab:** «Qibləsahib! Rica edirik, indiyə qədər söylədiyiniz kimi, hər kəsin anlaması üçün indi də sadə bir şəkildə danışın. Çünki bizə bu ayəni çox oxudular və hamımızı Quranın hökmünə cəzb edərək məhkum etdilər».

**Dəvətçi:** «Əvvəla ayənin əzəməti və sözbazların sözləri ağaları o qədər cəzb edib ki, onun batin və zəmirlərindən (işarə əvəzliklərindən) qafil olublar. Əgər ayənin ədəbi mənasına və nəhv tərkibinə bir az diqqət etsək, iddanızla, əsla, uyğun olmadığını özünüz görəcəksiniz».

**Şeyx:** «Belə isə bir zəhmət çəkib bu ayənin nəhv tərkibini və zəmirlərini bəyan edin, onların iddiamızla necə uyğunlaşmadığını görək».

**Dəvətçi:** «Əvvəlcə ayənin tərkibi tərəfinə baxaq. Bildiyiniz kimi, ayənin tərkibi iki yoldan xaric deyildir: Ya deyəcəyik ki, «Məhəmməd» mübtəda, «Rəsulallah (s)» ətfi-bəyan və «Vəlləzinə məəhu» «Məhəmməd» kəlməsinə ətf edilmiş, «Əşiddau» kəlməsi xəbər və ondan sonra gələnlər də xəbərdən sonra xəbərdirlər. Ya da «Vəlləzinə məəhu» mübtəda, «Əşiddau» xəbər, ondan sonra gələnlər də xəbərdən sonra xəbərdir.

Bu qaydanı əqidə və sözünüzə görə dəyərləndirsək, iki məna ortaya çıxar. Əgər «Məhəmməd» mübtəda, «Vəlləzinə məəhu» da mübdədaya ətf edilsə və ondan sonra gələnlər xəbərdən sonra xəbər olsalar, ayənin mənası belə olur: «Məhəməd (s), Əbu Bəkr, Ömər, Osman və həzrət Əlidir (ə)». Əgər «Vəlləzinə məəhu» mübtəda, «Əşiddau» kəlməsi xəbər və ondan sonra gələnlər də xəbərdən sonra xəbər olarsa, o zaman ayənin mənası belə olur: «Əbu Bəkr, Ömər, Osan və Əlidir (ə)». Kəlamın bu cür ola bilməsinin ağla uyğun və ədəbi olmadığını ibtidai tələblər də bilirlər. Əgər bu ayəyi-kərimdən məqsəd dörd xəlifə olsaydı, o zaman iddianıza uyğun olması üçün kəlmələr arasında ətif vavın olması lazım gəlirdi. Müfəssirlərinizin hamısı bu ayənin bütün möminlərə şamil olduğunu söyləyirlər. Ayənin zahirinə də baxsaq, bu sifətlərin hamısı hər zaman Rəsulallahla (s) birlikdə olan dörd nəfərə deyil, bir nəfərə aid olduğu görüləcəkdir. Əgər o bir nəfərin də Əmirəl-möminin həzrət Əli (ə) olduğunu söyləsək, əqlə və nəqlə daha uyğun olar».

## «MAĞARA AYƏSİ»NİN DƏLİL GƏTİRİLMƏSİ VƏ ONUN CAVABI

**Şeyx:** «Cidal edirsən» deməniz çox təəccüblüdür. Amma siz, doğurdan da, cidal edirsiniz. Məgər Allah-təala Qurani-kərimin «Tövbə» surəsinin 40-cı ayəsində belə buyurmurmu?:

***«Əgər siz ona (həzrət Məhəmmədə) kömək etməsəniz, bilin ki, Allah onsuz da yardım etmişdir. Onda ki, kafirlər onu iki nəfərdən biri olaraq [yurdundan] çıxartdılar. Onda ki, hər ikisi mağarada idilər və onda ki, yoldaşına «Qəm yemə!***

***Allah, həqiqətən, bizimlədir» deyirdi. Onda Allah ona (Peyğəmbərə) sükunəti nazil etdi. Onu sizin görə bilmədiyiniz ordu ilə gücləndirdi...».***

Bu ayə əvvəlki ayəni təyid etməsi tərəfdən, «Vəlləzinə məəhu» (onunla bərabər olanlar) cümləsindən də, hicrət gecəsi mağarada Rəsulallahla (s) bərabər olan Əbu Bəkrin ümmətin hamısından daha fəzilətli və şərəfli olduğuna ən böyük dəlildir. Bundan başqa, Rəsulallah (s) batini elmlə Əbu Bəkrin O həzrətin xəlifəsi olacağını və özündən sonra da bir xəlifənin varlığının olmasını zəruri bildiyindən, onu da özü ilə birlikdə aparmışdı. Çünki onun qorunması lazım gəlirdi. Əgər şəhərdə qalsaydı düşmənlərin əlinə keçə bilərdi. Ondan başqa heç kimi özü ilə aparmadı. Bu səbəbdən deyirik ki, xəlifə olmaq ilk olaraq onun haqqı idi».

Dəvətçi: «Əhli-sünnət libasını çıxarıb bir kənara qoymadıqca, açıq gözlə tərəfsiz və təəssübsüz bir insan kimi ayəyə baxmadıqca, ayənin iddianıza hər hansı bir dəlil təşkil etmədiyini görə bilməzsiniz».

**Şeyx:** «Əgər iddiamızın əksinə başqa məntiqli dəlilləriniz varsa, bəyan edin».

**Dəvətçi:** «Rica edirəm, bu mövzunu qurtaraq artıq. Çünki söz sözü çəkir. Belə olunca da bəzi insafsızlar inad etdiyimizi güman edə bilər, işin sonu da kin və nifrətə çevrilər, xəlifələrin məqamına qarşı xəyanət etdiyimiz də düşünülə bilər. Amma hər kəsin məqamı qorunmuşdur. Boş yerə təvil və təfsir etməyin bir mənası yoxdur».

**Şeyx:** «Xahiş olunur işin altından qaçmayasınız. Əmin olun ki, məntiqli dəlillər kin və nifrət doğrutmur, bəlkə həqiqətləri ortaya çıxarır».

Dəvətçi: «İşin altından qaçma» dediyiniz üçün cavab vermək məcburiyyətindəyəm. Qaçmağa bir şey yoxdur. Sadəcə ədəbə riayət etməyə çalışdım. İndi sözlərimi insaf və diqqətlə dinləyin. Bunun cavabını mühəqqiq alimlər müxtəlif yollarla demişlər. Əvvəlcə bildirim ki, «Rəsuli-əkrəmin (s) Əbu Bəkrin özündən sonra xəlifə olacağını bildiyindən onun canını qorunması O həzrətə (s) vacib olmuşdu» iddianız əsası olmayan bir şeydir. Bütün cavabı çox asandır.

Birincisi budur ki, Peyğəmbəri-əkrəmin xəlifəsi yalnız Əbu Bəkr olsaydı belə bir ehtimal ola bilərdi. Amma Xulafeyi-raşidin xəlifələrinin dörd nəfər olduğunu

özünüz söyləyirsiniz. Gətirdiyiniz dəlilə görə Rəsulallahın (s) həmin vaxt Məkkədə hazır olan dörd xəlifənin dördünü də yanında aparması lazım gəlirdi. Yoxsa birinin canını qurtarıb digərlərini təhlükədə qoyması, hətta onlardan birini düşmənin hücumuna məruz qalacağını bildiyi halda yatağında yatırtması sizin bu dəlillə heç bir şəkildə uyğunlaşmır. Çünki həmin vaxt Peyğəmbərin (s) yatağı çox xətərli idi.

İkincisi budur ki, Təbəri «Tarix» kitabının III cildində yazdığına görə, Əbu Bəkrin Rəsulallahın (s) nə zaman hicrət edəcəyindən xəbəri belə yox idi. O, imam Əlinin (ə) yanına gedərək, həzrət Peyğəmbərin (s) vəziyyətinin nə yerdə olduğunu soruşdu. O da onun mağaraya getdiyini, işi varsa ona yetişə biləcəyini söylədi. Əbu Bəkr də yola düşdü və yarı yolda Rəsulallaha (s) yetişdi. Beləliklə, məcbur halda bərabər yola davam etdilər. Bundan da anlaşılır ki, Peyğəmbəri-əkrəm (s) onu özü ilə birlikdə aparmaq istəməmişdi. Əksinə o iznsiz olaraq Rəsulallahın (s) ardıyca gedib, yarı yoldan sonra onunla bərabər yola davam etmişdi.

Hətta bəzi xəbərlərə görə həzrət Peyğəmbərin (s) Əbu Bəkri yanında aparmasının səbəbini təsadüfi, fitnə çıxmaması və düşmənə xəbər verə biləcəyindən ehtiyat etdiyinə görə olduğu anlaşılır. Bu səbəbdən insaflı alimləriniz bunu etiraf etmişlər. Məsələn, qabaqcıl alimlərinizdən olan Şeyx Əbulqasim ibn Sabbağ Rəsulallahın (s) həyatı haqqında olan «Ən-nuru vəl-bürhan» adlı kitabında Məhəmməd ibn Əshəqdən, o da Həssən ibn Sabit Ənsaridən belə rəvayət etmişdir: «Həzrət Peyğəmbərin (s) hicrətindən əvvəl ümrə ziyarəti üçün Məkkəyə getdim. Qüreyş müşriklərinin Rəsulallahın (s) əshabını söydüklərini gördüm. O vaxt Rəsulallah (s) Əliyə öz yatağında yatmasını əmr etdi. Əbu Quhafənin oğlu Əbu Bəkrin düşmənlərə xəbər verə biləcəyindən ehtiyat etdiyinə görə, onu özü ilə birlikdə götürüb, mağaraya doğru hərəkət etdi».

Üçüncüsü, ayədəki isdişhad (şahid misal) yerini və fəzilət səbəbini bəyan etsəydiniz, çox yaxşı olardı. Rəsulallahla (s) birlikdə səfər etmək xilafətin isbatı üçün necə dəlil ola bilər?!».

**Şeyx:** «İstişhad yeri məlumdur. Birincisi, Rəsulallah (s) ilə birlikdə olması və Allahın ona Rəsulallahın (s) yoldaşı deməsi. İkincisi, Allah-təala Rəsulallahın dilindən belə buyurur:

«***Allah bizimlə bərabərdir***»[1]

Üçüncüsü də, Allah tərəfindən Əbu Bəkrə səkinə (mənəvi bir güc) enməsi, onun fəzilətinə böyük bir dəlildir. Bunların hamısı onun üstünlüyü və xəlifəlikdə qabaqcıllıq haqqına sahib olduğunu göstərir».

**Dəvətçi**: «Kimsə Əbu Bəkrin dərəcələrini inkar etmir. Çünki o yaşlı bir müsəlman, əshabın böyüklərindən və Rəsulallahın (s) zövcəsinin atası idi. Amma bir az əvvəl saydığınız dəlillər Əbu Bəkrə məxsus bir fəzilətin və xəlifəlikdə qabaqcıllıq haqqına sahib olduğunun isbatı üçün kifayət deyildir.

Əgər qərəzsiz bir əcnəbinin qarşısına, ona məxsus bir fəzilət isbat etmək üçün bu ayə haqqında verdiyiniz bəyanlarla çıxsanız, ciddi bir etirazla qarşılaşarsız. Çünki cavabınızın əvəzində deyərlər ki, yaxşılarla yol yoldaşı olmaq təkbaşına fəzilətli və üstün olmaq üçün yetərli deyildir. Bir çox səfərlərdə yaxşılar pislərlə və kafirlər də müsəlmanlarla yol yoldaşı olurlar. Bu səbəbdən səfərdə bu cür hallar daha çox gözə çarpır.

## ŞAHİD VƏ NÜMUNƏLƏR

«Yusif» surəsinin 39-cu ayəsindən də göründüyü kimi, həzrət Yusif (ə) zindanda olduğu müddətdə iki yoldaşı var idi:

«***Ey mənim iki zindan yoldaşım! Ayrı-ayrı Tanrılar yaxşıdır, yoxsa hər şeyə qadir və qalib olan bir Allah?!***».

Müfəssirlər bu ayə haqqında belə deyirlər: Yusifi zindana gətirdikdə, şahın aşbazı və xidmətçisi olan iki kafiri də onunla birlikdə zindana saldılar. Bu üç nəfər beş il müddətində bir yerdə qaldılar. Ayədən göründüyü kimi həzrət Yusif (ə) onlara «yoldaşlarım»-deyə xitab edir. Məgər Peyğəmbərin o iki kafirə yoldaş deməsi onların fəzilət və şərəflərini isbatlayır. Yoxsa onlar iman gətirmişdilər? Halbuki müfəssir və tarixçilərin hamısı onların beş il yoldaşlıq etdikdən sonra kafir olaraq həzrət Yusifin (ə) yanından ayrıldıqlarını söyləyirlər.

Kəhf surəsinin 37-ci ayəsində də Allah-təala belə buyurur:

---

[1] «Təvbə» surəsi, ayə: 40

«***Onunla danışan yoldaşı ona dedi: «Səni əvvəlcə torpaqdan, sonra bir damla nütfədən yaradan və daha sonra adam şəklinə salan Allahı inkarmı edirsən?!***».

Böyük alimlərinizdən olan Fəxri Razinin də «Təfsiri-Kəbir» kitabında nəql etdiyi kimi, müfəssirdər ümumi bu ayə haqqında belə deyirlər: Biri mömin, digəri də kafir olan iki qardaş var idi. Mömінin adı Yəhuda, kafirin isə Bəratus idi. Aralarında olan söhbət uzun olduğu üçün nəql etmirəm. Ancaq görürsünüz ki, Allah-təala biri mömin, digəri də kafir olmasına baxmayaraq, onları «qardaş» adlandıraraq xüsusiyyətləndirir. Görəsən, mömінin kafirlə qardaş olması, kafirə hər hansı bir fayda verdimi? Cavab mümkünsüzdür. Demək ki, biri ilə yoldaş olmaq təkbaşına fəzilət və üstünlük üçün yetərli deyildir. Bu mövzu üçün bir çox dəlil var, amma vaxtımız bundan çoxunu deməyə imkan vermir.

Rəsulallahın (s) Əbu Bəkrə «***Allah bərabərdir***» - deyə buyurması Allahın onunla bərabər olduğu və bunun da onun üstünlüyü və xilafətinin isbatı üçün dəlil təşkil etdiyi iddianıza gəlincə, inancınızı yenidən gözdən keçirin. Çünki belə dediyinizdə sizə etiraz edərək belə deyərlər: «Allah yalnız mömin və övliyalarla bərabərdir? Mömin olmayan biri ilə bərabər deyilmi?». Görəsən, bir yer var ki, Allah orada olmasın? Bir kəs varmı ki, Allah onunla bərabər olmasın? Bir məclisdə həm mömin, həm də kafir olarsa, Allahın yalnız mömінlə bərabər olduğunu, amma kafirlə olmadığını ağıl qəbul edərmi? Bu səbəbdən Allah-təala Quranın «Mücadələ» surəsinin 7-ci ayəsində belə buyurur:

«***Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini bilmirsən? Aralarında pıçıldaşan (gizlin söhbət edən) üç kimsə yoxdur ki, Allah dördüncüləri olmasın. Beş kimsə yoxdur ki, altıncısı O olmasın. Bundan istər az, istər çox olsunlar. Harada olsalar-olsunlar, [Allah] onlarladır. Sonra Qiyamət günü onlara etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi dəqiq biləndir***».

Bu və buna bənzər ayələrə, əqli və nəqli dəlillərə görə istər mömin olsun, istər kafir, istər dost olsun istər düşmən, istərsə də münafiq olsun Allah hər kəslə bərabərdir. İki nəfər bir arada olsa və biri digərinə «***Allah bizimlə bərabərdir***» deyərsə, bu qarşı tərəfin fəzilətli olduğunu isbat etməz.

Bu səbəbdən əgər iki yaxşı adam, ya da iki pis adam, ya da biri yaxşı digəri pis olan iki nəfər bir yerdə olsalar, yenə də Allah onlarla bərabərdir».

**Şeyx**: ***«Allah bizimlədir»*** sözündən məqsəd budur ki, biz Allahın sevimli qullarıyıq. Çünki Allaha yönəldik, Allah üçün və Allahın dinini qorumaqdan ötürü hərəkət etdik. Bu səbəbdən Allahın lütfü bizi əhatə edir».

## HƏQİQƏTİN GÖZLƏR ÖNÜNDƏ AÇILMASI

**Dəvətçi**: «Bunun mənası dediyiniz şəkildə olsa belə, yenə etiraz edərək deyəcəklər ki, belə bir şey heç bir kəsin əbədi səadətinə dəlil olmaz. Çünki, Allah qulların əməllərinə baxar. Bir zaman əməlləri yaxşı olar, Allahın rəhmət və lütfü onlara şamil olar. Sonra pis əməlləri nəticə və imtahan qarşısında cavab verə bilmədikləri üçün Allah onlara qəzəb edib, onları rəhmətindən məhrum edər və onlar da məlun olarlar.

İblis illər boyu Allaha xalis niyyətlə ibadət etdi. Amma Allahın əmrinə üsyan etdiyi, həvayi-həvəsinə tabe olduğu an Allahın rəhmətindən məhrum edilərək Qiyamətə qədər lənətlənmiş oldu. Allah-təala ona belə buyurdu:

«***Oradan [Cənnətdən] çıx! Sən [dərgahımdan] qovulmusan. Sən Qiyamət gününə kimi lənətlənmisən***»[1].

Bilirsiniz, misal dedikdə irad tutulmaz. Bunları mövzunun yaxşı bir şəkildə anlaşıla bilməsi üçün söyləyirəm. İnsanlar da eynidir; onların da arasında eləlēri vardır ki, əvvəldə Allahın dostları olur, lakin imtahan vaxtı yetişdikdə, Allahın düşməni halına gəlirlər. Burada misal olaraq iki nəfərə toxunacağam. Qurani-məcid insanların ibrət alması və ümmətdən olan qafillərinin oyanması üçün onlara işarə etmişdir.

---

[1] «Hicr» surəsi, ayə: 34-35.

## BƏLƏM İBN BAURA

Onlardan biri Bələm ibn Bauradır. Bələm həzrət Musanın (ə) zamanında Allaha o qədər çox yaxın idi ki, Allah ona ismi-əzəmin vermişdi. Bir dəfə dua etməklə həzrət Musanı (ə) «Tih» vadisində çaşqın hala gətirmişdi. Amma imtahan vaxtı gəldikdə, məqam sevgisi onu Allahla üsyana və şeytana itaət etməyə vadar etmişdi. Beləcə Cəhənnəmi də satın almışdır. Müfəssir və tarixçilərin hamısı onun vəziyyətini yazmışdır. İmam Fəxri Razi «Təfsir» kitabının IV cildinin 463-cü səhifəsində İbn Abbas, İbn Məsud və Mücahiddən nəqlən onun hekayəsini nəql edir. Allah-təala «Əraf» surəsinin 175-ci ayəsində belə buyurur:

«***Onlara ayələrimizi verdiyimiz kimsənin xəbərini də oxu! Bu şəxs nəhayət özünü ayələrdən ayırdı. Şeytan onu özünə tabe etdi və beləcə o, azğınlardan oldu***».

## ABİD BƏRSİSA

Başqa biri isə Abid Bərsisadır. Bu da əvvəldə Allaha elə yaxın idi ki, duaları qəbul olurdu. Amma imtahan edildikdə sonu xeyirli olmadı. Şeytanın hiyləsinə aldanaraq, bir qızla zina etdi. Bu səbəbdən bütün zəhmətləri boşa çıxdı. Sonra dar ağacından asılaraq kafir kimi dünyadan getdi. Allah-təala Qurani-kərimdə buyurur:

«***Şeytanın [insanın] aldatmasına bənzəyir. O, insana «Kafir ol!» deyir. Kafir olduqda isə ona deyər: «Mən səndən uzağam, mən aləmlərin rəbbi olan Allahdan qorxuram». Beləliklə, hər ikisinin aqibəti od içində əbədi qalmaq* oldu. *Zülmkarların cəzası isə budur!***»[1]

Demək ki, bir insandan bir zaman yaxşı bir əməl görülürsə, bu onun aqibətinin xeyirli olacağını isbatlamaz. Onun üçün belə dua etməyimiz buyurulmuşdur: «**Allahım, işlərimin sonunu xeyirli et**».

Bildiyiniz kimi, Məani-bəyan elmində belə bir şey vardır: Bir cümlədə bir şey məxsus vurğulanarsa, səbəbi qarşıda duranın şəkk və şübhədə olduğu üçündür.

[1] «Həşr» surəsi, ayə: 16-17.

Ayeyi-kərimin ismi cümlə və innə hərfi ilə başlaması, qarşı tərəfin əqidəsinin azğınlığını, təzəlzül (şəkk) və təvəhhümə (xülyayə) qapıldığını, şəkk və şübhədə olduğunu göstərir».

**Şeyx**: «Bir az insaflı olun. Sizin kimi bir şəxsin bu mövzuda İblis, Bələmi, Baura və Bərsisanı misal gətirməsi doğru deyil».

**Dəvətçi**: «Qüsur tutmayın, bir az əvvəl misalda, inadkarlıq göstərib münaqişə edilməz dediyimi eşitmədinizmi?! Elmi və məzhəbi münazirələrdə təşbih və misallar mövzunun yaxşı anlaşıla bilməsi üçün gətirilir. Allah şahiddir ki, misal və şahid gətirərkən heç bir zaman xəyanət qəsdim yoxdur. Sadəcə öz nəzər və əqidəmi isbat etmək üçün yadımda olanları söylədim».

**Şeyx**: «Ayənin özündə Əbu Bəkrin fəzilətini isbat edən əlamət vardır. Ayədə belə buyurulur:

«***Allah, sükunətini ona endirdi***».

«Ona» kəlməsindən məqsəd Əbu Bəkrdir. Bu da aşkar şəkildə Əbu Bəkrin başqalarından daha fəzilətli və üstün olduğunu ortaya qoyur və sizin kimilərin də yanlış düşüncəsini ortadan qaldırır».

**Dəvətçi**: «Yanılırsınız, «Ona» kəlməsi Rəsulallaha (s) aiddir. Səkinə (sükunət) Əbu Bəkrə deyil, Rəsulallaha (s) enmişdir. Çünki cümlənin arxasında belə buyurur:

«***Özünü, sizin görmədiyiniz ordularla dəstəklədi***».

Haqqın ordusuyla dəstəklənmək Əbu Bəkrin deyil, Rəsulallahın (s) haqqıdır».

**Şeyx**: «Rəsulallahın (s) bu ordularla dəstəklənməsi qəti və bəlli bir şeydir. Amma Əbu Bəkr (r.z) Rəsulallahla (s) bərabər olduğu üçün o da imkansız deyildir».

## SÜKUNƏTİN ENMƏSİ RƏSULALLAH (S) ÜÇÜNDÜR

**Dəvətçi**: «Əgər ikisi də İlahi rəhmətə nail olsaydılar, o zaman ayənin bütün cümlələrindəki zəmirlərin (işarələr) təsniyə (ikilik, çüt) kəlməsi lazım gəlirdi. Halbuki, əvvəlki və sonrakı bütün zəmirlər (işarələr) müfrəd (tək) gətirilmişdir; ta

ki, Rəsulallahın (s) yüksək məqamı və Allahdan gələn rəhmət və inayətlərin Onun şəxsiyyətinə aid olduğu isbat və bəlli olsun. Əgər Rəsulallahın (s) bələdçisi olaraq bir başqalarına da rəhmət və sükunət enmiş olsaydı, onun adı zikr edilərdi. Bu və buna bənzər ayələr sükunət və rəhmətin yalnız Rəsulallaha (s) aid olduğunu ortaya çıxarır».

**Şeyx**: «Rəsulallahın (s) sükunət və rəhmətə ehtiyacı yoxdur. Çünki sükunət Onda hər zaman mövcuddur. Buna görə sükunət yalnız Əbu Bəkrə enmişdir».

**Dəvətçi**: «Nə üçün eyni şeyləri təkrar edərək, məclisin vaxtını alırsınız. Hansı dəlilə görə Xatəmül-ənbiyanın sükunətə ehtiyacı olmadığını söyləyirsiniz? İstər Peyğəmbər (s) olsun istər olmasın, hər kəsin Allahın rəhmətinə ehtiyacı vardır. Hüneyn döyüşündə «Tövbə» surəsinin 26-cı ayəsində Allah-təalanın belə buyurduğunu unutdunuzmu?!:

«***Sonra Allah öz peyğəmbərinə və möminlərə öz arxayınçılıq amilini (sükunəti) nazil etdi...***»

«Fəth» surəsinin 26-cı ayəsində də sükunətin Rəsulallaha (s) və möminlərə endiyi vurğulanmışdır. Bu ayələrdə Rəsuli-əkrəmdən (s) sonra möminlərə də toxunulmuşdur. Əgər Ğar (mağara) ayəsində, Əbu Bəkr möminlərdən sayılmış olsaydı, sukunətə aid olaraq zəmirlərin (işarələrin) təsniyə (ikilik) olaraq zikr edilməsi, ya da onun isminin ayrıca hallanması lazım gəlirdi. Bu məsələ o qədər aydındır ki, insaflı alimləriniz də ayədəki zəmirin (işarə əvəliyinin) Əbu Bəkrə aid olmadığını söyləmişlər.

Siz ağaların Şeyx Əbu Cəfər Məhəmməd ibn Əbdullah İskafinin (Mötəzilənin böyük alimlərindəndir) «Nəqzul-Osmaniyyə» kitabını oxuması çox yaxşı olar. Bu insaflı alimin Latamlat Əbu Osman Cahizin tutarsız sözlərinin cavabında haqqı necə aşkar etdiyinə baxın. İbn Əbil-hədid də «Şərhi-Nəhcül-bəlağə» kitabının III cildinin 253-281-ci səhifələrində onun verdiyi cavablardan bəzilərini nəql edir.

Bütün bunlara əlavə olaraq, ayədə bir cümlə var ki, söylədiyinizin tam əksini isbat edir. O cümlə belədir: Rəsulallah (s) Əbu Bəkrə «qəmgin olma» deyərək, onun hüznlənib qəmlənməsinə mane olur. Bu cümlə Əbu Bəkrin o anda hüzünlü olduğunu göstərir. Görəsən, Əbu Bəkrin hüzünlü olması yaxşı bir əməl idi, yoxsa

pis? Əgər yaxşı bir əməl idisə, sizin də bildiyiniz kimi Rəsulallah (s) heç bir zaman bir kəsin yaxşı bir əməlinə mane olmazdı. Amma əgər pis bir əməl idisə, belə ki, bu əməlin sahibi fəzilətli insan deyildir. Fəzilətli olmayan da Allahın rəhmətinə şamil ola bilməyəcəyi kimi, ona sükunət də nazil olmaz. Şərəf və fəzilət yalnız övliyalara, möminlərə və Allahın dostlarına aiddir. Övliyaların bir qrup əlamətləri vardır. Onlar o əlamətlərlə tanınırlar. Qurani-kərimdə buyrulduğu kimi, övliyalar heç bir hadisə qarşısında aciz olub qorxmaz və hüznə qapılmazlar. Əksinə, səbir edərlər. «Yunis» surəsinin 62-ci ayəsində Allah-təala belə buyurur:

«***Bilin ki, Allahın dostları üçün heç bir qorxu yoxdur və onlar kədərlənməzlər***».

Söz bura yetişdikdə, ağalar saatlarına baxıb, «gecə yarısı keçib» dedilər. Nəvvab ağa dedi: «Qibləsahibin sözü, zikr edilən ayə haqqında hələ bitməmişdir, söylənəsi çox söz vardır. İcazə verin, bir nəticəyə yetişək» dedi. Ağalar da «Ehtiyac yoxdur, çox zəhmət verməyək, ardı sabah axşama qalsın»-deyə cavab verdilər. O gecə Rəsulallahın (s) besətinin il dönümü və böyük bayramlardan biri olduğu üçün məclisə müxtəlif şirniyyatlar, şərbətlər gətirdilər və məclis gözəl bir şəkildə sona çatdı.

# MÜNDƏRİCAT

*ÖN SÖZ*......3
*SƏFƏRİN BAŞLANĞICI*......14
*BİRİNCİ GECƏ*......17
*NƏSLİN TƏYİNİ*......18
*HARUN VƏ MUSA (Ə) İBN CƏFƏRİN (Ə) RƏSULALLAHIN (S) ZÜRRİYƏTİ MÖVZUSUNDA OLAN MÜBAHİSƏSİ*......21
HƏZRƏT FATİMƏNİN (Ə.S) *ÖVLADLARININ PEYĞƏMBƏRİN (S) ÖVLADLARI OLMASINA TUTARLI DƏLİLLƏR*......*23*
*HƏZRƏT PEYĞƏMBƏR ZÖHRLƏ ƏSR VƏ MƏĞRİBLƏ İŞA NAMAZLARINI HƏM CƏM, HƏM DƏ AYRI-AYRILIQDA QILIRDI*......26
*SEYİD ƏMİR MƏHƏMMƏD ABİD*......33
*HAŞİMİ SEYİDLƏRİNİN MƏDİNƏDƏN HƏRƏKƏTİ VƏ QƏTLƏĞ XANLA DÖYÜŞÜ*......33
*SEYİD ƏMİR ƏHMƏD (ŞAHÇIRAQ)*......35
*SEYİD ƏMİR ƏHMƏDİN DÖYÜŞÜ VƏ ŞƏHADƏTİ*......36
*ŞAHÇIRAĞIN CƏSƏDİNİN TAPILMASI*......37
*SEYİD ƏLAUİDDİN HÜSEYN*......37
*İRAHİM MÜCAM*......38
*BƏNİ-ÜMƏYYƏNİN ÇİRKİN ƏMƏLLƏRİ*......39
*ZEYD İBN ƏLİNİN (Ə) ŞƏHADƏT VAQİƏSİ*......40
*CƏNAB YƏHYANIN ŞƏHADƏT1*......42
*HƏZRƏT ƏLİNİN (Ə) QƏBRİNİN AŞKAR EDİLMƏSİ*......43
HƏZRƏT *ƏLİNİN (Ə) MƏZARI HAQQINDAKI İXTİLAF*......44
*İBRAHİM MÜCABIN ÖVLADLARI*......45
*ŞİRAZ SEYİDLƏRİ TEHRANDA*......47
*İKİNCİ GECƏ*......51
*ŞİƏ MƏZHƏBİNİN ARAŞDIRILMASI*......52
*MÜXALİFLƏRİN ARAŞDIRMALARINA CAVAB*......54
*ŞİƏNİN MƏNASI VƏ TƏŞƏYYÜNÜN HƏQİQƏTİ XÜSUSUNDA*......55
*ŞİƏLİK MƏQAMININ İZAHI HAQQINDA AYƏ VƏ RƏVAYƏTLƏR*......58
*SALMAN, ƏBUZƏR, MİQDAD VƏ ƏMMARIN MƏQAMI*......62
*İRANLILARIN DİYALEME QAZAN XAN VƏ XUDABƏND ŞAHIN ZAMANINDA ŞİƏ OAMALARCNIN SƏBƏBİ*......63

*MONQOLLARIN DÖVRÜNDƏ ŞİƏNİN ZÜHURU*.....................................................................67
*ƏLLAMƏ HİLLİNİN QAZİ ƏL-QƏZATLA MÜNAZİRƏSİ*..........................................................68
*İSLAM HƏR CÜR İRQÇİLİYİ QADAĞAN ETDİ*......................................................................70
*BÜTÜN POZĞUNÇULUQ VƏ SAVAŞLAR İRQÇİLİK SƏBƏBİNDƏNDİR*...............................72
*ĞULATIN ƏQAİDİ, ONLARIN QINANILMASI VƏ ƏBDULLAH İBN SƏBANIN LƏNƏTLƏNMƏSİ*..........................................................................................................73
*MƏHƏMMƏD (S) ƏHLİ-BEYTİNƏ (Ə) SALAVAT DEMƏK BARƏSİNDƏ İRAD VƏ ONUN CAVABI*..........................................................................................................................79
*«YASİN» KƏLMƏSİNİN MƏNASI,* «SİN» *ƏDATININ PEYĞƏMBƏRİN (S) MÜBARƏK ADI OLMASI XÜSUSUNDA*..........................................................................................................80
*«ALİ-YASİNDƏN MƏQSƏD, MƏHƏMMƏDİN (S) ƏHLİ-BEYTİDİR (Ə)*.................................81
*MƏHƏMMƏD (S) AİLƏSİNƏ SALAVAT DEMƏK SÜNNƏT, TƏŞƏHHÜDDƏ İSƏ VACİBDİR*..........................................................................................................................83
*ÜÇÜNCÜ GECƏ*.......................................................................................................85
*ZEYDİYYƏ FİRQƏSİNİN İNANCI*....................................................................................87
*KEYSANİYYƏ FİRQƏSİNİN İNANC1*.................................................................................88
*QƏDDAHİYYƏ İNANCI*................................................................................................89
*ĞULAT FİRQƏSİNİN İNANCI*........................................................................................90
*ON İKİ İMAM ŞİƏSİNİN İNANCI*....................................................................................91
*«MƏRİFƏT»HƏDİSİNİN TƏNQİDİ*...................................................................................94
*TƏNQİDİN CAVABI*....................................................................................................94
*«SƏHİHİ-BUXARİ» VƏ «SƏHİHİ-MÜSLİM»DƏN XURAFAT HƏDİSLƏR*..............................96
*ALLAH-TƏALANI GÖRMƏK XÜSUSUNDA ƏHLİ-SÜNNƏTDƏN HƏDİSLƏR*.......................97
*ALLAH-TƏALANIN GÖRÜNMƏSİNİN MÜMKÜN OLMADIĞINA DAİR DƏLİL VƏ HƏDİSLƏR*.........................................................................................................................99
*«SƏHİHİ-BUXARİ» VƏ «SƏHİHİ-MÜSLİM»DƏN XURAFATLARA BİR BAXIŞ*....................101
*HƏZRƏT MUSANIN (Ə) ÖLÜM MƏLƏYİNİN (ƏZRAYIL) ÜZÜNƏ SİLLƏ VURMASI*.......................................................................................................................103
*İNSAF, BƏSİRƏT VƏ XOŞBƏXTLİYƏ* SƏBƏB *OLUR*..........................................................104
*ŞİƏNİ ŞİRKDƏ GÜNAHLANDIRMAQ*..............................................................................106
*ŞİRKİN NÖVLƏRİ*......................................................................................................108
*AŞKAR ŞİRK*...........................................................................................................108
*XRİSTİANLARIN ƏQİDƏSİ*..........................................................................................109
*NƏZİR NİYYƏTİ*.......................................................................................................112
*GİZLİ ŞİRK*..............................................................................................................114

*SƏBƏBLƏRDƏ ŞİRK*..............................................................................................115
*ŞİƏ HEÇ BİR ŞƏKİLDƏ MÜŞRİK DEYİLDİR*......................................................................116
*ASİFİN BİLQEYİSİN TAXTINI HƏZRƏT SÜLEYMANIN YANINA GƏTİRMƏSİ*………........117
*ALİ MƏHƏMMƏD (Ə) HAQQIN FEYZ VƏSİLƏLƏRİDİR*....................................................118
*«SƏQƏLEYN» HƏDİSİ*.........................................................................................................119
*TƏƏSSÜBDƏN UZAQ OLMAQ SƏADƏTƏ SƏBƏB OLUR*...................................................120
*BUXARİ VƏ MÜSLİM UYDURMAÇI VƏ YALANÇILARDAN HƏDİS NƏQL ETMİŞLƏR*.....122
*«SƏHİHİ-MÜSLİM» VƏ «SƏHİHİ-BUXARİ»DƏKİ RƏSULALLAHA (S) XƏYANƏT SAYILAN GÜLÜNC HƏDİSLƏR*..................................................................................................................123
*«SƏQƏLEYN» HƏDİSİNİN SƏNƏDLƏRİ*..............................................................................125
«SƏFİNƏ» *HƏDİSİ*.................................................................................................................126
*«TƏVƏSSÜL» DUASI*.............................................................................................................131
*ŞƏHİDİ-ƏVVƏLİN BÜRHANUDDİN MALİKİ VƏ İBN CAMAATIN FİTVASIYLA ŞƏHİDEDİLMƏSİ*..............................................................................................................133
*ŞƏHİDİ-SANİNİN SAYDA QAZİSİ TƏRƏFİNDƏN ŞƏHADƏTƏ ÇATMASI*...........................135
*İNSAFLI İNSANLAR ÜÇÜN GÖZƏL SÖZ*...............................................................................136
*TÜRKMƏN, XARƏZMİ, ÖZBƏK VƏ ƏFQANLARIN İRANLILARA QARŞI ETDİKLƏRİ ÇİRKİN İŞLƏRƏ BİR BAXIŞ*...........................................................................................................137
*XAN XƏYVƏNİN İRANA HÜCUMLARI VƏ ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ŞİƏLƏRİN QƏTL VƏ MALLARININ TALANMASI ÜÇÜN VERDİKLƏRİ FİTVALAR*.........................................138
*ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN ŞİƏLƏRİN QƏTLİNƏ VƏ TALAN EDİLMƏSİNƏ DAİR FİTVALARI VƏ ƏBDULLAH XAN ÖZBƏYİN XORASANA HÜCUMU*..................................139
*ƏFQANLI PADŞAHLARIN ƏFQANISTAN ŞİƏLƏRİNƏ QARŞI RƏFTARI*............................140
*ƏMİR ƏMƏNULLAH XANA TƏŞƏKKÜR*................................................................................140
*ŞƏHİDİ SALİSİN ŞƏHADƏTİ*..................................................................................................141
*ŞEYXİN HƏMLƏLƏRİNİN DƏF EDİLMƏSİ*...........................................................................142
*ZİYARƏTİN ADABI HAQQINDA*..............................................................................................144
*ZİYARƏT NAMAZI VƏ NAMAZDAN SONRAKI DUA*...........................................................144
*NMAMLARIN (Ə) TÜRBƏLƏRİNİN GİRƏCƏYİNİ ÖPMƏK ŞİRK DEYİLDİR*.......................146
*HƏZRƏT YUSİFİN (Ə) QARDAŞLARININ ONA SƏCDƏ ETMƏLƏRİ VƏ ÖZLƏRİNİ YERƏ ATMALARI*................................................................................................................................148
*CİSİM FANİ OLDUQDAN SONRA RUHUN ƏBƏDİ QALMASI*..............................................149
*RUHUN ƏBƏDİLİYİNƏ DAİR TƏNQİD VƏ ONUN CAVABI* ..................................................150
*MADDƏÇİLƏRİN MEYDANA GƏLMƏSİ VƏ ZİMKRATESİN HƏKİM SOKRATA QARŞI ÇIXMASI*...............................................................................................................................151

*AVROPALI İLAHİYYATÇI ELM ADAMLARININ NƏZƏRLƏRİ*............................................151
*MÜXALİFLƏRİN MÜAVİYƏYLƏ YEZİDİN XİLAFƏTİNİ VƏ KÜFRÜNÜ MÜDAFİƏ ETMƏLƏRİ VƏ ONLARIN CAVABI*..........................................................................................154
*YEZİDİN KÜFR VƏ MÜRTƏDAİYİNƏ DAİR DƏLİLLƏR*.....................................................155
*ƏHLİ-SÜNNƏT ALİMLƏRİNİN MƏLUN YEZİDƏ LƏNƏTİ CAİZ BİLMƏLƏRİ*…………..158
*YEZİDİN BEYƏTİNİ POZDUQLARI ÜÇÜN MƏDİNƏ ƏHALİSİNİN QƏTLƏ YETİRİLMƏSİ*...
...........................................................................................................................................159
*ADSIZ ƏSKƏR MƏZARI*........................................................................................................162
*ALİ-MƏHƏMMƏD (Ə) HAQQ YOLUNUN ŞƏHİDLƏRİ VƏ DİRİLƏRİDİR*...........................164
*DÖRDÜNCÜ GECƏ*...............................................................................................................166
*HƏQİQƏTİ KƏŞF EDƏNLƏRİN MİNNƏTDARLIĞ1*..........................................................166
*İMAMƏT MÖVZUSUNDA BƏHS*..........................................................................................167
*ƏHLİ-SÜNNƏTİN DÖRD MƏZHƏBİ HAQQINDA BƏHS VƏ* HƏQİQƏTİN *BƏYANI*..........167
*DÖRD MƏZHƏBİ TƏQİB ETMƏYİN DƏLİLİ YOXDUR*........................................................169
*BU MARAQLI HADİSƏ İNSAFLI ELM ƏHLİNİN DİQQƏTİN CƏLB EDƏR*..........................170
*ƏHLİ-TƏSƏNNÜN ALİMLƏRİ VƏ İMAMLARININ ƏBU* HƏNİFƏNİ *RƏDD ETMƏSİ*...........................................................................................................................172
*İMAMƏT ŞİƏ ƏQİDƏSİNƏ GÖRƏ ÜLVİ BİR İLAHİ MƏQAMD1R*.......................................174
*İMAMƏT MƏQAMI NÜBUVVƏTİ-AMMƏDƏN DAHA ÜSTÜNDÜR*.....................................176
*PEYYĞƏMBƏRLƏRİN MƏRTƏBƏLƏRİNDƏKİ FƏRQLİLİK*................................................178
*NÜBUVVƏTİ-XASSƏNİN XÜSUSİYYƏTLƏRİ*.......................................................................179
*HƏZRƏT ƏLİNİN NÜBUVVƏT MƏQAMINA «MƏNZİLƏT HƏDİSİ»NİN DƏLİL OLMASI*.......................................................................................................................181
*ƏHLİ-TƏSƏNNÜNÜN YOLU İLƏ MƏNZİLƏT HƏDİSİNİN SƏNƏDLƏRİ*............................182
*AMUDİNİN TƏRCÜMEYİ-HALI*........................................................................................186
*ÖMƏR İBN XƏTTABDAN «MƏNZİLƏT HƏDİSİ»*...............................................................187
*XƏBƏRİ-VALİDİN ƏHLİ-SÜNNƏT MƏZHƏBİNDƏKİ HÖKMÜ*..........................................188
*HƏZRƏT HARUNUN (Ə) MƏNZİLƏTİNİN İMAM ƏLİ (Ə) ÜÇÜN OLDUĞUNUN İSBATI*.......................................................................................................................191
*HƏZRƏT ƏLİNİN (Ə) PEYĞƏMBƏRİN (S) BÜTÜN SİFƏTLƏRİNƏ SAHİB OLMASI*.......................................................................................................................195
*PEYĞƏMBƏRİN (S) ƏMRİYLƏ ƏLİNİN (Ə) QAPISINDAN BAŞQA MƏSCİDƏ AÇILAN DİGƏR QAPILARIN BAĞLADILMASI*.........................................................................198
*PEYĞƏMBƏRİN (S) ALLAH-TƏALADAN HƏZRƏT ƏLİNİ (Ə) ÖZÜ ÜÇÜN VƏZİR İSTƏMƏSİ*.......................................................................................................................*201*

*BEŞİNCİ GECƏ:..............................................................................................................205*
*«MƏNZİLƏT» KƏLMƏSİ UMUMİYYƏTİ İFADƏ EDİR..........................................................205*
*«MƏNZİLƏT» HƏDİSİ TƏBUKDAN ƏLAVƏ DƏFƏLƏRLƏ SÖYLƏNMİŞDİR.......................208*
*MUSANIN (Ə), QARDAŞI HARUNU (Ə) YERİNƏ XƏLİFƏ SEÇMƏSİ VƏ SAMİRİNİN BƏNİ-İSRAİLİ BUĞAJA SİTAYİŞ ETMƏKLƏ ALDATMASI............................................................209*
*ƏMİRƏL-MÖMİNİN(Ə) VƏZİYYƏTİNİN HARUNUN (Ə) VƏZİYYƏTİNƏ BƏNZƏMƏSİ.......210*
*«İNZAR GÜNÜ» PEYĞƏMBƏRİN (Ə) «HƏDİSSÜD-DAR HƏDİSİ» İLƏ HƏZRƏT ƏLİNİ (Ə) XİLAFƏTƏ TƏYİN ETMƏSİ..............................................................................................212*
*İMAM ƏLİNİN (Ə) XƏLİFƏLİYİNİ AÇIQ-AŞKAR ELAN EDƏN HƏDİSLƏR.........................214*
*ŞEYX YENİDƏN SÖZƏ BAŞLADI...........................................................................................219*
*HEÇ KİM SƏHABƏLƏRİN FƏZİLƏTLƏRİNİ İNKAR ETMİR, LAKİN ƏN FƏZİLƏTLİSİ SEÇİLMƏLİDİR.....................................................................................................................220*
*ƏBU BƏKRİN FƏZİLƏTİ HAQQINDA HƏDİSİN NƏQL EDİLMƏSİ VƏ ONUN SAXTA OLDUĞUNA DAİR TUTARLI CAVAB..................................................................................221*
*ƏBU HÜREYRƏNİN KİMLİYİ VƏ PİSLƏNİLMƏSİ...........................................................223*
*HƏZRƏT ƏLİ QURAN VƏ HAQDAN AYRILMAZ.................................................................223*
*ŞİƏLƏRİN MÜXALİFLƏRİN QARŞISINDAKI MƏZLUMİYYƏTİ..........................................225*
*SÜNNİ ALİMLƏRİNİN ŞİƏLƏRƏ ATDIĞI BÖHTANLAR.....................................................226*
*İBN ƏBDURRƏBİHİN ŞİƏLƏRƏ ATDIĞI İFTİRALAR.........................................................226*
*İBNİ HƏZMİN İFTİRALARI.....................................................................................................228*
*İBNİ TEYMİYYƏNİN İFTİRALARI..........................................................................................229*
*ŞƏHRİSTANİNİN XƏTALARI...................................................................................................232*
*ƏBU HÜREYRƏNİN VƏZİYYƏTİ............................................................................................233*
*ƏBU HÜREYRƏNİN BUSR İBN ƏRTATLA MÜSƏLMANLAR HAQQINDAKI ZÜLM VƏ QƏTLİAMLAR...........................................................................................................................235*
*ƏBU HUREYRƏNİN MƏRDUDLUĞU VƏ ÖMƏRİN ONU ŞALLAĞLAMASI......................236*
*UYDURULMUŞ «MƏN ƏBU BƏKRDƏN RAZIYAM, GÖRƏSƏN, O DA MƏNDƏN RAZIDIRMI?» HƏDİSİNİN CAVABI.......................................................................................239*
*ƏBU BƏKR VƏ ÖMƏRİN FƏZİLƏTLƏRİ HAQQINDAKI UYDURULMUŞ HƏDİSLƏR VƏ ONLARIN RƏDD EDİLMƏSİ...............................................................................................240*
*«HƏSƏN VƏ HÜSEYN (Ə) CƏNNƏT CAVANLARININ AĞALARIDIRLAR» HƏDİSİ............244*
*«ƏBU BƏKR VƏ AİŞƏ RƏSULALLAHIN (S) ƏN ÇOX SEVDİYİ İNSANLARDIRLAR» SÖZÜNÜN CAVABI..................................................................................................................246*
*HƏZRƏT FATİMƏ (S) ALƏMDƏKİ QADINLARIN ƏN ÜSTÜNÜDÜR.................................246*
*İMAM ŞAFEİNİN ƏHLİ-BEYT (Ə) SEVGİSİNİN VACİB OLDUĞUNA DAİR ETİRAFI..........248*

*HƏZRƏT ƏLİ (Ə) RƏSULALLAHIN (S) YANINDA ƏN ÇOX SEVİLƏN ŞƏXSDİR.................250*
*«TƏYRİ-MİŞVİY» HƏDİSİ........................................................................................252*
*HƏQİQƏTİN BƏYANI..............................................................................................254*
*ZİKR ƏHLİ ALİ-MƏHƏMMƏDDİR (Ə)....................................................................256*
*DÖRD XƏLİFƏNİN XİLAFƏTİ İLƏ ƏLAQƏLİ AYƏNİN NƏQLİ VƏ ONUN CAVABI...........257*
*«MAĞARA AYƏSİ»NİN DƏLİL GƏTİRİLMƏSİ VƏ ONUN CAVABI.....................................259*
*ŞAHİD VƏ NÜMUNƏLƏR.........................................................................................262*
*HƏQİQƏTİN GÖZLƏR ÖNÜNDƏ AÇILMASI..................................................................264*
*BƏLƏM İBN BAURA.................................................................................................265*
*ABİD BƏRSİSA.......................................................................................................265*
*SÜKUNƏTİN ENMƏSİ RƏSULALLAH ÜÇÜNDÜR...........................................................266*